ISSN 2079-3898

United Nations Educational, Scientific and Cultural Organization

National Commission of the Republic of Azerbaijan for UNESCO

UNESCO üzrə AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ KOMİSSİYASI
NATIONAL COMMISSION of the REPUBLIC of AZERBAIJAN for UNESCO
НАЦИОНАЛЬНАЯ КОМИССИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ по делам ЮНЕСКО

"İNSAN və BİOSFER" (MaB, UNESCO) AZƏRBAYCAN MİLLİ KOMİTƏSİ
"MAN and BIOSPHERE" (MaB, UNESCO) AZERBAIJAN NATIONAL COMMITTEE
АЗЕРБАЙДЖАНСКИЙ НАЦИОНАЛЬНЫЙ КОМИТЕТ «ЧЕЛОВЕК и БИОСФЕРА» (МаВ, ЮНЕСКО)

# "İNSAN və BİOSFER" (MaB, UNESCO) AZƏRBAYCAN MİLLİ KOMİTƏSİNİN ƏSƏRLƏRİ

## EKOLOJİ SİVİLİZASİYA, DAVAMLI İNKİŞAF, ƏTRAF MÜHİT

İLLİK NƏŞR

# PROCEEDINGS of the "MAN and BIOSPHERE" (MaB, UNESCO) AZERBAIJAN NATIONAL COMMITTEE

## ECOLOGICAL CIVILIZATION, SUSTAINABLE DEVELOPMENT, ENVIRONMENT

ANNUAL EDITION

# ТРУДЫ АЗЕРБАЙДЖАНСКОГО НАЦИОНАЛЬНОГО КОМИТЕТА "ЧЕЛОВЕК и БИОСФЕРА" (МаВ, ЮНЕСКО)

## ЭКОЛОГИЧЕСКАЯ ЦИВИЛИЗАЦИЯ, УСТОЙЧИВОЕ РАЗВИТИЕ, ОКРУЖАЮЩАЯ СРЕДА

ЕЖЕГОДНОЕ ИЗДАНИЕ

BURAXILIŞ
VOLUME
ТОМ
17 2022

**Baş redaktor:**

**Urxan Ələkbərov** *(Azərbaycan)*

**Redaksiya heyəti:**

*Muxtar Babayev (Azərbaycan); Firudin Qurbanov (Azərbaycan);*
*Sevda Məmmədəliyeva (Azərbaycan); Seymur Fətəliyev (Azərbaycan);*
*Qoşqar Təhməzli (Azərbaycan); Günay Əfəndiyeva (Azərbaycan); Con Lourens (ABŞ);*
*Qərib Məmmədov (Azərbaycan); Nizami Məmmədov (Rusiya);*
*Onur Ender Aslan (Türkiyə); Rəna Ağabəyli (Azərbaycan); Henrik Kalivoda (Slovakiya);*
*Ziyafət Həbibova (Azərbaycan); Rəcəb Rəhimli (Azərbaycan);*
*Şaiq İbrahimov (Azərbaycan); Tenqiz Urushadze (Gürcüstan);*
*Valeri Neronov (Rusiya); Yulius Ozlaniy (Slovakiya)*

**Editor-in-Chief:**

**Urkhan Alakbarov** *(Azerbaijan)*

**Editorial Board:**

*Muxtar Babayev (Azerbaijan); Firudin Gurbanov (Azerbaijan);*
*Sevda Mammadaliyeva (Azerbaijan); Seymur Fataliyev (Azerbaijan);*
*Qoshqar Tahmazli (Azerbaijan); Gunay Efendiyeva (Azerbaijan); John Lawrence (USA);*
*Qarib Mammadov (Azerbaijan); Nizami Mammadov (Russia);*
*Onur Ender Aslan (Turkey); Rena Agabeyli (Azerbaijan); Henrik Kalivoda (Slovakia);*
*Ziyafet Habibova (Azerbaijan); Rajab Rahimli (Azerbaijan);*
*Shaiq Ibrahimov (Azerbaijan); Tengiz Urushadze (Georgia);*
*Valery Neronov (Russia); Julius Ozslaniy (Slovakia)*

**Главный редактор:**

**Урхан Алакбаров** *(Азербайджан)*

**Редакционная коллегия:**

*Мухтар Бабаев (Азербайджан); Фирудин Курбанов (Азербайджан);*
*Севда Мамедалиева (Азербайджан); Сеймур Фаталиев (Азербайджан);*
*Гошгар Техмезли (Азербайджан); Гюнай Эфендиева (Азербайджан);*
*Джон Лоуренс (США); Гариб Мамедов (Азербайджан);*
*Низами Мамедов (Россия); Онур Эндер Аслан (Турция);*
*Рена Агабейли (Азербайджан); Хенрик Каливода (Словакия);*
*Зияфет Габибова (Азербайджан); Раджаб Рагимли (Азербайджан);*
*Тенгиз Урушадзе (Грузия); Шаиг Ибрагимов (Азербайджан);*
*Валерий Неронов (Россия); Юлиас Озсланий (Словакия)*

**İnsan və biosfer (MaB, UNESCO). Azərbaycan milli komitəsinin əsərləri.**
Bakı, «Təhsil», 2022, 256 s.

**© «Təhsil», 2022**

## MÜNDƏRİCAT – CONTENTS – СОДЕРЖАНИЕ

**Ələkbərov U.K.**

*Elmə əsaslanan inkişaf strategiyası və yeni dövlət idarəçiliyi texnologiyaları.....5*

DOI: 10.30546/mab.17.2022.5

**Aslanbayli B.A.**

*Different aspects of interstate cooperation in the elimination of double taxation.......................................................................................17*

DOI: 10.30546/mab.17.2022.17

**Ələkbərova N.İ.**

*ESG və dövlət siyasətinin ekspert müşahidəsi...................................................35*

DOI: 10.30546/mab.17.2022.35

**Məmmədova S.İ.**

*Qlobal ekoloji böhran və onun Azərbaycanda təzahürü: problemin sosial-siyasi aspektləri.......................................................................57*

DOI: 10.30546/mab.17.2022.57

**Həsənov M.İ., Mahmudova S.M.**

*Azərbaycan Respublikasında rəqəmsallaşmanın dövlət idarəçiliyində rolu........81*

DOI: 10.30546/mab.17.2022.81

**Əliyev E.S.**

*Davamlı inkişaf və postmodern dövlət idarəçiliyi: bürokratik siyasət və şəbəkə nəzəriyyəsi...........................................................101*

DOI: 10.30546/mab.17.2022.101

**Mehdiyev U.R.**

*The Mechanisms of Public Administration to Increase the Role of Human Capital in Ensuring the Sustainable Development in Azerbaijan Republic...........................................................................109*

DOI: 10.30546/mab.17.2022.109

**Humbatov F.D.**

*Beynəlxalq münasibətlər kontekstində ekoloji təhlükəsizlik məsələləri və müasir çağırışlar......................................................................................123*

DOI: 10.30546/mab.17.2022.123

**Asadov A.A., Asadova I.F.**

*Innovatıve Approaches for Effectıve Management of Sustaınable Green Development* ....................................................................139

DOI: 10.30546/mab.17.2022.139

**Mehdiəliyev A.İ.**

*Gəlirlərdə bərabərsizlik: Lorents əyrisi, Gini əmsalı, inklüziv inkişaf*...............149

DOI: 10.30546/mab.17.2022.149

**Əhmədov E.N.**

*Su resurslarının iqtisadi dəyərinin qiymətləndirilməsi*......................................163

DOI: 10.30546/mab.17.2022.163

**Farmanova A.R.**

*Establishment and Development of International Cultural Relations of Azerbaijan*.......................................................................................173

DOI: 10.30546/mab.17.2022.173

**Məmmədov Z.V.**

*İşğaldan azad olunmuş bölgələrdə erməni vandalizminin ifşası və quruculuq siyasəti* ...........................................................................187

DOI: 10.30546/mab.17.2022.187

**Qubadov M.N.**

*Qorunan ərazilərin təbii ehtiyatların optimal idarəedilməsi və davamlı inkişafda rolu*..........................................................................195

DOI: 10.30546/mab.17.2022.195

**Şərifova V.A.**

*Maddi mədəni irs önəmli turizm resursu kimi*...................................................209

DOI: 10.30546/mab.17.2022.209

**Гулиев Ф.А., Гусейнова Л.А.**

*Склеротиниоз или белая гниль земляничных кустов в условиях Гянджа-Казахской географической зоны Азербайджана*.............................223

DOI: 10.30546/mab.17.2022.223

**Qafarova O.O., İsgəndərov A.T.**

*İntroduksiya olunmuş və seleksiya üsulu ilə alınmış bəzi perspektivli qızılgül sortları*........................................................................................235

DOI: 10.30546/mab.17.2022.235

DOI: 10.30546/mab.17.2022.5

UOT 328; 342.5; 351/354;351

# ELMƏ ƏSASLANAN İNKİŞAF STRATEGİYASI VƏ YENİ DÖVLƏT İDARƏÇİLİYİ TEXNOLOGİYALARI

**Ələkbərov U.K.**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik*

*e-mail: alakbarovuk@gmail.com*

*Azərbaycan Respublikası müstəqilliyinin bərpasından sonra ölkənin inkişafında yüksək nəticələr əldə etmişdir. Bu proses son 20 ildə çox yüksək surətlə gedir və innovativ xarakter daşıyır. Beynəlxalq təşkilatların hesabatlarına əsasən, ölkə təbii, maliyyə və insan resurslarını davamlı inkişafın təmin edilməsi və inklüziv cəmiyyətin formalaşması üçün ən səmərəli idarə edən edən ölkələr sırasındadır. İqtisadi, sosial, humanitar sahələrin inkişafı, ölkənin ərazi bütövlüyünün bərpası və suverenliyinin təmin edilməsinin əsasında sinergetik, komplementar, kompensasion və komplimentar prinsipləri nəzərə alan yeni dövlət idarəçilik texnologiyaları durur. Bu sahədə kadr potensialının formalaşması məqalədə müzakirə edilir.*

***Açar sözlər:*** *dövlət idarəçiliyi, davamlı inkişaf, inklüziv inkişaf, inkişafın indikatorları, insan potensialının inkişafı*

Azərbaycan Respublikasının son illərdə davamlı inkişafı və inklüziv cəmiyyətin formalaşması, ölkənin ərazi bütövlüyünün bərpası, tam suveren olmasının təmin edilməsində elmə əsaslanan inkişaf strategiyası və innovativ dövlət idarəçilik texnologiyaları durur [1]. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi hakimiyyətə gəlişinin 20 illiyi qeyd edilib. 14 oktyabr 2023-cü ildə Baş Nazir Əli Əsədov və Prezident Administrasiyanın rəhbəri Samir Nuriyevin həmsədrliyi ilə bu tarixə həsr olunmuş "Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili" adlı konfrans keçirilib. Konfransda çıxış edən Prezident Administrasiyanın rəhbəri Samir Nuriyev qeyd edib ki, "Prezident İlham Əliyevin dövlət başçısı postunda 20 illik fəaliyyətinin təhlili onu göstərir ki, o, həmişə cəmiyyətin, dövlətin maraqlarını əsas tutaraq, siyasi məharəti, yüksək mənəvi keyfiyyətləri, kommunikasiya bacarığı sayəsində sadə insanlardan tutmuş dünyanın nüfuzlu şəxsiyyətlərinə kimi hər kəsin rəğbətini və hörmətini əldə edib, həm ölkə daxilində, həm də beynəlxalq aləmdə böyük nüfuz qazanıb" [2].

Baş Nazir Əli Əsədov öz çıxışında bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin ən mühüm istiqamətinin işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin aparılması, müasir sosial-mədəni infrastrukturun qurulması, kommunikasiya və nəqliyyat xətlərinin bərpası olduğunu vurğulayıb: "Möhtəşəm prezidentlik dövrünün zirvəsində, təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Bu gün Azərbaycan xalqı öz tarixinin ən şərəfli və qürurverici dövrünü yaşayır" [3].

Konfransda çıxış edən nazirlər, dövlət və siyasi xadimlər Azərbaycan Respublikasının son 20 ildə iqtisadi, sosial, humanitar, siyasi, təhlükəsizlik, diplomatiya sahələrində qazandığı tarixi nailiyyətləri konkret rəqəm və faktlarla diqqətə çatdırıblar. Xüsusi vurğulanıb ki, bütün bu uğurların qazanılmasında Ümummilli Lider Heydər Əliyevin formalaşdırdığı dövlət idarəçilik sistemi və Prezident İlham Əliyevin bu sahədə həyata keçirdiyi islahatlar və uğurlu kadr siyasəti durur [4].

Qeyd etmək lazımdır ki, dövlətin iqtisadi, sosial inkişafı, ölkənin ərazi bütövlüyünün bərpası və suverenliyinin təmin edilməsi sahəsində qazanılan nailiyyətlər ilk növbədə əsası Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyası və Prezident İlham Əliyevinin unikal qabaqlayıcı proqnozlaşdırma qabiliyyəti, dövlət idarəçiliyinə gətirdiyi yeni elmi yanaşmalar durur. Prezident İlham Əliyevin dövlət idarəçiliyinə gətirdiyi yeni elmi nəzəriyyə və texnologiyalar dünyada ilk dəfə Azərbaycan Respublikasında tətbiq edilmişdir. Dövlət idarəçiliyində bu yeni nəzəriyyə və innovativ texnologiyaların yüksək səmərəliliyi BMT, Dünya Bankı, Davos Dünya İqtisadi Forumu, digər beynəlxalq inkişaf təşkilatlarının hesabatlarında öz əksini tapıb. Dövlət idarəçiliyində istifadə edilən texnologiyaların dünyada və Azərbaycan Respublikasında müqayisəli təhlili bunun bariz nümayişidir [5].

Şəkil 1-də dünyada və Azərbaycan Respublikasında mövcud olan dövlət idarəçiliyində tətbiq edilən texnologiyaların tarixi təkamülü əksini tapıb. Tarixən ölkələrin iqtisadi, sosial inkişafı, hərbi və ekoloji təhlükəsizliyi, bu sahələrin müasirləşdirilməsi proseslərinin planlaşdırılması və idarəedilməsi dövlət qurumları tərəfindən həyata keçirilir. Bazar iqtisadiyyatının inkişafı prosesində cəmiyyətdə özəl sektorun artan rolu iqtisadiyyat və sosial sahələrdə yeni bir vəziyyət yaradıb. Bunun nəticəsi kimi 20-ci əsrin son onilliklərində dünya ölkələrinin sosial-iqtisadi proseslərinin idarə edilməsi prosesində dövlət-özəl tərəfdaşlığı üstünlük qazanmağa başladı. Azərbaycan Respublikasında bununla bağlı qanunvericilik bazası formalaşdırılmış və müvafiq qanun qəbul olunmuş, 2022-ci ildə qanuna dəyişiklər edilmişdir [6].




**Şəkil 1.** Dövlət idarəçilik texnologiyalarının təkamülü: dünya və Azərbaycan Respublikası

Ekoloji, sosial və xüsusilə iqlim dəyişiklikləri problemlərinin 21-ci əsrdə daha da aktuallaşması dövlət idarəçiliyində təkmilləşdirməni zəruri edib. Bu proses BMT tərəfindən 2015-ci ildə keçirilən 70-ci Yubiley Sessiyasında inkişafın davamlılığı dünya prioriteti kimi təsdiqləndikdən sonra xüsusilə aktuallaşıb. Bu səbəbdən hazırda dünyada dövlət idarəçiliyində dövlət-özəl əməkdaşlığı və korporativ idarəetmə prinsiplərini özündə birləşdirən "ESG transformasiya" ən müasir istiqamət hesab edilir və iqtisadi imkanları, intellektual potensialı olan ölkələr bu mərhələyə qədəm qoyublar. Azərbaycan Respublikası bu istiqamətdə də bir addım irəlidədir və ölkədə dövlət idarəçiliyində hazırda "Sinergetik transformasiya" mərhələsi həyata keçirilir. Nəticə etibarilə ölkədə dövlət-özəl və korporativ tərəfdaşlıqla yanaşı dövlət idarəçiliyinə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlbinin də müsbət örnəkləri müşahidə edilməkdədir. Qeyd edilən prosesə erkən başlanılsa da, hüquqi baxımdan 2017-ci ildə qüvvəyə minmişdir. Həmin ilin 21 fevralında Mehriban xanım Əliyeva ölkənin Birinci Vitse-prezidenti kimi fəaliyyətə başlayıb. Mehriban xanım Əliyeva eyni zamanda Heydər Əliyev Fondunun Prezidenti olmaqla yanaşı dövlət idarəçiliyində vətəndaş cəmiyyətinin yeni səviyyədə iştirakını təmin etmişdir. Ölkənin Birinci Vitse-Prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti dövlət idarəçiliyi səmərəliliyinin artırılmasının vacib amilinə çevrilmişdir. Bu xüsusilə mədəniyyət, təhsil, sağlamlıq sahəsində uğurlu beynəlxalq və milli layihələrin, sosial proqramların həyata keçirilməsində öz əksini tapıb. Prezident İlham Əliyevin 2

fevral 2021-ci ildə imzaladığı sərəncamla ölkənin 2030-cu ilə qədər müəyyənləşdirilmiş prioritetlərinin həyata keçirilməsində də sinergetik texnologiyaların və Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi rolu var.

Lakin, Prezident İlham Əliyevin dünya üçün təklif etdiyi innovativ inkişaf yolu cəmiyyətdə geniş tərəfdaşlığı nəzərdə tutan sinergetik texnologiyalar ilə məhdudlaşmır. Ölkə başçısı tərəfindən dünyada ilk dəfə təklif edilmiş bu sinergetik texnologiyalar eyni zamanda iqtisadi, sosial, ekoloji, diplomatik, informasiya, humanitar və s. tədbirlərin vahid siyasət çərçivəsində həyata keçirilməsini də nəzərdə tutur. Uğurlu diplomatiya və bilgiləndirmə sahəsində yorulmaz fəaliyyət Prezident İlham Əliyevin dövlət idarəçiliyində ilk dəfə tətbiq etdiyi sinergetik texnologiyaların vacib istiqamətləridir.

Prezident İlham Əliyevin inkişaf strategiyasının son 20 ildə qazanılmış nəticələri sadə tənliklər vasitəsi ilə nümayiş etdirilə bilər. Bu tənliklərin tərtibi ideyası ilk dəfə Ağalı məktəbinin şagirdlər ilə keçdiyim dərs vaxtı yaranıb. O zaman tənliklər aşağıdakı kimi təqdim olunmuşdu:

44 gün + x = Qarabağ Azərbaycandır
212 gün + x = Füzuli aeroportu istismara verildi
424 gün + x = Ağalı "ağıllı" kəndində yaşayış var
515 gün + x = Zəngilan aeroportu istismara verildi
83-cü iqtisadi imkan (dünyada) + x = İnklüziv inkişafda 25-ci yer (dünyada)
23 saat 51 dəqiqə + x = Azərbaycanın tam suverenliyi bərpa edildi

İyirmi illik fəaliyyətin nəticələri olan bu fantastik tənlikləri sonsuzluğa kimi uzatmaq mümkündür. Ağalı məktəbinin şagirdləri bu tənlikləri çox tez həll etdilər və "x" nə olduğunu dərhal müəyyənləşdirdilər. Onlar dedilər ki, "x" Prezident İlham Əliyevin uğurlu fəaliyyətidir. Tənliklərdə göstərilən hadisələr son dönəmdə baş versə də, onlara hazırlıq 20 il davam edib və dərin düşünülmüş ardıcıl fəaliyyətin nəticəsidir. Bu uğurun əsasında dəqiq proqnozların verilməsi, məqsədlərin dəqiq hədəflənməsi və icranın optimal idarə edilməsi durur.

Prezident İlham Əliyevin uzaqgörənliyinin daha bir misalı. Məlumdur ki, yaşıl energetika yaxın illərin milli və qlobal prioritetidir və bu sahədə böyük layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Elə bir təsəvvür yarana bilər ki, Azərbaycanda bu fikir hazırda və ya son illərdə formalaşmışdır. Lakin, təhlillər göstərir ki, ölkə Prezidenti İlham Əliyev bu istiqamətin inkişafını daha öncə planlaşdırıb. Nazirlər Kabinetinin 9 yanvar 2014-cü ildə keçirilən hesabat iclasında o demişdi: "Günəş, külək enerji növlərinin inkişafı ilə bağlı işlər daha da sürətlə getməlidir. Bu imkanlardan istifadə etməmək, əlbəttə ki, böyük səhv olardı". Bu misal bir daha göstərir ki, Prezident İlham Əliyevin gələcəyi

görmək və inkişafın perspektivlərini düzgün müəyyənləşdirmək qabiliyyəti ölkənin son 20 ildə qazandığı parlaq uğurların vacib şərtidir.

Hədəfləri düzgün müəyyənləşdirmək uğurlu inkişafın vacib şərtidir. Prezident İlham Əliyevin 2021-ci ildə imzaladığı sərəncama görə, 2030-cu il üçün hədəflənmiş prioritetlər inkişafın davamlılığına və inklüziv cəmiyyətin formalaşmasına, eyni zamanda bu prosesləri işğaldan azad olunmuş ərazilərə "böyük qayıdış" çərçivəsində reallaşdırılmasına hesablanıb. Davamlı inkişaf edən inklüziv cəmiyyətin formalaşması dünyanın ən müasir prioritetidir. Bunu dünyada ölkələrin inkişaf səviyyəsinin tarixən hansı meyarlar əsasında müəyyənləşdirilməsi də sübut edir.

Şəkil 2-dən göründüyü kimi, insan cəmiyyətinin formalaşmasının ilk mərhələlərindən başlayaraq, 20-ci əsrin son onilliyinə ölkələrin inkişaf səviyyəsi iqtisadi meyarlar əsasında müəyyən edilirdi. Son zamanlara qədər bu göstərici hər nəfərə düşən orta gəlirlə əvəzlənib. 1990-ci ildə ölkələrin inkişafını dəyərləndirən yeni bir göstərici beynəlxalq statistikaya daxil edildi. Bu insan inkişafı indeksi idi və dövlətlərin inkişaf səviyyəsini bu üsul ilə müəyyənləşdirərkən ölkənin iqtisadi imkanı ilə yanaşı əhalinin sağlamlığı, təhsil və bilikləri nəzərə alınırdı. 2015-ci ildə ölkələrin inkişafı artıq 6 göstərici əsasında müəyyən edilməyə başladı və dünya statistikasına dayanaqlı (davamlı) inkişaf indeksi kimi daxil edildi.




**Şəkil 2.** Azərbaycan Respublikasında inkişaf səviyyəsinin qiymətləndirilməsində tətbiq edilən göstəricilərin təkamülü

2018-ci ildə isə ölkələrin inkişafını dəyərləndirmək üçün inklüziv inkişaf indeksi təklif edildi. Bu göstərici ölkənin hazırki və gələcək nəsillərin hərtərəfli və əhatəli inkişafına nə dərəcədə hazır olduğunu nümayiş etdirir. Prezident İlham Əliyevin ölkədə, ilk növbədə işğaldan azad edilmiş ərazilərdə davamlı inkişaf edən inklüziv cəmiyyətin formalaşmasını milli prioritet kimi müəyyənləşdirməsi uzaqgörənliyin və perspektivlərin düzgün hədəflənməsinin bariz təzahüridir. Son 20 ildə Azərbaycan Respublikası inklüziv inkişafın səmərəli idarəedilməsi sahəsində dünya liderinə çevrilmişdir. Dünya Bankı və Davos Dünya İqtisadi Forumunun dərc etdiyi rəsmi hesabatlara əsasən Azərbaycan Respublikasının İnklüziv İnkişaf İndeksi 4,69 bərabərdir və bu göstərici ilə ölkəmiz dünyada 25-ci yerdədir.

| | |
|---|---|
| **Dünyada 1–24-cü yerlər** | •Norveç (6.08); İslandiya (6.07); Lüksemburq (6.07); İsveçrə (6.05); Danirmarka (5.81); İsveç (5.76); Hollandiya (5.76); İrlandiya (5.44); Avstraliya (5.36); Avstriya (5.35); Finlandiya(5.33); Almaniya (5.27); Yeni Zelandiya (5.25); Belçika (5.14); Çexiya (5.09); Koreya Respublikası (5.09); Kanada (5.06); Fransa (5.05); Sloveniya (4.93); Slovakiya (4.90); Böyük Britaniya (4.89); Estoniya (4.74), Litva (4.86); Macarıstan (4.74) |
| **Dünyada 25-ci yer** | • Azərbaycan Respublikası (4,69) |
| **Dünyada 26–100-cü yerlər** | •ABŞ (4.60); Yaponiya (4.53); İsrail (4.51); Uruqvay (4.46); İspaniya (4.40); italiya (4.31); Latviya (4.67); Polşa (4.61); Türkiyə (4.26); Yunanıstan (3.70); Rumuniya (4.43); Çili (4.44); Portuqaliya (4.19); Malaziya (4.30); Qazaxıstan (4.26); Braziliya (3.93); Rusiya Fed. (4.20); Gürcüstan (3.99); İndoneziya (3.95); Misir (2.84); Hindistan (3.09); Albaniya (4.09); Ukrayna (3.42); İran (4.08); Çin (4.09); Vyetnam (3.98); Kolumbiya (4.01); Argentina (4.13); Meksika (4.12); Tunis (3.82); Pakistan (3.55); Nikaraqua (4.05); El Salvador (3.96); Serbiya (3.70) və digərləri. |

**Şəkil 3.** Dünya ölkələrinin inklüziv inkişaf indeksi və dünyada tutduğu yer

Nəzərə alınmalıdır ki, iqtisadi imkanlarına görə ölkəmiz dünyada 83-cü yerdədir. Bu o deməkdir ki, ölkəmizdə unikal dövlət idarəçilik texnologiyaları tətbiq edilir. Qeyd edilməlidir ki, adətən iqtisadi imkanlarla inklüziv inkişaf sahəsində dünya ölkələrinin reytinqi ya üst-üstə düşür və ya çox yaxın olur. Məsələn, Fransa iqtisadi imkanlarına görə (hər nəfərə düşən ÜDM-nin dəyəri) dünyada 19-cu, inklüziv inkişaf göstəricisinə görə 18-ci yerdədir, yəni öz iqtisadi imkanlarından bir pillə irəlidədir. Azərbaycan isə bu göstəriciyə görə öz imkanından 53 pillə irəlidədir və bu dünyada ən yüksək nəticədir. Dünyada bu sahədə ikinci nəticə Çex Respublikasına məxsusdur ki, bu ölkənin inklüziv

inkişaf sahəsində qazandığı nəticə imkanından 13 pillə yüksəkdir.

Nisbətən məhdud imkanlarla yüksək nəticənin qazanılması yalnız uğurlu idarəetmənin nəticəsi ola bilər. Azərbaycan Respublikasında Prezident İlham Əliyevin son iyirmi ildə reallaşdırdığı uğurlu siyasət bu nailiyyətlərin qazanılmasını təmin etmişdir. Bu siyasətin vacib hissəsi dünyada ilk dəfə dövlət idarəçiliyinə 4: sinergetik, komplementar (uyğunlaşdırma), kompensasion, komplimentar (imtiyazların nəzərdə tutulması) prinsiplərinə əsaslanan yeni texnologiyaların gətirilməsidir. Bu səbəbdən 20 illik fəaliyyəti dövründə Prezident İlham Əliyev həm dövlət idarəçiliyi nəzəriyyəsini, həm də praktikasını əhəmiyyətli dərəcədə zənginləşdirmişdir.




**Şəkil 4.** Azərbaycan Respublikasının uğurlu sosial siyasətinin beynəlxalq təsdiqi

İnklüziv inkişaf üçün xüsusi əhəmiyyət daşıyan sosial siyasət Prezident İlham Əliyev tərəfindən həyata keçirilən inkişaf strategiyasının vacib komponentidir. Bu sahədə ölkə çox yüksək nəticələr əldə edib və bu nailiyyətlər öz əksini beynəlxalq təşkilatların sənədlərində tapıb. Bu sənədlər arasında Davos Dünya İqtisadi Forumunun təsisçisi və əvəzsiz prezidenti professor Klaus Şvabın hesabatı xüsusi yer tutur. Professor K. Şvab dünya ölkələrinin iqtisadi imkanları və bu imkanların hansı dərəcədə ədalətli bölünməsinə dair xüsusi tədqiqatlar aparmışdır. Tədqiqat nəticəsində həcmi 600 səhifədən çox olan




**Şəkil 5.** Davamlı inkişaf və inklüziv cəmiyyətin formalaşması sahəsində məlumatlandırma, təhsil və araşdırma

hesabat dərc edilib. Təhlil olunan 146 ölkə arasında hesabatda 7 ölkəyə xüsusi yer ayrılıb (Şəkil 4). Onların arasında iqtisadi baxımdan yüksək inkişaf etmiş ABŞ, Almaniya və Danimarka yer alıb ki, həmin ölkələrin gəlirləri yüksək, sosial siyasəti isə bu imkanlara cavab vermir. Göstərilən tendensiyalar eyni dərəcədə G 20 qrupuna daxil olan Braziliya və Cənubi Afrikaya aiddir. Professor Şvabın gəldiyi qənaət birmənalıdır: iqtisadi şərait, o cümlədən yüksək rəqabət qabiliyyəti inklüziv inkişaf baxımından zəruri olsa da, yetərli şərt hesab edilə bilməz. Alimin araşdırmasının nəticələri, o cümlədən Azərbaycanda durumun təhlili deməyə əsas verir ki, inklüziv inkişafın yüksək səviyyəsinin təmin edilməsi üçün əhalinin rifah halının yüksəldilməsinə yönəlik daim və müntəzəm reallaşdırılan sosial siyasət zəruri şərtdir. Professor Klaus Şvabın təhlilləri Azərbaycanın adları çəkilən ölkələrlə müqayisədə sosial sahənin planlaşdırılması və idarə edilməsinə yönəlik daha səmərəli siyasət gerçəkləşdirməsindən də xəbər verir. Azərbaycanın rəqabət qabiliyyəti indeksi "Böyük iyirmilik” (G 20) üzvü olan Braziliya və Cənubi Afrika Respublikası kimi ölkələrin göstəricilərilə eyni olsa da, sosial göstəriciləri beynəlxalq qurumların rəsmi hesabatlarına görə, göstərilən ölkələrinkindən əhəmiyyətli dərəcədə yüksəkdir. Cini indekslərinin təhlili deməyə əsas verir ki, Azərbaycanda sosial siyasət və əhali arasında gəlirlərin bölgüsü xarakteri ABŞ, Yaponiya, Fransa,

İtaliya, Kanada və dünyanın digər lider dövlətləri və "böyük yeddilik" (G 7) ölkələrindəkindən daha səmərəlidir. Azərbaycanın innovativ təcrübəsinin Dünya İqtisadi Forumunun hesabatında xüsusi təhlil predmetinə çevrilməsi onun qlobal əhəmiyyətindən xəbər verir.

Ölkənin inkişaf prioritetlərini təmin etmək ilk növbədə insan potensialının inkişafından keçir. Hər bir innovativ təşəbbüsün həyata keçirməsi yalnız peşəkarların bilik səviyyəsindən asılı deyil. Davalı inkişaf edən inklüziv cəmiyyətin formalaşması üçün müvafiq mühitin yaradılması da vacib şərtdir. Bu səbəbdən insan potensialının inkişafı prosesi bu sahədə həm təhsil, həm də məlumatlandırma işlərinin aparılmasını nəzərdə tutur (Şəkil 5).

İnklüziv cəmiyyətin əsasını təşkil edən davamlı inkişafın planlaşdırılması və idarəedilməsi sahəsində bilik və bacarığın formalaşması üçün hazırda müxtəlif imkanlar mövcuddur. Ömrüboyu təhsilə əsaslanan bu proses müxtəlif yollarla həyata keçirilə bilər (Şəkil 6). Bunların arasında son ildə istifadəyə verilmiş distant təhsil qapısı platformasıdır. Hazırda bu platformada 35 mindən çox müxtəlif təlimlər mövcuddur. Onlar davalı inkişaf və inklüziv cəmiyyətin formalaşması sahəsində biliklərin formalaşması üçün çox əhəmiyyətlidir (Şəkil 6).




**Şəkil 6.** Davamlı inkişaf və inklüziv cəmiyyətin formalaşmasında insan inkişafının əsas istiqamətləri.

Beləliklə, təhlillər göstərir ki, dövlətin inkişafı və dövlət idarəçiliyinin təkmilləşdirilməsi baxımından Prezident İlham Əliyev tərəfindən hazırlanmış və tətbiq olunan yeni texnologiyalar, Birinci vitse-prezident institutunun formalaşdırılması və səmərəli fəaliyyəti də daxil olmaqla reallaşdırılan struktur dəyişiklikləri, dövlət idarəçiliyinə elmi və innovativ yanaşma Azərbaycan Respublikasının iqtisadi, sosial və humanitar inkişafın müasir və prioritet sahələrində dünya liderləri sırasında yer almasına şərait yaradıb. Bu isə öz növbəsində əminliklə deməyə əsas verir ki, biz gələcək nəsillərə güclü və daim inkişafda olan, öz oyun qaydalarını diqtə edən Qüdrətli bir Azərbaycan dövləti təhvil verəcəyik.

**Ədəbiyyat:**


1. Əliyev İ.H. Prezident İlham Əliyevin Xankəndidəki çıxışı. https://medianews.az/2023/10/15/prezident-xank%C9%99ndid%C9%99n-xalqa-muraci%C9%99t-ed%C9%99c%C9%99k, 15.10.2023.
2. Nuriyev S.R. İlham Əliyev həm ölkə daxilində, həm də beynəlxalq aləmdə böyük nüfuz qazanıb. https://oxu.az/politics/790123, 14.10.2023.
3. Əsədov Ə.İ. Prezident İlham Əliyev dövlət başçısı kimi 20 illik fəaliyyəti dövründə xalqa verdiyi bütün vədləri yerinə yetirib. https://apa.az/domestic-policy/eli-esedov-prezident-ilham-eliyev-dovlet-bascisi-kimi-20-illik-fealiyyeti-dovrunde-xalqa-verdiyi-butun-vedleri-yerine-yetirib-790371, 14.10.2023.
4. https://report.az/daxili-siyaset/bakida-vetene-xalqa-ve-dovletciliye-misilsiz-xidmetin-20-ili-movzusunda-konfrans-kecirilir/, 14.10.2023.
5. Ələkbərov U.K. Azərbaycan Respublikasını dünya liderliyinə aparan innovativ dövlət idarəçilik texnologiyaları. “Azərbaycan” (qazet), № 131 (9010), 23 iyun 2022.
6. https://president.az/az/articles/view/58405, 27.12.2022.
7. The Global Competitiveness Report 2020 https://www.weforum.org/reports/the-global-competitiveness-report-2020/, 15.10.2023.

## ABSTRACT

## SCIENCE-BASED DEVELOPMENT STRATEGY AND NEW TECHNOLOGIES OF PUBLIC ADMINISTRATION

**Alakbarov U.K.**

*Rector of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, academician*

The Republic of Azerbaijan has achieved significant progress since the restoration of its independence. The pace and innovation of this process have increased significantly over the past 20 years. The author states that according to international organizations, the Republic of Azerbaijan is among the countries that most effectively use natural, financial and human resources to ensure the sustainability of the development process and the formation of an inclusive society. The basis for successful economic, social and humanitarian development, restoration of territorial integrity and full sovereignty are new technologies of public administration based on synergetic, complementary, compensatory and complimentary principles. The article discusses the issues of human capacity building in these industries.

**Keywords:** *public administration, sustainable development, inclusive development, development indicators, human development*

## РЕЗЮМЕ

## ОСНОВАННАЯ НА НАУКЕ СТРАТЕГИЯ РАЗВИТИЯ И НОВЫЕ ТЕХНОЛОГИИ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ

**Алакбаров У.К.**

*Ректор Академии Государственного Управления при Президенте Азербайджанской Республики, академик*

Азербайджанская Республика после восстановления своей независимости достигла значительных успехов. Темпы и инновационность этого процесса значительно возросли за последние 20 лет. По данным международных организаций, Азербайджанская Республика входит в число стран, наиболее эффективно использующих природные, финансовые и человеческие ресурсы для обеспечения устойчивости процесса развития и формирования инклюзивного общества. Основой успешного экономического, социального и гуманитарного развития, восстановления территориальной целостности и полного суверенитета являются новые технологии государственного управления, основанные на синергетических, комплементарных, компенсационных и комплиментарных принципах. В статье рассматриваются вопросы развития человеческого потенциала в этих отраслях

***Ключевые слова:*** *государственное управление, устойчивое развитие, инклюзивное развитие, индикаторы развития, человеческое развитие.*

DOI: 10.30546/mab.17.2022.17

UOT 328; 342.5; 351/354;351

**Aslanbayli B.A.**

*Institute of Law and Human Rights of ANAS, Ph.D student*

*e-mail: aslanbayli@yahoo.com*

# DIFFERENT ASPECTS OF INTERSTATE COOPERATION IN THE ELIMINATION OF DOUBLE TAXATION

*The expansion of relations between states and the convergence of the basic principles of taxation and the methods of developing tax policies have been underway since the 19th century. Double taxation agreements are bilateral arrangements that serve to harmonize the tax systems of the two countries involved and apply not only to organizations, but also to individuals engaged in cross-border trade and investment. In the absence of a tax agreement, income from cross-border transactions or investments may be subject to double taxation: first, in the country where the income is generated and, second, in the country where the recipient of the income is a resident. Tax agreements eliminate double taxation between the two countries by putting tax jurisdiction over income.*

*States are deploying and should continue to develop their experience in conducting simultaneous audits, joint audits, tax audits and dealing with cross-border issues in the field of taxation, especially double taxation and tax evasion, because all existing problems may be resolved through careful planning and open communication between states.*

***Keywords:*** *double taxation, cooperation, tax agreements, multilateral cooperation, League of Nations, resident, globalization, economic integration, tax liability, national legislation, UN model, OECD model, tax information exchange, tax audit, international tax control*

## General matters

One of the main goals of international cooperation in the field of taxation was to create legal mechanisms to prevent double taxation. Experience shows that unilateral measures taken by the state are incapable of completely eliminating double taxation or mitigating its consequences due to the diversity of tax systems, their legal and tax histories, and tax policies of states.

All these differences are reflected in the country's approach to the promotion of foreign investment, the way taxable income is characterized and

calculated, and the various methods used to distribute this income. Due to the growing complexity of taxation systems and the diversity of taxes, it is becoming increasingly difficult to achieve a complete and effective elimination of international double taxation with a one-sided approach to the above problem.

Today, there are several types of international agreements that provide a legal basis for international cooperation between tax administrations, including the exchange of tax information, assistance in tax collection, prevention of double taxation and the fight against tax evasion.

**Historical aspects of cooperation**

In the second half of the 19th century, states embarked on a process of cooperation to prevent double taxation because this period was characterized by factors such as the globalization of world markets and transnational activities of companies. The world's leading countries began to apply their own versions of national economies in the territories under their control, which led to a rapid development of economic relations between the metropolises.

As a result of the economic expansion of national companies, the ability of citizens to earn income from foreign sources, as well as the opportunity to own property abroad, governments became interested in taxing the foreign income and property of their citizens and companies, which inevitably paved the way for double taxation [14, 15-19].

In 1843, the first international tax agreement was signed between France and Belgium. It should be noted that the International Committee of the Red Cross is the first international organization established with the objective of interstate cooperation. However, this organization was established in 1864, i.e. already after international cooperation in financial matters had started. It should be noted that 24 tax conventions were signed between 1899 and 1919.

At the beginning of the 20th century, World War I divided the economic system of states into two camps, and there was minimal economic cooperation between them. During World War II, there was a tendency for temporary economic closeness between countries, which was eliminated by the end of the war.

***Activities of the League of Nations.*** International efforts to address the problem of international double taxation were initiated by the League of Nations in 1919 and were continued by the Organization for Economic Cooperation and Development and various regional forums. The Finance Committee of the League of Nations identified the following reason for the

need to develop tax conventions: “The existence of model draft agreements has demonstrated significant advantages ... They have been instrumental in solving many technical difficulties. This procedure has a number of advantages. On the one hand, the standard model forms the basis of bilateral agreements on the prevention of double taxation, which automatically creates uniform practices and legal framework. On the other hand, any bilateral agreement can be modified to suit the conditions existing in different countries or a group of countries” [12, 4].

In October 1928, the General Meeting of Government Experts on Double Taxation and Tax Evasion convened by the League of Nations Council adopted the Convention on the Elimination of Double Taxation in the Field of Direct Taxes and three other bilateral models. These were conventions on legal aid in inheritance matters, administrative assistance in tax matters and tax collection. The work of the General Meeting was based on the draft Model Conventions prepared by a group of high-ranking civil servants (tax inspectors).

In 1922, the working group included experts from seven European countries. Then in 1925, the working group was expanded to include experts from two more European countries, as well as Japan, Argentina and Venezuela [11, 7-21].

In 1927, experts from the United States were included in the working group as well. The Working Group drafted the text of the Convention on Direct Taxes, but the General Meeting considered it necessary to develop two new drafts of the Model Conventions on the same subject, because the first draft was intended primarily for signatory states. Their tax systems consisted of non-personal taxes on income from domestic sources and income taxes on all sources, both external and internal. However, this draft Model Convention could not be easily applied to many tax systems based on both the income of non-residents from domestic sources and the progressive income tax of residents on income from all sources.

Although the 1928 bilateral model tax conventions theoretically gave significant taxing powers to source countries, these powers were essentially limited to the practical nature of international private capital flows until the Great Depression [21, 17].

During the meetings of the Finance Committee of the League of Nations in the late 1920s and early 1930s, much attention was paid to the formation of rules for the distribution of income from commercial and industrial activities in a number of countries (no distinction was made between individuals and legal entities).

In June 1939, the suggestion was made at a session of the Finance Committee of the League of Nations that the three Model Conventions of 1928

covering direct taxes be revised to reflect the technical improvements embodied in bilateral tax treaties. In particular, new trends and challenges in international trade and investment, as well as the views and recommendations proposed directly by the Finance Committee during the various sessions, should be taken into account [2, 20].

The revision of the Model Conventions began at a meeting of the subcommittee in The Hague in April 1940 and continued at two regional tax conferences in Mexico in June 1940 and July 1943 under the auspices of the League of Nations. Representatives from Argentina, Bolivia, Canada, Chile, Colombia, Ecuador, Mexico, Peru, the United States, Uruguay and Venezuela attended the regional conferences. At the end of the discussions, the second regional conference adopted the Bilateral Model Convention on the Elimination of Double Taxation on Income and its Annex Protocol, the Bilateral Model Convention on the Elimination of Double Taxation on Inheritance and its Annex Protocol, as well as the Model Convention on assistance in collecting direct taxes and its annex protocol.

***UN Model Convention.*** The successor to the League of Nations on various issues was the United Nations, which adopted the UN Model Convention for the Prevention of Double Taxation between Developed and Developing Countries (UN Model Convention) in 1980. During the eighth meeting of the special expert group on international cooperation on tax issues, a Working Group was established to revise and update the UN Model Convention, taking into account the significant changes experienced in the international economic and financial environment since 1980 [24, 196].

At its meetings in New York in December 1998 and in Amsterdam in March 1999, the Working Group reviewed the members' comments and suggestions on the articles and interpretations of the UN Model Convention and submitted a revised draft of the UN Model Convention. The expert group adopted a revised version of the UN Model Convention, taking into account editorial changes not related to its substance. The comments and suggestions of members of the expert group on the above editorial changes were examined by the steering committee during a meeting in New York in April 2000 and the final text of the UN Model Convention was adopted [20, 11].

The final version of the UN Model Convention for the Prevention of Double Taxation between Developed and Developing Countries, approved by members of the expert group, was published by the UN in 2001.

It should be noted that the UN has had a significant impact not only on the solution of the problem of double taxation between developed and developing countries, but also on the solution of problems in specific sectors of the economy.

## Directions of cooperation in the 21st century

***Prevention of double taxation and agreements on taxes on income and capital (Double Taxation Agreements).*** This type of agreement is based on the OECD Model Convention. This type of agreement is based on the OECD Model Convention. The need for a draft bilateral tax convention on income and capital taxes, which could help expand the network of bilateral tax agreements for all OECD member states, stemmed from the growing economic interdependence of OECD member states in the postwar period. This was galvanized by issues such as economic cooperation between countries, which increasingly demonstrated the importance of measures to prevent double taxation [5, 168].

In 2010, the OECD and the Council of Europe announced the need to sign a Protocol amending the Council of Europe-OECD Joint Convention on Mutual Administrative Assistance in Tax Matters. The purpose was to bring the provisions of this document in line with international information exchange standards that allow the circulation of banking information. At an annual meeting of authorized representatives of OECD countries held in Paris on 27 May 2010, 15 countries signed the relevant Protocol.

Currently, there are 22 signatories and 15 participants of the Convention, including OECD countries such as Belgium, Canada, Denmark, Finland, France, Germany, Iceland, Italy, Korea, Mexico, the Netherlands, Norway, Poland, Portugal, Slovenia and Spain. Sweden, the United Kingdom and the United States, as well as non-OECD countries such as Azerbaijan, Georgia and Ukraine, should be mentioned as well.

In our opinion, an important advantage of the Convention is its multilateral nature, as well as the fact that it aims to prevent evasion of all types of taxes, except for customs duties. Cooperation between tax administrations under this Convention covers the exchange of information, including simultaneous tax audits by both states, the collection of taxes and execution of orders for the submission of documents, as well as the adoption of temporary documents [6].

It can also be argued that the main advantage of the Convention over bilateral international agreements is that the Convention covers both the provisions of the OECD Model Tax Convention and issues of information exchange, i.e. exchange of information upon request, automatic exchange of information, simultaneous tax audits abroad, assistance in tax collection, submission of documents, exchange and use of information for non-tax purposes, such as money laundering, corruption and financing terrorism.

Thus, states are gaining a powerful multilateral tool to combat tax and other financial crimes.

The tax agreements in question include legal provisions governing the application of instruments of international tax cooperation, such as the exchange of information for tax purposes, assistance in tax collection, as well as simultaneous tax audits, joint tax audits, tax audits abroad.

At present, states are open to dialogue and work together to combat problems in the field of international taxation. To achieve this goal, governments usually conclude and implement various types of tax agreements based on the Model Conventions of international organizations, which are designed to integrate legal norms, developments and experience of authorized foreign administrations in the field of taxation.

Thus, general approaches to the elimination of double taxation, as well as Model Conventions concluded on the basis and within the framework of agreements on the elimination of double taxation are constantly being developed and implemented. Double taxation agreements are beneficial to most countries because they provide individuals and legal entities engaged in international businesses with some degree of confidence. The settlement of disputes and disagreements is also an obvious advantage of the Contracting States concluding agreements on the elimination of double taxation. We believe that the main advantages of agreements on the prevention of double taxation are as follows: 1. Clarification of the right of each state to collect taxes. The tax right granted under the agreement applies exclusively to residents of a particular country and exclusively to taxes specified therein. If the agreement does not cover all issues, reference is made to the relevant national legislation. 2. Prevention of double taxation. 3. Prevention of tax evasion.

## Future mechanisms of international cooperation

Today, in order to rigorously comply with tax laws, governments must move towards more coordinated action and joint efforts to eliminate tax evasion using the latest tools in international tax cooperation.

International cooperation on tax issues includes a number of methods identified and jointly developed by the tax administrations of states and international organizations operating in the field of taxation [4, 30-35]. Each of these methods is based on a regulatory framework that allows taxpayers the opportunity to control their activities not only within the national state. The said methods have their own characteristics, advantages and disadvantages.

In order to fully study the features, characteristics, properties and factors of each specific method, it is proposed to classify them according to certain criteria. The need for classification is associated with the following: first,

insufficient scientific research on the issue; second, the need to differentiate the events being studied; third, the need to conduct a comparative analysis of each specific method and identify weaknesses, focusing on the most problematic aspects. The proposed methods differ in terms of the degree of study and application, the amount and composition of the necessary costs, but they all pursue the common goal of eliminating double taxation. This classification has the following structure:

- exchange of tax information;
- assistance in tax collection;
- simultaneous tax audits;
- joint tax audits;
- tax audits abroad [15, 18-30; 18, 150].

This classification influences all existing methods of cooperation between tax administrations in order to increase the efficiency of tax collection and provides an accurate description of each of them.

First, let's look at the method of exchanging tax information. One of the most common forms of international cooperation in the fight against double taxation is the exchange of information between the most developed foreign tax administrations.

The exchange of information with the competent authorities of countries pursues the following objectives:

- Determine the facts under which the provisions of the agreement (convention) related to taxes on income and capital should be applied;
- Determine whether the taxpayer has the right to reduce the tax rate on the fees received to ensure proper distribution of profits among relevant enterprises;
- Assist a Contracting State in sending or implementing the provisions of its domestic tax laws;
- mutual assistance between tax authorities in the detection of tax violations, the fight against double taxation and the fight against tax evasion.

The exchange of information is provided for in most agreements (conventions) for the prevention of double taxation and is regulated by provisions of Article 26 of the OECD Model Convention on Income and Capital Taxes and those of the UN Model Convention for the Prevention of Double Taxation between Developed and Developing Countries. However, there are several legal documents governing the exchange of information:

- Agreements (conventions) on the elimination of double taxation in respect of income and capital taxes;
- Multilateral or bilateral information exchange agreements;
- Bilateral agreements on mutual assistance;
- Directive No. 2011/16/EC of the Council of the European Union on Administrative Cooperation in the Field of Taxes dated 15.02.2011;
- Joint Convention on Mutual Administrative Assistance between the Council of Europe and the OECD on Tax Issues;
- Nordic Convention on Mutual Administrative Assistance in Tax Matters;
- European Union Directive on Taxation of Deposits [8, 121].

Article 26 of the OECD Model Convention provides the most common legal framework for the bilateral exchange of information on tax matters [10, 22]. For example, most double taxation agreements are based on the OECD Model Conventions of 2005 and 2010.

The purpose of the exchange of information is the need to use the information obtained by competent tax authorities in the application of the provisions of the relevant international agreement or national legislation. At the same time, the exchange of information applies only to information related to taxes provided for in this international agreement.

***Principles of information exchange.*** The exchange of information is based on four key principles recommended by the OECD and other international organizations. These principles are:

- the principle of foreseeable relevance;
- no fishing expeditions;
- the principle of confidentiality;
- the principle of reciprocity [13, 288-290].

According to the first principle, in the interests of proper application of a relevant double taxation agreement or the application of the domestic law of a partner state, information may be provided only if it is considered useful.

The "no fishing expeditions" principle stems from the principle of "apparent need" for information, which means that competent tax authorities have the right to request information about a specific taxpayer from a partner state for the period covered by the agreement. In this case, the tax authority should not go beyond the tax audit and the suspected tax violation.

The principle of confidentiality is a key element in the cooperation between states in tax matters. Any information received by a foreign state from a contracting partner shall be considered confidential and adequately protected. Any information obtained is provided only to "persons or bodies (including

courts and administrative bodies) involved in the determination, collection or enforcement of tax decisions" and is used only for the purposes specified in the agreements, i.e. for tax administration purposes [17, 343-344].

The basis of the principle of reciprocity is that the country receiving information in response to a previously sent request also undertakes to provide relevant information after receiving such a request.

When exchanging tax information, measures should be taken not to violate the legislation and administrative practices of the contracting partner state. In addition, it is prohibited to disclose information that represents commercial, business, industrial or professional secrets, or information the disclosure of which contradicts public policy.

Notwithstanding the above exceptions, the requirements of national tax interests or banking secrecy shall not limit the obligations of partner states to exchange information with each other.

***There are several types of information exchange:***

First, the exchange of information upon request. As part of the exchange of information upon request, the competent authority of a state shall provide information about the taxpayer's compliance with tax liabilities during a certain period of time in response to a reasoned request of a partner state. This type of information exchange is the most common form of information exchange.

Second, "ad hoc" information exchange (spontaneous). In this type of information exchange, information is provided spontaneously, i.e. without prior request, when the tax authority or tax auditor discovers information that may be of interest to another country.

Spontaneous information exchange is based on the active participation and cooperation of tax authorities and tax auditors.

Third, automatic information exchange. Automatic information exchange is a systematic and regular transmission of information on different income categories and other types of information to partner countries on a contractual basis: without a prior request and on a regular basis.

In our opinion, automatic information exchange has the following advantages:

- the risk of tax evasion is reduced;
- has a deterrent effect, i.e. encourages taxpayers to declare their income from external sources;
- encourages compliance with tax laws.

We believe that the implementation of the procedure for the exchange of tax information can contribute to a significant increase in budget revenues. However, in order to achieve this goal, it is necessary to work closely with competent authorities of foreign countries, adopt their practices, introduce changes to domestic legislation, comply with OECD recommendations, make high-quality selection of inquiries sent abroad, and conduct trainings for employees of local tax departments on the existing requirements and changes in this area.

Another method of cooperation is simultaneous tax audits. Simultaneous tax audits are audits of taxpayers of mutual or relative interest to both states performed simultaneously and independently by two or more states in their respective territory for the subsequent exchange of necessary information [15, 29-30].

Simultaneous tax audits are a form of cooperation used in a wide range of international tax issues. Simultaneous tax audits are carried out when the information belonging to a third country is the “key” for the tax audit.

Both compliance and oversight, as well as parallel tax audits used by tax administrations, are considered effective in cases of international tax evasion. The audit may involve both direct and indirect taxes. It helps to identify cases of abuse of legislation for personal gain or violations of existing legislation. Simultaneous tax audits provide a high level of efficiency in the exchange of information between tax jurisdictions. They can also reduce tax liabilities for taxpayers by coordinating inquiries from competent tax authorities of different states.

In addition to the above, simultaneous tax audits also play an important part in preventing double taxation and avoiding the need to apply the mutual agreement procedure in accordance with Article 25 of the OECD Model Convention and relevant provisions of agreements (conventions) on the prevention of double taxation [1, 683].

Some of the countries conducting simultaneous tax audits for several years have said that this tool is an effective method of tax control. For example, the tax authorities of the Scandinavian countries have been conducting multilateral tax audits for several years and have achieved positive results in controlling the collection of both direct taxes and VAT.

### Other forms of international cooperation

Other forms of international cooperation in the field of taxation may be carried out during simultaneous tax audits. For example, it is recommended that an auditor from one Contracting State be present at a simultaneous a tax

audit in another Contracting State. This type of tax control is accompanied by a request for relevant information.

The regulatory framework for simultaneous tax audits is as follows:

- Relevant articles of bilateral tax conventions on income and capital taxes, as well as agreements (conventions) on the prevention of double taxation, entitled "Information Exchange", as stated in Article 26 of the OECD Model Convention;
- Article 8 of the Joint Convention on Mutual Administrative Assistance between the Council of Europe and the OECD on Tax Issues [19, 15-16];
- Article 12 of the Nordic Tax Assistance Convention [23, 203-204];
- Article 8b of Directive 77/799/EEC of the Council of the European Union on Mutual Assistance completed by Directive 2004/56/EC93/2003 of the Council of the European Union [25];
- Article 12 of Regulation No. 1798/2003 of the Council of the European Union on Administrative Cooperation in the Field of VAT [16, 143];
- Provisions of tax information exchange agreements modeled on the basis of Article 5 of the CIAT Model Tax Information Exchange Agreement.

At the same time, any exchange of information that occurs as part of a tax audit must be carried out in accordance with the provisions of the above legal documents.

We believe that simultaneous tax audits are a means of determining the accuracy of the calculation of tax liabilities of dependents, for example, in cases where expenses and revenues are distributed among taxpayers in different tax jurisdictions. It can be difficult for tax authorities to obtain the necessary information and identify facts and circumstances such as the terms of application of transfer prices between related entities in two or more jurisdictions, especially if the taxpayer refuses to cooperate or does not provide the required information in a timely manner. However, a simultaneous tax audit can help tax authorities to identify facts more quickly and efficiently, which is also a cost-effective mechanism for tax administrations.

Simultaneous tax audits are carried out by states separately, using domestic legislation and existing provisions on the exchange of tax information within the framework of the practices of the tax authorities of each state.

In all cases, the information obtained by the tax authority during the simultaneous tax audit shall be considered confidential.

In the modern world, as a result of "disappearing borders" and increasing international transactions involving both legal entities and individuals, tax

authorities face the need for closer international cooperation to optimize compliance between national and international tax rules [3, 530-533].

***Joint tax audits*** are a new form of coordinated activity between states. A joint tax audit is a tax audit conducted simultaneously by two or more countries in relation to one or more taxpayers in order to get a complete picture of a taxpayer's cross-border activities [22, 72-73].

A joint tax audit is appointed in the following cases:

1. If countries have a common or complementary interest in one or more related taxpayers;
2. If an internal tax audit is insufficient, it provides a complete picture of the taxpayer's tax liabilities for individual transactions. We believe it is possible to agree with the steps taken by OECD experts to conduct joint tax audits to achieve the following goals:
3. Understand the differences in the legislative and administrative procedures of foreign countries;
4. Raise awareness of tax auditors on existing opportunities in matters of international tax risks;
5. Recognize and study various methods of conducting tax audits;
6. Identify and improve areas of future cooperation;
7. Eliminate double taxation and fight against tax evasion.

In our opinion, a joint tax audit contributes to the development of the following positive factors:

- development of cooperation between tax authorities and taxpayers;
- compliance with legal requirements by international companies;
- more efficient real-time tax management;
- elimination of double taxation and fight against tax evasion.

***Tax examinations abroad.*** Traditionally, the exchange of tax information between the competent authorities of foreign countries is carried out in writing, which often requires considerable effort and time. Therefore, the efficiency of the exchange of tax information may be reduced compared to other forms of international cooperation on tax issues.

It is useful to approach tax audits in a particular foreign country to make it easier for the tax administration to gain a clear and detailed understanding of the business relationship between the resident of the audited state and its foreign partners. In addition, it is not uncommon for tax inspectors to be unable to verify accounting in their own country, because the laws of that country give the taxpayer the right to keep records in any other state. In all of the above cases, tax examinations abroad are applied [9, 50-55].

Article 6 of the Model Agreement on the Exchange of Information for Tax Purposes sets out the definition of tax examinations abroad. The article states that “one Contracting Party may, with the written consent of the persons being examined, allow representatives of the other Contracting Party to enter the territory of the first Party for the purpose of checking the accounts and questioning them. The competent authorities of the second party shall inform the competent authorities of the first party of the time and place of the meeting with the persons being examined. The main principle of such cooperation is the principle of reciprocity” [7, 242].

If the domestic legislation of the state permits the participation of external auditors in the tax audit, the officials of the competent authority may participate in the requested tax audit.

We believe that tax examinations abroad reduce taxpayers' tax burden by allowing tax authorities to work together on issues related to the same taxpayer or group of taxpayers. Such cooperation reduces costs and saves time, which has a positive effect for both the taxpayer and tax authorities.

Tax examinations abroad accompanied by information requests are carried out within the following regulatory framework:

- Relevant articles of bilateral tax conventions on income and capital taxes, as well as agreements (conventions) on the prevention of double taxation, entitled “Information Exchange”, as stated in Article 26 of the OECD Model Convention;
- Article 9 of the Joint Convention on Mutual Administrative Assistance between the Council of Europe and the OECD on Tax Issues;
- Article 6 of Directive 77/799/AET of the Council of the European Union on Mutual Assistance completed by Directive 2004/56/EC93/2003 of the Council of the European Union;
- Article 11.2 of Regulation No. 1798/2003 of the Council of the European Union on Administrative Cooperation in the Field of VAT;
- Provisions in Article 6 of the OECD Model Tax Information Exchange Treaty and Article 6 of the Model Tax Information Exchange Treaty (CIAT)

**International tax control**

We consider it expedient to apply the concept of “international tax control” when studying issues related to the future mechanisms of interstate cooperation in the elimination of double taxation. The point is that this concept can be defined as the activity of competent authorities of foreign countries to exercise tax control over the activities of taxpayers engaged in commercial

activities abroad or earning income outside their country, ensure compliance with tax legislation and prevent international tax evasion.

The purpose of international tax control is to prevent tax evasion at the international level and in cross-border operations.

To achieve this goal, the following must be resolved:

- monitoring compliance with international tax legislation;
- prevention of violations of tax legislation at the international level;
- ensuring correct calculation and collection of taxes;
- elimination of international double taxation;
- prevention of international tax evasion.

International tax control is carried out in the following forms:

- exchange of tax information;
- assistance in tax collection;
- simultaneous tax audits;
- tax examinations abroad;
- joint tax audits.

The main principles of such activity should be: legality, completeness and uniformity, regularity, reliability of results, priority of protection of taxpayer's rights, reciprocity, confidentiality, inadmissibility of illegal damage.

## Conclusion

It can be concluded that the most effective way of preventing double taxation and tax evasion is the development and implementation by governments of tax agreements (conventions) that represent the basis of the tax procedure. At the same time, the mechanisms for combating tax evasion should be coordinated, including the methodology used to prevent double taxation and define certain conditions.

These agreements are not limited to taxpayers. Agreements on the elimination of double taxation protect the legitimate interests of states by facilitating the implementation of domestic tax laws and tax policy.

Tax agreements, especially those on the prevention of double taxation, incorporate rules agreed between partner countries, allowing countries the opportunity to work together in a coordinated manner in combating tax problems at the international level, thus taking an integrated approach to tax prevention and helping bridge the existing gaps.

The tax systems of most countries impose high tax rates on dividends, interest and fees for foreigners. Double taxation treaties are a mechanism to

reduce the above-mentioned tax rates on a reciprocal basis, thereby removing barriers to participation in international transactions and trade.

These agreements also have other features that provide companies with important tools to maintain a competitive position in the international business environment. For example, the establishment by the state of internationally agreed borders for the collection of taxes from foreign companies located in their territories; the requirement that tax laws be applied without discrimination to non-resident companies.

**References:**


1. Acerbis Fabrizio, Alessandro Catona. La tassazione delle banche 2021. Milano: Gruppo 24 Ore, 2021, 912 p.
2. Analytical and Historical Review of International Double Taxation and Tax Evasion and Avoidance. 45 p.
3. Angharad Miller, Lynne Oats. Principles of International Taxation. Third edition, Kent: A&C Black, 2012, 643 p.
4. Brauner Yariv. Research Handbook on International Taxation. Nordhampton: Edward Elgar Publishing, 2020, 416 p.
5. Chelen Mustafa, Elżbieta Robak. The Political Economy of Public Finance. London: Ijopec Publication, 2017, 250 P.
6. Council of Europe and OECD convention on Mutual Administrative Assistance in Tax Matters, 1988, Article 1 (3).
7. David S. Kerzner, David W. Chodikoff. International Tax Evasion in the Global Information Age. Cham: Springer, 2016, 425 p.
8. Exchange of Information and Bank Secrecy, edited by Alexander Rust&Eric Fort, Wolters Kluwer, 2012, p. 121.
9. Global Forum on Transparency and Exchange of Information for Tax Purposes: Korea 2020 (Second Round) Peer Review Report on the Exchange of Information on Request: Peer Review Report on the Exchange of Information on Request. OECD Publishing, 2020, 104 p.
10. Harriet Brown, Grahame Jackson. A Practitioner's Guide To International Tax Information Exchange Regimes: DAC6, TIEAs, MDR, CRS, and FATCA. London: Spiramus Press Ltd, 2021, 414 p.
11. Jogarajan, S. Background. In Double Taxation and the League of Nations, Cambridge Tax Law Series, Cambridge: Cambridge University Press, 2018, p. 7-21.
12. League of Nations, Report of the Fiscal Committee to the Council on the work of the fifth session of the Committee (C.252.M.124.1935.II.A), p. 4, paragraph II.B.4

13. Marino Giuseppe. New Exchange of Information versus Tax Solutions of Equivalent Effect. EATLP: International Tax Series, 2016, 654 p
14. Molenaar Dick. Taxation of International Performing Artistes: The Problems with Article 17 OECD and how to Correct Them. Amsterdam: IBFD, 2005, 416 p.
15. Oberson Xavier. International Exchange of Information in Tax Matters: Towards Global Transparency. Cheltenham: Edward Elgar Publishing, 2015, 288 p.
16. Quinten R. Kroes. E-business Law of the European Union. Austin: Kluwer Law International B.V., 2010, 429 p.
17. Riccardi Lorenzo, Giorgio Riccardi. China in Africa: FDI, Tax and Trends of the New African Geo-economics. Singapore: Springer Nature, 2021, 362 p.
18. Tax Management Portfolios, Volume 896. Tax Management Incorporated, 2006, p. 150.
19. The Convention on Mutual Administrative Assistance in Tax Matters Twentieth Anniversary Edition: Twentieth Anniversary Edition. OECD, Council of Europe OECD Publishing, 2008, 132 p.
20. United Nations Model Double Taxation Convention between Developed and Developing Countries. United Nations. New York, Department of Economic & Social Affairs ST/ESA/PAD/SER.E/21. 2001, 409 p.
21. United Nations. Dept. of International Economic and Social Affairs. Manual for the Negotiation of Bilateral Tax Treaties Between Developed and Developing Countries. UN, 1979, 190 p.
22. Valderrama I.Johanna, Dries Lesage, Wouter Lips. Taxation, International Cooperation and the 2030 Sustainable Development Agenda. Cham: Springer Nature, 2021, 225 p.
23. Valkama Maria. The Nordic Mutual Assistance Convention on Mutual Administrative Assistance in Tax Matters The Nordic Mutual Assistance Convention. Günther/Tüchler, Exchange of Information for Tax Purposes. p. 203-204.
24. Vanderbilt Journal of Transnational Law, Volume 29. Vanderbilt University, School of Law, 1996, p. 196.
25. https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=CELEX%3A01977L0799-20070101

# XÜLASƏ

## İKİQAT VERGİTUTMANIN ARADAN QALDIRILMASINDA BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN MÜXTƏLİF ASPEKTLƏRİ

**Aslanbəyli B.Ə.**
*AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun dissertantı*

Dövlətlər arasında münasibətlərin inkişafı və vergitutmanın əsas prinsiplərinin və vergi siyasətinin işlənib hazırlanması üsullarının yaxınlaşması 19-cu əsrdən baş verir. İkitərəfli vergi müqavilələri iki ölkənin vergi sistemlərinin uyğunlaşdırılmasına xidmət edir və təkcə təşkilatlara deyil, həm də transsərhəd ticarət və investisiya ilə məşğul olan fiziki şəxslərə şamil edilir. Vergi müqaviləsi olmadıqda, transsərhəd əməliyyatlardan və ya investisiyalardan əldə edilən gəlirlər ikiqat vergitutmaya məruz qala bilər: əvvəlcə gəlirin əldə edildiyi ölkədə, sonra isə gəliri alan şəxsin rezident olduğu ölkədə. Vergi müqavilələri gəlirlər üzərində vergi yurisdiksiyası yaratmaqla iki ölkə arasında ikiqat vergitutmanı aradan qaldırır.

Dövlətlər paralel yoxlamalar, birgə yoxlamalar, vergi yoxlamaları və transsərhəd vergi məsələləri, xüsusilə ikiqat vergitutma və vergidən yayınma ilə məşğul olmaq üzrə öz təcrübələrini inkişaf etdirir və inkişaf etdirməlidirlər, çünki bütün mövcud problemlər ehtiyatlı planlaşdırma və dövlətlər arasında açıq ünsiyyət yolu ilə həll edilə bilər.

***Açar sözlər:*** *ikiqat vergitutma, əməkdaşlıq, vergi sazişləri, çoxtərəfli əməkdaşlıq, Millətlər Liqası, rezident, qloballaşma, iqtisadi inteqrasiya, vergi öhdəliyi, milli qanunvericilik, BMT modeli, OECD modeli, vergi məlumat mübadiləsi, vergi auditi, beynəlxalq vergi nəzarəti*

## РЕЗЮМЕ

# РАЗЛИЧНЫЕ АСПЕКТЫ МЕЖДУНАРОДНОГО СОТРУДНИЧЕСТВА В УСТРАНЕНИИ ДВОЙНОГО НАЛОГООБЛОЖЕНИЯ

**Асланбейли Б.А.**
*Диссертант Института права и прав человека Национальной Академии Наук Азербайджана*

Развитие отношений между государствами и сближение основных принципов налогообложения и методов разработки налоговых политик происходят с XIX века. Двусторонние соглашения об избежании двойного налогообложения служат для гармонизации налоговых систем двух стран и применяются не только к организациям, но также к физическим лицам, занимающимся трансграничной торговлей и инвестициями. В случае отсутствия налогового соглашения доходы от трансграничных сделок или инвестиций могут подвергаться двойному налогообложению: сначала в стране, где доход генерируется, а затем в стране, где получатель дохода является резидентом. Налоговые соглашения устраняют двойное налогообложение между двумя странами, устанавливая налоговую юрисдикцию над доходами.

Государства разрабатывают и должны продолжать развивать свой опыт проведения параллельных аудитов, совместных аудитов, налоговых проверок и решения трансграничных вопросов в области налогообложения, особенно двойного налогообложения и уклонения от уплаты налогов, потому что все существующие проблемы могут быть решены через тщательное планирование и открытые коммуникации между государствами.

***Ключевые слова:*** *двойное налогообложение, сотрудничество, налоговые соглашения, многостороннее сотрудничество, Лига Наций, резидент, глобализация, экономическая интеграция, налоговая обязанность, национальное законодательство, модель ООН, модель ОЭСР, обмен налоговой информацией, налоговая проверка, международный налоговый контроль*

DOI: 10.30546/mab.17.2022.35

UOT 323

# ESG VƏ DÖVLƏT SİYASƏTİNİN EKSPERT MÜŞAHİDƏSİ

**Ələkbərova N.İ.**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*Politologiya və siyasi idarəetmə kafedrasının müdiri,*
*fəlsəfə elmləri doktoru, professor*
*e-mail: nigaralakbar@mail.ru*

*Məqalədə dövlət siyasətinin ekspert müşahidəsi problemi planetar ekoloji böhran, o cümlədən iqlim dəyişikliyi şəraitində siyasət, idarəçilik, iqtisadiyyat, maliyyə və biznes sahələrində meynstrimə çevrilmiş ESG-nin (enveromental, sosial and governance) müxtəlif məsələlərinin lokal və qlobal miqyasda uğurlu həllinin labüdlüyü nöqteyi-nəzərindən araşdırılır. Davamlı inkişafın bir qolu olan ESG-nin əhəmiyyəti və səciyyəvi xüsusiyyətləri hərtərəfli açıqlanır. Bu problemlərə aydınlıq gətirmək üçün dövlət siyasətinin elmi baxımdan əsaslandırılmış və gündəlik həyatla sıx uzlaşdırılmış ekspert müşahidəsinin mahiyyəti, yaranma və inkişaf tarixi, hazırki vəziyyəti və gələcək perspektivləri ardıcıl surətdə təhlil edilir.*

***Açar sözlər:*** *ESG, CSR, dövlət siyasətinin ekspert müşahidəsi, ekoloji böhran, iqlim dəyişikliyi*

## Giriş

Son onilliklər populyarlığı ilə seçilən ESG (enveromental, social and governance) 2021-ci ildən başlayaraq siyasət, iqtisadiyyat, maliyyə və biznes dünyasında artıq meynstrimə çevrilmişdir [1;3;6;7;10]. Bu abbreviaturaya yaxın olan və həmahəng gələcək naminə bəşəriyyətin əsas inkişaf trendi kimi diqqəti cəlb edən davamlı inkişaf anlayışı və fenomeni ilə müqayisə edildikdə xüsusi vurğulanmalıdır ki, mahiyyət etibarı ilə ESG təkcə davamlılıq deyil. Çünki davamlı inkişaf əslində çox geniş bir ideyadır. ESG isə onun bir qolu kimi hazırda biznes və iqtisadiyyat sahəsində fəaliyyət göstərən şirkətlərin mövqeləndirilməsinə, istehsal etdikləri məhsulun cəlbediciliyinə, investisiya üçün seçilməsinə əsaslanır və həmin seçim meyarı bu şirkətlərin ekoloji, sosial və lazımi idarəetmə üstünlüklərindən birbaşa asılıdır. Eyni zamanda, son dərəcə önəmlidir ki, ESG lokal (dövlətlər), regional və qlobal (beynəlxalq) miqyasda müasir siyasət gündəliyinə ayrılmaz surətdə daxil edilmişdir.

ESG-nin fundamental məsələsi nəinki ayrı-ayrı tərəflərin maraqlarına, həm də ümumi maraqlara, ilk növbədə planetin və bəşəriyyətin maraqlarına xidmət etməkdir. Tam əminliklə demək olar ki, bu gün yalnız bütün qeyd olunan maraqları uzlaşdıraraq dəyər yaratmaq gələcəyə istiqamətlənmiş yeganə düzgün yoldur.

**ESG-nin əhəmiyyəti və səciyyəvi xüsusiyyətləri**

ESG-dən danışarkən ilk əvvəl bir neçə ən tanınan sektor, o cümlədən enerjinin bərpa olunan mənbələri, təkrar istehsalın təkmilləşdirilməsi, elektrik avtomobillər, iqlim-gündəlik və qeyri-bərabərliyin qarşısının alınması sektorları qeyd olunmalıdır. Bu sektorlar üzrə qərarların qəbul edilməsində ESG-nin qiymətləndirilməsi və reytinqləri son dərəcə vacib amilə çevrilməkdədir. Sonuncuların tətbiqi ilə müsbət dəyişikliklər baş verir. Məsələn, bu yaxında ABŞ-ın ən iri banklarından biri IP Morqan bankının Aktivlər idarəsi tərəfindən (IP Morqan Asset Management) aparılan genişmiqyaslı tədqiqat göstərdi ki, bərpa olunan enerji mənbələri bazarına kapital axını son 15 il ərzində 33 milyard dollardan 310 milyard dollara yüksələrək təxminən 1000 faiz artmışdır. Sözü gedən fakt uzunmüddətli tendensiyadan xəbər verir. Bundan başqa, aktivlərin bu növ kateqoriyası daim genişlənir və buraya karbon tullantılarına kompensasion kreditlər də əlavə olunur. Təsadüfi deyil ki, ABŞ prezidenti Co Bayden Ağ Evə gəldikdən dərhal sonra "Yeni yaşıl kursu"nu elan etmişdir. Onun bu sahədəki siyasəti yer altından çıxarılan yanacağa dair maliyyə yardımlarına son qoyulmasını öhdəsinə götürərək 2035-ci ilə qədər 100 faiz təmiz bərpa olunan enerjiyə nail olmaq kimi ambisiyalı məqsədi qarşıya qoyur.

Mahiyyətinə görə ekoloji, sosial və idarəetmə parametrləri, bir sözlə qısaldılmış şəkildə ESG korporativ paradiqmanın qısamüddətli mənfəətin sadə maksimallaşdırılmasından ətraf mühiti, əməkdaşları, tədarük zəncirlərini və daha geniş birliyi nəzərə alan uzunmüddətli, dəqiq desək, davamlı biznes-modelə dair tərəqqisini əks etdirir. ESG sələfi olan CSR-in (Qlobal Sustainable Report-Davamlılıq haqqında Qlobal Hesabat) yarandığından başlayaraq korporasiyalar fəaliyyətlərini yaxşılaşdırmaq üçün müasir sosio-ekoloji tələblərə və davamlılıq meyarlarına cavab vermək məqsədilə hökumətlər, üstmilli təşkilatlar, tənzimləyici orqan və investorlar tərəfindən güclü təzyiqlə üzləşirlər. "Net Zero 2050" və ABŞ prezidenti Co Baydenin yuxarıda adı çəkilən "Yeni yaşıl kurs"u meydana çıxdıqdan sonra bu təzyiq ilbəil güclənir. Buna uyğun olaraq qanunvericilik, normativ-hüquqi baza da müvafiq şəkildə dəyişikliklərə məruz qalır. Get-gedə daha çox ölkə korporativ məsuliyyətin formalaşmasına istiqamətlənmiş real qanunvericiliyi tətbiq edir. Məsələn, Avropa

Birliyi özünün 2020-ci ilə aid taksonometrik təsnifatını genişləndirərək tələb edir ki, şirkətlər iqtisadi fəaliyyətlərinin taksonomiyanın davamlı inkişafının bütün altı məqsədinə uyğunluğu barədə mütləq ətraflı məlumat versinlər. Buna baxmayaraq Almaniya hökuməti "Təchizat zəncirlərinin lazımi ehtiyatlılığı" haqqında ayrıca xüsusi qanun qəbul edilmişdir ki, həmin qanun Avropada və bütün dünyada bir çox belə növ qanun layihələrindən birincisi olmuşdur. Yeni qanun həcminə görə dünya iqtisadiyyatının dördüncüsündə fəaliyyət göstərən bütün müəssisələr qarşısında onların təchizat zəncirlərinin ətraf mühit və insan haqları sahəsindəki pozuntulardan azad olunması tələbini qoyur. Bu isə o deməkdir ki, artıq həmin müəssisələr bütün təchiz etdiklərinin etik və ekoloji normalara uyğun istehsal olunduğunu yoxlamağa borcludurlar. Bundan başqa, bu il Davamlı inkişaf sahəsində korporativ hesabatlılıq üzrə Avropa Birliyi Parlamentinin Direktivi və Böyük Britaniya FSA tərəfindən Davamlı inkişaf haqqında informasiyanın açıqlanmasına dair ekvivalent tələblər ESG-nin sərt surətdə tənzimlənməsi barədə xəbər verir. Əlavə olaraq, şirkətlərin "yaşıl" öhdəliklərinin gündəlik praktikayla birbaşa əlaqələndirilməsi üçün ABŞ-ın Qiymətli Kağızlar və Birjalar üzrə Komissiyası davamlı inkişafın riskləri və hesabatlılığı üzrə informasiyanın dəqiq açıqlanmasını müəyyənləşdirən yeni qaydaları təklif etmişdir. Bu ölkənin Federal Ticarət Komissiyası isə ekoloji tələblərin, karbon tullantılarının kompensasiyası ilə bağlı tələblər daxil olmaqla, həqiqiliyinə təminat verən yeni rəhbər prinsipləri irəli sürülmüşdür. Üstəlik, müxtəlif çoxsaylı normativ təşəbbüslər və İSSB-nin yeni standartları yaxın gələcəkdə nəinki karbon tullantılarının azalması məqsədi ilə investisiyaların artırılmasına imkan yaradacaq, eyni zamanda təbiət üçün müsbət nəticələri, iqlimin yaxşılaşdırılmasını, dəyişikliklərə adaptasiyanı və sosial şəraitin möhkəmləndirilməsini təmin edəcək. Yəni yuxarıda qeyd olunanlar(bu isə bizi maraqlandıran istiqamətdə aparılan intensiv işlərin yalnız bəzi nümunələridir) göstərir ki, lokal, regional və qlobal miqyasda ESG üçün aparıcı uzunmüddətli tendensiya, bəzi ciddi çətinliklər və çatışmazlıqlara baxmayaraq, tam müsbətdir.

Siyasətin, iqtisadiyyatın və biznesin inkişafının müasir dövründə, həm də yaxın və uzaq gələcəyində ESG-nin ən maraqlı, cəlbedici və daha geniş yanaşdıqda onun fəlsəfi tərəfi odur ki, sonuncu hamıya aiddir. Məhz həmin fəlsəfəyə əsasən(bu fəlsəfəni ekosofiya da adlandırmaq mümkündür) bir-biri ilə qırılmaz tellərlə bağlı olan yaşıl siyasət, yaşıl iqtisadiyyat və tədricən yaşıllaşan biznes ümumi maraqlara və bir daha təkrar edək, ilk növbədə planetin və bəşəriyyətin maraqlarına büsbütün cavab verir. Ekoloji, sosial və düzgün (optimal) idarəçilik dəyərlərinə arxalanan norma və prinsiplərin qəbul edilməsi isə zəmanəmizin meqatendensiyasına çevrilməkdədir. Buna görə də bir sıra ləngimələrə baxmayaraq iqlim dəyişikliklərinin nəticələrinin yumşaldılmasına

və enerji keçidinə investisiyalar bütövlükdə artmaqdadır. Sanballı təşkilatlar tərəfindən aparılan inandırıcı və obyektiv qiymətləndirmələr göstərir ki, iqlim maliyyələşdirilməsinin qlobal həcmi 2021-ci ildə təxminən 940 milyard dollar olmuşdur. Bu da 2020-ci illə müqayisədə 40 faiz çoxdur. Analoji surətdə bərpa olunan energetika və enerji effektivliyinə keçidə qlobal investisiyalar 2022-ci ildə 1,3 trilyon ABŞ dollarına çatmışdır. Pandemiya dövrünün spesifik cəhətləri və mənfi təsirləri nəzərə alındıqda, həmin investisiyaların həcmi çox böyük və əldə olunan nəticələr kifayət qədər yüksək qəbul edilməlidirlər. Amma, əlbəttə, həmin investisiyalar kifayət etmir. Son dərəcə önəmlidir ki, Bərpa olunan enerji mənbələri üzrə Beynəlxalq Agentliyin rəyinə əsasən qlobal istiləşməni 1,5°C qədər məhdudlaşdırmaq üçün bu sahə ilə bağlı dünya birliyi qarşısında duran çox vacib məsələ illik investisiyaları dörd dəfə artıraraq 5 trilyon dollara çatdırmaqdır.

Beləliklə, tam aydın olur ki, ESG adi korporativ sosial məsuliyyət çərçivəsindən kənara çıxaraq müasir siyasət, idarəçilik və biznes strategiyasının aparıcı məsələsinə çevrilmişdir. Pw C hesabatına (oktyabr, 2022) əsasən ESG-yə istiqamətlənmiş investisiyalar 2026-cı ilə qədər 84 faiz artaraq 33,9 trilyona çatacaq və idarəçilik aktivlərinin 21,5 faizinə bərabər olacaqdır.

ESG reytinqləri və məlumatlarının dünya şöhrətli təchizatçıları Bloomberq, Morningstar, MSCI, SBP və Sustainalytics mütləq tələblər sırasına iqlim dəyişilməsi nəticələrinin yumşaldılması, parnik qazların transsərhəd tullantılarının dayandırılması və buna uyğun məsələlər üzrə qanunlar, siyasət və məqsədlərinin gözlənilməsinin təmin edilməsi tələblərini daxil etmişdir.

Bütün bu problemlər hazırda əksər dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının ən aktual siyasət gündəliyinin və intensivləşən siyasi debatlarının əsas məsələləri sırasında yer alır. Təbii ki, ekoloji, sosial və optimal idarəçilik sahələri üzrə düzgün, zəmanəmizin tələblərinə cavab verən siyasi qərarlar qəbul etmək, onları məqsədyönlü şəkildə gerçəkləşdirmək, lazımi qanunvericilik bazasını yaratmaq və təkmilləşdirmək, qlobal, regional və lokal problemləri əlaqələndirmək və həll etmək üçün müvafiq bilik və bacarıqlara sahib olan məsləhətçilərə, yüksək səviyyəli peşəkar ekspertlərə və daha geniş götürdükdə dövlət siyasətinin savadlı, elmi baxımdan əsaslandırılmış və gündəlik həyatla sıx uzlaşdırılmış ekspert müşahidəsinə tələbat və gözləntilər günü-gündən qat-qat artır. Həmin məsələlərə aydınlıq gətirmək məqsədi ilə siyasi konsaltinqin mühüm əhəmiyyətli qolu olan dövlət siyasətinin ekspert müşahidəsinin mahiyyəti, inkişaf tarixi, hazırki vəziyyəti və gələcək perspektivləri problemləri ardıcıl surətdə hərtərəfli işıqlandırılmalıdır.

**Siyasi əhəmiyyətli ekspert fəaliyyətinin formalaşması prosesi**

Qədim zamanlardan hökmdarlar qəbul etdikləri qərarlar, yeni qanunlar, idarəetmənin təşkili və digər dövlət əhəmiyyətli məsələlərlə bağlı etibarlı məsləhət almaq üçün ekspert biliyinin daşıyıcılarına müraciət edirdilər. Bu mənada dövlət siyasətinin ekspert müşahidəsi bəşər sivilizasiyası qədər qədimdir və siyasi əhəmiyyətli biliyin mistisizmdən tutmuş müasir elmə qədər müxtəlif formalarını özündə ehtiva edir. Ekspertlərə (orakullara, astroloqlara, bəsirəti adamlara) məsləhət üçün belə növ müraciət təcrübəsini siyasi məsləhətləşmənin ən erkən forması kimi şərh etmək olar.

Artıq e.ə. ikinci minillikdə Mesopatamiya, Hindistan və Misirin qədim dövlətlərində həyatın yeni gerçəklikləri siyasi əhəmiyyətli biliyin istehsalı sferasında ixtisaslaşan və siyasi qərarların ( məsələn hərbi fəaliyyət, yaxud kənd təsərrüfatı işlərinin planlaşdırılması sahəsinə aid qərarların) nəticələrinin proqnozlaşdırılmasına cavabdeh olan təhsilli sosial stratanın mövcudluğunu zəruri etmişdi.

Orta əsr Avropasından başlayaraq publik siyasət üzrə mütəxəssislərin peşəkar sinfinin tarixi təkamülünü M.Veber "Siyasət istedad və peşə kimi" əsərində nümunəvi surətdə təsvir etmişdi. Tədricən dövlət maliyyəsinin idarə edilməsi, hərbi iş və məhkəmə icraatı elə üç əsas sahəni təşkil etdi ki, burada peşəkar ekspert biliyi "knyaz istibdadı" üzərində qələbə çaldı. Müasir analoqu spiçrayter olan humanitar təhsilli saray katibləri (mirzələri) də siyasi qərarların qəbul edilməsinə məhdud, lakin kifayət qədər əhəmiyyətli təsir göstərirdilər.

Amma Avropada yalnız sənaye inqilabı və maarifçilik dövründən başlayaraq siyasi əhəmiyyətli ekspert biliyi özünün xüsusi prosedurları olan nisbətən müstəqil fəaliyyət növünə çevrilir. Maarifçilik ideyalarının təsiri ilə bu fəaliyyət empirizm və elmi metod kanonlarına tabe olur.

Dövlətin idarə edilməsi və dövlət qulluqçularının hazırlanması məqsədi ilə hələ XVIII əsrin birinci yarısında kontinental Avropada, xüsusən Almaniyada maarifçi mütləqiyyət o zamanki müasir biliyin nailiyyətlərinin istifadəsinə dair sosial sifariş irəli sürür.

Dövlət tərəfindən ekspert komissiyaları və şuralarının yaradılması praktikasına ən azı XIX əsrin əvvəllərindən rast gəlinir. Məhz o zaman dövlət idarəçiliyinin tanınmış islahatçıları Karl fon Şteyn və Karl Avqust fon Qardenberq nazirliklər yanında elmi və praktiki fəaliyyət təcrübəsi olan ekspertlərin texniki və elmi komissiyalarının yaradılması təklifi ilə çıxış edirlər. Ölkənin sənayeləşmə dövrünə qədəm qoyması ilə "Qaynar qazan komitələri" geniş yayılır. Bu komitələr fəhlələr arasında sosial partlayışın qarşısını almaq, dövlət idarəçiliyinin ən aktual sosial problemlərinin həllinə texniki yardım göstərmək məqsədi ilə yaradılırdılar. Beləliklə, Almaniyada ekspert məsləhətləşməsinin

kökləri aşkar sənaye-texnoloji xarakterə malikdir. Amma sonradan belə növ məsləhətləşmə iqtisadi və sosial siyasət sahələrində də çox müsbət nəticələr verir. Məsələn 1880-ci ildə iqtisadiyyat məsələləri üzrə ekspert şurası, 1897-ci ildə mühacirət məsələləri üzrə şura və 1890-cı ildə səhiyyə məsələləri üzrə şura yaradılmışdı.

Bununla eyni vaxtda Böyük Britaniyada empirik verilənlərin mütəmadi yığımı və analizinə əsaslanan siyasi əhəmiyyətli bilik istehsalçılarının yeni nəsli formalaşır. 1830-cu illərdə alim, bankir və sənayeçilərin birgə səyləri ilə yaradılan London və Mançester statistik cəmiyyətləri sosial problemlərə dair ənənəvi (fəlsəfi-etik, normativ) təfəkkür üsullarını, urbanizasiya və sənayeləşmə proseslərini və onların ziddiyyətli sosial nəticələrini xarakterizə edən verilənlərin mütəmadi öyrənilməsi ilə əvəz etməyə can atırdılar.

Burjua cəmiyyətinin yeni sosial çağırışları qarşısında tərəqqipərvər islahatçılar (siyasətçi, alim, sənayeçi və maliyyəçilər) "sosial məsələnin" empirik tədqiqinin yerinə yetirilməsi, sosial islahatların həyata keçirilməsinin labüdlüyü, hökumətin, qanunvericilərin və bütövlükdə cəmiyyətin inandırılması məqsədi ilə elmi biliyin cəlb edilməsinin vacibliyini başa düşdülər. Böyük Britaniyada bu hərəkat özəl klub və cəmiyyətlər formasını aldı. Bunların arasında ən məşhur olanlar Fabian Society və Reform Club-dır. Ekspert mərkəzlərinin formalaşması dövrü məsələsinə gəldikdə qeyd edilməlidir ki, problemə kifayət qədər geniş yanaşılsa, onda sosialist hərəkatının ideya platformasının möhkəm elmi əsaslara qoyulmasına çalışan Fabian cəmiyyətini müasir siyasi ekspertiza mərkəzinin örnəyi kimi dəyərləndirə bilərik. Əgər formal təşkilatı, strukturu önə çəksək, onda siyasi ekspertizanın ilk tam mükəmməl mərkəzi qismində ABŞ-da 1907-ci ildə yaradılan Rassel Seyc Fondu göstərilməlidir.

Almaniyada praktiki və sosial istiqamətli iqtisadçılar 1873-cü ildə Sosial Siyasət Assosiasiyasını (Verein fur Socialpolitik) təsis etdilər. Həmin Assosiasiya hökuməti aktiv sosial siyasətin həyata keçirilməsinə vadar etmək məqsədi ilə mühüm əhəmiyyətli sosial problemlər sahəsində tətbiqi tədqiqatların aparılmasına təşəbbüs göstərməyi tələb edirdi.

XIX əsrdə ixtisaslaşdırılmış siyasi əhəmiyyətli biliyin istehsalı həlledici dərəcədə yeni və get-gedə daha da mürəkkəbləşən sənaye cəmiyyətinin hakim elitaları qarşısında duran praktiki və aktual problemlərin həllinə yönəldilmişdi. ABŞ-da bu biliyin istehsalı 1865-ci ildə yaradılan Amerika İctimai Elmlər Assosiasiyasının (American Social Science Association-ASSA) təbliğ etdiyi islahatçı və maarifçi ideyalarla şərtləndirilmişdi. Bu Assosiasiyanın ideologiyasına uyğun olaraq sosial tədqiqatçı ilk növbədə öz cəmiyyətinin yaxşılaşdırılmasına çalışan nümunəvi vətəndaş kimi çıxış etməli idi.

XX əsrin əvvəlində mütərəqqi islahatçılar belə qənaətə gəlmişdilər ki, müvafiq universitet təhsili almış siyasi ekspertlərin yeni nəsli eqoist maraqlar

siyasətinə meydan oxuyaraq sənaye inqilabının həyata gətirdiyi sosial və iqtisadi problemlərin real həllini təklif edə bilər. Həmin ekspertlərin səyləri nəticəsində siyasi proses təkmilləşəcək, cəmiyyət isə daha yaxşı məlumatlandırılacaq. Bu inam həm çoxsaylı ictimai elmlər fakültələri və publik siyasət ali məktəblərinin (Public Policy School) yaradılması və inkişafına, həm də dövlət qərarları qəbul edən şəxslər üçün siyasi əhəmiyyətli tədqiqatlar hazırlayan bir çox müstəqil ekspert strukturlarının formalaşmasına səbəb oldu.

Belə praktikanın elmi əsaslandırılması XX əsrin birinci qərinəsində siyasi-idarəçilik elmlərinin klassikləri (Ç.Merriamdan tutmuş Q.Lassvel və C.Kinqdona qədər) tərəfindən qoyulmuşdu. Bu və bir çox digər alimlər hesab edirdilər ki, ardıcıl elmi axtarışlar ümumi ideya iqliminə fundamental təsir göstərə bilər. Sonuncu isə öz növbəsində, uzunmüddətli perspektivdə qərar qəbul edən şəxslərin şüuruna nüfuz edir.

Amerika siyasi tədqiqatlar məktəbinin klassiki C.Kinqdon siyasi-idarəçi (policy community) və siyasətçilər ( political people) birliklərini bir-birindən ayırır və siyasi ekspertləri birinci birlik sırasına aid edirdi.

XX əsrin birinci yarısında alimlərin əksəriyyəti Kinqdom kimi inanırdılar ki, ictimai problemlərin həlli üçün hazırlanan elmi baxımdan əsaslandırılmış, metodiki nöqteyi-nəzərdən dəqiq və dürüst, möhkəm, hətta inkaredilməz sübutlarla gücləndirilmiş göstərişlər (tövsiyələr) siyasi debatların keyfiyyətini qat-qat yüksəltmək iqtidarındadır.

Bununla yanaşı belə növ bilik daşıyıcıları "çirkli" və münaqişəli siyasi proseslərə bulaşmamalı, qərəzsiz olmalıdırlar. XX əsr boyu siyasi ekspertlər həqiqətən də bu gözləntilərə cavab verərək neytral və tərəfsiz mövqe tutmağa çalışırdılar. Bütövlükdə siyasi ekspertiza qərarlar qəbul edən şəxslər üçün ən azı uzunmüddətli perspektivdə elmi baxımdan əsaslandırılmış, etibarlı və rasional tövsiyələr stilistikasını tətbiq edirdi.

Halbuki XX əsrin sonunda əks tendensiya özünü büruzə verir: siyasi-ekspert birliyinin əhəmiyyətli bir hissəsi elmi obyektivlik, ciddi rasionallıq və qərəzsizlik meyarlarına artıq cavab vermir. Uzunmüddətli perspektivə hesablanmış ənənəvi, dərin və hərtərəfli analitik tədqiqatların yerinə ekspertlərdən tez-tez günün gündəliyinin ən aktual məsələlərinə dair aqressiv, böyük əks-sədaya hesablanmış proqnostik rəylər eşidilir. Ekspert kommunikasiyasının forma və metodlar arsenalı mətbuat konfransları, publik parlament dinləmələri və kəskin televiziya müzakirələri hesabına genişlənir. Belə növ aktivliyin əsas hissəsi sayı ciddi surətdə artan və "beyin mərkəzləri" kimi tanınan ekspert strukturları əməkdaşlarının payına düşür. Bu təcrübə həmin ekspert strukturlarının müasir siyasi diskussiyaların məzmununa güclənən təsirini sübuta yetirir.

Klassik mövqeyə əks olaraq hazırda siyasi ekspertlər cari siyasi debatlarda aktiv iştiraka meyillidirlər. Neytrallıq və obyektivlik prinsiplərini kənara

ataraq onlar müəyyən ideya və ideologiyaların aqressiv vəkilləri, hərdən isə hətta siyasi kompromis axtarışında broker rolunda da çıxış edirlər.

## Dövlət siyasətinin ekspert müşahidəsinin mahiyyəti və spesifik cəhətləri

1960-cı illərə qədər əksər ölkələrdə (ABŞ istisna idi, çünki bu ölkədə müvafiq proseslər iki onillik ötüb keçmə ilə inkişaf edirdi) hökumət öz dövlət qulluqçularının səriştəliyi və bacarıqlılığına tam arxayınlıqla yanaşırdı. Həmin illərdə tədqiqatçılar siyasətlə elmin qarşılıqlı əlaqəsini əsasən nəzəri baxımdan təhlil edirdilər. 1970-1980-ci illərdə isə bunu artıq təcrübədə görmək mümkün oldu. Bütövlükdə siyasi prosesin və dövlət idarəçiliyinin ayrı-ayrı hissələrinin mürəkkəbləşməsi boyunca siyasi məsləhətçilərə müraciətlər geniş vüsət aldı. Nəhayət, 1990-cı illərdə belə kompleks qarşılıqlı münasibətləri açıqlayan nəzəri modellərin qısa və dürüst izahının vaxtı yetişdi. "Siyasi məsləhətləşmə" termini geniş yayılmağa başladı.

Xüsusi vurğulanmalıdır ki, siyasi məsləhətləşmənin bir fenomen kimi (iştirak edən aktorların – ekspertlərin və sifarişçilərin – rol mövqeyindən asılı olaraq) mövcudluğunun müxtəlif formaları vardır. Yurgen Habermasın ardınca üç mümkün model qeyd olunur:

1. desizionist model nəzərdə tutur ki, dövlət qərarlarını qəbul edən şəxslər dövlət siyasətinin məqsədlərini qısaca və dürüst ifadə edir, ekspertlər isə bunlara nail olmaq üsullarını açıqlayırlar;
2. texnokratik model ona əsaslanır ki, ekspertlər həm məqsədləri, həm də uyğun vasitələri təklif edir, qərarları qəbul edən şəxslər isə bunların implementasiyasını yerinə yetirirlər;
3. praqmatik modelin mahiyyətinə görə məqsəd və vasitələr demokratik müzakirələr zamanı aydınlaşır, sonra qərarlar qəbul edən şəxslər bunların implementasiyasını həyata keçirirlər.

Son onilliklər boyu qərarların işlənib hazırlanması və qəbul edilməsi prosesində ekspertlərin (məsləhətçilərin) rolu ciddi müzakirə və mübahisə predmetinə çevrilmişdir ki, bu da bir sıra ölkələrdə onların fəaliyyətinin formatında müəyyən dəyişikliklərə gətirib çıxarmışdır. Bir çox tənqidi rəylərdə məsləhətçilərin xidmətlərinin yüksək qiyməti və işlərinin keyfiyyəti arasında uyğunsuzluq, məsləhətçi və siyasətçilərin qarşılıqlı əlaqəsində korrupsiya sxemlərinin mövcudluğu, həm də bu fəaliyyətin məsuliyyəti və hesabatlılığının aşağı səviyyəsi vurğulanır. Səslənən tənqidə reaksiya birmənalı olmamışdır. Məsələn Niderlandda həmin sahədə dövlət tənzimlənməsi tədbirləri tətbiq edilmiş, Almaniya və Danimarkada özünüməhdudlaşdırma yolu seçilmişdir.

Müasir inkişaf etmiş parlament demokratiyalarında ekspert-məsləhətçi sisteminin mürəkkəb strukturu haqqında ümumi təsəvvürü alman mütəxəssisləri S.T.Siefken və M.Şults tərəfindən hazırlanan və aşağıda diqqətinizə təqdim edilən sxem verir [11].

**Qərb parlament demokratiyalarında ekspert məsləhətləşmə sistemi**

| Müştərilər | Formalizasiya | | | |
|---|---|---|---|---|
| | İnstitusional-laşdırılmış | Tənzimlənən | | Qeyri-formal |
| | | kənardan | daxildən | |
| İcra hakimiyyəti | - Hakimiyyət departamentləri<br>- Departamentlərin analitik xidmətləri<br>- İxsisaslaşdırılmış dövlət şuraları | - Məsləhətləşmə şuraları, ictimai şuralar | - Məsləhətləşmə şuraları<br>- Komissiyalar<br>- Məsləhətləşmə kompaniyaları | - Müşavirələr<br>- Sifarişli tədqiqatlar<br>- Sammitlər |
| Qanunverici hakimiyyət | -Parlament aparatı<br>-İxtisaslaşdırılmış parlament komissiyaları<br>-Parlament yoxlamaları komissiyaları<br>-Auditor(hesablama) palatası<br>-Texniki qiymətləndirmə xidməti | -Parlament dinləmələri | | - Lobbiçilər<br>- Maraq qrupları<br>- Seçicilərlə görüşlər |
| Cəmiyyət | -Beyin mərkəzləri<br>-Partiya fondları<br>-Qeyri-partiya fondları | | - Xəbər mediaları<br>- Akademik tədqiqatlar<br>- Konfranslar, dəyirmi masalar | - Televiziya tok-şouları<br>- İntellek-tuallar, ictimai rəy liderləri |

Qeyd edək ki, əsas funksiyasından, yəni siyasi-administrativ qərarların işlənib hazırlanması və qəbul edilməsi prosesinin informasiya-analitik təminatından başqa siyasi məsləhətləşmənin digər latent funksiyaları da ola bilər. Bunlardan ən əsasları aşağıdakılardır:

– kommunikativ və simvolik funksiyalar (publik gündəliyin formalaşdırılması);
– legitimləşmə funksiyası (qəbul edilən qərarın müstəqil, yaxud elmi nüfuzlu rəylə möhkəmləndirilməsi);
– təmsiletmə funksiyası (müvafiq siyasi altsistem iştirakçılarının özünütənzimlənməsinə kömək).

Məsləhətləşmə strukturlarının fəaliyyəti ilə bağlı funksiyaların geniş dairəsinin anlaşılması siyasi qərarların işlənib hazırlanması və qəbul edilməsi prosesində onların yeri və rolunu daha dəqiq mövqeləndirməyə imkan verir.

Bu ekspert-məsləhətləşmə sisteminin statistik (struktur) xarakteristikalarından dinamik (prosessual) xüsusiyyətlərinə keçərkən ilk əvvəl ondan başlanılmalıdır ki, inkişaf etmiş qərb demokratiyalarında dövlət siyasətinin işlənib hazırlanması prosesi yuxarıdan aşağıya istiqamətlənmiş vektora malikdir: təşəbbüs institusional liderlərdən, ilk növbədə biznes, maliyyə və media sahəsindəki liderlərdən gəlir, həm də o zaman ki, öz maraq və dəyərlərinə hədə kimi qəbul edilən bəzi sosial təzahürlərlə bağlı onlar narahatlıq keçirməyə başlayırlar. Elitaların maraqlarına birbaşa toxunmayan bir vəziyyətdə ictimai təzahürlərin problem kimi eyniləşdirilməsinə, həm də diskussiya predmetinə çevrilməsinə çox az şans vardır. Lakin bu heç də o demək deyil ki, vaxtaşırı bilikli, mədəni elitalar kütlələrin maraqlarına toxunan problemlərdən irəli gələn ictimai narazılığın güclənməsini önləməyə qadir deyil.

Dövlət idarəçiliyi üzrə tanınmış mütəxəssis U.Domhoff yazır: "Dövlət siyasətinin formalaşması prosesi korporativ məsləhətləşmə otaqları, klublar və müzakirə qruplarında qeyri-formal şəkildə başlanır. Burada siyasi həllini gözləyən bu, yaxud digər situasiyalar "problem" kimi eyniləşdirilir. Həmin prosesin son nöqtəsi bu siyasi qərarları təsdiq və realizə edən dövlət orqanlarıdır. Hər iki vəziyyət (mövqe) arasında kompleks şəbəkə mövcuddur, hansı ki, problemlərin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsində, onların həllinin müxtəlif alternativ variantlarının ölçülüb-biçilməsində öz rolunu oynayır"[4]. Bütövlükdə siyasi qərarların qısa və dürüst ifadə edilməsi prosesi hakim elitalardan başlayaraq aşağı enir və administrativ strukturları, özəl fondları, beyin mərkəzlərini, siyasi planlaşdırma və layihələşdirmə institutlarını, həm də KİV-i əhatə edir. Bundan başqa, daimi əsaslarla işləyən və ən vacib siyasi məsələlər üzrə elit konsensus əldə etmək məqsədi ilə xüsusən yaradılan institutları, məsələn ABŞ-da İqtisadi İnkişaf Şurasını (Council of Economic Development) və Dəyirmi Biznes Masasını (The Biznes Roundtable) qeyd etmək olar. Şura həm siyasi qərarları qısa və dürüst ifadə edir, həm də Vaşinqtonda biznesin təşkilatlanmış maraq qrupu rolunu oynayır.

Dəyirmi Biznes Masası elitaların koordinasiyasının olduqca nüfuzlu institutudur və ABŞ-ın 200 ən böyük korporasiyalarının top-menecerlərini birləşdirir. Dəyirmi Masanın yüksək statusu qismən onun çox ciddi qaydaları sayəsində saxlanılır. Həmin qaydalara görə korporasiya rəhbərinin müşavirəyə, hətta vitse-prezident səviyyəsində belə öz nümayəndəsini göndərmək ixtiyarı yoxdur.

Dəyirmi Masanın gündəlik işi "işçi qrupları" formasında təşkil olunmuşdur. Bu qrupların tərkibinə korporasiyaların yalnız birinci şəxsləri daxildir. Hər "işçi qrupu" konkret problem sahəsi ilə məşğul olur, analitik tədqiqatlar təşkil edir, əsas prioritet və istiqamətlər üzrə konsensus işləyib hazırlayır, üstəlik tərtib etdiyi siyasi tövsiyələrin gerçəkləşdirilməsi üzrə planlar tutur. Gerçəkləşdirilmə tədbirləri parlament dinləmələrində çıxışları, həm də dövlət qərarlarını qəbul edən əsas şəxslərlə xüsusi əlaqələri daxil edə bilər.

Korporativ və özəl kapitallar özəl fondlarda – siyasi planlaşdırma və layihələşdirmə institutları ("fikir fabrikləri", "beyin mərkəzləri"), universitet, kolleclər, mədəniyyət və incəsənət təşkilatları və s. adətən vergilərdən azad edilən təsisatlarda- akkumulyasiya olunur. Ən böyük ABŞ fondları sırasında ilk növbədə Ford, Rokfeller, Karnegi, Mellon, Pyu, Dyük, Lilli, Kelloq, Getti, Pakkard fondları yer alır. ABŞ-da kapitalı 2 milyon dollar və daha çox olan 10 mindən artıq fond fəaliyyət göstərərək cəm halında 300 milyard dollardan artıq aktivləri nəzarətdə saxlayır və hər il 15 milyarda yaxın dollar qrant bölüşdürürlər. Bunlardan 38-i bütün Amerika fondlarının 50% aktivlərini kontrol edir.

Siyasi qərarların işlənib hazırlanması prosesini nisbətən az saylı ən iri fondlar maliyyələşdirirlər. Belə növ təşkilatların əksəriyyəti öz vəsaitlərini muzey, teatr və digər incəsənət növlərinə xərcləyir, publik siyasətin problem sahələrinin geniş dairəsini isə, məsələn, Ford, Karnegi və Rokfeller fondları maliyyələşdirirlər.

Fondlar lazımi dərəcədə siyasi planlaşdırma və layihələşdirmə institutlarının gündəliyini formalaşdırır. Yardım göstərərək bunlar sosial problemləri eyniləşdirir, milli prioritetləri müəyyən edir, siyasi müdaxilə istiqamətlərini göstərirlər.

Öz növbəsində siyasi planlaşdırma və layihələşdirmə institutları ("beyin mərkəzləri") siyasi qərarların dürüst ifadə edilməsi prosesinin koordinasiyasının əsas mexanizmi kimi çıxış edirlər. Məhz bu institutlarda dövlət siyasətinin müxtəlif sahələrində ən vacib təşəbbüs və prioritet istiqamətlərin dəstəklənməsini təmin edən konkret siyasi tövsiyələr və tədqiqatlar hazırlanır. Yenə də burada əvvəlki mərhələdə üzə çıxarılan problemlərin dəqiqləşdirilməsi və hərtərəfli müəyyənləşdirilməsi, onların konkret həllinin tapılması baş verir.

Bir qayda olaraq belə təşkilatların fəaliyyətini arzu olunan sosial-iqtisadi və siyasi nəticələr barədə müəyyən təsəvvürlərə əsaslanan strateji məqsədə yönümlülük fərqləndirir. Bu isə siyasətçilərə və cəmiyyətə həmin institutlar tərəfindən təqdim edilən informasiya əsasında qərarlar qəbul etməyə imkan verir. Bu da "beyin mərkəzlərinin" məhsullarının akademik tədqiqatlardan fərqləndirən başlıca xüsusiyyətdir.

"Beyin mərkəzləri" siyasi qərarların işlənib hazırlanması prosesində müəyyənləşdirici yer tutur. Onlar özəl fondların və dövlət qrantlarının pullarını siyasi alternativlərə konvertasiya edir. İlk dəfə XX əsrin əvvəllərində ABŞ-da hökumət proqramlarını işləyib hazırlayan universitet strukturları kimi meydana gələrək hazırda onlar analitik mərkəz, seçki texnologiyaları mərkəzi, publik siyasət mərkəzi və başqa digər nəhəng sayda növ və formaya malikdirlər.

Belə təşkilatların bəziləri, məsələm Brookings İnstitute, American Enterprise İnstitute, yaxud Heritage Foundation siyasi sahələrin geniş spektrini əhatə edərək öz təsirlərini həyata keçirirlər. Digərləri, məsələn Council on Foreign Relations və onun çoxmilli qolları, Üçtərəfli Komissiya bütün qərb ölkələrinin siyasətinə təsir göstərərək özünəxas qlobal beyin mərkəzlərinə çevrilmişlər. Belə növ strukturların əksəriyyəti isə dövlət siyasətinin müəyyən sahəsi, məsələn, Urban İnstitute şəhər planlaşdırılması məsələləri, Population Council dünyada doğum sayının kontrol məsələləri üzrə ixtisaslaşırlar.

Bu gün dünyada ən tanınmış ekspert mərkəzi "Rend" korporasiyasıdır. Bu təşkilat məlum olduğu kimi, 1946-cı ildə ABŞ-ın Hərbi hava qüvvələrinin sifarişlərini yerinə yetirmək üçün yaradılmışdır. İlkin olaraq həmin korporasiyanın mütəxəssisləri sırf texniki məsələlərin işlənib hazırlanmasına diqqət yetirirdilər. 60-cı illərdən başlayaraq onların prioritetləri sırasına ictimai siyasətin mülki məsələləri də daxil edildi. Çünki aydın oldu ki, milli təhlükəsizlik məsələlərinin obyektiv baxılması və tədqiqi təkcə hərbi-texniki aspektlə məhdudlaşdırıla bilməz. Hazırda özünün əsas məqsədi kimi "Rend" obyektiv informasiyanın və elmi tövsiyələrin təqdimatının köməkliyi ilə publik siyasətin keyfiyyətinin yaxşılaşdırılmasını bəyan edir. Korporasiya 80% -i doktorluq dərəcəsi almış 500-dən artıq yüksək səviyyəli peşəkar tədqiqatçı xidmətindən yararlanır. Əsas tədqiqat sahələri iqtisadiyyat, təhsil, səhiyyə, informasiya texnologiyaları, beynəlxalq siyasət, idarəçilik, milli təhlükəsizlik və hərbi tədqiqatlardır.

Əgər ekspert mərkəzlərinin ilk dalğası XX əsrin birinci yarısında yaranırdısa, məsələn Karnegi Fondu (ABŞ, 1914), Dünya İqtisadiyyatı İnstitutu (Almaniya, 1914), Brukinqs İnstitutu (ABŞ, 1916), Kral Beynəlxalq Münasibətlər İnstitutu (Böyük Britaniya, 1920) və burada əsasən iki dünya

müharibəsinin kataklizmlərindən çıxış yolunu tapmaq cəhdləri ilə bağlı müxtəlif, o cümlədən iqtisadi, humanitar, hüquqi problemlər işlənib hazırlanırdısa, ekspert mərkəzlərinin yeni ( ikinci) dalğası keçən əsrin 60-cı illərinə aiddir. Bu zaman meydana çıxan "fikir fabriklərinin" ən məşhurları Roma klubu (1968), Siyasi tədqiqatlar bürosu D-66 (Niderland, 1966) və İnkişaf edən iqtisadiyyatlar institutu (Yaponiya, 1960) hesab edilir. Bu analitik mərkəzlər Rend korporasiyası kimi müasir dünyanın bütün problemlərini əhatə etməyi qarşılarına məqsəd qoymur. Onlar daha dar tədqiqat sahələrində (ekologiya, inkişaf edən ölkələrin iqtisadiyyatı və s.) ixtisaslaşırlar.

XX əsrin 70-ci illərində fikir fabriklərinin ideologizasiyası prosesi güclənir. Bu illərdə baş verən iqtisadi böhran iqtisadiyyatın keynsian idarəetmə metodlarına dair keçmiş konsensusa son qoyur. "İrs" fondu (ABŞ, 1973) və Adam Smit İnstitutu (Böyük Britaniya, 1977) kimi fikir fabrikləri həmin böhranın aradan qaldırılmasının neoklassik monetarist reseptlərini işləyib hazırlamağa başlayırlar. Sosialist istiqamətli analoji təsisatlar da yaradılır. Əgər ABŞ-da 70-ci illərdə ekspert mərkəzlərinin təxminən dörddə biri ideoloji istiqaməti ilə seçilirdisə, artıq 90-cı illərdə onların əksəriyyəti müəyyən ideoloji paradiqma çərçivəsində fəaliyyət göstərirdi. Hərdən belə növ analitik mərkəzlərə dair "advokat fikir fabrikləri" termini işlədilir. Lakin XX əsrin sonlarında "advokat" analitik mərkəzlərinin yeni növü əmələ gəlir. Bunlar iri korporasiya, yaxud sənaye birlikləri tərəfindən yaradılaraq yalnız onların sifarişlərini yerinə yetirir və lobbist xarakterli təşkilatlara daha çox yaxınlaşırlar.

Öz fəaliyyətlərində fikir mərkəzləri iki sahədə: maliyyə mənbələri bazarında və publik siyasətə öz işləmələrini irəli çəkmə sferasında rəqabət aparırlar. Hərdən bu sahələr bir-birinə qarışır. Məsələn, milli hökumətlər ya beynəlxalq təşkilatlar bu fikir fabriklərini hansısa konkret sosial, yaxud iqtisadi sferada tövsiyələri və fəaliyyət proqramlarını işləyib hazırlamaq üçün dəvət edəndə belə vəziyyət yaranır.

Yeri gəlmişkən qeyd edək ki, elmi ədəbiyyatda ekspert mərkəzləri olan "fikir fabrikləri" kateqoriyası müxtəlif cür başa düşülür. Bəzi müəlliflər onları dövlət analitik xidmətləri kimi dəyərləndirir. Başqaları universitetlərlə affilyasiya olunan tədqiqat mərkəzləri və institutları ilə eyniləşdirir. Üçüncülər bu kateqoriyaya təşkilatlanmış maraq qrupları və lobbist təsisatları nəzdində analitik strukturları aid edir. Nəhayət, tədqiqatçıların böyük bir hissəsi bu kateqoriya kimi yalnız təşkilatlanmış maraqlar ilə əlaqəli olmayan, siyasi qərarların qəbulu prosesinə təsir göstərmək məqsədi ilə öz fəaliyyətində ekspert biliyinə və ideyalarına arxalanan müstəqil, qeyri-kommersiya təsisatlarını qəbul edir.

“Fikir fabriklərinin” əsas funksiyalarını səciyyələndirərək ayrı-ayrı müəlliflər siyasi alternativlərin istehsalını (Kingdon), partiyaların siyasətinin dəstəklənməsini ( Gellner), siyasi debatların həddinin müəyyənləşdirilməsini (Smit), həm də dövlət siyasətinin işlənib hazırlanması və qərarların qəbul edilməsi proseslərində bir çox mümkün mövqelərdən hər hansının aydınlaşdırılmasını (Polsbi) seçirlər. Yuxarıda göstərilənləri nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, beyin mərkəzlərinin differensiasiyasının meyarı kimi onların istehsal etdiyi məhsul və qarşılarında qoyduqları məqsəd qəbul edilməlidir.

Keçən əsrin sonunda “fikir fabriklərinin” şaxələnməsi prosesi nəzərə çarpan dərəcə sürətlənir. Belə ki, Ceyms MakQann müasir ekspert mərkəzlərinin aşağıdakı təsnifatını təklif edir:

1. Bir qayda olaraq böyük universitetlərlə affilyasiya olunmuş akademik ekspert mərkəzləri. Bunların əksəriyyəti öz bitərəfliyini vurğulayaraq siyasi diskussiyalarda dəqiq mövqe nümayiş etdirmirlər;
2. Dövlət orqanlarının sifarişlərinin həyata keçirilməsi üzrə ixtisaslaşan ekspert mərkəzləri tez-tez hərbi sahə, yaxud dövlətin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı “strateji tədqiqatlar” sahəsində çalışırlar;
3. Əsasən tədqiqatlarla deyil, bu, yaxud digər sahədə konkret qərarların qəbuluna kömək edən informasiyanın yayılması ilə məşğul olan “advokat” ekspert mərkəzləri. Onlar analoji baxışları bölüşən siyasi partiyalar, yaxud ictimai təşkilatlarla sıx əlaqədə çalışırlar[8].

Dünyada inkişafın əsas trendi olan qloballaşma fikir fabriklərinin fəaliyyətinə ciddi surətdə təsir edir. Hazırda analitik siyasi məsləhətləşmənin bu proseslə bağlı bəzi aparıcı tendensiyaları formalaşır. Belə ki;

1. Ekspert mərkəzlərinin sayı əvvəllər görünməyən yüksək templə artır.
2. Maliyyə mənbələri uğrunda gedən rəqabət ciddi surətdə kəskinləşir.
3. Müasir ekspert mərkəzləri yarım əsr bundan əvvəl yaranan sələflərindən fərqli olaraq daha az sayda problem üzrə ixtisaslaşır.
4. “Advokat” ekspert mərkəzləri ideyalar bazarında sırf elm istiqamətli təşkilatları sıxışdırır.

Maraqlıdır ki, ABŞ-da və Avropa Birliyində siyasi ekspertiza mərkəzləri bilavasitə elektoral menecmentlə məşğul olmurlar. Bu, ilk növbədə oradakı qanunvericiliklə bağlıdır. Latın Amerikasında və bir sıra postkommunist ölkəsində, o cümlədən Rusiyada siyasi ekspertiza və elektoral siyasi menecment funksiyalarının birləşdirilməsi adi haldır. Amma nəzərə alınmalıdır ki, Rusiyada 2004-cü ildə aparılan siyasi reformalar siyasi məsləhətləşmənin bir fəaliyyət növü kimi cəlbediciliyini kifayət qədər azaltmışdır.

Normativ-hüquqi cəhətdən beyin mərkəzləri əsasən dövlət siyasətinin aktual problemləri üzrə analitik tədqiqatların və ideyaların istehsalı və yayılması ilə məşğul olan qeyri-kommersiya təşkilatlarıdır. Siyasi cəhətdən isə onlar ekspert biliyi və ideyaları vasitəsilə öz publik reputasiyasını və dövlət qərarlarının qəbul edilməsi prosesinə dair çıxış imkanlarını artırmağa can atan institutlardır. Klassik beyin mərkəzləri – hətta onların ideoloji inam və dəyərlərini bölüşən vətəndaşlar tərəfindən dəstəklənən beyin mərkəzləri - həlledici dərəcə öz reputasiyası və istehsal etdikləri analitik məhsullara inam səviyyəsindən asılıdırlar.

Publik reputasiyalarını yüksəldərək beyin mərkəzləri müstəqilliklərini də maksimallaşdırmağa çalışırlar. Eyni zamanda onlar siyasi prosesə dair çıxışı da maksimallaşdırmağa səy göstərirlər. Siyasi qərarların dürüst ifadə edilməsi prosesində qlobal beyin mərkəzləri xüsusi rol oynayır. Beynəlxalq Münasibətlər üzrə Amerika Şurası (BMŞ) (Council on Foreign Relations) və onun multimilli qolu - Üçtərəfli Komissiya (Trilateral Commission) əsl “qlobal beyin mərkəzlərinə” çevrilərək qlobal siyasi qərarlar işləyib hazırlayır və qlobal siyasi elitaların qarşılıqlı əlaqəsinə imkan yaradırlar. BMŞ uzun müddət ABŞ-ın xarici siyasi kursunun işlənib hazırlanması mexanizmində aparıcı mövqe tutur. Öz növbəsində, Üçtərəfli Komissiya Şimali Amerika, Avropa və Asiya- Sakit okean regionu elitalarının nümayəndələrini özünə daxil edən dünyada ilk siyasi planlaşdırma təşkilatıdır.

BMŞ-in missiyası xarici siyasətlə bağlı tövsiyələrin işlənib hazırlanması və siyasi elitalar arasında konsensusun formalaşdırılmasıdır. Onun fəaliyyətinin alqoritmi fondların maddi dəstəyi ilə xarici siyasət məsələləri üzrə dərinləşdirilmiş tədqiqatların aparılmasını nəzərdə tutur. Tədqiqatların başa çatdırılmasından sonra BMŞ öz üzvləri üçün dövlətin yüksək vəzifəli şəxslərinin iştirakı ilə seminar və diskussiyalar keçirir. Bu qlobal beyin mərkəzi dünyada Amerika xarici siyasətinin qeyri-rəsmi carçısı kimi qəbul olunan “Foreign Affairs” jurnalını dərc edir. Çox önəmlidir ki, əvvəlcə həmin jurnalın məqalələrində şərh edilməyən ABŞ xarici siyasi təşəbbüslərini göstərmək belə olduqca çətindir.

Həmin Şuranın fəaliyyətində bugünkü üstünlüklər kimi ilk növbədə ABŞ-ın qlobal liderlik strategiyasını, dəyişən dünyada ABŞ milli təhlükəsizlik konsepsiyasının yenidən qiymətləndirilməsini, qlobal dünya ticarətinin stimullaşdırılmasını qeyd etmək lazımdır.

Üçtərəfli Komissiya sənaye baxımdan inkişaf etmiş demokratik dünyanın əsas mərkəzləri (Şimali Amerika, Qərbi Avropa və Yaponiya) arasında daha sıx əməkdaşlığa kömək etmək məqsədi ilə 1973-cü ildə yaradılmışdır. Üçtərəfli Komissiya qeyri-hökumət təşkilatı sayılır, onun tərkibində hakimiyyətin üç dünya mərkəzinin 390-dan artıq görkəmli şəxsi fəaliyyət göstərir. Hazırda Komissiyanın üç həmsədri Şimali Amerikadan kiçik C.Nay, Avropa Birliyindən Jan-Klod Trişe və Asiya-Sakit okean regionundan Y.Xaşeqavadır. Tədqiqatların əsas istiqamətlərini enerji təhlükəsizliyi, iqlim dəyişiklikləri, nüvə silahının yayılmasına əks-təsir, səhhətin qorunması sahəsində qlobal çağırışlar, Rusiya ilə münasibətlərin yeni vəziyyəti təşkil edir.

Siyasi planlaşdırma və layihələşdirmə institutları yalnız ölkənin ən əsas problemləri və onların həlli yollarının tapılması ilə məşğul olmur, eyni zamanda hakim elitalar, KİV, maraq qrupları, dövlət xadimləri və siyasi liderlər arasında konsensusun əldə edilməsi sahəsində də böyük uğurlar qazanırlar. Onlar öz təkliflərinin prezentasiyasını keçirərək KİV, icra və qanunverici orqanların nümayəndələri ilə görüşür, parlament komitələri tərəfindən təşkil olunan publik və qapalı dinləmələrdə və dəyirmi masalarda iştirak edir, maraq qruplarını toplayır və hökumət həmfikirləri ilə birbaşa əlaqələr qururlar. Beyin mərkəzlərinin tövsiyələri press-reliz vasitəsilə KİV-də, həm də icra və qanunverici orqan strukturlarına birbaşa göndəriş formasında yayılır.

Azərbaycana gəldikdə isə xüsusi vurğulanmalıdır ki, digər postsovet ölkələrində olduğu kimi vətən analitik mərkəzləri Sovet İttifaqının dağılmasından sonra formalaşmağa başlamışlar. 2020-ci ilin Global go to think tank hesabatına əsasən ölkəmizdə 20 beyin mərkəzi statusunda təşkilat mövcuddur. Xatırlatmaq yerinə düşər ki, 2008-ci ilin hesabatında 13 beyin mərkəzi qeyd olunurdu. Deməli, bu müddət ərzində onların sayı artmışdır. Hazırda Azərbaycanda fəaliyyət göstərən beyin mərkəzlərinin sırasında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM), Sosial Tədqiqatlar Mərkəzi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzi, Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Topçubaşov Mərkəzi, STEM Mərkəzi və başqaları öz güclü potensialı ilə seçilir.

Eyni zamanda beyin mərkəzləri qismində fəaliyyət göstərməyə can atan QHT-lərin də sayı artmaqdadır və hazırda 30-a yaxındır. Bunlardan 20-si dövlətlə sıx əməkdaşlıq edir, qalanları tam müstəqildir, yaxud siyasi qüvvələrlə

bağlıdır. Onları daxili və xarici siyasətlə məşğul olmaqla iki yerə bölmək olar. Amma bu, şərtidir. Çünki müasir dünyada xarici və daxili siyasət bir-birilə sıx bağlıdır. Bütövlükdə beyin mərkəzlərinin sayına görə Azərbaycan Asiya regionu üzrə 15-ci pillədə qərarlaşır.

Son illər ölkəmizdə beyin mərkəzlərinin inkişafına xüsusi diqqət göstərilir. 2022-ci ilin 28 sentyabr tarixində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə baş tutan Azərbaycan Beyin Mərkəzlərinin Birinci Forumu bu sahədə əldə olunan inkişaf nümunələrindən biri kimi dəyərləndirilə bilər. Forumun keçirilməsində əsas məqsəd beyin mərkəzlərinin fəaliyyətinin stimullaşdırılması və dövrün tələblərinə uyğun təşkil edilməsi, dövlət qurumları və beyin mərkəzləri arasında mütəmadi kommunikasiyanın və əməkdaşlığın qurulmasının təmin edilməsi idi. Forum, eyni zamanda, beyin mərkəzlərinin cəmiyyətdə təbliği baxımından mühüm əhəmiyyət daşıyırdı.

Burada dövlət siyasətinin ekspert müşahidəsi məsələlərinə geniş yer ayrılmışdı. Bildirilmişdir ki, beyin mərkəzləri dövlətin gələcəkdə idarə edilməsi strategiyasının olduqca vacib tərkib hissəsidir. Onlar proqnozlar verir, gələcəyin mümkün ssenarilərini ayırır.

Analitik mərkəzlərin ölkəmizdə həm sayının, həm də rolunun artması dövlət siyasətinin müxtəlif istiqamətləri ilə bağlı müstəqil ekspertizaya, obyektiv qiymətləndirməyə, proqnozlaşdırmaya və müvafiq qərarların təklif olunmasına tələbatın güclənməsindən xəbər verir. Beyin mərkəzləri üçün yeni çağırışlar sırasında əvvəlcə ayrı-ayrı regionlarda xəritələrin yenidən cızılması xüsusi vurğulanmışdır və belə nəticəyə gəlinmişdir ki, analitik mərkəzlər mütləq qeyri-müəyyən gələcəyə hazır olmalıdırlar.

Daha bir mühüm əhəmiyyətli çağırış kimi informasiyanın hazırki olduqca yüksək sürəti göstərilmiş və bu sürətə uyğunlaşmaq tələbatının təmin edilməsi məsələsi önə çəkilmişdir.

Lakin bu sahədə nailiyyətlərlə yanaşı müəyyən çatışmazlıqlar da mövcuddur. Əvvəla, dövlət siyasətinin işlənib hazırlanması sahəsində ekspert müşahidəçisi qismində çıxış edən (yaxud bu statusa iddialı olan) beyin mərkəzləri ilə hakimiyyət arasında Qərbdə olduğu kimi möhkəm qarşılıqlı əlaqə ənənəsi, dayanıqlı sistem hələ tam formalaşmayıb. Bu istiqamətdə işlər başlayıb və getgedə qaydaya salınmaqdadır. İkincisi, dövlət ekspert strukturlarından (xüsusən beyin mərkəzlərindən) seçim etmək üçün elmi baxımdan əsaslandırılmış ciddi intellektual məhsul, orijinal və effektiv təklif, yüksək keyfiyyətli analitika qıtlığı aradan qaldırılmayıb. Üçüncüsü, yaxınlaşan qlobal ekoloji kollaps və bu vəziyyətlə bağlı ESG məsələlərinin təhlili, uyğun təkliflər və tövsiyələr yox dərəcəsindədir. Fikrimizcə, qeyd olunan çatışmazlıqların aradan qaldırılmasının vaxtı artıq çatıb. Ümid edirik ki, qərb ölkələrində müstəqil siyasi

mərkəzlər, elm aləmi və hakimiyyət arasında mövcud olan həmahəng ideya və kadr arxitekturası burada da tezliklə qurulacaqdır. Azərbaycanda siyasi sistemin demokratikləşməsi və optimallaşdırılması vektorunun saxlanılması, demokratik prosedur və praktikasının təkmilləşməsi, demokratik institutların (parlament, qeyri-hökumət təşkilatları, siyasi partiyalar, biznesin təzyiq qrupları, həmkarlar təşkilatları və s.) get-gedə daha da güclənməsi ölkə beyin mərkəzlərinin tədricən müstəqilliyinin artmasına, onların siyasi və intellektual təsirinin möhkəmlənməsinə, zəmanəmizin ən aktual məsələləri ilə ciddi məşğul olmasına və bütövlükdə dövlət siyasətinin ekspert müşahidəsinin müasir dövrün tələblərinə uyğunlaşdırılmasına səbəb olacaq deməyə imkan verir.

**Nəticə**

Artıq yaxşı bəllidir ki, hazırda insanlıq "olum, ya ölüm" dillemması qarşısındadır. Bütövlükdə faciəvi ekoloji vəziyyət və konkret olaraq iqlim kollapsı dünya siyasətinin qlobal surətdə transformasiya olunmasını qaçılmaz edir. O da dəqiq məlumdur ki, məhz bəşəriyyətin ekoloji fəlakət həddinə çatması iqlim kollapsının yer üzərində hamıya hədə qismində ümumi düşmənə çevrilməsinin və beləliklə bu problemin milli təhlükəsizlik səviyyəsindən üstmilli səviyyəyə keçərək qlobal miqyas almasının əsas səbəbidir. Bunun nəticəsində birbaşa ətraf mühit, idarəçilik və bərabərliklə bağlı olan ESG bizim sivilizasiyanın taleyüklü məsələsi statusunu əldə etmişdir. Bütün ölkələrdə həmin məsələnin dövlət idarəçiliyinin fundamental əhəmiyyət kəsb etməsi bizi maraqlandıran sahəyə məxsusi bilik, bacarıq və kompetensiyalara malik peşəkar məsləhətçilərin cəlb edilməsini, onlar tərəfindən lokal elmi tədqiqat mərkəzlərində lazımi işlərin aparılmasını və bəşəriyyətin xilası naminə yaradılması və aktiv səmərəli fəaliyyəti mütləq olan planetar miqyaslı Vahid beynəlxalq elmi-tədqiqat mərkəzində səylərinin birləşdirilməsini tələb edir. Yuxarıda qeyd olunanlar sübuta yetirir ki, dövlət siyasətinin həyata keçirilməsində ayrı-ayrı peşəkar məsləhətçilərin və daha geniş götürüldükdə həmin siyasətin ekspert müşahidəsinin minilliklər boyu yüksək olan rolu hazırda dəfələrlə armaqdadır. Məhz müasir dövrdə siyasi qərarların, o cümlədən ekologiya, daha konkret yanaşıldıqda iqlim dəyişikliyi sahəsində dürüst ifadə edilməsi prosesinin koordinasiyasının əsas mexanizmi qismində siyasi planlaşdırma və siyasi layihələşdirmə institutları olan "beyin mərkəzləri" çıxış edirlər. Məhz bu institutlarda dövlət siyasətinin müxtəlif sahələrinə (ESG daxil olmaqla) aid ən vacib təşəbbüs və prioritetlərin dəstəklənməsini təmin edən konkret siyasi tövsiyələr və tədqiqatlar hazırlanır. Ən aktual təxirəsalınmaz problemlərin dəqiqləşdirilməsi, hərtərəfli təhlil əsasında müəyyənləşdirilməsi baş verir.

Beləliklə, beyin mərkəzləri müasir dövrdə dövlətin idarə edilməsi strategiyasının olduqca vacib tərkib hissəsinə çevrilməkdədir. Azərbaycanda fəaliyyət göstərən beyin mərkəzlərinin işi sübuta yetirir ki, onların siyasi və intellektual çəkisi mütəmadi olaraq artır. Bütövlükdə dövlət siyasətinin ekspert müşahidəsinin müasir dövrün tələblərinə uyğunlaşdırılması baş verir. Müvafiq proseslərin gedişatı ümid etməyə əsas verir ki, Azərbaycanda dövlət siyasətinin ekspert müşahidəsinin məqsədyönlü inkişafı qlobal əhəmiyyətli məsələlərlə bağlı ən mühüm hədə və təhdidlərin yaxın gələcəkdə aradan qaldırılmasına gətirib çıxaracaq. Vətən ekspertləri isə beynəlxalq ekspert birliyinə qoşularaq dünya siyasətinin planetar miqyaslı transformasiyasında aktiv surətdə səmərəli iştirak edərək qlobal ekoloji böhrandan çıxış yollarını tapmaq üçün çox cəsarətli addımlar atacaqlar.

**Ədəbiyyat:**


1. «ESG-повестка в России оказалась на удивление устойчива к кризисам» https://www.vedomosti.ru/esg/ratings/characters/2023/07/20/986262-esg-povestka-v-rossii-okazalas-na-udivlenie-ustoichiva-k-krizisam
2. ESG-повестка на ПМЭФ-2023: ключевые проекты и соглашения https://journal.ecostandard.ru/esg/ustoychivoe-razvitie/esg-povestka-na-pmef-2023-klyuchevye-proekty-i-soglasheniya/
3. Что произошло с ESG-повесткой в апреле 2023 года: дайджест новостей https://trends.rbc.ru/trends/green/6450b3cc9a794769980192d1
4. Domhoff W.G. Who rules America? Power and politics in the year 2000. Mountain View, Calif.: Mayfield, 1998, P.127.
5. ESG in Mid-2023: Making Sense of the Moment https://corpgov.law.harvard.edu/2023/08/31/esg-in-mid-2023-making-sense-of-the-moment
6. ESG investing is dying. That’s not a bad thing https://edition.cnn.com/2023/04/28/investing/premarket-stockstrading/index.html
7. ESG Is Going to Have a Rocky 2023. Sustainability Will Be Just Fine. https://sloanreview.mit.edu/article/esg-is-going-to-have-a-rocky-2023-sustainability-will-be-just-fine/
8. McGann J. How think tanks are coping with the future.// Futurist, Nov/Dec. 2000, vol 34, issue 6, p. 16-24
9. Need to be Squeezed out From the ESG Market. https://www.iisd.org/articles/insight/esg-market
10. Rishi Sunak: Banning things not right approach to net zero https://www.bbc.com/news/uk-politics-66335627
11. Siefken S.T., Shulz M. The governance of policy advice: Regulation of advisory commissioner and councils in Germany and Netherlands // Paper for the ist International Conference on Public Policy. Grenoble France. 2013 June 26-28
12. Why ESG will be key from 2023 https://www.worldfinance.com/markets/why-esg-will-be-key-from-2023

## ABSTRACT

## ESG AND EXPERT SUPPORT OF STATE POLICY

**Alakbarova N.I.**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Head of the Department of Political Science and Political Management, Professor, Dr. of Philosophical Sciences*

The article examines the problem of expert support of state policy from the point of view of the need to successfully resolve various ESG (environmental, social, and governance) issues on a local and global scale, which has turned into conditions of a planetary environmental crisis, in particular climate change, in the areas of politics, management, and economics, finance, and business into the mainstream. The significance and characteristic features of ESG, which is one of the branches of sustainable development, are revealed. To clarify these problems, the essence, history of origin and development, current state, and prospects of scientifically based expert support of public policy closely related to everyday life are consistently analyzed.

***Keywords:*** *ESG, CSR, expert support of public policy, environmental crisis, climate change*

## РЕЗЮМЕ

## ESG И ЭКСПЕРТНОЕ СОПРОВОЖДЕНИЕ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ



**Алекперова Н.И.**

*Заведующая кафедрой Политологии и политического управления*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философских наук, профессор*



В статье исследуется проблема экспертного сопровождения государственной политики с точки зрения необходимости успешного решения в локальном и глобальном масштабах различных вопросов ESG (environmental, social and governance), превратившегося в условиях планетарного экологического кризиса, в частности, изменения климата, в сферах политики, управления, экономики, финансов и бизнеса в мейстрим. Раскрываются значимость и характерные особенности ESG, являющегося одним из ответвлений устойчивого развития. Для внесения ясности в эти проблемы последовательно анализируется сущность, история возникновения и развития, нынешнее состояние и дальнейшие перспективы научно обоснованного, тесно связанного с повседневной жизнью экспертного сопровождения государственной политики.



***Ключевые слова:*** *ESG, CSR, экспертное сопровождение государственной политики, экологический кризис, изменение климата*

DOI: 10.30546/mab.17.2022.57

UOT 351.07/.08

# QLOBAL EKOLOJİ BÖHRAN VƏ ONUN AZƏRBAYCANDA TƏZAHÜRÜ: PROBLEMİN SOSİAL-SİYASİ ASPEKTLƏRİ

**Məmmədova S.İ.**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, "Politologiya və siyasi idarəetmə" kafedrasının professoru, siyasi elmlər doktoru*

*e-mail: smammedova10@rambler.ru*

*Təqdim olunan məqalədə qlobal xarakter almış ekoloji böhranın mahiyyəti sosial-siyasi aspektlərdən açıqlanır, müasir Azərbaycanda mövcud olan ekoloji problemlər qlobal ekoloji böhranın təzahürləri kimi nəzərdən keçirilir. Bu zaman təcavüzkar Ermənistan dövlətinin 30 il işğal altında saxladığı Azərbaycan ərazilərində təbii kompleksə qarşı törətdiyi ekosoyqırımı və ekoloji terrorun nəticələri göstərilir. Problemin sosial-siyasi aspektləri kontekstində aparılan təhlillər arqumentli şəkildə təqdim edilməklə, müasir ekoloji böhran fenomeninin siyasi müstəvidə öyrənilməsinin xüsusi əhəmiyyət kəsb etdiyi, milli, regional və qlobal miqyaslarda ardıcıl şəkildə səmərəli ekoloji siyasətin həyata keçirilməsinin zəruriliyi diqqətə çatdırılır. Müasir mərhələdə Azərbaycan dövlətinin uğurlu və məqsədyönlü şəkildə həyata keçirdiyi ekoloji siyasətin xüsusiyyətləri açılıb göstərilir, qlobal ekoloji böhranın fəsadlarının aradan qaldırılmasına dair ümümiləşdirilmiş müddəalar və tövsiyələr irəli sürülür.*

***Açar sözlər:*** *qlobal ekoloji böhran, Azərbaycanda ekoloji problemlər, təcavüzkar Ermənistan, sosial-siyasi aspektlər, ekosoyqırım, ekoloji terror, ekoloji siyasət*

## Giriş

Əsrlər boyu insan və ətraf aləm arasında münasibətlər təbiətdən müxtəlif nemətləri almaq prinsipi üzərində qurulmuşdur. Təbiətə uzunmüddətli antropogen təsir altında təbii proseslərdə qlobal dəyişikliklər baş vermişdir. Bu da nəticədə insan cəmiyyəti və onu əhatə edən təbii mühit arasında tarazlığın pozulmasına, ekoloji böhrana gətirib çıxarmışdır. Yalnız XX əsrin ikinci yarısında təbiəti yalnız özünün təsərrüfat fəaliyyəti üçün resurs mənbəyi kimi qəbul edən bəşəriyyət tədricən bundan sonra da bu cür davam edə

bilməyəcəyini və biosferin qorunub saxlanılması üçün tədbirlərin görülməsinin zəruriliyini dərk etməyə başlamışdır. Bəşəriyyətin müasir inkişaf mərhələsi onun mövcudluğunun ekoloji fəlakət təhlükəsi altında olması və qlobal ekoloji böhranın daha da dərinləşməsi ilə səciyyələnir. Ekoloji problemlər insanların rəsmi sərhədləri nəzərə almadan birləşməsinə və fəal hərəkətlərinə səbəb olur. Bu isə yeni siyasi birliklərin yaranmasına və yeni xarakterli siyasi məkanların formalaşmasına gətirib çıxarır. Bütün bunlar qlobal ekoloji böhranın mahiyyəti, əlamətləri və təzahürlərinin, Azərbaycanda təzahürləri kimi mövcud ekoloji problemlərin sosial-siyasi aspektlərdən öyrənilməsinin, onun qarşısının alınması mexanizmlərinin, o cümlədən siyasi mexanizmlərin tədqiq edilməsinin aktuallığını göstərir. Bu kontekstdə təcavüzkar Ermənistan dövlətinin Azərbaycanın əzəli torpaqlarının işğalı zamanı təbii kompleksə qarşı həyata keçirdiyi ekosoyqırım (ekosid) siyasətinin, eləcə də postmüharibə dövründə davam etdirdiyi cinayətkar ekoloji terror əməllərinin və onların nəticələrinin araşdırılması, qlobal xarakter almış ekoloji böhranın qarşısının alınmasına yönələn müasir ekoloji siyasətin xüsusiyyətlərinin açılıb göstərilməsi xüsusi əhəmiyyət kəsb edir.

### Ekoloji böhranın mahiyyəti, onun qlobal xarakterinin əlamətləri

Təbii mühitin vəziyyətinin pisləşməsinin başlıca səbəbi, əlbəttə , insanın fəaliyyəti və təbiətə getdikcə artan antropogen yüklə bağlıdır ki, bu da insan cəmiyyəti və təbiət arasında tarazlığın pozulmasına səbəb olmuşdur. Bu tarazlığın pozulmasının nəticəsi isə ekoloji böhran kimi qiymətləndirilir. Bu zaman nəzərə almaq lazımdır ki, təbiətdə hər şey qarşılıqlı əlaqədə olduğu üçün , onun bir komponentində baş verən pozuntular (məs., su ehtiyatlarının tükənməsi) digərlərində də dəyişikliklərin baş verməsinə gətirib çıxarır. Belə situasiyada isə təbiətin imkanları və insanın tələbatları arasında balans pozulur ki, bu da onların arasındakı, eləcə də cəmiyyətdə münasibətlərin kəskinləşməsinə gətirib çıxarır. Lakin böhran hələ fəlakət olmadığı üçün insan fəal tərəf olmaqla, özünün məqsədyönlü səyləri ilə onun neqativ nəticələrini zəiflədə yaxud aradan qaldıra bilər. Böhrandan fərqli olaraq, ekoloji fəlakət dönməz hadisədir və bu zaman insan passiv və zərər çəkən tərəf kimi çıxış edir [20]. Burada, fikrimizcə, təbiət və cəmiyyətin qarşılıqlı əlaqələri barədə F.Engelsin müasir dövr üçün də aktual olan fikirlərinin qeyd edilməsi yerinə düşər. Belə ki, o yazırdı: “Bizim təbiət üzərində qələbəmizlə öyünməyək. Hər bir belə qələbəmiz üçün təbiət bizdən qisas alır. Hər belə qələbə, doğrudur, ilk növbədə bizim gözlədiyimiz nəticəni verir, lakin sonrakı nəticələr tamamilə başqadır, daha çox birincilərin əhəmiyyətini məhv edən gözlənilməyən nəticələrdir” [24, s.495-496].

Biosferin müasir inkişaf mərhələsi üçün qlobal ekoloji böhran səciyyəvidir və bu anlayış bəşəriyyət və təbiət arasındakı münasibətlərin gərgin durumunu, istehsal münasibətlərinin inkişafı və biosferdə gedən proseslər arasında xeyli uyğunsuzluğun yaranmasını nəzərdə tutur. Bu böhran qlobal adlandırılır ona görə ki, bütün planetə və insan fəaliyyətinin bütün sahələrinə toxunur [20]. Əlbəttə, tədqiqatçıların fikrincə, bəşər tarixində ekoloji böhran təkcə indi yaşanmır. Rusiya alimi N.F.Reymers ilk ekoloji böhranın 3 milyon il bundan əvvəl baş verdiyini və həmin vaxt Yer üzərində iqlimin kəskin dəyişdiyini , soyuqların düşdüyünü göstərmişdir [22, s. 214-219].

Qlobal xarakter almış müasir ekoloji böhran insan cəmiyyəti və təbiət arasında sistemli tarazlığın və ekosistemlər arasında əlaqələrin pozulmasının nəticəsi olmaqla, bu böhranın əlamətləri kimi qlobal ekoloji problemlər təzahür olunur. Müasir qlobal problemlərin bir növü olan qlobal ekoloji problemlərin bir aspektini təbii proseslərin nəticəsi kimi yaranmış, digər aspektini isə antropogen təsirin və təbiətdən qeyri-rasional istifadənin törətdiyi problemlər təşkil edir. BMT-nin Ətraf Mühit Proqramının (YUNEP) "Qlobal ekoloji perspektiv QEO-3" adlanan hesabatına əsasən XXI əsr üçün xarakterik olan ekoloji problemlərə aşağıdakılar aid edilmişdir:

– istixana qazlarının tullantısı nəticəsində iqlim dəyişikliyi;
– şirin su çatışmazlığı və çirklənməsi;
– meşələrin məhv olunması və səhralaşma;
– əhalinin sayının artması və yerini dəyişməsi;
– tullantılar problemi;
– havanın çirklənməsi;
– torpağın və ekosistemlərin deqradasiyası;
– kimyəvi çirklənmə;
– ozon qatının nazilməsi;
– urbanizasiya;
– təbii ehtiyatların tükənməsi;
– xəstəliklərin yayılması (yenilərin meydana çıxması) və s. [17].

Tədqiqatçıların fikrincə, sivilizasiyanın sürətli inkişafı davam edərsə bu ekoloji problemlərdən demək olar ki, hər biri bəşəriyyətin və biosferin məhvinə səbəb ola bilər. Bütün bunlar, əlbəttə, müasir ekoloji böhranın, yəni insan cəmiyyəti və təbiət arasındaki sistemli tarazlığın pozulması nəticəsinin təzahürləridir.

Qeyd olunanları nəzərə alaraq qlobal ekoloji böhranın və onun kəskinləşməsi səbəbləri kimi daha ümumi şəkildə aşağıdakıları göstərmək olar:
– bəşəriyyətin təbiətə istehlakçı və təbiəti özünə tabe etmək siyasəti;

– planetin əhalisinin hədsiz artması (XX əsrdə Yer əhalisinin sayı 6 milyard artmışdır) və onun sayının daha da çoxalması tendensiyası;
– bu ekoloji amil ilə (əhalinin artması ilə) əlaqədə olan urbanizasiyanın inkişaf etməsi;
– müasir cəmiyyətin sosial-iqtisadi inkişafı, ekoloji maraqlara nisbətən iqtisadi maraqlara üstünlüyün verilməsi;
– elmi-texniki tərəqqi və s.

Qlobal ekoloji problemləri şərtləndirən amillərdən birini demoqrafik problemlər təşkil edir. Təkcə onu göstərmək kifayətdir ki, mövcud məlumatlara görə, əgər 1820-ci ildə əhalinin sayı 1 milyard nəfər təşkil etmişdirsə, 107 ildən sonra, yəni 1927-ci ildə 2 milyard olmuş, hesablamara görə 1960-1999-cu illərdə planetin əhalisi 2 dəfə artaraq 3 milyarddan 6 milyarda çatmış, 2011-ci ildə – 7 milyard təşkil etmiş, 15 noyabr 2022-ci ildə isə Yerin əhalisinin sayı 8 milyarda çatmışdır. Butün bunlar da XX əsrin Yer kürəsinin əhalisinin ən yüksək templə artdığı əsr olduğunu göstərir. Proqnozlara görə, Yer üzərində əhalinin sayı artmaqda davam etməklə, 2030-cu illərin ortalarında 8.4 milyarda, 2050-ci illərin ortalarında isə 9.6 milyarda çatacağı gözlənilir [37].

Beləliklə, qlobal ekoloji böhranın kəskinləşməsinin səbəbləri demoqrafik partlayışla və insanların artan maddi tələbatlarının ödənilməsi zərurəti ilə bağlıdır ki, bu da təsərrüfat fəaliyyətinin miqyasının genişlənməsini şərtləndirir və ətraf mühitə antropogen yükün artmasına gətirib çıxarır.

Ətraf mühitə, insan və cəmiyyətin sağlamlığına neqativ təsir göstərən amillərdən biri geni dəyişdirilmiş (modifikasiya olunmuş) orqanizmlər (GMO) hesab olunur. Genetik modifikasiya olunmuş orqanizmlər (GMO) yad genlərin daxil edilməsi yolu ilə yeni xassələr verilən canlı orqanizmlərdir ki, onların da yaradılmasına yönələn texnologiya müasir biotexnologiya (gen mühəndisliyi) adlandırılır. Məlumdur ki, bu ərzaqlar keçən əsrin 80-ci illərində dünya miqyasında ərzaq probleminin həllinin təmin edilməsi üçün yaradılmışdır. Təhlillərdən göründüyü kimi, biotexnoloji məhsulların istehsalı ilə bağlı yaranan risklər elmi ədəbiyyatda 1983-cü ildən müzakirə olunmağa başlamış, 80-ci illərin ortalarında inkişaf etmiş ölkələrdə (ilk növbədə ABŞ-da) biotexnologiyalar üzrə dövlət siyasəti işlənilmişdir. GMO-ların geniş miqyaslı istifadəsi ilə əlaqəli əsas təhlükələrə aşağıdakılar aid edilir:
– GMO-ların bioloji müxtəlifliyə təsiri, məsələn, flora və faunada əhəmiyyətli dəyişikliklərə səbəb ola biləcək xarici təsirlərə davamlı genetik cəhətdən dəyişdirilmiş bitkilərin digər bitkiləri sıxışdırması;
– transgenlərin GMO-dan ətraf mühitə “sızması”;
– pestisid əlamətləri daşıyan GM bitkilərinə həm zərərvericilərin, həm də patogen mikroorqanizmlərdə antibiotiklərə qarşı müqavimətin yaranması;

– GM məhsullarının biotəhlükəsizliyinin tədqiqi metodlarının kifayət qədər etibarlı olmaması, GMO və GM qida məhsullarının istehsalçıları və satıcıları tərəfindən qida məhsullarının biotəhlükəsizliyi sahəsində qanunvericiliyin tələblərinə riayət edilməməsi [14].

GMO müdafiəçiləri onların bəşəriyyətin aclıqdan yeganə xilas yolu olduğunu təsdiq edir və üstünlükləri kimi bakteriya və virusların zərərli təsirinə məruz qalmadıqlarını, xəstəliklərə və havaya davamlı olmasını, tez yetişməsini, yüksək məhsuldarlığı və uzunmüddətli saxlanması ilə fərqləndiklərini, keçmiş sortların müəyyən təbii şəraitə görə yetişib yaxşı məhsul verə bilmədiyi yerlərdə bu bitkilərin bunu etmək qabiliyyətində olduqlarını göstərirlər. GMO əleyhdarları isə hesab edirlər ki, onlar insan orqanizminə (allergiya xəstəliklərinə, maddələr mübadiləsinin pozulmasına, mədə-bağırsaq xəstəlikləri, kanserogen və mutagen effektləri) və ətraf mühitə (ekoloji sistemlərdən təbii orqanizmlərin sıxışdırılıb çıxarılması ilə ekoloji tarazlığın pozulması, biomüxtəlifliyin azalması) təhdiddirlər və bu məhsulların qidada istifadə edilməsi riskləri də çoxdur.

Beləliklə, kəskin ekoloji problemlər həm qlobal, həm də regional və lokal səviyyələrdə təzahür olunur. Bu baxımdan qlobal ekoloji böhranın Azərbaycanda təzahürləri kimi müasir ekoloji problemlərin, ölkədə və bütövlükdə regionda ekoloji tarazlığın pozulmasına səbəb olan Ermənistanın Azərbaycan təbiətinə qarşı vəhşicəsinə törətdiyi ekosid və ekoloji terrorun nəticələrinin açılıb göstərilməsi olduqca vacibdir.

### Qlobal ekoloji böhranın Azərbaycanda təzahürləri

Ətraf mühitin mühafizəsi, ekoloji problemlər, bütün dünyada olduğu kimi, zəngin təbii sərvətlərə və inkişaf etmiş sənaye sahələrinə malik olan Azərbaycan üçün də olduqca aktualdır. Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli, 2198 nömrəli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının Milli təhlükəsizlik Konsepsiyası”nda ölkədə mövcud olan ekoloji problemlər milli təhlükəsizliyə əsas təhdidlərdən biri kimi müəyyən edilmiş və üçüncü maddədə ekoloji problemlər aşağıdakı kimi səciyyələndirilmişdir:

“Azərbaycan Respublikasındakı ekoloji problemlər Sovet İttifaqının enerji ehtiyatına olan tələbatının ödənilməsi məqsədi ilə əsasən Abşeron yarımadasında və Xəzər dənizində ekoloji nəticələr nəzərə alınmadan qeyri-təkmil üsullarla onilliklər ərzində aparılmış neft hasilatı ilə bağlıdır.

Bundan əlavə, Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində flora və faunanın kütləvi şəkildə məhv edilməsi, o

cümlədən bu ərazilərdə törədilən genişmiqyaslı yanğınlar ölkə üçün ən böyük ekoloji problemlərdən birinə çevrilmişdir.

Azərbaycan Respublikasının şirin su ehtiyatlarının böyük həcminin qonşu ölkələrdə formalaşması və bu ölkələrin ərazilərində kimyəvi, radioaktiv və digər zərərli maddələrlə intensiv çirklənməyə məruz qalması əhalinin içməli su ilə təmin olunmasında problemlər yaradır. Bundan əlavə, Ermənistan ərazisində seysmik zonada yerləşən və texnoloji baxımdan köhnəlmiş Metsamor Atom Elektrik Stansiyası bütövlükdə region üçün təhlükə mənbəyidir.

Ətraf mühitin çirklənməsi, münbit torpaqların deqradasiyası, təbii resurslardan qeyri-rasional istifadə, sənaye və məişət tullantılarının tələb olunan səviyyədə emal olunmaması ciddi problem mənbəyidir. Ekoloji problemlər iqtisadi və sosial həyata mənfi təsir göstərir, ictimai sağlamlığa, cəmiyyətin maddi sərvətinə və dövlətin müvafiq qurumlarının fəaliyyətinə ciddi maneələr yaradır.” Konsepsiyadan göründüyü kimi, Azərbaycanda mövcud ekoloji vəziyyət dövlətimizin daim diqqət mərkəzində olan prioritet məsələlərdən biridir.

Mütəxəssislərin fikrincə, Azərbaycanda həlli vacib olan ekoloji problemlərin əksər hissəsi Abşeron yarımadasının payına düşür. Bu isə onunla izah olunur ki, ölkə əhalisinin təxminən 40 faizi və sənaye potensialının 70 faizi məhz bu ərazidə cəmləşmişdir. Burada ekoloji problemin yaranmasına əsas səbəblərə neft-qaz hasilatı və qazma işləri zamanı torpaqların neft və lay suları ilə çirkləndirilməsi, uzun illər ərzində lay sularının idarə olunmaması səbəbindən neftlə çirklənmiş süni göllərin və gölməçələrin əmələ gəlməsi, neft emalı zamanı əmələ gələn tullantıların ərazilərdə toplanması və s. aid edilir [5].

Ümumi şəkildə Bakı şəhəri və Abşeron yarımadasının ekoloji problemləri aşağıdakılardan ibarətdir:

– torpaqların yararsız vəziyyətə düşməsi və neftlə çirklənməsi. Abşeronun ümumi sahəsi 222 min hektardan ibarətdir, onlardan da 33 min ha - yararsız torpaqlardır, o cümlədən 10 min ha – neftlə çirklənmiş torpaq sahələridir;
– kanalizasiya sistemlərinin vəziyyəti, tullantı sularının təmizlənməməsi ilə bağlı ekoloji problemlər. Dənizə və daxili su hövzələrinə axıdılan bu tullantı suları ilə birlikdə neft məhsulları, kimyəvi maddələr, sulfatlı birləşmələr, xlorid duzları, səthi aktiv maddələr, fenol və müxtəlif ağır metallar atılır;
– bərk tullantıların idarə olunması, məişət və sənaye tullantıları poliqonlarının ekoloji norma və standartlara uyğun vəziyyətə salınması;

– atmosfer havasının və su hövzələrinin çirklənməsi;
– Bakı buxtasının çirkab sularla çirklənməsi və s. [5].

Ölkənin hava hövzəsinin, ətraf mühitin digər komponentlərinin çirkləndirilməsində avtonəqliyyatın rolunu xüsusi qeyd etmək lazımdır. Belə ki, 2021-ci il üzrə statistikanın göstərdiyi kimi, avtonəqliyyatdan atmosferə atılmış adambaşına çirkləndirici maddələr 72,2 kq təşkil etmişdir. Lakin müsbət hal kimi onu qeyd etmək lazımdır ki, burada azalma tendensiyası müşahidə olunur: bu göstərici beş il bundan əvvələ – 2016-cı ilə nisbətən 28,4 kq azdır. Bu baxımdan atmosferi daha çox çirklənmiş şəhərlərdən Bakı, Sumqayıt, Gəncə, Mingəçevir şəhərlərini göstərmək olar. Atmosfer havasının keyfiyyət göstəricilərindən biri olan azot dioksidinin ($NO_2$) orta illik konsentrasiyası 2021-ci ildə Bakı şəhəri üzrə 48 mkq/$m^3$ təşkil etmişdir, 2018-ci ildə isə bu rəqəm 60 mkq/$m^3$ olmuşdur. Sumqayıt üzrə bu göstərici müvafiq olaraq 45 mkq/$m^3$ və 80 mkq/$m^3$ təşkil etmişdir. Havanın digər keyfiyyət göstəricisi – kükürd anhidridin ($SO_2$) orta illik konsentrasiyası isə əgər 2018-ci ildə Bakıda 33 mkq/$m^3$, Sumqayıtda 28 mkq/$m^3$, Gəncədə 37 mkq/$m^3$ olmuşdursa, 2021-ci ildə bu rəqəmlər bir qədər azalaraq, müvafiq şəkildə 23 mkq/$m^3$, 25 mkq/$m^3$, 35 mkq/$m^3$ təşkil etmişdir [33]. Ümumiyyətlə, avtonəqliyyat havanın əsas çirkləndiricisi olmaqla, eyni zamanda torpaq və suyu da çirkləndirir. Bunun nəticəsində günəş işığının intensivliyi azalır, hava xeyli miqdarda bərk hissəciklərlə çirklənir, bu isə duman və smoqların yaranmasına səbəb olur. Digər tərəfdən, atmosferdə bərk və qaz şəklində çoxlu zərərli qarışıq maddələrin mövcud olması onun istilik xüsusiyyətlərinə təsir edir.

Azərbaycanda ekoloji problemləri nəzərdən keçirərkən Xəzərin ekoloji durumunun xüsusi narahatlıq doğurduğunu vurğulamaq lazımdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün "Azərbaycanın Xəzər nefti" adlı kitabında Azərbaycanda yaranmış ekoloji situasiyanı səciyyələndirərkən qeyd etmişdir: "Xəzər dənizi dünyada ən böyük göl olmaqla okean səviyyəsindən 27.9 metr aşağıda yerləşir , sahəsi isə 376 min kv km təşkil edir, onun 80% çay sularını Avropada ən böyük çay sistemi olan və hövzəsinin sahəsi 1.4 mln kv km təşkil edən Volqa çayı təmin edir. Bundan başqa, Xəzərə 130 böyük olmayan çaylar da daxil olur" [13, s. 228].

Xəzər kimi su çıxışı olmayan göllərdə başlıca problem buraya daxil olan suların keyfiyyətinin yaxşılaşdırılmasından ibarətdir. Xəzərlə bağlı situasiyada xüsusi diqqət Rusiyanın Avropa hissəsindən buraya daxil olan Volqa və onun qollarına yetirilməlidir. Bu çay sisteminə daxil olan və kənd təsərrüfatı, sənaye və məişət tullantıları ilə çirklənmiş çayların özünütəmizləmə və normal ekosistemi qorumaq qabiliyyəti xeyli azalmışdır. Xəzərə tökülən daha kiçik çaylar da çirklənməyə məruz qalmışdır [13, s. 228-229].

Qeyd olunanlar onu göstərir ki, Xəzərin ekoloji problemlərinin həlli mürəkkəb məsələ olmaqla, Xəzəryanı dövlətlərin hamısının səylərinin birləşdirilməsini və onların bu sahədə əməkdaşlığı siyasətinin ardıcıl şəkildə aparılmasını tələb edir.

Ətraf mühitin çirklənməsinin sosial-iqtisadi fəsadları Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli 3043 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nda da diqqətə çatdırılır: "Ətraf mühitin vəziyyəti əhalinin rifahına birbaşa və dolayı yolla təsir edir. Belə ki, havanın və suyun çirklənməsi insanların sağlamlıq vəziyyətinə birbaşa təsirə malikdir. Havanın çirklənməsi, həm də uşaqlar arasında respirator xəstəliklərin artmasına səbəb olur. Meşələrin qırılması, torpağın eroziyası və ya şoranlaşması becərilən torpaqların məhsuldarlığına mənfi təsir edərək, xüsusilə kənd əhalisinin gəlir əldəetmə imkanlarını azaldır" [2].

Ölkəmizin təbii kompleksi 30 il davam edən Ermənistanın təcavüzü nəticəsində qərəzli şəkildə məhv edilməklə, bu illər ərzində işğal altında saxlanılan Azərbaycan ərazilərində şəhər və kəndlərin dağılması ilə yanaşı, bitki, heyvanat aləmi də amansızcasına məhv edilmiş, bütövlükdə, ekoloji tarazlıq kəskin şəkildə pozulmuşdur. Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində qalmış təkcə meşə sahələri 260 352 ha təşkil edirdi ki, bu da Ermənistanın bütün meşələrinin 55 faizindən çoxdur. Təcavüz dövründə Azərbaycanın işğal altında olan ərazilərində respublikamızın iqtisadi potensialında mühüm əhəmiyyət kəsb edən təbii sərvətlərimiz - çoxsaylı təbiət abidələri, 152 ağac növü, 13197,5 ha qiymətli meşə sahələri, 163 növ müxtəlif faydalı qazıntı yataqları (5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun, sink, 19 üzlük daşı və s.), 11 yeraltı şirin su, 10 mineral su yataqları qalmış və Ermənistan tərəfindən vəhşicəsinə məhv olunmuş, talan edilmişdir. Bundan başqa, işğal olunmuş ərazilərdə ekoloji əhəmiyyətə malik olan 7 şirin su ehtiyatları olan relikt göllər Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal altında qalaraq, bir tərəfdən, qərəzli şəkildə çirkləndirilmiş, digər tərəfdən isə, göl sularının suvarma məqsədilə istifadə olunması həmin göllərin qurumasına səbəb olmuşdur. Erməni işğalçılarının apardığı hərbi əməliyyatlar zamanı müasir texnika, silah və hərbi sursatlardan istifadə edilməsi, səngərlərin qazılması və s. bu ərazilərdəki münbit torpaqların korlanıb sıradan çıxmasına, biomüxtəlifliyin məhv olmasına və ekoloji tarazlığın pozulmasına gətirib çıxarmışdır [11] .

Ermənistan dövləti işğal dövründə Azərbaycanın təbii kompleksinə qarşı ekosid siyasətini yürütməklə bərabər, transsərhəd su hövzələrini, o cümlədən Kür və Araz çaylarını, eləcə də Arazın qolu Oxçuçayı qərəzli şəkildə təmizlənməmiş sənaye tullantı suları ilə çirkləndirmiş və çirkləndirməkdə davam edir. Strateji partnyorumuz Gürcüstanda da Azərbaycana daxil olan

transsərhəd çay – Kür çayı zəhərli maddələrlə, xüsusilə də mis və fenolun birləşmələri ilə normadan dəfələrlə artıq dərəcədə çirkləndirilir. Qeyd edək ki, başlanğıcını Türkiyənin Qızılqədik dağının şimal-şərq yamacından götürən və Azərbaycanın ərazisinə Gürcüstandan daxil olan Kür çayı ölkəmizin ən böyük çayı olmaqla, Xəzər dənizinə tökülür. Onun ümumi uzunluğu 1515 km, ölkəmizin ərazisində isə uzunluğu 900 kilometrdir. Azərbaycana kənardan daxil olan və Kürün ən böyük sağ qolunu təşkil edən Araz çayı, ölkəmizdə miqyasına görə, ikinci çay, Samur çayı isə üçüncü çaydır [18].

Kür və Araz çaylarının çirkləndirilməsi problemi Ümummilli Liderimiz Heydər Əliyevin çıxışlarında, nitqlərində xüsusi yer almışdır. Ölkənin kənd təsərrüfatında suvarma suyu kimi istifadə olunan, ən əsası isə, ölkə əhalisinin içməli su ehtiyatının böyük bir hissəsini təmin edən bu çayların çirkləndirilməsini olduqca ciddi məsələ kimi qiymətləndirən Ulu Öndərimiz Heydər Əliyev vurğulayırdı: "Azərbaycana gələn çayların əksəriyyətinin mənbəyi Türkiyədədir, amma onlar Ermənistan ərazisindən keçir. Məsələn, biz bilirik ki, Ermənistanda Araza nə qədər çox tullantı axıdılır və buna görə də, həmin çayın suyu xeyli çirklənir." [30].

Digər transsərhəd çay olan və Cənubi Qafqazın ikinci böyük çayı Araz çayının qolu Oxçuçay Ermənistan ərazisində Qafan və Qacaran mis-molibden kombinatlarının dağ-mədən sənayesinin tullantıları ilə normadan dəfələrlə artıq ağır metallarla qərəzli şəkildə çirkləndirilir. Ona görə də Oxçuçayın suları ölkəmizin ərazisində istifadə üçün yararsız sayılır və kimyəvi maddələrlə həddindən artıq çirklənmiş bu sular Araza töküldüyündən onun suyunun keyfiyyətinə ciddi şəkildə mənfi təsir göstərir [9]. Göründüyü kimi, Ermənistan hələ Sovet dövründən törətdiyi bu cinayətkar əməlləri ilə bağlı Azərbaycanın müvafiq qurumlarının çoxsaylı müraciətlərinə məhəl qoymayaraq, bu sahədəki beynəlxalq Konvensiyaları kobudcasına pozmaqda davam edir, beynəlxalq birlik isə bütün bunlara göz yumur. Bununla da Ermənistan dövlətinin Azərbaycan təbiətinə düşmənçilik münasibəti və ekosid əməlləri ekoloji tarazlığın pozulmasına və bütövlükdə regionda ekoloji təhlükəsizliyə ciddi təhdid yaradır.

Ermənistanın Azərbaycana qarşı qərəzli şəkildə həyata keçirdiyi ekoloji terror vasitələrindən biri də uzun illər işğal altında qalmış Ağdərə rayonu ərazisindəki Sərsəng su anbarı (həmçinin Sərsəng su anbarı ilə eyni vaxtda inşa olunmuş Suqovuşan su anbarı) olmuş və ermənilərin bu "su terroru" davam etməkdədir. Qeyd edək ki, Sərsəng su anbarı Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Tərtər çayının üzərində Azərbaycanın 6 rayonunun – Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonlarının torpaq (əkin) sahələrinin suvarma suyu ilə təmin etmək məqsədi ilə 726 metr hündürlükdə inşa edilərək, 1976-cı ildə istismara verilmişdir. Sərsəng su anbarı

hündürlükdə yerləşdiyinə görə və texniki qurğuları tamamilə baxımsız və yararsız olduğundan, burada baş verən istənilən qəza ətraf rayonların su altında qalmasına, eləcə də bioloji müxtəlifliyin məhv olunmasına gətirib çıxarırdı. Suya çox böyük tələbat olan yay mövsümündə ermənilər tərəfindən suyun qarşısı kəsilirdi, qışda isə su anbarından su açılıb buraxılırdı. Bununla da, Ermənistan tərəfindən işğal zamanı Sərsəng su anbarından Azərbaycan, eləcə də bütövlükdə region üçün iqtisadi, humanitar, ekoloji və bioloji fəlakət xarakterli terror vasitəsi kimi istifadə edilirdi [31].

Beləliklə, hər an təxribat, texnogen yaxud təbii xarakterli fəlakətlər nəticəsində baş verə biləcək qəza ekoloji böhranla və bioloji müxtəlifliyin məhv olunması ilə yanaşı, Azərbaycanın erməni işğalı altında olmayan ətraf rayonlarında da məskunlaşmış mülki əhalinin kütləvi şəkildə məhv edilməsi və yenidən bölgədə humanitar böhran vəziyyətinin yaranması ehtimalı olduqca böyük idi. Çünki həmin rayonların əhalisinin həyatı Sərsəng su anbarında yaranmış qəzalı vəziyyətlə əlaqədar olaraq daim təhlükə altında olmuşdur. Təkcə insanlığa qarşı deyil, həm də təbiətə qarşı amansız cinayətlər törədən işğalçı Ermənistanın bu su anbarı vasitəsi ilə Azərbaycana qarşı yürütdüyü ekoloji terror və ekoloji fəlakət dünya miqyasında ən böyük humanitar böhranlardan birinə səbəb olmaqla bütün region üçün ciddi təhlükə yaranmasını şərtləndirirdi.

Sərsəng su anbarı ilə əlaqədar məsələnin beynəlxalq birliyə çatdırılması istiqamətində Azərbaycan tərəfindən aparılan işlər nəticəsində AŞPA-nın 26 yanvar 2016-cı il tarixli iclasında deputatların səs çoxluğu ilə (98 lehinə, 71 əleyhinə) Bosniyalı deputat Militsa Markoviçin müəllifi olduğu "Azərbaycanın cəbhəyanı rayonlarının sakinlərinin sudan qəsdən məhrum edilməsi" adlı 2085 saylı qətnamə qəbul edilmişdir. Assambleya həmin sənəddə Ermənistan tərəfindən qəsdən süni ekoloji böhranın yaradılması "ekoloji təcavüz" kimi qiymətləndirilmiş, Sərsəng su anbarının texniki cəhətdən yararsız vəziyyətdə qalması nəticəsində çoxsaylı insan tələfatı və bütün region üçün təbii fəlakət, humanitar böhran kimi ciddi təhlükənin yarandığı qeyd olunmuş, Ermənistandan Azərbaycanın işğal edilmiş ərazilərinin dərhal azad edilməsi və su resurslarından siyasi təsir vasitəsi və ya öz maraqları üçün təzyiq göstərilməsi üçün istifadə olunmasına son qoyulması tələb edilmişdi [31]. Onu da vurğulamaq lazımdır ki, AŞPA-nın bu sənədi də, beynəlxalq təşkilatların Ermənistanın uzun illər Azərbaycana qarşı təcavüzü ilə əlaqədar qəbul etdikləri digər sənədlər kimi, yerinə yetirilməmiş qalır.

Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Ermənistanın təcavüzünə son qoyulduqdan sonra Suqovuşan su anbarı, eləcə də kanallar qısa müddətdə bərpa edilərək, onların suyundan Azərbaycanın ətraf ərazilərindəki əkin sahələrinin təmin edilməsində istifadəyə nail

olunmuşdur. Ancaq hələlik Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazidə baxımsız vəziyyətdə qalmış Sərsəng su anbarından ermənilər Azərbaycana qarşı ekoloji terror vasitəsi kimi istifadə etməkdə davam edir. Odur ki, işğalın bitdiyi indiki vaxtda Sərsəngində idarə olunmasının, onun bölgədə ekoloji tarazlığın bərpası üçün əhəmiyyəti və təhlükələrin aradan qaldırılması baxımından Azərbaycan tərəfindən həyata keçirilməsi zəruridir [37].

Ermənistan dövləti 30 illik işğalçılıq müddətində həyata keçirdiyi ekoloji terroru 44 günlük müharibə və ondan sonrakı dövrdə də davam etdirmişdir. Onun bu fəaliyyətində məğlubiyyətlə barışa bilməyən erməni əhalisi də sona qədər iştirak etmiş, Azərbaycan tərəfindən torpaqlarımızı tərk etmək üçün onlara humanistcəsinə verilmiş vaxt müddətində də gedərkən qanunsuz yaşadıqları evləri, eləcə də meşələri yandırmışlar. Bütövlükdə, Ermənistanın ekoloji soyqırımı və ekoloji terror siyasətinə məruz qalan Azərbaycan əraziləri regional ekoloji fəlakət zonasına çevrilmiş, bu ərazilərdəki bütün sərvətlərimiz amansızcasına istismar edilərək, talan olunmuşdur [38].

Bu məsələlər kontekstində Rusiya alimi N.F.Reymersin irəli sürdüyü müddəaların nəzərdən keçirilməsi, fikrimizcə, yerinə düşər. Belə ki, N.F.Reymers haqlı olaraq göstərir ki, regional səviyyədə baş verən müharibələr ekoloji problemlərin həllindən diqqəti yayındırmaqla, bütün bəşəriyyətə qarşı yönəlmiş olur, yəni lokal xarakterini itirir və dünya miqyaslı əhəmiyyət kəsb edir, bütün Yer üzərinin insanlarını təhlükəyə məruz qoyur, ekoloji fəlakəti yaxınlaşdırırlar. Ona görə də onlar öz ölkələrini təcavüzə sürükləyən liderlər planetin və bəşəriyyətin ekoloji təhdidlərdən xilas edilməsini kəskin şəkildə çətinləşdirən ümumdünya miqyaslı hərbi cinayətkarlardırlar. Belə təcavüzkar siyasi liderlərin BMT tərəfindən məhv edilməsinə mükafat təyin etməklə beynəlxalq cinayətkar elan edilməsini məqsədəmüvafiq hesab edən müəllif, göstərir ki, onlar Nyünberq prosesi tipli Beynəlxalq məhkəməyə cəlb olunmalı (qiyabi də mümkündür), özü də təcavüzkar lideri dəstəkləyən ali rəhbərliyin hamısı üçün də fərdi məsuliyyət tətbiq edilməlidir. Bəşəriyyət qarşısında bu cür cinayətlərin ən sərt və ağır cəzaya layiq olduğunu bildirən alim planetin yaşadığı yeni ekoloji şəraitdə bu məsələlərə beynəlxalq-siyasi və hüquqi baxışların dəyişməsinin zəruri olduğunu vurğulayır [21, s.221].

Məhz N.F.Reymersin əsaslandırılmış şəkildə təcavüzkar liderlərlə bağlı ortaya qoyduğu bu haqlı yanaşma Azərbaycana qarşı artıq uzun illər işğalçılıq siyasəti yürütmüş Ermənistan dövlətinin başında duran, 30 il işğal altında saxladıqları tarixən Azərbaycana məxsus olan ərazilərdə təbii kompleksi də amansızcasına terrora və soyqırımına məruz qoyan liderlərinə, həmçinin onları bu cinayətlərin törədilməsində dəstəkləyən dövlət rəsmilərinə də aiddir və, heç şübhəsiz, onlar bütövlükdə insanlığa qarşı törətdikləri bu cinayətkar əməllərinə

görə Beynəlxalq məhkəmə qarşısında layiqlı cəzalarını almalıdırlar. Bununla yanaşı, heç şübhəsiz, Ermənistandan təcavüzkar siyasəti nəticəsində Azərbaycana vurduğu külli miqdarda ziyanın kompensasiya edilməsi dövlətimiz tərəfindən tələb olunacaq.

Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında Qarabağın dirçəlişi strategiyası böyük uğurla reallaşır. Bölgədə ekoloji tarazlığın bərpası üçün də kompleks tədbirlər həyata keçirilir. Bu sahədə qarşıda duran vəzifələrin reallaşması baxımından Prezident İlham Əliyevin "Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı tədbirlər haqqında" 28 oktyabr 2021-ci il tarixli Sərəncamı xüsusi əhəmiyyət kəsb edir.

Mövcud məlumatlara görə, Cənubi Qafqaz bioloji müxtəlifliyə görə planetin 34 ən öndə gedən regionlarından biridir. Burada məskunlaşmış heyvanlar və bitkilərin 20-30%-nə dünyanın başqa yerlərində rast gəlmək qeyri-mümkündür. Regionun müxtəlif elmi mərkəzləri, institutları tərəfindən aparılmış elmi araşdırmalar əsasında belə ortaq nəticəyə gəlinmişdir ki, Cənubi Qafqaz nadir heyvan və bitki növlərinə malikdir, lakin ildən-ilə artan müxtəlif antropogen təsirlər nəticəsində onlar məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışlar. Yaranmış bu vəziyyət region dövlətlərindən təsirli tədbirlər görməyi, bu sahədəki beynəlxalq müqavilələrin, o cümlədən BMT-nin "Bioloji müxtəliflik haqqında" Konvensiyasında irəli sürülmüş vəzifələrin həyata keçirilməsini tələb edir. Azərbaycan Respublikası həmin Konvensiyanı 2000-ci ildə ratifikasiya etmiş, dövlət başçımız İlham Əliyevin 24 mart 2006-cı il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin mühafizəsi və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı" təsdiq edilmiş [1] və onun ardıcıl reallaşdırılması təmin olunur. Lakin, Azərbaycanın Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında artıq azad olunmuş 20%-dən çox ərazilərində işğal zamanı biomüxtəlifliyi amansız şəkildə məhv edən təcavüzkar Ermənistan dövləti hüquqi cəhətdən mütləq beynəlxalq müqavilə olan həmin Konvensiyanı da onun tələblərinə məhəl qoymayaraq kobudcasına pozmuş, müvafiq beynəlxalq təşkilatlar isə buna göz yummaqda davam edirlər.

Postmüharibə dövründə özünün ərazi bütövlüyünü bərpa etmiş Azərbaycanın ərazisində Ermənistan dövləti tərəfindən ekoterror siyasətinin davam etdirilməsinin bir təzahürü də Qarabağ iqtisadi zonasına daxil olan Xankəndi və Laçın rayonu ərazisindəki təbii sərvətlərimiz və faydalı qazıntılar yataqlarımız talan edilərək, onların qanunsuz istismar edilməsi olmuşdur. Məlum olduğu kimi, bununla bağlı olaraq Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki mədənlərdə monitorinq keçirmək, ətraf mühitə potensial ziyanların və risklərin qiymətləndirilməsini aparmaq istəyən Azərbaycan mütəxəssisləri həmin mədənlərə buraxılmamış, təbii sərvətlərimizin ermənilər

tərəfindən talan olunması davam edilmişdir. Bütün bunlar haqlı olaraq Azərbaycanın vətəndaş cəmiyyətinin ciddi narazılığına səbəb olmuş və baş verənlərə cavab olaraq təbii sərvətlərimizin dağıdılması, onların qanunsuz istismarına qarşı vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri – ekofəallar, QHT nümayəndələri, gənc könüllülər 12 dekabr 2022-ci il tarixindən dinc etiraz aksiyasına başlayaraq, ölkəmizin suveren ərazisində ekoterrora son qoyulmasını tələb etməkdə davam edirlər.

Cənubi Qafqazda ekoloji təhlükəsizliyin təmin edilməsində ciddi narahatlığa səbəb olan problemlərdən biri də Ermənistanın ərazisindəki "Metsamor" atom elektrik stansiyası ilə bağlıdır. Çünki Ermənistanın ərazisi seysmik qurşaqda yerləşir, deməli, stansiyadakı nüvə reaktorlarının və istismar müddətini çoxdan başa vurmuş texnoloji avadanlığın zədələnməsi təhlükəsi var ki, bu da regionda böyük ekoloji fəlakətin baş verməsinə səbəb olar. Bütün bunlara görə də, bu AES-in bağlanması region üçün ekoloji təhlükəsizlik baxımından prioritet əhəmiyyət kəsb edir [10].

Azərbaycan dövləti dəfələrlə "Metsamor" atom elektrik stansiyasının bağlanması zərurətini beynəlxalq səviyyədə əsaslandırılmış şəkildə müvafiq qurumlara çatdırmış, Ermənistandan onun bağlanmasını tələb etmişdir. Bununla bağlı məsələni Ulu Öndərimiz Heydər Əliyev 2002-ci ildə Beynəlxalq Atom Enerjisi Agentliyi (BAEA) qarşısında da qaldırmışdır [3]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu məsələyə beynəlxalq forumlarda, o cümlədən Nüvə Təhlükəsizliyi Sammitlərində, Dünya Humanitar Sammitində dəfələrlə toxunaraq, istismar müddəti başa çatmış və qəzalı vəziyyətdə olan "Metsamor" Atom Elektrik Stansiyasının bütün region üçün birbaşa təhlükə mənbəyi olduğunu diqqətə çatdırmış, radioaktiv tullantılardan qanunsuz istifadə edən Ermənistanın, onun öz rəsmiləri tərəfindən bəyan edildiyini kimi, "çirkli bomba" adlandırılan nüvə silahına malik olmasını və bu bəyanatın müvafiq beynəlxalq təşkilatlar tərəfindən ciddi şəkildə araşdırılmasının vacibliyini vurğulamış, Ermənistanın nüvə təhdidi və şantajına son qoyulmasına çağırmışdı [4]. Ancaq beynəlxalq təşkilatlar Ermənistanın bu cinayətkar əməllərinə də biganəlik göstərməkdə davam edirlər.

Beləliklə, göründüyü kimi, artıq neçə illərdir ki, "Metsamor" atom elektrik stansiyasının bağlanması Ermənistan rəhbərliyindən tələb edilir. Lakin, əslində, Ermənistan stansiyanın bağlanmasında maraqlı görünmür. Regionda bir sıra mühüm məsələlərdə olduğu kimi, bu məsələdə də ermənilər spekulyasiyaya yol verirlər. Belə ki, Ermənistan dövləti üzdə ekoloji maraqlar naminə mühüm milli məsələlərdə kompromisə getməyə hazır olan dövlət kimi yanlış bir imic formalaşdırmağa çalışsa da, faktiki olaraq, stansiyadan qonşu ölkələrə təzyiq vasitəsi kimi istifadə edir, bütövlükdə, bu sahədəki beynəlxalq

hüquq normaları və prinsiplərini tapdalamaqda davam edir. Ona görə də, müvafiq beynəlxalq qurumlar regionun ekoloji aqibətini müəyyən edən bu məsələdə qətiyyət nümayiş etdirməli, Ermənistan hökumətinə stansiyanın işinin dayandırılması üçün təzyiq göstərməlidirlər. Digər tərəfdən, BMT-nin bu məsələlərə dair Konvensiyasına əsasən bu AES-in bağlanmasını qonşu dövlətlər də birlikdə tələb etməlidirlər.

Bununla yanaşı Cənubi Qafqaz regionu üçün İran ərazisində yerləşən Buşəhr AES-i də analoji risk mənbəyidir. Xatırladaq ki, İran ərazisi də seysmik qurşağa daxildir və burada mütəmadi olaraq zəlzələlər baş verir. Bu mənada narahatlığa səbəb olan hal odur ki, İran dünyada Beynəlxalq Atom Enerjisi Agentliyinin (AEBA) Nüvə Silahlarının Yayılmaması Müqaviləsinə (NPT) qoşulsa da, lakin Təhlükəsizlik Konvensiyasını imzalamayan yeganə ölkədir [12].

Azərbaycanda AES-in tikilməsi perspektivləri baxımından qeyd etmək lazımdır ki, bu məsələ ölkəmiz üçün aktual olaraq qalır. Mövcud məlumatlara görə, hələ Sovet dövründə Azərbaycanda SSRİ-nin nüvə proqramı çərçivəsində nüvə elmlərinin inkişafı başlanğıcı 1969-cu ildən götürülərək, Azərbaycan Elmlər Akademiyasında Radiasiya Tədqiqatları Sektoru açılmış, ölkə rəhbəri Ümummilli Lider Heydər Əliyevin yaratdığı şəraitdə həmin Sektor ən müasir avadanlıqlarla təchiz edilmişdir. Qeyd edək ki, 1970-ci illərin əvvəlində Gürcüstanda Tədqiqat Nüvə Reaktorunun, Ermənistanda isə ikibloklu Atom Elektrik Stansiyasının tikintisinin aparıldığı, həmçinin bundan başqa, Ermənistan Elmlər Akademiyasında güclü siklotron qurğusunun fəaliyyət göstərdiyi bir vaxtda Ulu Öndərimiz Heydər Əliyev Azərbaycanda Tədqiqat Nüvə Reaktorunun yaradılmasına çalışırdı. Onun səyləri nəticəsində İ.V.Kurçatov adına Atom Enerjisi İnstitutu tərəfindən Azərbaycanın tələblərinə uyğun reaktor layihəsi hazırlanmış, lakin 1970-ci illərin sonunda bu layihə dayandırılmışdır. Həmin dövrdə Tədqiqat Nüvə Reaktoru layihəsi ilə əlaqəli çoxlu gənc mütəxəssislər Moskva və Obninsk şəhərlərində aspirantura hazırlığı keçərək, yüksək ixtisaslı mütəxəssislər kimi respublikamıza dönmüşlər. SSRİ hökumətinin sədr müavini işləyən Ulu Öndərimizin səyləri sayəsində 1980-ci illərdə Azərbaycanda 4 bloklu AES-in (Ermənistandakı "Metsamor" AES-i 2 reaktorluqdur) tikilməsi ilə bağlı qərar qəbul olunmuş, stansiyanın indiki Hacıqabul rayonunun seysmik cəhətdən əlverişli zona sayılan Nəvai qəsəbəsinin yaxınlığında tikilməsinə başlanılmışdır. Lakin 1986-cı ildə Çernobl AES-də qəzanın baş verməsi, sonra isə SSRİ-nin dağılması səbəbindən Azərbaycanda AES-in tikilməsi reallaşmamışdır [32].

Müstəqillik illərində müharibə şəraiti və maddi problemlərin mövcud olmasından həmin layihənin davam etdirilməsi mümkün olmamış, milli elektrik sisteminin inkişafının əsas vektoru kimi iri buxar-qaz və modul elektrik

stansiyalarının tikintisi seçilmişdir [35]. Bununla belə, perspektivdə karbohidrogen xammalı ehtiyatlarının məhdudluğunun nəzərə alınması alternativ enerji mənbəyi kimi atom elektrik stansiyasının tikintisi məsələsinin aktuallaşmasını şərtləndirmişdir. Ümummilli Lider Heydər Əliyev ölkəmizin Atom Enerjisi üzrə Beynəlxalq Agentliklə əməkdaşlığına önəm verərək, həmin qurumun 23 oktyabr 1956-cı ildə təsdiq olunmuş Nizamnaməsinə Azərbaycanın qoşulmasına dair 13 fevral 2001-ci il tarixli Qanunu imzalamışdır. Nazirlər Kabinetinin 21 may 2002-ci il tarixli, 81 saylı qərarı ilə isə AMEA-nın Radiasiya Tədqiqatları Sektoru bazasında Radiasiya Problemləri İnstitutu yaradılmışdır. Qeyd edək ki, Beynəlxalq Atom Enerjisi Agentliyi dünyanın nüvə texnologiyası və nüvə enerjisindən səmərəli istifadəsində elmi və texniki əməkdaşlıq üçün hökumətlərarası forum kimi çıxış edir.

Ümummilli Lider Heydər Əliyevin ölkədə atom texnologiyalarından gələcəkdə istifadənin əsaslarının qoyulması istiqamətində reallaşdırdığı fəaliyyət onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ardıcıl davam etdirilir. Bu baxımdan Prezidentin 08 may 2014-cü il tarixli Sərəncamı ilə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) tabeliyində "Milli Nüvə Tədqiqatları Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması əhəmiyyətli addım olmuşdur. Atom Enerjisi üzrə Beynəlxalq Agentliklə (AEBA) əlaqələrini uğurla davam etdirən Azərbaycan Respublikası 2009-2011-ci illər və 2018-2020-ci illər üzrə AEBA-nın Müdirlər Şurasına üzv qəbul edilmişdir (2021-ci ilin may ayına olan məlumata əsasən 173 dövlət AEBA-nın üzvüdür) [35].

Beləliklə, ekoloji problemlər bütövlükdə müasir bəşəriyyətin həyatında, eləcə də elmi biliyin inkişafında başlıca yer tutur. Bu baxımdan müasir ekoloji problemlərin həllinə elmi yanaşmalar aktuallıq kəsb etməklə, maraq doğuran müxtəlif və fərqli müddəaları ilə diqqəti cəlb edir.

## Ekoloji problemlərin həllinə elmi yanaşmalar

Ekoloji problemlərin həllinə elmi yanaşmaların bəzilərini nəzərdən keçirmək olar:

– Sistemli yanaşma. Məlumdur ki, təbiət özü, eləcə də təbiət-cəmiyyət münasibətləri bir sistem təşkil edirlər. Buna görə də bu sahədə tədqiqat apararkən ilk növbədə sistemliliyə üstünlük vermək lazımdır. Çünki, yuxarıda da qeyd etdiyimiz kimi, ekoloji problemlər bəşəriyyətin digər problemləri ilə sıx bağlıdır və bu bağlılıq özü də məhz həmin sistemlilikdən irəli gəlir.

– Ekoloji problemlərə elmi yanaşmanın əsas xüsusiyyətlərindən biri onun sintetikliyidir. Belə ki, müasir dövrdə ekoloji problemlərin ayrı-ayrı elm sahələri çərçivəsində tədqiqi o qədər də effekt vermir. Odur ki, onların tədqiqi

birbaşa problemə köklənib bütün elmlərin nailiyyətlərindən bəhrələnməklə fənlərarası metodologiyaya əsaslanmalıdır. Yalnız bu cür sintetik yanaşma bu problemlərin öyrənilməsində lazımi nəticələr verə bilər [22].

– Artıq qeyd olunduğu kimi, müasir dünyada ekoloji situasiyanın daha da pisləşdiyi bir şəraitdə təbiətə antropogen təsir getdikcə artır. Yaranmış bu situasiya alimlər və mütəxəssislər tərəfindən bütün planeti əhatə edən sosial – ekoloji böhran kimi qiymətləndirilir. Məhz bu böhrandan çıxış yollarının işlənilməsini öz üzərinə götürən müasir nəzəriyyələrdən biri kimi ekoloji modernləşmə nəzəriyyəsi çıxış edir. Ekoloji modernləşmə yerinə yetirilməsi insan və ətraf mühit, cəmiyyət və təbiət arasındakı problemlərin aradan qaldırılmasına gətirib çıxaran ən yeni, müasir ekoloji tələblər və normalara müvafiq dəyişiklikləri nəzərdə tutur.

Ekoloji modernləşmə nəzəriyyəsinin inkişafında formalaşmış müxtəlif istiqamətlər bu prosesin mahiyyəti, eləcə də onun aktorları barədə fərqli fikirlər yürüdürlər. Belə ki, bu istiqamətlərin nümayəndələri ondan çıxış edirlər ki, birincisi, ekoloji modernləşmə sənaye cəmiyyətinin inkişafında qanunauyğun mərhələ olmaqla, onun mahiyyəti mövcud sənaye texnologiyalarının təbii ehtiyatlara qənaət edən, təbiət üçün, insanın sağlamlığı və ətraf mühit üçün daha az dağıdıcı texnologiyalarla əvəz olunmasından, yəni sənaye texnologiyaların dəyişməsindən ibarətdir. Onun əsas aktorunu biznes təşkil edir, lakin innovasiyaların tətbiqi prosesinə az da olsa, dövlət hakimiyyəti orqanlarının müdaxiləsi də mümkündür. Yeni sosial hərəkatların, o cümlədən ekoloji hərəkatın ekoloji modernləşmədə rolu isə məhduddur. (Y.Huber, A. Mol) [24; 25]; ikincisi, ekoloji modernləşmənin mərkəzi elementi kimi ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsinə yönələn milli iqtisadiyyatın strukturunun dəyişməsinə dair dövlət siyasəti çıxış edir və bu zaman dövlət ekoloji modernləşmə prosesinin əsas aktorunu təşkil edir (M.Conik və b.) [26]; üçüncüsü, ekoloji modernləşmə icraedici dövlət orqanları və müəssisə menecerləri tərəfindən həyata keçirilən yeni ekoloji siyasət ekspertlərinin gəldikləri nəticələr əsasında qurulmuş sosial prosesdir, mütəxəssislər, dövlət və biznes isə onun əsas aktorlarıdır (A.Vil, R.Velford, A.Qouldson) [29] və s.

– Ekoloji sivilizasiya konsepsiyası. Dünyada ilk dəfə olaraq ekoloji sivilizasiya konsepsiyası Azərbaycanda akademik Urxan Ələkbərov tərəfindən işlənmişdir. Görkəmli alim U.K.Ələkbərov insanın yaşayış mühitinin vahid olduğunun, ekologiya, iqtisadiyyat, siyasət və cəmiyyətin vəhdət təşkil etməsinin dərk edilməsinin, hamının dünya vətəndaşı olmaqla, öz bilikləri və peşə vərdişlərinin Yerin rifahı naminə istifadə etməsinin zəruriliyindən çıxış edir. Bu ideyaların təcrübədə reallaşması üsulları Akademik U.K.Ələkbərovun dünyada ilk dəfə Azərbaycanda irəli sürdüyü ekoloji sivilizasiya konsepsiyasında müəyyən olunmuşdur. Hazırda bir anlayış kimi dünyada geniş yayılmaqda

olan ekoloji sivilizasiyanın əsas məqsədlərindən biri inkişafda müşahidə edilən iki mənfi tendensiyanın – "gələcəksiz inkişaf" və "bərabərsizliklə müşahidə edilən" inkişaf ehtimalının qarşısının alınmasıdır. Ekosivilizasiya ilk növbədə düşünülmüş istehlak mədəniyyəti və yaşıl texnologiyalardır. Sivilizasiyanın yeni səviyyəsinə – ekoloji sivilizasiyaya və yeni tipli cəmiyyətə keçid prosesi mərhələli olmalıdır. Bu yolda ilk növbədə biliklər əldə olunmalı, insan təfəkkürü dəyişməli, "yaşıl" iqtisadiyyatı "yaşıl" davranışlı və "yaşıl" tələbatları olan "yaşıl" insanlar yaratmalıdırlar. Eyni zamanda yalnız yüksək peşəkarların formalaşması nəticəsində cəmiyyət ekoloji sivilizasiyaya keçidini təmin edə bilər. Azərbaycan Respublikasında bu istiqamətdə həyata keçirilən siyasət uğurludur və bu xüsusiyyət bir sıra beynəlxalq təşkilatların sənədlərində öz əksini tapmışdır [8, s.135-138].

– Sinergetik yanaşma. Bəşəriyyətin inkişafının qeyri-müəyyənliklə, sosiosferaya yeni hadisələrin sürətlə müdaxiləsi, yeni təhlükələr və münaqişələrin mövcudluğu, münasibətlərin, adət və ənənələrin dəyişməsi ilə səciyyələnən indiki mərhələsində müasir dünya tez-tez, hələ ki, birtərəfli düşünən insanın nəzarəti altından çıxan mürəkkəb, özünü təşkil edən sistem kimi çıxış edir. Bu vəziyyət isə xeyli dərəcədə bir çox ənənəvi idarəetmə metodlarının səmərəsiz olmasını şərtləndirir. Belə şəraitdə insan sivilizasiyasının təkamülü prosesi gedişində yaranmış mürəkkəb problemlərə cavab olaraq sinergetik üslublu təfəkkürə əsaslanan paradiqmanın yaranması olmuşdur [17, s.255]. Sinergetik təfəkkür üslubunun prinsiplərindən başlıcasını özünütəşkil prinsipi təşkil edir. Özünütəşkil sistemin təşkilinin öz-özünə dəyişməsi, məqsədyönlü idarəçilik təsiri olmadan strukturların spontan şəkildə nizama düşməsi (xaosdan qaydaqanuna keçməsi), yaranması və inkişafı prosesidir [20]. Sinergetika mürəkkəb sistemlərin, özünütəşkil fenomeninin, müxtəlif qeyri-davamlılıq növlərinin, keçid proseslərinin öyrənilməsi ilə məşğul olan yeni elm sahəsi olmaqla (keçən əsrin 70-ci illəri), onun nailiyyətləri və, ilk növbədə, metodoloji alətləri müasir problemlərin, o cümlədən ekoloji problemlərin həlli üçün səmərəli vasitə yeni idarəetmə paradiqmasının formalaşmasına səbəb ola bilər.

Özünütəşkil ideyasının idarəçiliyin həyata keçirilməsi üçün əhəmiyyəti baxımından qeyd etmək lazımdır ki, özünütəşkil rejimində inkişaf edən sosial sistemlərin, eləcə də ekoloji sistemlərin idarə edilməsində nəzərə alınmalıdır ki, birincisi, özünütəşkil qanunlarının bilməsi həmin sistemlərin işləməsinə müdaxilə olunmasına və müəyyən mənada onları idarə etməyə imkan verir; ikincisi, özünütəşkil rejimində idarəetmə prosesi təkamüllü dəyişikliklər sistemlərinə xas olan qanunauyğunluqların müəyyən edilməsinə və onların nəzərdə tutulan trayektoriyalar üzrə yönəldilməsindən ibarət olur. Sinergetik yanaşmanın dövlət idarəçiliyində, o cümlədən ekoloji idarəetmədə tətbiqi, bu prosesə vətəndaş cəmiyyətinin cəlb edilməsinin zəruriliyi ilə bağlı akademik

Urxan Ələkbərovun irəli sürdüyü müddəalar həm elmi, həm də praktiki baxımından xüsusi maraq doğurur [6; 7].

Təhlillər göstərir ki, qeyd olunan elmi yanaşmalar çərçivəsində fərqli müddəalar irəli sürülsə də, onların hamısı bəşəriyyətin mövcudluğuna təhdid kimi qiymətləndirilən müasir qlobal ekoloji böhranın aradan qaldırılması zərurətindən çıxış edir və bunun yollarını təklif edirlər.

**Ekoloji problemlərin siyasi aspektləri**

Ekoloji amil siyasi sahəyə getdikcə daha çox öz təsirini göstərir və əhalinin siyasi fəallığını şərtləndirir ki, bu da cəmiyyətin ekoloji böhrandan çıxış yollarının axtarışında öz təzahürünü tapır, bəzi hallarda isə ekoloji böhran siyasi gərginliyə və qeyri-sabitliyə də səbəb olur. Siyasət fenomeni ictimai həyatın sivilizasiya üçün taleyüklü olan sahələrində yaranır. Bu baxımdan məhz ekologiya XX əsrin sonundan başlayaraq bəşəriyyət üçün taleyüklü problemə çevrilmişdir. Belə şəraitdə siyasət insanın həyat və fəaliyyətinin xüsusi sahələrində ziddiyyətlərin həlli üçün universal vasitələri nəzərdə tutan strukturlar yaradır. Bu məsələləri siyasi elmin vacib kateqoriyası olan siyasi məkan kontekstində nəzərdən keçirərək qeyd etmək lazımdır ki, ekoloji problemlər insanları müəyyən coğrafi məkanda birləşdirərək bir sıra hallarda rəsmi sərhədləri nəzərə almadan fəal hərəkətlərə sövq edir ki, bu da yeni siyasi birliklərin və siyasi məkanların – ekosiyasi məkanların formalaşmasına gətirib çıxarır. Böhranlı ekoloji situasiyaları əks etdirən kəskin məsələlərin ortaya çıxması ekosiyasi məkanın yaranmasının başlıca şərtini təşkil edir, başqa sözlə, ekosiyasi məkan daha çox yüksək ekoloji risk zonası kimi mövcud olur. Milli dövlətlər şəraitində ekosiyasi məkanda siyasi fəallıq əsasən daxili ekoloji problemlərin həllinə yönəlir və həmin ərazidə marağı olan istənilən subyekt tədricən ekosiyasi məkana onun genişlənməsi vasitəsilə qoşulmuş olur. Əgər problem bütün bəşəriyyət üçün aktualdırsa, ekosiyasi məkan qlobal xarakter alır [15, s.62].

Bu kontekstdə ekoloji siyasət müasir dövlətin fəaliyyətinin bir istiqamətini təşkil edir və onun həm daxili, həm də xarici siyasətinin vacib aspektinə çevrilir. Bununla da «ekologiya» anlayışı yeni məzmun daşımaqla, ekoloji siyasətin qlobal miqyasda nəzərdən keçirilməsi və bu baxımdan siyasi elmin predmet sahəsinin genişləndirilməsi zərurəti ortaya qoyulur. Sosial dinamikanın ekoloji prioritetlərinin istənilən milli inkişaf strategiyasının ayrılmaz komponentinə, dövlətin daxili və xarici siyasəti məqsədləri və istiqamətlərinin müəyyən edilməsinin əsasına çevrilməsi haqqında tədqiqatçılar tərəfindən fikirlər söylənilir. Bütün bunlar isə ekoloji siyasətin həyata keçirilməsi təcrübələrinin politoloji aspektlərdən dərk edilməsini zəruri edir. BMT-nin Nizamnaməsində

göstərildiyi kimi, müasir ekoloji siyasətin əsas xüsusiyyəti ondan ibarətdir ki, bütün dövlətlər özlərinin ekoloji siyasətini işləmək hüququna malikdir, lakin onlar təhlükəsizliyin təmin edilməsinə və digər ölkələrin ətraf mühitinə zərərin vurulmamasına görə məsuliyyət daşıyırlar. Ekoloji problemlərin səmərəli həllinə yalnız bu sahədə bütün dövlətlərin siyasi əməkdaşlığının qurulması əsasında nail olunması mümkündür.

Müasir mərhələdə Azərbaycan Respublikasında Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan ekoloji siyasət geniş vüsət almaqla dövlət idarəçiliyinin bütün sahələrini əhatə edən kompleks bir mexanizmə çevrilmişdir. Ən başlıcası odur ki, digər sahələrdə olduğu kimi, ətraf mühitin mühafizəsi sahəsində də dövlət siyasətinin reallaşmasına dövlət başçısı tərəfindən rəhbərlik və nəzarət edilir və bu baxımdan Prezident yanında ekologiya məsələlərinə həsr olunmuş xüsusi müşavirələrin keçirilməsi təcrübəsi olduqca əhəmiyyətli olmaqla öz səmərəsini verir. Təhlillər əsasında dövlətimizin müasir dövrdə məqsədyönlü şəkildə həyata keçirdiyi ekoloji siyasətin xüsusiyyətləri kimi aşağıdakıları göstərmək olar:

– birincisi, bu siyasətin reallığa əsaslanması, dinamikliyi, kompleks xarakterli olması və elmi-konseptual əsaslara söykənməsi;
– ikincisi, onun davamlı inkişaf konsepsiyasına əsaslanmaqla, ölkədə ekoloji sivilizasiyanın formalaşması məqsədinin reallaşmasına istiqamətlənməsi;
– üçüncüsü, ətraf mühitin mühafizəsinin iqtisadi mexanizminin təkmilləşdirilməsini nəzərdə tutması;
– dördüncüsü, bu siyasətin ekoloji modernləşmə və "yaşıl" iqtisadiyyatın inkişafına, eləcə də bu sahədəki dövlət idarəçiliyi sisteminin modernləşməsinə yönəlməsi və s.

**Nəticə**

Beləliklə, XX əsrin ikinci yarısından təbiəti yalnız öz təsərrüfat fəaliyyəti üçün sərvətlər mənbəyi hesab edən bəşəriyyət tədricən başa düşməyə başlamışdır ki, bundan sonra daha əvvəlki ölçülərlə yaşamaq mümkün deyil və biosferin qorunub saxlanılması üçün tədbirlər görülməlidir. Ətraf mühitin deqradasiyası artıq qlobal səviyyədə dönməz xarakter almış və bu proseslər də təbii, sosial, texnogen, digər fəlakətlərin baş verməsi ehtimalını artırır və belə fəlakətlərin qarşısının alınması yollarının, mexanizmlərinin müəyyən edilməsi zərurətini ortaya qoyur.

Təhlillərdən göründüyü kimi, müasir dünyada qloballaşma və lokallaşma prosesləri qlobal, regional və yerli ekosiyasi məkanların yaranması ilə müşayiət

olunur və onlar üst-üstə düşməklə və ənənəvi milli-iqtisadi ərazi bölünmələri ilə kəsişməklə müasir dünyanın mürəkkəb siyasi strukturlarını formalaşdırırlar. Onların əsasında konkret, ekoloji baxımdan müəyyən olunmuş ərazilərin sosial qruplarını birləşdirən ekoloji maraqlar durur və indiki dövrdə əksər hallarda bu maraqlar ekoloji təhlükəsizliyin təmin edilməsi ilə bağlıdır.

Ətraf mühit problemlərinin dərinləşməsi və milli sərhədlərdən kənara çıxması planetin əhalisinin artması və iqtisadi artımın, urbanizasiya və qloballaşma proseslərinin, eləcə də özünü doğrultmayan istehsal və istehlak metodlarından istifadənin, eləcə də müxtəlif hərbi münaqişələrin nəticəsi olmuşdur. Müasir ekoloji problemlər həmçinin sosial tələbatlarla, demoqrafik situasiya ilə, yoxsulluqla sıx bağlıdır və onların heç biri ayrı-ayrılıqda götürülə bilməz.

Ekoloji böhran qlobal fenomen kimi siyasi idarəetməni zəruri edir və sosial-siyasi paradiqmaların dəyişməsi zəmini kimi çıxış edir. Mövcud təbii şərait göstərir ki, gələcək inkişaf perspektivləri dərk olunmalı, insan fəaliyyəti və təbiət arasında düşünülmüş balans üçün əsaslar yaradılmalıdır. Bunlar isə müasir ekoloji problemlərin və ekoloji böhran fenomeninin siyasi müstəvidə öyrənilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini göstərir və milli, regional və qlobal miqyasda səmərəli və ardıcıl ekoloji siyasətin həyata keçirilməsini zəruri edir. Digər tərəfdən, yaranmış belə şərait ekoloji təhlükəsizlik problemini milli təhlükəsizliyin vacib tərkib hissəsi kimi nəzərdən keçirməklə önə çəkilməsini tələb edir. Bu baxımdan təbiətə qarşı soyqırımı və terror törədən dövlət başçıları, o cümlədən uzun illər Azərbaycan təbiətinə qarşı soyqırımı siyasəti yürüdən təcavüzkar Ermənistanın rəhbərləri müvafiq beynəlxalq təşkilatların iştirakı ilə Beynəlxalq məhkəmə qarşısında cinayətə cəlb edilməklə ciddi şəkildə cəzalandırılmalı, həmin dövlətdən vurulan ziyanın kompensasiyası tələb edilməlidir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planının təsdiq edilməsi haqqında” Sərəncamı, 24 mart 2006-cı il.
2. Azərbaycan Respublikası Prezidentinin “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”nın təsdid edilməsi haqqında”. 15 sentyabr 2008-ci il tarixli 3043 nömrəli Sərəncamı // Azərbaycan. – 2008, 16 sentyabr.
3. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Beynəlxaq Atom Enerjisi Agentliyinin baş direktoru Məhəmməd Əl Baradeyi ilə söhbəti.23 may 2002-ci il // Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 46 cilddə. 38-ci kitab (mart, 2002 - may, 2002). – Bakı: Azərnəşr, – 2011. – 480 s.
4. Azərbaycan Prezidenti İlham Əliyevin İstambulda Dünya Humanitar Sammitində çıxışı.23 may 2016-cı il // Xalq qəzeti. – 2016, 24 may.
5. Abşeron yarımadasının ekoloji problemləri // http://files.preslib.az/projects/azereco/az/eco_m2_2.pdf
6. Ələkbərov U., İmanov Q. Ekoloji sivilizasiya indeksi: konsepsiya və ilk tətbiq (ing.dilində) // İnsan və biosfer (MaB, YUNESKO). Azərbaycan Milli Komitəsinin əsərləri. – Bakı: Təhsil, – 2011. – 360 s.
7. Ələkbərov U.K. İnsan inkişafının əsasları. Ali məktəblər üçün dərslik. – Bakı: Aspoliqraf, – 2016. – 280 s.
8. Ələkbərov U.K. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları. Dərs vəsaiti. – Bakı: Təhsil, – 2017. – 224 s.
9. Ermənistanın terror siyasəti nəticəsində Azərbaycanın ekologiyasına ciddi ziyan dəyib // https://yeniazerbaycan.com/SonXeber_e87005_az.html
10. Ermənistandakı "Metsamor" AES-in fəaliyyəti region üçün təhlükədir// http://az.trend.az/news/society/1845070.html
11. İşğal olunmuş Azərbaycan ərazilərində ətraf mühitə və təbii sərvətlərə dağıdıcı təsiri müəyyənlədirən operativ Mərkəzin II Hesabatı. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi // www.eco.gov.az
12. İranda "Buşəhr" AES üçün zəlzələ və ya sunami təhlükəsi varmı ? // http://pda.milli.az/news/world/180622.html
13. Алиев И. Каспийская нефть Азербайджана – Москва: Известия, – 2003. – 712 с.
14. Боровкова Г. ГМО: Экологические риски. 17.05.2019 // http://nzd22.ru/2019/05/17/gmo-ekologicheskie-riski/
15. Волков В.Л, Афиногенов Д.В. Экополитические пространства - новые политические измерения // Общественные науки и современность. – 2002. – №3. – с.59-67.

16. Глобальная экологическая перспектива ГЕО-3.Прошлое, настоящее и перспективы на будущее // ЮНЕП, Найроби, 2002 // www.unep.org/geo/sites/unep.org.geo/files/documents/prelims_ru.pdf
17. Государственная политика и управление: учебник в 2 ч. под ред. Сморгунова Я.В.. ч. 1. – М.: РОССПЭН, – 2006. – 381с.
18. Гудратзаде Ш. В. Современное состояние водных объектов Азербайджана и их охрана // Бюллетень науки и практики / Bulletin of Science and Practice. – Т.7. – №10. – 2021. – s.31-37.
19. Лапин И. Экологический кризис что это такое? // https://www.proza.ru/2005/10/18-42
20. Муравых А.И. Синергетический подход к управлению экологической безопасностью // Право и безопасность. – 2004. – №3 // http://dpr.ru/pravo/pravo_9_26.htm
21. Реймерс Н. Ф. Экология (теории, законы, правила принципы и гипотезы). – М.: Журнал «Россия Молодая», – 1994. – 367 с.
22. Фомичев А.Н. Проблемы концепции устойчивого экологического развития: Системно-методологический анализ. М. : URSS, 2009. 216с.
23. Энгельс Ф. Диалектика природы // Маркс К., Энгельс Ф.Соч. 2-е издание. Т.20. М., Изд-во политической литературы, 1961. 857 с. С.339-626.
24. Huber J. Die Verliorene Unschuld der Okologie: Neue Technologien und superindustriell Entwicklung. Frankfurt am Main: Fisher Verlag, 1982
25. Mol A. Sociology, environment and modernity: ecological modernization as a theory o social change // Society and Natural Resources. – 1992. – Vol. 5. – p.323-344
26. Jonicke M. Preventive environmental policy en ecological modernization find structura policy // Discussion paper. – Berlin, – 1985. – p. 46-59
27. Gamtsemlidze Z., Zazanashvili N. Forest Fires in Borjomi. // Caucasus Environment. October 2008, p.47.
28. Weale A. The New Politics of Pollution. Manchester: Univ. Press, – 1992.
29. Welford R., Gouldson A. Environmental Management and Business Strategy. London: Pittman Publishing, 1993.
30. https://lib.aliyev-heritage.org/az/4877973.html
31. https://azinforum.az/iqtisadiyyat/aspa-sərsəng-su-anbari-ilə-bagli-qətnaməni-qəbul-edib/
32. https://azlogos.eu/azərbaycanda-atom-enerjisi-perspektivi/
33. http://www.stat.gov.az/source/environment/
34. https://eco.gov.az/az/nazirlik/xeber?newsID=11228
35. https://respublika-news.az/news/azerbaycanin-beynelxalq-atom-enerjisi-agentliyi-ile-emekdasliq-elaqeleri
36. https://theworldonly.org/rost-naseleniya-zemli-6-milliardov-za-poslednie-200-let/

37.https://www.bakupost.az/serseng-su-anbarinin-idareetmesi-derhal-azerbaycana-tehvil-verilmelidir-ermenilerin-su-terroru-davam-edir
38. https://a-r.az/az/article/18507

## ABSTRACT

## GLOBAL ENVIRONMENTAL CRISIS AND ITS MANIFESTATIONS IN AZERBAIJAN: SOCIO-POLITICAL ASPECTS OF THE PROBLEM

**Mammadova S.I.**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Dr. in Political Sciences, Acting Professor*

In the presented article, the nature of the global environmental crisis is explained from socio-political aspects, and the environmental problems existing in modern Azerbaijan are considered manifestations of the global environmental crisis. At the same time, the consequences of ecocide and ecological terrorism mercilessly committed by the Armenian state against the natural complex in the territories of Azerbaijan, which have been under its occupation for 30 years, are revealed. The analysis, carried out in the context of the socio-political aspects of the problem and presented in an argumentative manner, testifies to the special importance of studying the phenomenon of the modern ecological crisis at the political level, the need for consistent implementation of effective environmental policy at the national, regional, and global scales, and generalized provisions and recommendations for overcoming the global environmental crisis are put forward.

***Keywords:*** *global environmental crisis, environmental problems in Azerbaijan, Armenian aggression, socio-political aspects, ecocide, environmental terror, environmental policy*

# РЕЗЮМЕ

## ГЛОБАЛЬНЫЙ ЭКОЛОГИЧЕСКИЙ КРИЗИС И ЕГО ПРОЯВЛЕНИЯ В АЗЕРБАЙДЖАНЕ: СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ АСПЕКТЫ ПРОБЛЕМЫ

**Мамедова С.И.**

*Академия Государственного Управления при Президенте Азербайджанской Республики, доктор политических наук, и.о. профессора*

В представленной статье с социально-политических аспектов раскрывается сущность экологического кризиса, принявшего глобальный характер, как проявления глобального экологического кризиса рассматриваются экологические проблемы, существующие в современном Азербайджане. При этом раскрываются последствия экоцида и экологического террора, беспощадно совершенного армянским государством против природного комплекса на территориях Азербайджана, 30 лет находящихся под его оккупацией. Анализ, проведенный в контексте социально-политических аспектов проблемы, представляется аргументированным, свидетельствует об особой значимости изучения феномена современного экологического кризиса в политической плоскости, о необходимости последовательной реализации эффективной экологической политики на национальном, региональном и глобальном масштабах. Раскрываются особенности успешно осуществляемой Азербайджанским государством целенаправленной экологической политики, выдвигаются обобщенные положения и рекомендации по преодолению глобального экологического кризиса.

***Ключевые слова:*** *глобальный экологический кризис, экологические проблемы в Азербайджане, агрессия Армении, социально-политические аспекты, экоцид, экологический террор, экологическая политика Азербайджана*

DOI: 10.30546/mab.17.2022.81

UOT 351

# AZƏRBAYCAN RESPUBLİKASINDA RƏQƏMSALLAŞMANIN DÖVLƏT İDARƏÇİLİYİNDƏ ROLU

**Həsənov M.İ.**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsinin dekanı, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

*e-mail: m_hasanoglu@yahoo.com.tr*

**Mahmudova S.M.**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*

*Rəqəmsallaşma prosesi süni intellektdən geniş istifadə, istehsalın avtomatlaşdırılması, robotlaşdırma, iqtisadiyyatın bütün sahələrində rəqəmsal texnologiyaların geniş tətbiqini əhatə edir. Azərbaycanda rəqəmsal hökumətin inkişafı, maliyyə sektorunda tətbiq olunan həllər, qanunvericiliyin yeni texnoloji tenden-siyalara uyğunlaşdırılması prosesi sürətlə davam edir. Azərbaycanın sosial-iqtisadi həyatında mühüm rol oynayan informasiya-kommunikasiya texnologiyaları sahəsi öz inkişaf səviyyəsi ilə seçilir. Azərbaycanda bu sahədə innovativ yönümlü fəaliyyətin inkişafı və möhkəmləndirilməsi üçün daim tədbirlər görülür. Bu çalışmada "Azərbaycan Respublikasında Rəqəmsallaşmanın Dövlət İdarəçiliyində Rolu" mövzusu araşdırılmışdır.*

***Açar sözlər:*** *Azərbaycan Respublikası, dövlət idarəçiliyi, dövlət idarəçiliyinin tranformasiyası, E-hökumət, rəqəmsallaşma.*

## Giriş

Müasir dünyada elm və yeni texnologiyaların sürətli inkişafı, rəqəmsallaşma ilə yaranan virtual münasibətlər, iqtisadiyyat, səhiyyə, təhsil və bu kimi bir çox istiqamətdə yeni yanaşma və modellər rəqəmsal transformasiyalar mövzusunu dünyanın bütün ölkələrində araşdırılmasını zəruri edir. Dövlət idarəetməsi – dövlət siyasətinin həyata keçirilməsidir və eyni zamanda bu tətbiqi öyrənən və mülki işçiləri dövlət qulluğunda işləməyə hazırlayan, əsas məqsədi hökumətin fəaliyyət göstərə bilməsi üçün idarəetməni və siyasəti

inkişaf etdirmək olan, müxtəlif əhatəli bir araşdırma sahəsi olan bir akademik intizamdır. Rəqəmsallaşma, iş modelini dəyişdirmək, yeni gəlir mənbələri və dəyər yaratmaq imkanları yaratmaq üçün rəqəmsal texnologiyadan istifadə prosesidir. Müasir dünyada yaşanan dördüncü sənaye inqilabı dövrü elm və texnikanın sürətli inkişafı, süni intellekt, müasir ağıllı texnologiyalardan istifadə, robotexnikanın təkmilləşdirilməsi, iri miqyaslı datalarla səciyyələnir. İnternet və rəqəmsallaşmanın gün keçdikcə insanların həyatında daha önəmli, hətta mərkəzi yerlərdən birini tutduğu inkar olunmazdır. Bu rəqəmsal transformasiyalar miqyasına görə gündəlik həyatdan siyasi, dünya əhəmiyyətli məsələlərə qədər baş verir və ayrı-ayrı insanlar, şirkətlər, qurum və müəssisələr, dövlətlər bu prosesin bir parçasıdır. Rəqəmsallaşma həyatın müxtəlif sahələrində: sənaye, iqtisadiyyat, təhsil, mədəniyyət, xidmət və s. rəqəmsal texnologiyaların geniş tətbiqidir. Bu, şirkətin və ya bütöv bir iqtisadi sənayenin informasiya texnologiyalarına əsaslanan yeni biznes proses modellərinə və istehsal alətlərinə keçidini nəzərdə tutur. Rəqəmsallaşma fenomeni dünyanın əksər ölkələrində informasiya texnologiyaları, mikroelektronika və rabitənin sürətli inkişafı ilə əlaqədardır. Rəqəmsal transformasiyalar və rəqəmsal dövlət bütün dünyada geniş araşdırılan və aktual hesab edilən mövzudur. İnformasiya-kommunikasiya texnologiyalarının insanlara yaratdığı yeni reallıqlar davamlı bir şəkildə öyrənilsə də rəqəmsal dövlət, elektron hökumət anlayışları bu gün bir çox ölkələrdə son iyirmi il ərzində formalaşmağa başlamışdır. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra, köklü dəyişikliklərə başlanılır. Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi mühüm islahatlar bu dövrdən başlayaq dövlət qulluğunun formalaşmasına öz təsirini göstərmişdir. Azərbaycanda həyata keçirilən siyasi və sosial-iqtisadi islahatlar ölkədə insan kapitalının inkişafına təsir göstərən siyasətin həyata keçirilməsini sürətlən-dirmiş, bununla bağlı bir sıra strategiyalar və dövlət proqramları qəbul edilmişdir. Azərbaycanda sosial-iqtisadi və digər sahələrdə aparılan islahatların səmərəliliyini təmin etmək, düzgün transformasiya strategiyasını uğurla həyata keçirmək üçün demokratik prinsiplərə əsaslanan dinamik və rasional dövlət idarəçiliyi sistemi yaradılmışdır. Son illərdə Azərbaycan öz dövlət idarəçiliyinin rəqəmsallaşdırılması istiqamətində böyük səylər göstərir. Azərbaycanda dövlət xidmətlərinin səmərəliliyinin artırılmasına yönəlmiş bir sıra rəqəmsal təşəbbüslər həyata keçirilib.

Bu sahədə əsas təşəbbüslərdən biri 2013-cü ildə istifadəyə verilmiş "Elektron Azərbaycan" proqramıdır [4]. Proqram qabaqcıl rəqəmsal infrastrukturun inkişafı və iqtisadiyyatın bütün sahələrində rəqəmsal texnologiyaların istifadəsinin təşviqi yolu ilə Azərbaycanın rəqəmsal cəmiyyətə çevrilməsinə yönəlib.

"Elektron Azərbaycan" Proqramı çərçivəsində hökumət dövlət xidmətlərinin göstərilməsi üçün bir sıra rəqəmsal platformalar hazırlayıb. Bu platforma-

lara vətəndaşlara vergi bəyannamələrinin verilməsi, əmlakın və biznesin qeydiyyatı da daxil olmaqla geniş çeşidli dövlət xidmətlərinə onlayn giriş imkanı verən "elektron hökumət" portalı daxildir. Portal həmçinin dövlət siyasəti və proqramları haqqında məlumat verir.

Bundan əlavə, hökumət vətəndaşlar arasında rəqəmsal savadlılıq və bacarıqların artırılmasına yönəlmiş bir sıra təşəbbüslər başlatdı. Bu təşəbbüslərə onlayn kursların və təlim proqramlarının hazırlanması və ölkənin müxtəlif yerlərində rəqəmsal savadlılıq mərkəzlərinin yaradılması daxildir.

Azərbaycanda rəqəmsallaşmanın daha bir mühüm aspekti rəqəmsal ödənişlərin və maliyyə xidmətlərinin inkişafıdır. Hökumət rəqəmsal ödənişləri təşviq etmək və iqtisadiyyatda nağd pul istifadəsini azaltmaq üçün bir sıra təşəbbüslər irəli sürmüşdür. Bu təşəbbüslərə mobil ödəniş sistemlərinin inkişafı və milli ödəniş sisteminin yaradılması da daxildir.

Texnologiyaların Azərbaycanda dövlət proseslərinə necə tətbiq olunduğuna dair bir neçə nümunə:

**Elektron hökumət portalı:** Azərbaycanda Elektron hökumət portalı [7] 2013-cü ildə istifadəyə verilib, vətəndaşlara elektron sertifikatların alınması, vergilərin ödənilməsi və müəssisələrin qeydiyyatı kimi bir sıra onlayn dövlət xidmətlərinə çıxış imkanı verilib. Portal özündə 400-dən çox xidməti ehtiva edir. Elektron kabinet sistemi Nazirlər Kabineti və digər dövlət qurumları tərəfindən siyasət, qanunvericilik və digər məsələlərlə bağlı sənədləri idarə etmək üçün istifadə olunur. Sistem sənədləri elektron şəkildə yaratmağa, görüntüləməyə və təsdiqləməyə imkan verir, bütün müvafiq tərəflər eyni məlumatları real vaxtda əldə edə bilərlər. Sistem eyni zamanda şəffaflığı və hesabatlılığı artırmaq, hökumət qərar qəbuletmə proseslərini ictimaiyyətə daha çox göstərmək üçün hazırlanmışdır. Elektron kabinet sisteminə hökumət qərarları və onların qəbul edilməsi prosesi haqqında məlumat əldə etməyə imkan verən ictimai portal daxildir. Elektron kabinet sistemi Azərbaycanın öz hökumətini modernləşdirmək və səmərəliliyi və şəffaflığı artırmaq səylərində müsbət hadisə kimi qiymətləndirilib. Sistem bürokratiyanın azaldılması və qərar qəbuletmə proseslərinin optimallaşdırılması və vətəndaşların məlumat əldə etməsinin yaxşılaşdırılması üçün yüksək qiymətləndirilmişdir. Bununla birlikdə, hər hansı bir sistemdə olduğu kimi, zaman keçdikcə yarana biləcək problemləri hökumətin izləməsi və ortaya çıxdıqca həll etməsi istiqamətində işlər davamlı şəkildə həyata keçirilir.

**Elektron sənəd dövriyyəsi:** hökumət, kağız vəsaitlərinə olan ehtiyacı azaldaraq, hökumət sənədlərinin elektron şəkildə yaradılmasına, baxılmasına və təsdiqlənməsinə imkan verən elektron kabinet kimi elektron sənəd idarəetmə sistemlərini tətbiq etməyə başladı. Elektron sənəd dövriyyəsi (EDM)

Azərbaycan hökuməti tərəfindən inzibati proseslərin optimallaşdırılması və kağız sənədlərdən istifadənin azaldılması məqsədilə qəbul edilib. EDM, elektron sənədləri təhlükəsiz və səmərəli şəkildə yaratmağa, saxlamağa və idarə etməyə imkan verən bir sistemdir. Elektron kabinet sistemi Azərbaycan hökumətinin istifadə etdiyi əsas elektron sənəd dövriyyəsi sistemidir. Sistem 2013-cü ildə başlamış və siyasət inkişafı, qanunvericilik və digər məsələlərlə əlaqəli sənədləri idarə etmək üçün Nazirlər Kabineti də daxil olmaqla müxtəlif dövlət qurumlarında tətbiq edilmişdir. Azərbaycanda elektron sənəd dövriyyəsi sistemlərinin tətbiqi hökumətə kağız sənədlərdən istifadəni azaltmaqla səmərəliliyi və şəffaflığı artırmağa imkan verir.

**Rəqəmsal İdentifikasiya Kartları:** 2019-cu ildə Azərbaycanda bir sıra biometrik məlumatları özündə birləşdirən və dövlət xidmətlərinə çıxış və maliyyə əməliyyatlarının aparılması kimi müxtəlif məqsədlər üçün istifadə edilə bilən rəqəmsal identifikasiya kartları tətbiq edilib. 2019-cu ildə Azərbaycanda şəxsiyyət və dövlət xidmətlərinin identifikasiyasının təhlükəsizliyinin və rahatlığının artırılması məqsədilə rəqəmsal şəxsiyyət vəsiqələri təqdim edilib. "ASAN imza" kimi tanınan rəqəmsal şəxsiyyət vəsiqələri Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN imza) tərəfindən buraxılır və qabaqcıl biometrik texnologiyalara əsaslanır [2].

ASAN imza rəqəmsal şəxsiyyət vəsiqələrində barmaq izləri, həmçinin şəxsi məlumatlar və unikal rəqəmsal imza kimi bir sıra biometrik məlumatlar var. Kartlar dövlət xidmətlərinə çıxış, sənədlərin rəqəmsal imzalanması və maliyyə əməliyyatlarının aparılması da daxil olmaqla bir sıra məqsədlər üçün istifadə edilə bilər.

Rəqəmsal şəxsiyyət vəsiqələrinin əsas üstünlüklərindən biri onların rahatlığı və əlçatanlığıdır. Vətəndaşlar kartlara onlayn və ya ölkə daxilində yerləşən ASAN xidmət mərkəzlərində asanlıqla və tez müraciət edə bilərlər. Kartlar fiziki mövcudluğa və ya kağız sənədlərinə ehtiyac olmadan bir sıra onlayn xidmətlərə daxil olmaq üçün istifadə edilə bilər.

Rəqəmsal şəxsiyyət vəsiqələri də şəxsiyyət identifikasiyası və əməliyyatlarda təhlükəsizliyin artırılması yolunda bir addım kimi qəbul edildi. Kartlarda saxlanılan biometrik məlumatlar və rəqəmsal imzaların istifadəsi şəxsiyyət oğurluğu və saxtakarlığı kimi problemlərin aradan qalxmasına xidmət edir.

Azərbaycanda rəqəmsal şəxsiyyət vəsiqələrinin tətbiqi şəxsiyyət identifikasiyasının və dövlət xidmətlərinin səmərəliliyinin və təhlükəsizliyinin artırılması potensialına malik olan müsbət hadisə kimi qiymətləndirilib.

**Blokçeyn texnologiyası:** hökumət, sənədlərin təhlükəsiz saxlanması və kənd təsərrüfatı təchizatı zəncirinin izlənməsi kimi müxtəlif sahələrdə blokçeyn texnologiyasından istifadə imkanlarını təmin edir. Azərbaycan dövlət və

özəl sektordakı tətbiqlər də daxil olmaqla müxtəlif sahələrdə blokçeyn texnologiyasından istifadə imkanlarını araşdırır. Blokçeyn, icazəsiz girişdən qorunan əməliyyat və məlumat qeydləri yaratmağa imkan verən mərkəzləşdirilməmiş və təhlükəsiz rəqəmsal kitab texnologiyasıdır.

Azərbaycan hökuməti blokçeyn texnologiyasının bir neçə potensial tətbiqini, o cümlədən sənədlərin təhlükəsiz saxlanması, torpaqların qeydiyyatı və təchizat zəncirinin idarə edilməsi üçün müəyyən edib. 2019-cu ildə Azərbaycan Dövlət Əmlak Məsələləri Komitəsi mülkiyyət hüquqlarının və əqdlərin qeydiyyatı üçün blokçeyn texnologiyasından istifadə etmək planlarını elan edib ki, bu da şəffaflığı artıracaq və daşınmaz əmlak sektorunda saxtakarlığı azaldacaq.

Hökumətin təkliflərinə əlavə olaraq, Azərbaycanda blokçeyn texnologiyasının potensialının öyrənilməsinə yönəlmiş bir neçə özəl sektor təşəbbüsü də işə salınıb. Məsələn, 2019-cu ildə Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) Beynəlxalq Ticarət və İnvestisiyaların təşviqi üçün blokçeyn əsaslı platforma yaratmaq planlarını açıqladı [11].

Blokçeyn texnologiyasının tətbiqi Azərbaycanda hələ ilk mərhələlərdədir, lakin dövlət idarəçiliyi və özəl sektorun müxtəlif sahələrində şəffaflığın və səmərəliliyin artırılmasında mühüm rol oynamaq potensialına malikdir

**Ağıllı şəhərlər:** Azərbaycan "Ağıllı şəhərlər"in inkişafında əhəmiyyətli uğurlar qazanır, ölkədə bir neçə təşəbbüs və layihə həyata keçirilir. "Ağıllı şəhərlər" [1] konsepsiyası şəhər mühitinin səmərəliliyini, davamlılığını və yaşayış qabiliyyətini artırmaq üçün texnologiya və məlumatların inteqrasiyasını əhatə edir.

Azərbaycanın "Ağıllı Şəhər"in inkişafında əsas təşəbbüslərdən biri də "Baku Smart City" layihəsidir. Bu layihə paytaxt Bakıda şəhər xidmətlərinin, nəqliyyatın, enerji səmərəliliyinin və ictimai təhlükəsizliyin yaxşılaşdırılması üçün müxtəlif texnologiyalar və sistemləri özündə birləşdirən hərtərəfli "ağıllı şəhər" ekosisteminin yaradılmasına yönəlib.

"Baku Smart City" layihəsinə ağıllı enerji idarəetmə sistemlərinin tətbiqi, ağıllı yol hərəkəti idarəetmə sistemlərinin quraşdırılması, ağıllı tullantıların idarə edilməsi sistemlərinin hazırlanması, mobil proqramlar və onlayn portallar kimi vətəndaşlara rəqəmsal xidmətlərin tətbiqi daxildir [10].

Azərbaycan "Baku Smart City" layihəsinə əlavə olaraq davamlı şəhərsalma və yaşıl texnologiyaların təşviqi üzrə təşəbbüslərlə də çıxış edib. Azərbaycanda enerjiyə qənaətli ictimai işıqlandırma sistemləri tətbiq edilib, Gəncə şəhərində elektrik avtobusları tətbiq edilib və Pirallahı şəhərində bərpa olunan enerji parkı yaradılıb.

Ümumiyyətlə, Azərbaycanda "ağıllı şəhərlərin" inkişafı şəhərlərin dayanıqlığının artırılması və şəhər sakinlərinin həyat keyfiyyətinin yaxşılaşdırılması yolunda müsbət addım kimi qiymətləndirilir.

Gəncə Azərbaycanın ikinci ən böyük şəhəridir və son illərdə ağıllı bir şəhərə çevrilir. Azərbaycan hökuməti Gəncədə daha dayanıqlı və yaşana bilən şəhər mühitinin yaradılması üçün infrastruktur və texnologiyalara investisiya yatırır.

Gəncədə ağıllı şəhərin inkişafı ilə bağlı bir sıra təşəbbüs və layihələr həyata keçirilir. Enerji istehlakını və xərclərini azaltmaq üçün şəhərdə enerji səmərəli işıqlandırma sistemləri və ağıllı şəbəkə texnologiyaları tətbiq edilmişdir. Bundan əlavə, şəhərdə bərpa olunan enerji istehsal etmək üçün günəş panelləri quraşdırılmışdır. Nəqliyyat axınını yaxşılaşdırmaq və sıxlığı azaltmaq üçün Gəncədə Ağıllı Trafik İdarəetmə Sistemləri tətbiq edilmişdir. Sistem trafikə nəzarət etmək və trafik siqnallarını real vaxtda tənzimləmək üçün kameralar və sensorlardan istifadə edir. Şəhər tullantıların toplanmasının səmərəliliyini artırmaq və ətraf mühitə təsirini azaltmaq üçün ağıllı tullantıların idarə edilməsi sistemlərini tətbiq etmişdir. Sistem zibil qutularındakı tullantıların səviyyəsini izləmək və toplama marşrutlarını optimallaşdırmaq üçün sensorlardan istifadə edir. Vətəndaşların dövlət xidmətlərinə və informasiyasına çıxışı üçün Gəncədə mobil proqram istifadəyə verilib. Bundan əlavə, şəhər dövlət xidmətlərinə çıxış imkanı verən biznes üçün onlayn portal təqdim edib. Gəncə şəhərində səmərəliliyi artırmaq və xərcləri azaltmaq üçün bina avtomatlaşdırma və enerji idarəetmə sistemləri kimi “ağıllı bina” texnologiyalarını tətbiq edir.

“Ağdam ağıllı şəhər” layihəsi 1990-cı illərdə Dağlıq Qarabağ münaqişəsi zamanı dağıdılmış Ağdam şəhərinin bərpası və dəyişdirilməsi üçün Azərbaycan hökuməti tərəfindən təklif olunan təşəbbüsdür. Layihə sakinlərin həyat keyfiyyətini yaxşılaşdırmaq üçün texnologiya və yeniliklərdən istifadə edən müasir və davamlı bir şəhər mühiti yaratmağı hədəfləyir.

“Ağdam ağıllı şəhər” layihəsinə “ağıllı” binalar, enerjiyə qənaət edən işıqlandırma sistemləri və qabaqcıl tullantıların idarə edilməsi sistemləri daxil olmaqla müasir infrastrukturun tikintisi planları daxildir. Şəhərdə elektrik avtobusları, velosiped paylaşma sistemləri və ağıllı trafik idarəetmə sistemləri də daxil olmaqla geniş bir nəqliyyat şəbəkəsi qurulacaqdır.

Bu infrastruktur layihələrinə əlavə olaraq, “Ağdam ağıllı şəhər” layihəsinə dövlət xidmətləri və informasiyasına çıxış üçün mobil proqramlar və onlayn portallar kimi vətəndaşlar üçün rəqəmsal xidmətlərin inkişafı üzrə planlar da daxildir. Layihə həmçinin startaplara və texnoloji şirkətlərə dəstək verməklə sahibkarlığın və innovasiyaların inkişafına yönəlib.

Ümumiyyətlə, “Ağdam ağıllı şəhəri” layihəsi Azərbaycanın bir vaxtlar münaqişə nəticəsində viran qalmış şəhəri bərpa etmək və dəyişdirmək üçün iddialı cəhdidir. Layihə, bölgədəki digər şəhərlər üçün nümunə ola biləcək müasir və davamlı bir şəhər mühiti yaratmaq üçün texnologiya və yeniliklərdən istifadə etməyi hədəfləyir.

**Asan Xidmət layihəsi:** Azərbaycanda dövlət qulluğunun rəqəmsallaşması və elektronlaşdırılması ilə bağlı bir sıra layihələr və tədbirlər həyata keçirilmişdir. Bu layihələr arasında elektron sənədlərin idarə edilməsi, elektron hökumət xidmətləri, elektron məktublaşma sistemi və s. yer alır.

Bu layihələr arasında ən vacib olanlarından biri "ASAN Xidmət"dir [3]. ASAN Xidmət, bütün dövlət xidmətlərinin bir yerə birləşdirildiyi və elektron üsullarla təqdim edildiyi bir portaldır. Bu xidmət vasitəsi ilə, vətəndaşlar və işləyənlər dövlət xidmətlərinə çox rahat bir şəkildə müraciət edə və sənədlərini elektron şəkildə təqdim edə bilərlər. Əlavə olaraq, ASAN Xidmət, müxtəlif sahələrdə elektron imtahanlar, elektron müraciətlər və başqa xidmətlər təqdim edir.

Həmçinin, elektron sənədlərin idarə edilməsi üzrə sistemlər də tətbiq edilmişdir. Bu sistemlər vasitəsi ilə, sənədlər elektron şəkildə idarə edilir və bölgələr arasında asanlıqla ötürülür. Bunların yanı sıra, dövlət qulluğunun rəqəmsallaşması ilə bağlı digər bir çox layihələr də həyata keçirilir və bu layihələr vasitəsi ilə, dövlət xidmətlərinin təqdimatı və idarə edilməsi daha asan və effektiv olur.

"Asan Xidmət" layihəsi, dövlət qulluğunun rəqəmsallaşması ilə əlaqədar Azərbaycanda həyata keçirilən ən böyük və ən müvəffəqiyyətli layihələrdən biridir. Bu layihə ilə, bütün dövlət xidmətləri bir yerə birləşdirilmiş və elektron üsullarla təqdim edilməkdədir.

"Asan Xidmət" vətəndaşların, şirkətlərin və işləyənlərin dövlət xidmətlərinə çox rahat bir şəkildə müraciət etməsinə imkan verir. Bu xidmət vasitəsi ilə, bir çox müvafiq sənədlər elektron şəkildə təqdim edilə bilər və müraciət prosesi daha da asanlaşmış olur.

"Asan Xidmət" vasitəsi ilə, müxtəlif sahələrdə xidmətlər təqdim edilir. Bu xidmətlər arasında pasport vəsiqəsi, sürücülük vəsiqəsi, vergi ödənişi, müalicə xidmətləri, iş axtarışı, sosial yardım və s. kimi xidmətlər yer alır.

Azərbaycanda dövlət qulluğuna qəbulun rəqəmsallaşması özünü "e-Government" layihəsi ilə göstərir. Bu layihə, dövlət qulluğunda işləyən kadrların qəbul prosesini rəqəmsallaşdırmağı hədəfləyir. Layihənin əsas məqsədi, işə qəbul prosesini daha sürətli, effektiv və mürəkkəb olmayan bir şəkildə həyata keçirməkdir.

Bu layihə vasitəsi ilə, dövlət qulluğunda işə qəbul prosesi elektron müraciət forması ilə həyata keçirilir. Buna görə, iş axtaran insanlar, "e-Government" portalına daxil olaraq, müraciət formasını doldurmaqla və tələb olunan sənədləri təqdim etməklə işə qəbul prosesinə rahat bir şəkildə başlaya bilirlər. Portalın istifadəsi pulsuzdur və müraciət forması vaxtından əvvəl və ya sonra təqdim edilə bilər.

Layihə vasitəsi ilə, işə qəbul prosesi daha şəffaf və hər kəs üçün bərabər qaydalara uyğun həyata keçirilir. Müraciətçilər, işə qəbul prosesinin hazırlanma

mərhələlərini, sınaq mərhələlərini, müsahibələri və s. kimi mərhələləri elektron olaraq izləyə bilirlər. Buna görə, müraciətçilər işə qəbul prosesinin necə həyata keçirildiyini daha yaxşı anlaya bilərlər və proseslərin nəticələrinə daha sürətli bir şəkildə qatıla bilərlər.

Azərbaycanda texnologiyaların dövlət proseslərinə tətbiqi səmərəliliyin, şəffaflığın və hesabatlılığın artırılması potensialına malik müsbət hadisə kimi qiymətləndirilib. Bununla birlikdə, xüsusilə ölkənin daha çox kənd və ya ucqar bölgələrindəki vətəndaşlar üçün bu texnologiyaların geniş yayılması və tətbiqi ilə bağlı potensial problemlərin aradan qaldırılması üçün tədbirlərin həyata keçirilməsi davam etdirilir [14].

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu uğur strategiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müasir tarixi şəraitdə uğurla həyata keçirilir. Bu siyasi kursa uyğun olaraq, dünyanın ən qabaqcıl texnologiyalarının və ölkə həyatında innovativ yeniliklərin geniş tətbiqi, "Elektron hökumət"in tətbiq dairəsinin genişləndirilməsi, idarəetmədə rəqəmsallaşmanın tətbiqi bu sahədə əsas nailiyyətlərdən biridir. Bundan başqa, 11 oktyabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və kommunikasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərman imzalayıb [5]. Fərmana əsasən, rəqəmsallaşma və innovasiyaların genişləndirilməsi, radiotezlik spektrinin idarə edilməsi, İnformasiya və Kommunikasiya Texnologiyalarının inkişafı, tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi və sağlam rəqabət mühitinin formalaşdırılması, bununla da keyfiyyətin, innovasiyaların artırılması, Azərbaycan Respublikasının investisiya cəlbediciliyi və istehlakçıların maraqlarının müdafiəsi kimi məsələlər diqqət mərkəzinə çatdırılmışdır. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin adı dəyişdirilərək Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adlandırılıb. Eyni zamanda, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nəzdində İnformasiya-Kommunikasiya Texnologiyaları Agentliyi, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi kimi publik hüquqi şəxslər yaradılmışdır. Bu dəyişikliklər rəqəmsallaşma miqyasının genişləndirilməsi istiqamətində ölkəmizdə həyata keçirilən dövlət siyasətini əks etdirir.

Azərbaycan Respublikası öz siyasətini zamanın dəyişən tələblərinə uyğun quran və həyata keçirən dövlətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, dövlətimiz idarəetmə, iqtisadiyyat və sosial sahələrdə qabaqcıl texnologiyaların tətbiqi ilə artan inkişaf dinamizmini təmin etməyi qarşısına məqsəd qoyub. Ölkəmizdə dövlət idarəçiliyinin səmərəliliyinin artırılması məqsədilə "Elektron hökumət"in formalaşdırılması nəticəsində dövlət orqanları hazırda informasiya sistemlərindən və

resurslarından, onların əsasında yaradılan elektron xidmətlərdən geniş istifadə edirlər. Cənubi Qafqaz regionunda ilk dəfə olaraq Tier III, ISO 20000 və ISO 27001 standartlarına uyğun olaraq Azərbaycan Respublikasının məlumat emalı mərkəzi yaradılıb və fəaliyyət göstərir. Eyni zamanda, 3 iyun 2019-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Hökumət buludunun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi tədbirləri haqqında" Fərman imzalayıb [8]. Azərbaycan Respublikasında "hökumət buludu"nun yaradılması, formalaşmanın, xidmətin səmərəli təşkili yolu ilə dövlət idarəetmə xərclərinin azaldılması və dövlət orqanları arasında koordinasiyanın artırılması kimi amillərlə əlaqələndirilir, informasiya sistemlərinin və mənbələrinin istismarı və inteqrasiyasını əhatə edir. Azərbaycan Respublikası rəqəmsallaşma istiqamətində fəaliyyətə 2000-ci illərin əvvəllərində başlamışdır. Bu fəaliyyətin əsas məqsədi xidmət sektorunda dövlət və vətəndaş arasında fəallığı, məhsuldarlığı, şəffaflığı artırmaq, vətəndaşların iştirakına daha çox diqqət yetirmək, həmçinin onların sadələşdirilməsini və daha rahat münasibətlərin təmin edilməsini təmin etməkdir. Bu istiqamətdə ən mühüm addımlardan biri AzerTelecom-un həyata keçirdiyi və ölkəmizi qlobal İnternetə bağlayan "Azerbaijan Digital Hub" proqramıdır [9]. Proqram üç əsas blokdan ibarətdir – Rəqəmsal İpək Yolu, Google, Amazon, Alibaba, Tencent, Apple layihəsi çərçivəsində Asiya və Avropa arasında Azərbaycan vasitəsilə qlobal fiber-optik infrastrukturun yaradılması; Netflix, Facebook, Microsoft, Baidu və digər qlobal provayderlər üçün Qlobal Məlumat Mərkəzinin yaradılması və bütövlükdə bölgədə rəqəmsal ekosistemin formalaşması [13]. Qeyd edək ki, uğurla həyata keçirilən "Rəqəmsal İpək Yolu" layihəsi təkcə Azərbaycanda deyil, Avropa və Asiyada qitələri birləşdirən yeni telekommunikasiya dəhlizinin əraziləri vasitəsilə inkişaf imkanları yaradır [6].

Ümumiyyətlə, proqramın icrası Azərbaycana təkcə Cənubi Qafqaz üçün deyil, həm də Yaxın Şərq, Mərkəzi Asiya və Cənubi Asiya üçün rəqəmsal xidmətlər mərkəzi olmağa imkan verəcək. London, Frankfurt, Sofiya, İstanbul, Moskva, Amsterdam və Dubay kimi daha inkişaf etmiş mərkəzlərlə yanaşı, yeni internet mesajlaşma nöqtəsinə çevrilən Bakı 1,8 milyard insan üçün müxtəlif rəqəmsal xidmətlərə çıxışı yaxşılaşdıracaq [12].

Dövlət idarəçiliyinin tənzimlənməsi və həyata keçirilməsində innovativ islahatlardan, müasir texnologiyalardan və yeni vasitələrdən maksimum istifadə həmişə diqqət mərkəzində olmuşdur. Beləliklə, dövlət qurumlarında elektron xidmətlərin tətbiqi və inkişafı istiqamətində fəal addımlar atılır. Bu addımlar nəticəsində ölkəmiz siyasi, iqtisadi və sosial sahələrdə unikal inkişaf profili yaradıb və intensiv inkişaf dövrünə qədəm qoyub. İnnovativ islahatların həyata keçirilməsi bu siyasətin uğurla həyata keçirilməsində əsas rol oynamalıdır.

## Azərbaycanda informasiya cəmiyyəti quruculuğu, informasiya və kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsi və onlardan istifadə

**Qrafik 1.** Azərbaycanda internetdən istifadə edən əhalinin sayı (faizlə)




Mənbə: https://stat.gov.az/source/information_society/

Yuxarıdakı qrafikə əsasən 2012-2021-ci illər arasında Azərbaycanda internetə çıxışı olan şəxslərin internetdən istifadə dərəcələri göstərilib. 2021-ci ildə internetə çıxışı olan ev təsərrüfatlarının sayı 87% təşkil edir. 2020-ci ildə fiziki şəxslər arasında internetdən istifadə 85% təşkil edirdi [17].

**Qrafik 2.** Kompüteri olan ev təsərrüfatlarının ölkə üzrə bütün ev təsərrüfatlarında xüsusi çəkisi, faizlə, 2021




Mənbə: https://www.stat.gov.az/

**Qrafik 3.** Ev təsərrüfatlarında mövcud olan kompüterlərin sayı, ədəd




Mənbə: https://www.stat.gov.az/

**Qrafik 4.** İdxal olunmuş İKT məhsullarının dəyəri, milyon manat, 2021




Mənbə:.https://www.stat.gov.az/

**Qrafik 5.** İnternet istifadəçilərinin internetdən istifadə məqsədlərinin strukturu, yekuna nisbətən faizlə, 2021




Mənbə: https://www.stat.gov.az/

**Qrafik 6.** Əhalinin kompüterdən istifadə tezliyi, yekuna nisbətən faizlə, 2021




Mənbə: https://www.stat.gov.az/

**Qrafik 7.** Ev təsərrüfatının internetə çıxışı olmamasının səbəbləri, yekuna nisbətən faizlə, 2021




Mənbə: https://www.stat.gov.az/

**Qrafik 8.** Kompüterdən istifadə etmiş müəssisələrin işçilərinin sayına görə bölgüsü, yekuna nisbətən faizlə, 2021




Mənbə: https://www.stat.gov.az/

**Qrafik 9.** Müəssisələrin internetə qoşulma növünə görə bölgüsü, yekuna nisbətən faizlə, 2021




Mənbə: https://www.stat.gov.az/

**Nəticə**

Rəqəmsal texnologiyaların sürətli inkişafı bəşəriyyət üçün yüksək tərəqqiyə yeni yollar açır. Dövlət idarəçiliyinin rəqəmsallaşdırılması prosesi mal və xidmətlərə çıxışı yaxşılaşdırmaq məqsədi daşıyan strategiyanın bir hissəsidir. Rəqəmsal hökumət konsepsiyası üçün müasir dövrdə həm çətinliklər, həm də yeni imkanlar və inkişaf perspektivləri mövcuddur. Bir tərəfdən, texnologiyanın sürətli inkişafı rəqəmsal transformasiyanı davamlı aparmaq, dəyişiklikləri idarə etmək və dövlət xidmətlərinin əlçatan, təhlükəsiz və səmərəli olmasını təmin etmək çətinliyini özü ilə gətirir. Süni intellektdən geniş istifadə, istehsalın avtomatlaşdırılması, robotlaşdırma, iqtisadiyyatın bütün sahələrində rəqəmsal texnologiyaların tətbiqi geniş vüsət almışdır. Ümumiyyətlə, yeni sənaye inqilabı rəqəmsallaşma ilə əlaqəli bütün sahələrdə ən yeni, fərqli və daha əlçatan texnoloji infrastrukturun istifadəsinə gətirib çıxarır. Rəqəmsal dövlət yanaşması idarəetmə sistemlərinin gələcəyinin formalaşmasında mühüm rol oynayır. Vətəndaşların iştirakını artırmaq, xidmətlərin göstərilməsini təkmilləşdirmək, şəffaflığı və hesabatlılığı təşviq etmək, əməkdaşlığı və innovasiyaları artırmaq, kibertəhlükəsizliyi və məxfiliyi təmin etmək kimi bir sıra üstünlükləri ilə rəqəmsal idarəetmə xüsusi əhəmiyyət kəsb edən və davamlı öyrənilməsi lazım olan sahələrdəndir.

Nəticədə inkişaf etmiş dövlətlər rəqəmsallaşma prosesini sosial və iqtisadi həyata daha sürətli inteqrasiya etmək üçün proqramlar hazırlayır ki, bu da aralarında rəqabət yaradır. Böyük güclər yüksək texnologiyalar vasitəsilə böyük həcmdə məlumatları emal edirlər. İnsanlar da bu rəqəmsal texnologiyalardan hər gün daha çox istifadə edirlər. Hal-hazırda mobil telefonların istehsalı sürətlə artır, bulud və digər saxlama texnologiyaları yaradılır və bunların hamısı həyatımızın bir hissəsinə çevrilir.

Rəqəmsallaşma və texnoloji yeniliklər ayrı-ayrılıqda hər bir dövlətin iqtisadiyyatına, xalq təsərrüfatına, sənayesinə və digər sahələrinə müsbət təsir göstərir. Bu, xüsusilə iqtisadiyyatın rəqəmsallaşdırılması, dayanıqlı və təhlükəsiz infrastrukturun qurulması ilə sıx bağlıdır. Şübhəsiz ki, Azərbaycanda sosial-iqtisadi sahədə, o cümlədən dövlət idarəçiliyi sahəsində daim genişmiqyaslı islahatlar aparılır, innovativ layihələr, elektron xidmətlər təkmilləşdirilir, bütün sahələrdə rəqəmsal xidmətlərə keçid ön plana çıxır.

"Elektron hökumət"in formalaşması son illərdə ölkələrin inkişaf tendensiyasını daha da inkişaf etdirən amillərdən biri hesab olunur. Bu, dövlət orqanlarının Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə müasir informasiya texnologiyalarından istifadə etməklə informasiya və elektron xidmətlərin göstərilməsinə şərait yaradır. Yaradılan imkanların əsas

məqsədi dövlət qulluqçuları ilə vətəndaşlar arasında sosial xidmətlərin göstərilməsində “məsafənin” azaldılması, həmçinin bu münasibətlərin sadələşdirilməsi və şəffaflığıdır. Dövlət orqanları tərəfindən elektron xidmətlərdən geniş istifadə edilməsi, onların sayının və keyfiyyətinin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun artırılması bu məqsədə çatmaq üçün vasitədir. “Elektron Hökumət” virtual məkanın imkanlarından, müasir texnologiyalardan, dövlət orqanlarında informasiyalaşdırmanın yüksək səviyyəsindən istifadə etməklə ölkə vətəndaşlarına xidmətlərin keyfiyyətcə yeni formasının təmin edilməsinə xidmət edir.

“ASAN xidmət”in yaradılmasını buna nümunə kimi göstərə bilərik. Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan təşkilatın məqsədi dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin yüksək keyfiyyət, rahatlıq və müasir innovasiyalarla həyata keçirilməsi idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qarşıya qoyduğu əsas vəzifələrdən biri dövlət xidmətlərinin göstərilməsində yeni standartlara nail olmaqdır. Bu standartlara səmərəlilik, şəffaflıq, müasirlik, dövlət və özəl xidmətlərin vahid məkanında yüksək texnoloji imkanlar və s. daxildir. prinsiplərə uyğun olaraq göstərmə əsasında formalaşır. Ümumiyyətlə, Azərbaycanda rəqəmsal hökumətin inkişafı, maliyyə sektorunda tətbiq olunan həllər, qanunvericiliyin yeni texnoloji tendensiyalara uyğunlaşdırılması prosesi sürətlə davam edir.

Qələbə ilə başa çatan İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş torpaqlarımızda şəhərsalma işlərinin texnoloji əsaslarla həyata keçirilməsi istiqamətində böyük işlər başlanmışdır. Yenidənqurma texnoloji imkanlarla zəngin olan “Ağıllı Kənd” layihəsinə əsaslanır. Bu layihənin həyata keçirilməsində əsas məqsəd kənd yerlərində insanlar üçün şərait yaratmaqdır ki, əhali şəhərdə, kəndlərdə mövcud olan bütün xidmətlərə rahat çıxış əldə etsin. Eyni zamanda, insanlara kənddə gəlir və məşğulluq üçün daha çox imkanlar verilməlidir. Üçüncü məqam kənd sakinlərinin dövlət xidmətlərinə çıxışını təmin etmək üçün tam şəraitin yaradılmasıdır. Başqa sözlə, “Ağıllı Kənd” konsepsiyasında xidmət, qazanc və ictimai xidmətlərə çıxış baxımından kəndlə şəhər arasındakı fərq əslində yox oldu.

“Ağıllı kənd təsərrüfatı” istehsal üçün lazım olan insan əməyini optimallaşdırarkən məhsulların miqdarını və keyfiyyətini artırmaq məqsədi ilə müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə edən yeni bir anlayışdır. 5 komponent üzrə həyata keçiriləcək layihə mənzil, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı” və alternativ enerjidən ibarətdir. Daxili mühəndis kommunikasiyaları və istilik sistemləri də ağıllı texnologiyalar əsasında qurulacaqdır. Bu kəndlərdə müasir məktəblər, uşaq bağçaları, poliklinikalar və elektron idarəetmə mərkəzləri tikiləcək, turizm infrastrukturu

formalaşdırılacaq. Bütün yaşayış binaları, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcəkdir. Bütün bu xüsusiyyətlər Azərbaycanda rəqəmsallaşma və elektron xidmətlər sahəsində yeni nailiyyətlərinin göstəricisidir. Azərbaycanda aparılan islahatlar, dövlət və özəl sektor tərəfindən həyata keçirilən mühüm proqramlar rəqəmsal iqtisadiyyatın qurulması üçün mühüm zəmin yaradır. Regionun enerji və nəqliyyat mərkəzi statusuna malik olan Azərbaycan yeni dövrdə mövcud olan resurslardan və qabaqcıl dünya təcrübəsindən istifadə edərək qısa müddət ərzində rəqəmsal iqtisadiyyat qurmaq və regionun rəqəmsal mərkəzinə çevrilmək imkanına malikdir.

**Ədəbiyyat:**


1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı https://e-qanun.az/framework/25029
2. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı http://www.e-qanun.az/framework/33717
3. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN xidmət" mərkəzlərinin yaradılması məqsədilə pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://e-qanun.az/framework/24272
4. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://e-qanun.az/framework/10778
5. "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı https://e-qanun.az/framework/48447
6. "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi" https://mida.gov.az/documents/Telekommunikasiya_v%C9%99_informasiya_texnologiyalarının_inkişafına_dair_strateji_yol_x%C9%99rit%C9%99si.pdf

7. “Elektron hökumət” portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı https://e-qanun.az/framework/25215
8. “Hökumət buludu”nun (G-cloud) yaradılması və “bulud” xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı https://e-qanun.az/framework/42560
9. Az In Telecom. 2017. Paper presented on Trans-Eurasian Information Super Highway(TASIM).Bangkok.12–13December. https://www.unescap.org/sites/default/files/TransEurasian%20Information%20Superhighway%20%28TASIM%29.pdf
10. Baku, and other cities in Azerbaijan might consider being affiliated with the ADB’s Future Cities Program which aims to provide integrated planning and project design for digital projects for selected cities. ADB. 2018. Technical Assistance Completion Report: Establishing the Future Cities Program in the Asia and Pacific Region. Manila. https://www.adb.org/projects/49053-001/main
11. Blockchain World Events. 2018. Blockchain and Bitcoin Conference Baku Cancelled due to the Low Interest Showed by the Mark. 31 August. https://azerbaijan.bc.events/en/article/blockchain-bitcoin-conference-baku- otmenyaetsya-iz-za-nizkoy-zainteresovannosti-rinka-91935
12. Regional Hub of Civil Service in Astana (ACSH) and United Nations Development Programme. 2016. One-Stop-Shop Public Service Delivery Model: TheCase of Azerbaijan. Astana: UN House. http://www.astanacivilservicehub.org/category/library#
13. World Bank. 2014. A Sector Assessment: Accelerating Growth of High-Speed Internet Services in Azerbaijan. Washington, DC.
14. World Bank. 2016. IT Sector and IT Skills in Azerbaijan: Challenges and Opportunities. Washington, DC.
15. https://stat.gov.az/source/information_society/
16. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi veb saytı https://www.stat.gov.az/

## ABSTRACT

# THE ROLE OF DIGITALIZATION IN PUBLIC ADMINISTRATION IN THE REPUBLIC OF AZERBAIJAN

**Hasanov M.I.**

*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*
*Dean of the School of Political Administration*
*Ph.D. in Political Sciences, Associate Professor*

**Mahmudova S.M.**

*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*
*Master's Degree Student*

The digitalization process includes the wide use of artificial intelligence, production automation, robotization, and the wide application of digital technologies in all areas of the economy. In Azerbaijan, the process of developing digital government, applying solutions in the financial sector, and adapting legislation to new technological trends continues rapidly. The field of information and communication technologies, which plays an important role in the socio-economic life of Azerbaijan, is distinguished by its level of development. Actions are constantly being taken to develop and strengthen innovative activities in this field in Azerbaijan. In this study, "The Role of Digitalization in Public Administration in the Republic of Azerbaijan," the subject was investigated.

***Keywords:*** *Republic of Azerbaijan, public administration, public administration, transformation of public administration, e-government, digitalization*

## РЕЗЮМЕ

# РОЛЬ ЦИФРОВИЗАЦИИ В ГОСУДАРСТВЕННОМ УПРАВЛЕНИИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Гасанов М.И.**

*Декан факультета Политического управления*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по политическим наукам, доцент*

**Махмудова С.М.**
*Магистрант Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики*

Процесс цифровизации включает в себя широкое использование искусственного интеллекта, автоматизацию производства, роботизацию, а также широкое применение цифровых технологий во всех сферах экономики. В Азербайджане продолжает развиваться быстрыми темпами цифровое правительство, решения, применяемые в финансовом секторе и процесс адаптации законодательства к новым технологическим тенденциям. Область информационно-коммуникационных технологий, играющая важную роль в социально-экономической жизни Азербайджана, отличается своим уровнем развития. В нашей стране постоянно принимаются меры по развитию и усилению инновационной деятельности в этой сфере. В данном исследовании была исследована тема «Роль цифровизации в государственном управлении в Азербайджанской Республике».

***Ключевые слова:*** *Азербайджанская Республика, государственное управление, трансформация государственного управления, электронное правительство, цифровизация*

DOI: 10.30546/mab.17.2022.101

UOT 351

# DAVAMLI İNKİŞAF VƏ POSTMODERN DÖVLƏT İDARƏÇİLİYİ: BÜROKRATİK SİYASƏT VƏ ŞƏBƏKƏ NƏZƏRİYYƏSİ

**Əliyev E.S.**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*İnzibati idarəetmə fakültəsinin dekanı,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

*e-mail: ealiyev7@gmail.com*

*Postmodern dövlət idarəçiliyi sosial və inzibati problemlər haqqında onların həlli üçün bir sıra fərqli üsullar deyil, unikal düşüncə tərzi təklif edir. İdarəetmə strukturlarının transformasiyası kimi məsələlər də postmodern dövlət idarəçiliyinin diqqət mərkəzindədir. Çoxsəviyyəli hökumətlər və qeyri-hökumət təşkilatları arasında münasibətlərin mürəkkəbliyini nəzərə alaraq, postmodern dövlət idarəçiliyi sistemlərin dəyişdirilməsi nəticəsində yaranan problemlərin həllini təmin etməyə çalışır. Postmodern dövlətin idarəçiliyi insanların öz ehtiyaclarını əhatəli şəkildə təmin etmələri üçün mexaniki problemlərin mövcud olduğunu ifadə edərək, davamlı inkişaf strategiyalarını müdafiə edirlər. Bu strategiyanın həyata keçirilməsinin yollarından biridə davamlı inkişaf modellərinin təşkili və tətbiqi ilə bağlıdır.*

***Açar sözlər:*** *postmodern dövlət idarəçiliyi, davamlı inkişaf, bürokratiya, şəbəkə nəzəriyyəsi, idarəetmə strukturlarının transformasiyası*

## Giriş

Bürokratik siyasət nəzəriyyələri idarəetmə və bürokratiyanın siyasət quruculuğu prosesindəki rolunu izah etməyə çalışır. Burada bürokratik nəzəriyyələrin əsasını təşkil edən siyasət və idarəetmə münasibətlərindəki dixotomiyanı rədd edilir. İdarəetməni siyasətdən ayırmaqla dövlətin məcburetmə funksiyasında və strukturunda bürokratiyanın mərkəzi rolunun inkar edildiyi iddia edilir. Bürokratiya və bürokratlar müntəzəm olaraq siyasi fəaliyyət və davranışla məşğul olduqları üçün bürokratiyanın siyasi rolunu nəzəri cəhətdən hesaba almaq zərurəti irəli sürülür. Bürokratiya və bürokratlar müntəzəm olaraq resursları bölüşdürür və birinci dərəcəli siyasətlə məşğul olurlar. Praktikada dövlət idarəetməsi siyasətdən ayrıla bilən texniki və dəyər baxımından neytral fəaliyyət deyildir. Bürokratik siyasətin indiki nəzəriyyələri empirik şəkildə müşahidə oluna bilən fenomenləri araşdırır.

Bürokratik siyasət nəzəriyyəsinin iki əsas təşkilati ölçüsü var ki, bunlardan birincisi davranışla bağlıdır. Burada əsas məqsəd bürokratların nəyi nə üçün etdiklərini izah etməkdir. Ümumi fikir ondan ibarətdir ki, bürokratiya mühüm ictimai missiyaları yerinə yetirir və çoxsaylı siyasi qərarlar qəbul edir. Lakin bu zaman bürokratiya qanunlardan çox qeyri-müəyyən göstərişlərə əsaslanır. İkincisi institusional struktur və hakimiyyətin bölüşdürülməsi ilə bağlıdır. Burada əsas məqsəd bürokratiyanın formal səlahiyyət xətlərinə, onun digər institutlarla əlaqəsinə və yurisdiksiyasına daxil edilmiş proqram və siyasətlərə siyasi aktorların nisbi siyasi təsirini müəyyən etməkdir [14]. Əgər təşkilati struktur müəyyən qurumların və onların daxilindəki şəxslərin davranışını formalaşdırırsa, bu bürokratiyanın siyasət quruculuğu prosesindəki rolunu izah etmək üçün önəmə malikdir. Əgər bürokratlar resursları ciddi şəkildə bölüşdürən qərarlar qəbul edirlərsə və təşkilat mühiti bu qərarların necə qəbul edildiyini müəyyən etməyə kömək edirsə, onda təşkilati nəzəriyyə bürokratiyanın siyasi rolunu necə və niyə yerinə yetirdiyini izah etmək potensialına malikdir [9].

Lorens O'Toole (1997b) bürokratik siyasətdə şəbəkələrin önəmi ilə bağlı ciddi araşdırmalar aparmışdır. Dövlət idarəçiliyi üçün şəbəkələr bir-birindən asılı olan təşkilatların elə bir toplusudur ki, onlar ortaq məqsədləri, maraqları, resursları və dəyərləri bölüşürlər [11]. Bu qarşılıqlı asılılıqlar müxtəlif siyasi və hüquqi yurisdiksiyalar daxilində və onların arasında olan dövlət bürokratiyalarını, bununla yanaşı da özəl və qeyri-kommersiya təşkilatlarını da birləşdirir. Bu prosesdə kollektiv və ictimai məqsədlərə nail olmaq üçün istifadə edilən təşkilati və idarəetmə təcrübələrinin yeni formaları yaranır. Lorens O'Toole (1997a) şəbəkəli idarəetmənin 4 ən əsas səbəbə görə getdikcə daha vacib olduğunu irəli sürür [10]:

1. Səriştəsiz siyasətlərin ortaya çıxardığı problemlər nəinki hökumətin daxilində və hətta xaricində müxtəlif aktorların səfərbər edilməsini tələb edir. Bu cür mürəkkəb problemlər bir çox səbəbin nəticəsidir və adətən birdən çox hüquqi-siyasi yurisdiksiyanı əhatə edir. Həm hökumət daxilində, həm də xaricində və hökumətin müxtəlif səviyyələrində olan aktorların köməyi olmadan tək bir qurum bu problemləri həll edə bilməz.
2. Fəaliyyət tələblərində azalma olmadan "məhdud hökumət" formalaşdırmaq üçün ortaya atılan siyasi tələblər, müqavilələr vasitəsilə qeyri-dövlət subyektləri və ya aktorlarının daxil olduğu şəbəkələrin yaranmasına səbəb olur.
3. Bürokratiyanın ictimai tələb və istəklərə cavab və ya reaksiya verməsi zərurəti təbii olaraq vətəndaşların və sənaye-istehsal qruplarının qərarların qəbuluna daxil edilməsinə gətirib çıxarır. Şəbəkələr həqiqətən də ictimaiyyət qarşısında hesabatlılığı artıra bilər, lakin

onların həmişə gözlədiyimiz demokratik effektləri verib-vermədiyi tam bəlli deyil.

4. Mürəkkəb siyasətlərin dolayı və ya ikinci dərəcəli təsirləri və qarşılıqlı asılılıq əsasında qurulan əlaqələri əks etdirmək üçün siyasətlərin icrasına töhfə verəcək şəbəkələr yaradılmışdır. Dövlət proqramlarının idarə edilməsi üçün bəzi dövlət qurumları onlara verilən mandatları şəbəkəyə çevirməlidir.

Şəbəkəli bürokratik nəzəriyyə bürokratik siyasət, idarəetmə və hesabatlılıq anlayışı ilə bağlı mühüm suallar doğurur: (a) bu şəbəkələr demokratiyanı təhdid edir, yoxsa onu gücləndirir? (b) bu qədər aktorun bürokratik qərarların qəbulunda iştirak etdiyi faktı nəticəsində hesabatlılıq və nəzarət gözləntiləri dəyişməlidirmi? (c) dövlət qurumları şəbəkələr üzərində siyasi hakimiyyəti necə həyata keçirirlər? Şəbəkə menecerləri olaraq xarakterizə edə biləcəyimiz dövlət məmurları şəbəkənin siyasi cəhətdən daha çox təsirli olan üzvlərinin və ya elementlərinin tələblərinə cavab verirlər. Nəticədə şəbəkələr əslində mövcud bərabərsizliyi daha da gücləndirə bilər ki, bu da şəbəkələrin əslində "qaranlıq tərəfi"dir [12]. Dövlətin əsas vəzifəsinin hökumətin ənənəvi vəzifəsi olan iyerarxiyaları idarə etməkdənsə, şəbəkələri təşkil etmək və idarə etmək olduğu yönündə dəyişikliklər də şəbəkəli idarəetmədə siyasi hakimiyyətin mahiyyəti və təsirləri ilə bağlı mühüm narahatlıqlar doğurur.

Bürokratik fəaliyyətin analizində sosial şəbəkələrin təhlili nəzəriyyəsinə görə, bürokratın formal olaraq kimə tabe olmasından çox, öz işində kimin kimə hesabat verməsi və məsələləri həll etmək üçün əslində kiminlə danışması önəmlidir. Sosial şəbəkə təhlilinin cavab verməyə çalışdığı əsas sual "bürokrat məlumat və məsləhət üçün kimə müraciət edir və kimin biliyinə etibar edir?" sualıdır. Burada təşkilatların kapasitələrinin şəbəkələşmiş dünyada nə qədər yaxşı fəaliyyət göstərməsi də ortaya çıxır. Bürokratik fəaliyyətdə sosial şəbəkələr formal iyerarxiyanı və təşkilat strukturlarını yaradıcı fəaliyyət ilə zəiflətmək potensialına sahibdirlər. Şəbəkə sistemlərinin necə idarə olunması ilə bağlı mənbələr iddia edir ki, dövlət idarəçiliyində və ya bürokratiyada şəbəkələrə siyasi institutlar kimi yanaşmaq lazımdır. Çünki onların yaradılması çox vaxt mübahisəli məsələ ilə birbaşa məşğul olmaq məcburiyyətində qalmamaq üçün yaranan siyasi səbəblərdəndir və həmişə siyasi təsirlərə malikdir. Hökumətin şirkətlər ilə bağladığı müqavilələri və ya özəlləşdirməyə dair qərarları mahiyyət etibarilə siyasi xarakter daşıyır. Çünki onlar dövlət hakimiyyətinin və funksiyalarının mahiyyətinin dəyişdirilməsi üzrə qərarlardır. Bu qərarlar dövlət resurslarının özəl şirkətlər və ya qeyri-kommersiya təşkilatları da daxil olmaqla digər şəbəkə üzvlərinə ötürülməsi seçimlərini və sistemlərini ehtiva edir. Müxtəlif növ şəbəkələrin dövlət idarəçiliyinə təsirlərini və siyasi kontekstin bu şəbəkələrin yaradılmasını, üzvlük prinsiplərini, məqsədləri və nəticələrini necə

formalaşdırdığını anlamaq üçün konseptual alətlər yoxdur. Şəbəkə idarəçiliyinin sürətlə böyüməsi və onun dövlət siyasəti və demokratik dəyərlərə təsirini nəzərə alsaq, bu təkcə bürokratik siyasət sahəsində deyil, həm də dövlət idarəçiliyi nəzəriyyəsinin ümumi inkişafı üçün praktik əhəmiyyətə malikdir [13].

Bürokratiyaların siyasi davranışını analiz edərkən hökumətlərin niyə bəzi problemlərə diqqət yetirərkən digərlərinə məhəl qoymamasının səbəbini izah etməyə çalışılır [5]. Dövlət qurumları sosial həyatın öncəlikli gündəliyinin formalaşmasında, gündəm prioritetlərinin müəyyən edilməsindən daha çox, siyasi şəbəkələrin və ya siyasi icmaların əsas üzvləri kimi fəaliyyət göstərməkdə mühüm rola malikdir. Bu siyasi qruplar və ya şəbəkələr dövlət siyasətlərində xüsusi maraqlar və qarşılıqlı əlaqələrin sıxlığı vasitəsilə siyasət təkliflərinin taleyini həll edə bilən aktorlardan ibarətdir. Dövlət qurumlarının müəyyən bir məsələ ilə bağlı ziddiyyətli məqsədləri varsa, o zaman parçalanmış siyasi icmanın siyasət təklifinə dəstəyi dağılır və uğur potensialı ciddi şəkildə məhdudlaşır. Burada təşkilati kontekst bürokratiyanın siyasi rolunun formalaşmasında mühüm rol oynayır. Bürokratiyanın siyasi rolunun post-sənaye dönəmində daha yaxşı anlaşılması üçün şəbəkəli idarəetmə və təşkilat nəzəriyyəsi önəmlidir. Bu kontekstdə sosial elmlərin məntiqi pozitivizminin yanlış yönlənmiş olduğu fikrini qəbul edən "postmodern dövlət idarəçiliyi" anlayışına da qısaca toxunaq. Burada təməl nəzəri hipotez "müşahidədən irəli gələn bir faktın eyni anda reallıqda və onu dərk edən insanın şüurunda iki fərqli müstəvidə mövcud olduğu" fikridir. Postmodern dövlət idarəçiliyinin mahiyyəti situasiyanın semantikası ilə bağlı narahatlıqdır. Bu o deməkdir ki, postmodernistlər həm real faktları, həm də qavranılan faktları öyrənməlidirlər. Postmodern dövlət idarəçiliyi qavrayışlar və reallığın sosial quruluşu haqqında nəzəriyyələr toplusunu təmsil edir. O, sosial və inzibati problemlər haqqında onların həlli üçün bir sıra fərqli üsullar deyil, unikal düşüncə tərzi təklif edir. İdarəetmə strukturlarının transformasiyası kimi məsələlər də postmodern dövlət idarəçiliyinin diqqət mərkəzindədir. Çoxsəviyyəli hökumətlər və qeyri-hökumət təşkilatları arasında münasibətlərin mürəkkəbliyini nəzərə alaraq, postmodern dövlət idarəçiliyi sistemlərin dəyişdirilməsi nəticəsində yaranan problemlərin həllini təmin etməyə çalışır [3].

Postmodernistlər, həqiqətə hörməti və həqiqəti axtarış cəhdləri ilə elmin digər eyni dərəcədə layiqli olan diskurslardan sadəcə biri olduğunu iddia edirlər. Elm həqiqətlərlə maraqlanır, lakin arqumentə görə həqiqətlər, diskurs tərəfindən yaradılmış və davamlılığı təmin edilən sosial konstruksiyalardır. Postmodernizm insanın doğru və ya yanlış ola biləcəyi obyektiv həqiqəti rədd edir. MakSvite (1997) iddia edir ki, ""real" olaraq yaşadığımız həqiqət əslində bir növ virtual reallıqdır" [7]. Postmodern müəlliflər bizim müxtəlif-fərqli, lakin bərabər-həqiqətlər inşa edən müxtəlif diskurslarımızın varlığını vurğulayırlar. Onlar mədəniyyətin, diskursun və biliyin çoxluğunu alqışlayır. İkincisi,

biliyin çoxluğu (bəzi müəlliflər həqiqətən də "biliyə" üstünlük verirlər) koqnitiv relyativizmi ortaya çıxarır və koqnitiv relyativizm elmi imtiyazdan məhrum edir [4].

Postmodernistlər insanların öz ehtiyaclarını əhatəli şəkildə təmin etmələri üçün mexaniki problemlərin mövcud olduğunu ifadə edərək, davamlı inkişaf strategiyalarını müdafiə edirlər. Bu nəzəriyyəçilər iddia edirlər ki, sosial vasitə üsulları - iqtisadi münasibətlərə demokratik nəzarət, ədalətsizliyin və zülmün aradan qaldırılması üçün potensial imkanlar yaradır. Bu, mütləq bazar tədbirlərini istisna etmir. Lakin Qutierresə görə, əgər sosial yönümlü siyasət bərabərliyi, ədalətlilik kimi və s amilləri qəbul edəcəksə, o zaman hüquq müdafiə vasitələrilə, dövlət siyasətin həyata keçirilməsindən daha çox toplumun əsas aktor  kimi aşağı səviyyədə prosesə müdaxilə edərək ədaləti bərpa etməsi daha doğru olardı. Bu strategiyanın həyata keçirilməsinin yollarından biridə davamlı inkişaf modellərinin təşkili və tətbiqilə bağlıdır [4].

Davamlı inkişaf doktrinası, inkişafla bağlı bu  terminin ən geniş mənasında ətraf mühitin qorumasının vacibliyini irəli sürməkdədir [8].  Bu baxımdan bu termin sosial ehtiyaclar və resursların idarə olunması məsələsilə ilə sıx bağlıdır. Davamlı inkişaf siyasəti məhdud resurslara çoxsaylı tələbləri tarazlaşdırmaq dilemması ilə üzləşməkdədir. Çünki inkişafın zəifləməsinə və ya sabitləşməsinə edilən vurğu əsas  məsələyə diqqəti yayındıra bilər. Çünki bu zaman davamlı inkişaf əldə edilməyə bilər. Bunun səbəbi, insanların asılı olduğu resurs bazasının məhdud olması ilə bağlıdır. Bu çərçivədə nəsillərarası resurs bərabərliyini təşviq etmək üçün ətraf mühit problemləri və sürətlə azalan resurslar üzərində ədalətli nəzarət və istifadə mexanizmi yaradılmalıdır [1].

Davamlı inkişaf segmentində kritik müzakirələrdən biri Üçüncü Dünyanı əhatə edən və qlobal səviyyədə ekoloji pozğunluğu davam etdirən neoliberal iqtisadi strategiyalara aiddir.  Davamlı inkişaf, əksinə, gələcək nəsillərin həyat standartlarına xələl gətirmədən əhalinin iqtisadi və ekoloji vəziyyətini yaxşılaşdırmaq əsas məqsəddir. Davamlı inkişaf siyasəti əsas maraqlı tərəflər arasında tərəfdaşlıq və konsensusun təşviqi daha dərin kollektiv icma hissini inkişaf etdirməyə yönəldilmişdir.

Bu siyasətlərin əsasını qlobal miqyasda iqtisadi və ekoloji resursların bərabər paylanmasına əsaslanan, insan ehtiyacları və hüquqlarına öncəlik verməsini təşkil edir.  Beləliklə, onlar həm nəsillərarası  resursları kapitalına, həm də rasional daşıma qabiliyyətinə (müəyyən bir yaşayış mühitinin qeyri-müəyyən müddət ərzində saxlaya biləcəyi maksimum insan sayı) üstünlük verirlər. Yekun olaraq davamlı inkişafı mədəni dəyərlərə söykənən, insanların təbii ehtiyatlardan demokratik şəkildə istifadə hüququnu prioritetləşdirən və əsas insan ehtiyaclarını təmin edən iqtisadi səmərəlilik və səmərəlilik üzərində ədalətli bərabərlik standartı kimi başa düşülə bilər [3].

Postmodern dövlət idarəçiliyi siyasi tənzimləmələrin mürəkkəbliyini nəzərə almadan yoxsulların və iqtisadi məhrumiyyətlərlə üzləşən insanların əsas ehtiyaclarına cavab verməyə çalışmaqdadır. Bu fenomen həm də "bölgənin sosial quruluşunu prinsipial şəkildə dəyişdirən" əsas amil kimi müəyyən edilir. Davamlı postmodern siyasi fəaliyyətlər "hökuməti yenidən icad etmə" fəaliyyətinə xas olan məsuliyyət daşıma və özəlləşdirmə səylərini mütləq şəkildə rədd etməsə də, yenə də qlobal miqyasda yoxsulların potensial imkanlarının artırılması üçün münbit şəraitin təmin edilməsində hökumətin daha böyük roluna müraciət edir [6].

**Nəticə**

Şəbəkə idarəçiliyinin sürətlə böyüməsi və onun dövlət siyasəti və demokratik dəyərlərə təsirini nəzərə alsaq, bu təkcə bürokratik siyasət sahəsində deyil, həm də dövlət idarəçiliyi nəzəriyyəsinin ümumi inkişafı üçün praktik əhəmiyyətə malikdir. Bürokratiyanın siyasi rolunun post-sənaye dönəmində daha yaxşı anlaşılması üçün şəbəkəli idarəetmə və təşkilat nəzəriyyəsi önəmlidir.

**Ədəbiyyat:**

1. Brown, L. (1996). Tough Choices: Facing the Challenge of Food Scarcity. New York: W. W. Norton.
2. De Zwart, F. (2002). Administrative practice and rational inquiry in postmodern public administration theory. Administration & Society, 34(5), 482-498.
3. Frederickson, H. George, Kevin B. Smith. (2003). The Public Administration Theory Primer. Boulder, CO: Westview Press.
4. Holden, W. (2009). Post modern public administration in the land of promise: The basic ecclesial community movement of Mindanao. Worldviews: Global Religions, Culture, and Ecology, 13(2), 180-218.
5. Kingdon, John. (1995). Agendas, Alternatives, and Public Policies. New York: HarperCollins.
6. Martin, E. J. (2003). Liberation theology, sustainable development, and postmodern public administration. Latin American Perspectives, 30(4), 69-91.
7. McSwite, O. C. (1997). Legitimacy in public administration: A discourse analysis. Thou- sand Oaks, CA: Sage.
8. Merchant, C. (1992). Radical Ecology: The Search for a Living World. New York: Routledge.
9. Osborne, David, and Ted Gaebler. (1992). "Reinventing Government". Reading, MA: Addison-Wesley.

10. O'Toole, Laurence J. (1997b). "Treating Networks Seriously: Practical and Research-Based Agendas in Public Administration." Public Administration Review 57: 45-52.
11. O'Toole, Laurence J. (1997a). "The Implications for Democracy in a Networked Bureaucratic World." Journal of Public Administration Research and Theory 7: 443-459.
12. O'Toole, Laurence, and Kenneth Meier. (2004). "Desperately Seeking Selznick: Cooptation and the Dark Side of Public Management in Networks." Public Administration Review 64: 681-693.
13. Robinson, Scott. 2006. "A Decade of Treating Networks Seriously." Policy Studies Journal 34: 589-598.
14. Wilson, James Q. (1989). "Bureaucracy: What Government Agencies Do and Why They Do It". New York: Basic Books.

## ABSTRACT

## SUSTAINABLE DEVELOPMENT AND POSTMODERN PUBLIC ADMINISTRATION: BUREAUCRATIC POLITICS AND NETWORK THEORY

**Aliyev E.S.**

*Dean of the Faculty of Administrative Management Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Associate Professor, Ph.D. in Political Science*

Postmodern public administration offers a unique way of thinking about social and administrative problems, rather than a set of different methods for solving them. Issues such as the transformation of management structures are also in the focus of postmodern public administration. Given the complexity of the relationship between multi-level governments and non-governmental organizations, postmodern public administration seeks to provide solutions to problems arising from changing systems. The management of the postmodern state states that there are mechanical problems for people to provide their needs comprehensively, and they defend sustainable development strategies. One of the ways to implement this strategy is related to the organization and application of sustainable development models.

***Keywords:*** *postmodern public administration, sustainable development, bureaucracy, network theory, transformation of management structures*

## РЕЗЮМЕ

## УСТОЙЧИВОЕ РАЗВИТИЕ И ПОСТМОДЕРНИСТСКОЕ ГОСУДАРСТВЕННОЕ УПРАВЛЕНИЕ: БЮРОКРАТИЧЕСКАЯ ПОЛИТИКА И СЕТЕВАЯ ТЕОРИЯ

**Алиев Э.С.**

*Декан факультета Административного управления Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по политическим наукам, доцент*

Постмодернистское государственное управление предлагает уникальный способ мышления о социальных и административных проблемах, а не набор различных методов их решения. Такие вопросы, как трансформация структур управления, также находятся в центре внимания постмодернистского государственного управления. Учитывая сложность отношений между многоуровневыми правительствами и неправительственными организациями, постмодернистское государственное управление стремится найти решения проблем, возникающих в результате изменения систем. Руководство постмодернистского государства заявляет, что у людей есть механические проблемы с комплексным обеспечением своих потребностей, и защищает стратегии устойчивого развития. Один из способов реализации этой стратегии связан с организацией и применением моделей устойчивого развития.

***Ключевые слова:*** *постмодернистское государственное управление, устойчивое развитие, бюрократия, сетевая теория, трансформация структур управления*

DOI: 10.30546/mab.17.2022.109

UOT 328; 342.5; 351/354; 351

# THE MECHANISMS OF PUBLIC ADMINISTRATION TO INCREASE THE ROLE OF HUMAN CAPITAL IN ENSURING THE SUSTAINABLE DEVELOPMENT IN AZERBAIJAN REPUBLIC

**Mehdiyev U.R.**

*The Academy of Public Administration
Under the President of the Republic of Azerbaijan,
Ph.D. in Political Science*

*e-mail: ulfat_mehdiyev@yahoo.com*

*The article on mechanisms of public administration to increase the role of human capital in ensuring the sustainable development in Azerbaijan reflects foreign experience related to human capital and its use in public administration. The experience of developing human capital and mobilizing state mechanisms in this direction to ensure sustainable development in different countries is given. At the same time, information is provided on the current situation in the Republic of Azerbaijan in this area, and the state policy pursued in this direction is analyzed. Several directions and aspects of the state policy are considered, and a brief overview of the tasks for the future is given. At the same time, the results of the state policy pursued in this direction in the Republic of Azerbaijan are covered.*

***Keywords:*** *Azerbaijan Republic, human capital, public administration, sustainable development*

## 1. Introduction

The subject of sustainable development, including human capital, envelops a wide range of financial, environmental, governmental political, mechanical and social issues, including energy, water, mineral assets, atmosphere, metropolitan clog, populace, contamination and industrialization, innovative turn of events, public strategy, wellbeing, schooling, and work. A compartmentalized piecemeal way to deal with the subject, for example, one zeroing in on mechanical arrangements or public approach issues, may reveal insight into explicit angles, yet the complex communications between different measurements block such an elite focus. Issues are exacerbated when any of these subsystems and components is viewed as though it were discrete and free from the decisions and activities of people. We, yet, will take a governmental approach to the subject.

## 2. International experience in the use of human capital in public administration

At present, human capital is considered as the driving force behind the formation and development of the modern innovative economy, therefore it is one of the main objects of state socio-economic policy. The development of a society based on knowledge puts forward fundamentally new requirements for the quality of human capital and, accordingly, for the management of its development. In this regard, the need for the development and implementation of effective measures of state assistance to the development of human capital is actualized [1]. An analysis of modern foreign practice can play a certain role in solving this problem. Its purpose is to systematize the achievements of foreign countries in the field of public administration of human capital development processes suitable for practical application in world countries, taking into account its specifics [2].

According to the concept of the United Nations Development Program, the economic and social prerequisites for realizing human potential can be very diverse and change through its development [1]. But there are three main possibilities recognized as fundamental constants [3]:




**Figure 1.** Three Main Possibilities Recognized As Fundamental Constants

Source: Yuliani Suseno, Craig Standing, Reza Kiani-Mavi and Paul Jackson, National innovation performance: the role of human capital and social capital, Innovation: The European Journal of Social Science Research, 2020, 33:3, 296-310, p. 299

Thus, based on the concept of the United Nations Development Program, we can distinguish three key areas of human capital development. They can be seen in the figure below.




**Figure 2.** Three Key Areas of Human Capital Development
Source: Made by the author based on the appropriate articles

The study found that in all developed countries the state seeks to ensure the consistency of actions covering these areas. By managing the development of human capital, the authorities of foreign countries expect quite certain effects, including: high life expectancy of the population; availability of high-quality medical care for the general population; high level of professional training; low unemployment rate; relatively weak differentiation of the population by income; a developed system of social support for the population, etc. Generalization of foreign experience in public administration allows us to focus on its achievements in specific areas of human capital development.

One of them is healthcare. Here, in our opinion, deserve attention, first of all, programs for the provision of medical care to persons who do not have sufficient funds to pay for medical services, and effective mechanisms for the implementation of compulsory health insurance systems. The successful implementation of these tools is evidenced, in particular, by the experience of Germany and France. At the same time, a feature of the German health care system is that the activities of the authorities at the federal level are successfully complemented by the measures taken at the regional level.An important source of funding for the compulsory health insurance system in Germany is the compulsory co-payments from the insured persons, which include, for example, partial payment for medicines and dental services. It should be noted that the mechanism of public participation in medical expenses also exists in most countries of the European Union [4].

If we turn to the experience of Japan, then, in our opinion, it clearly proves that measures to prevent early deaths from diseases among the working-age population are of great importance. So, for example, in Japan, mortality from oncology is practically reduced to zero through a general medical examination of the population, which makes it possible to detect the disease at an early stage, at which successful treatment is possible [5].

In addition to health care, education is the most important area of human capital development. It is the quality of education that largely determines how successfully a person can realize himself professionally. It should be noted that in countries with developed market economies there is a mechanism that integrates the efforts of the state and business entities, ensuring the orientation of the education system towards quantitative and qualitative (including structural) characteristics of the market demand for labor. At the same time, the state assumes the main burden of financing the training and retraining of personnel with the help of various tools [5].

Here also the experience of Germany can serve as an example of an effective solution to the problem of regulating the structure of graduates of vocational educational institutions. In the German model of secondary vocational education, the fundamental principle is duality - the combination of classroom training with training at the enterprise. Moreover, in terms of time, the modules of theoretical training at an educational institution and practical training at an enterprise are approximately the same.

It should be noted that in France one of the sources of accumulation of funds in government bodies for vocational training is the cash contributions of the enterprises themselves. Enterprises with more than 10 employees are obliged to allocate at least 1% of the wage fund for training and advanced training of employees [6].

In Japan, funding for vocational training systems comes in the form of government subsidies, which attract not only large employers, but also small producers. Enterprises are provided with subsidies in the amount corresponding to two-thirds of the current cost of financing training programs.

In summary, it can be concluded that the state most often stimulates initial vocational training of young people through direct financing of in-house training systems and by providing tax incentives to enterprises providing training (i.e. through indirect financing).

One of the key areas of human capital development is ensuring a decent level of well-being. At the same time, the experience of the United States is interesting, and, in particular, the "Temporary Assistance Program for Needy Families (TANF)" being implemented here. Program participants are predominantly parents with dependent minor children. They are provided with

temporary financial support for the maintenance of children, assistance in retraining and job placement, and transportation benefits related to travel to work [7].

Among European countries, France and Belgium are the most active in implementing measures to improve the welfare of certain categories of families. For example, in France, loans for setting up a household and housing benefits are provided, 90% of which are paid off at the birth of the fourth child [8].

International practice shows that the effective application of the minimum wage can prevent payments of unnecessarily low wages.Summarizing the results of a comparative analysis of foreign practices in human capital management, it should be noted that the search for an optimal model can only take into account the experience accumulated in the world to a small extent. The fact is that effective systems that meet modern challenges have not yet been developed.

Furthermore, over recent years, UNDP has started-up and scaled some innovation labs in several countries. The labs have successfully re-designed public services at scale and influenced policy-making. They act as transformational vehicles for culture change in government, delivering better, cheaper, digitally-enabled public services that help citizens to get things done. At the same time, FutureGov has supported UNDP to grow their labs in Eurasia, as well as developing their own labs with governments across the world, mainly in the UK but also advising in the United Arab Emirates, Indonesia and beyond. Besides these, effective and inspirational labs exist in many highly developed countries. In Western Europe, MindLab (Denmark) and The Behavioural Insights Team (UK) push their governments to re-imagine public services. In Asia, the fantastic Innovation Bureau in Seoul, South Korea, co-designs better services with citizens [9].

And as in other socio-economic spheres, in education too, IT companies are big players in the ICT and education space. They provide ‘ICT based education services’ to schools through e-content and ICT faculty. As their digital content can be easily replicated across schools, it is seen as a solution for the large scale content needs of the public education system. The process of creating digital learning materials by teachers has another potentially beneficial outcome – the development of open educational resources on scale. If teachers’ capacities to use digital applications to create digital materials is developed on a large scale, and these resources are shared by teachers with one another, and published on platforms/repositories for others to use/adapt, using copyright that enables such sharing, it would be a powerful method of creating resource rich learning environments.

## 3. Human capital policy to achieve sustainable development in the Republic of Azerbaijan

Sustainable future of any country is measured by the level of education. That is why the development of education is an important part of the overall development concept of the country. In this regard, the care for education in Azerbaijan is growing day by day. As a result of reforms carried out in this area in recent years, the dynamic development of the country's economy creates favorable conditions for the development of education. At the present stage, the development of education is being further accelerated as a key factor shaping the future development model of the country. Therefore, the development of education has been the most important area for the formation of human capital.

In this regard, the development of the institutional framework of the education system, the creation of new infrastructure, the provision of educational institutions with information and communication technologies, the introduction of new models and mechanisms of assessment, informatization of the education system and other important activities contribute to human capital formation.

The action plan prepared for the implementation of the "Government Strategy for the Development of Education in Azerbaijan Republic" signed by the President on October 24, 2013, sets goals for the adaptation of the education system to the world education system [10].

In accordance with the action plan envisaged in the Special State Program to accelerate the socio-economic development of Baku and its settlements, the material and technical base of secondary schools and individual educational institutions is being strengthened, and the most modern infrastructure is being created to improve the quality of education. Furthemore, the establishment of the Knowledge Fund under the President of the Republic of Azerbaijan on May 7, 2014 is also one of the important steps in the development of education. The main purpose of the Foundation is to educate the population of the Republic of Azerbaijan, to inform the public about the essence of domestic and foreign policy, socio-political and socio-economic processes, supports the development of knowledge, skills, professionalism and worldview of young people [11].

Furthermore, distance education in Azerbaijan is carried out through Internet resources. The basis of training communication is specially designed tools designed in the form of distance learning courses. It is very important to first decide which technology to use to create a distance education system in the Republic of Azerbaijan. The establishment of a distance education system should also be based on international experience and the opinion of experts.In

this regard, the concept of creating and developing a distance education system in the Republic of Azerbaijan is being developed. The State Program on creation and development of the distance education system in the Republic of Azerbaijan is being prepared. The process of creating a Unified Information-Educational Environment for the Education System of the Republic of Azerbaijan (formation of a single distance education platform - a specially designed software package) is coming to an end. Successful resolution of such issues like provision of necessary material and technical base in educational institutions, development of e-courses on various specialties and organization of their experimental testing, training of personnel in this field, creation of necessary legal-normative base, further study of international experience and adaptation taking into account local education system features, distance learning carrying out of wide propaganda of educational technologies in the society, organization and carrying out of scientific-research works on this problem, etc. is taking place.

At the same time, the role of funds allocated from the state budget in the implementation of numerous state programs and strategies adopted to ensure socio-economic development in the country, the implementation of large-scale measures in this direction, in general, the financing of social policy in the country are observed. During the period since the restoration of the independence of the republic, the amount of funds allocated for social development from the state budget is growing every year. In recent years, there has been a steady growth trend in this direction, and the amount of allocated funds is one of the priorities of public spending.

Over recent years, the amount of funds allocated for the development of the health care system in the country has increased by 11 times. The share of these funds in the structure of funds allocated for socio-cultural activities increased from 10.3% to 15%, but this figure decreased from 5.4% to 3.5% compared to state budget expenditures. In the structure of health expenditures, the amount of funds allocated to hospitals and other services related to the health sector has been increased, and the structure of these expenditures also includes government programs [12].

Because the goal of any economic growth is to increase social welfare. In this regard, the development of social spheres and human capital is one of the main priorities of Development concept “Azerbaijan 2020: Vision for the Future”. Improving the quality of education and health, strengthening social protection, ensuring gender equality and family development, developing the potential of young people and sports are the main areas within this priority. Within the framework of the concept, the issue of poverty is assessed in the context of the concept of “multifactor poverty” in accordance with modern approaches to the concept of human development [13].

The concept focuses on the development of human capital, the provision of quality health and education services in the country and the availability of these services for various social groups, including low-income families and poor citizens. At the same time, work is underway to ensure reliable social protection of the population.

In this regard, in the concept the main tasks in the field of public health and healthcare are listed. At the same time, the mechanisms for the formation of a modern education system are revealed. Meanwhile, attention is paid to issues related to the improvement of the social protection system. Ensuring gender equality and family development have a special place. State policy is defined for the development of youth potential and sport.

Ensuring sustainable development and development of human capital in Azerbaijan was included among the 4 main strategic goals included in the "Strategic Roadmap of the National Economic Perspective of the Republic of Azerbaijan" by the decree of President Ilham Aliyev dated December 6, 2016:

1) Strengthening fiscal stability and adopting sustainable monetary policy;
2) Implementation of reforms related to privatization and state-owned enterprises;
3) Development of human capital;
4) Development of favorable business environment. (Strategic Road Map of the perspective of the national economy of the Republic of Azerbaijan, 2016).

Specific deadlines for achieving strategic goals and objectives have been determined in the Strategic Road Map. Thus, the Strategic Road Map covers short, medium and long-term periods, which is important for the successful implementation of plans that ensure sustainable development.

Along with the creation of new jobs in the Strategic Roadmap for the development of human capital, which is one of the 4 main strategic goals identified, the improvement of housing provision, the development of a social system that provides for the provision of education and health services in accordance with modern requirements, the improvement of communal services and the transition from a targeted social assistance system to rehabilitation It is designed to ensure poverty reduction.

It is important to note that, starting in 2012, the development of human capital and the creation of conditions for its reproduction is one of the main strategic tasks within the framework of national priorities for socio-economic development. Ensuring inclusive and sustainable development building a peaceful and inclusive society is one of the key priorities of the Azerbaijani government, and the country has clearly demonstrated its commitment to the

transition to sustainable development and alignment of government programs and strategies with the SDGs. Azerbaijan's unwavering commitment is confirmed by the approval in February 2021 of “Azerbaijan 2030: National Priorities for Socio-Economic Development”. (Third Voluntary National Review of Republic of Azerbaijan, 2021) Azerbaijan views the implementation of the SDGs as an opportunity to ensure integration and development and seeks to adapt policies, strategies and programs implemented at the national and regional levels to the SDGs. The key point here is to ensure the effectiveness and efficiency of the implemented policies and measures.

In order to promote a healthy and active lifestyle of Azerbaijani youth and ensure their integration into society, the Azerbaijani Youth Development Strategy covering 2015-2025 and the State Program for 2016-2020, 2012-2020 on the development of physical culture and sports “The National Strategy and the State Program for 2013-2016” are being developed. The existing regulatory framework in this area is constantly being improved, councils are established under the heads of district (city) executive authorities to support the systematic development of youth, as well as physical education and sports, youth policy, physical education and sports. The active involvement of local municipalities in the conduct and development of the project is ensured [13].

Some regulatory government measures are being taken in Azerbaijan to develop human capital. For example, SMEs support agency, DOST, ABAD, etc. can be noted. SMEs support agency of the Republic of Azerbaijan was established by the Decree of the President of the Republic of Azerbaijan dated December 28, 2017. The Charter and structure of the Agency were approved by the Presidential Decree dated June 26, 2018. The Agency is a public legal entity that supports the development of small and medium-sized businesses in the country, provides a number of services to SMEs, coordinates and regulates the services of government agencies in this area and operates under the Ministry of Economy.

It should be taken into consideration that the country has some governance shortcomings in employment, labor, social protection and security. Therefore, there is a serious need for reforms in relevant areas of public administration. These reforms must meet the requirements of modern innovations. The fact that the system of services offered to the population does not fully meet the requirements of the day has highlighted the need to move to the stage of institutional restructuring and development on an innovative basis. This need resulted in the signing of the Presidential Decree “On additional measures to improve governance in the field of employment, labor, social protection and security”. The DOST Agency and the DOST Centers established under the decree have improved and systematized, simplified, at the same time, in a coordinated manner, fully transparent, efficient and open to the public.

Furhermore, ABAD - Easy Support for Family Business is a public legal entity established by the Decree of the President of the Republic of Azerbaijan Ilham Aliyev dated September 23, 2016 under the State Agency for Citizen Services and Social Innovations (ASAN service) under the President of the Republic of Azerbaijan. The purpose of establishing the organization is to support the active participation of citizens in the socio-economic development of the Republic of Azerbaijan, the development of small and medium enterprises, increasing employment and the formation of competitive households. ABAD centers implement projects to support family businesses operating in the field of decorative and applied arts and food production.

As it is aimed at ensuring inclusion in the field of employment and increasing the participation of socially vulnerable groups in the labor market, the "Employment Strategy of the Republic of Azerbaijan for 2019-2030" envisages the development of employment and regulation of the labor market and improving the institutional structure, improving the skills of the workforce, increasing labor productivity, expanding the scope of active employment measures and strengthening the integration of groups with special needs into the labor market, continuous social dialogue, updating labor standards, labor market monitoring and forecasting. It will ensure the transition of employment policy from extensive to intensive. The framework for the goals set in the Strategy, in particular, the identification and prevention of informal employment, the creation of a single electronic information resource for informal employment control, as well as a vacancy bank, the definition of minimum requirements for professional standards, self-employment and other issues. is reflected in the Law of the Republic of Azerbaijan dated June 29, 2018 No. 1196-VQ [14]

At the same time, building opportunities for inclusive and sustainable economic growth for all and 'leaving no one behind' is a priority for Azerbaijan and we have demonstrated firm commitment to transitioning to sustainable development and aligning our national development strategy to the SDGs. Along with the nationalization of the SDGs, and alignment of the existing strategies with prioritized targets and indicators, we should work on a new development strategy (2020 to 2030) based on predefined SDG accelerators and integrate those in our state budget. Ensuring complete and integrated implementation of the SDGs, participation of businesses in the process is indispensable. Awareness raising, more stringent regulation of environmental issues, increasing private sector financing for SDGs and harnessing CSR funding are all therefore impending.

At the same time, there is a roadmap for the development of vocational education in the Republic of Azerbaijan. The strategic roadmap has five strategic goals:

1. Integration of employers into the system of vocational education and training;
2. Creating a strong results-based financing system;
3. Establishment of targeted professional development programs;
4. Creation of specific programs by sectors;
5. Application of tools that will promote the achievement of goals for vocational education and training.

According to the Decree of the President of the Republic of Azerbaijan No. 869 dated April 20, 2016 “On establishment and operation of the State Agency for Vocational Education under the Ministry of Education of the Republic of Azerbaijan”, the State Agency for Vocational Education under the Ministry of Education was established and its Statute approved. The State Agency for Vocational Education under the Ministry of Education of the Republic of Azerbaijan is an executive authority that ensures and coordinates the implementation of state policy in the field of primary vocational education and organizes the activities of primary vocational education institutions under the Ministry of Education of the Republic of Azerbaijan.

In order to ensure economic development in Azerbaijan, certain road maps have been developed. Four of them are particularly closely linked to human capital and human development. The first of them is the Strategic Roadmap for the production of consumer goods at the level of small and medium enterprises in the Republic of Azerbaijan, which we will discuss later. The second is the Strategic Roadmap for the development of the specialized tourism industry in the Republic of Azerbaijan, aimed at the development of tourism and people serving in the tourism sector in Azerbaijan. The third roadmap is the Strategic Roadmap for the Development of Affordable Housing in the Republic of Azerbaijan, which directly aims to increase people's material well-being and maximize living standards. The fourth and final roadmap is the Strategic Roadmap for the Development of Vocational Education and Training in the Republic of Azerbaijan, which we have already discussed in detail.

## 4. Conclusion

According to the results of the study, it can be said that the development of human capital in the Republic of Azerbaijan is ensured using state mechanisms. Comprehensive programs are being implemented and successful results are being achieved in all areas of sustainable development - education, health and the others. All opportunities are created for the self-development of Azerbaijani youth. The main problems,that human development faces,are identified and measures are taken to eliminate these problems. In general, we can say that the main goals of Development concept "Azerbaijan 2020: Vision

for the Future" have been achieved. The key priorities highlighted in "Azerbaijan 2030: National Priorities for Socio-Economic Development" confirms the undertaken coomitment of the goverment to form and develop inclusive society, using comprehensive public administration. Human capital development, creation of an appropriate environment for innovation and technologies are the key parts of this framework/ Furthermore, in order to maintain employment SMEs support agency, DOST and ABAD agencies have been established. And Azerbaijan will continue its efforts to implement 2030 Agenda with a view to achieve the SDGs. The country will strive to preserve macroeconomic stability by allocating resources in such a manner as to increase the share of the private sector in the overall economy.

**References:**


1. Bar-El Ronen, Eyal Pecht and Asher Tishler, Human Capital and National Security, Defence and Peace Economics, 2020, 31:2, 121-141.
2. Peng Hongxing, Hongping Tan and Yin Zhang, Human capital, financial constraints, and innovation investment persistence, Asian Journal of Technology Innovation, 2020, 28:3, 453-475.
3. Suseno Yuliani, Craig Standing, Reza Kiani-Mavi and Paul Jackson, National innovation performance: the role of human capital and social capital, Innovation: The European Journal of Social Science Research, 2020, 33:3, 296-310.
4. Schenkenhofer Julian and Dominik Wilhelm, Fuelling Germany's Mittelstand with complementary human capital: the case of the Cooperative State University Baden-Württemberg, European Journal of Higher Education, 2020, 10:1, 72-92.
5. Rankin Elizabeth, Human Capital – Japan's Most Important Resource, Human Capital Journal, 2018, 12:4, 21-39.
6. Chojnicki Xavier, Paul Eliot Rabesandratana, Aging, Human Capital, and Productivity in France: A Generational Accounting Perspective, Review of Income and Wealth, 2018, 64: 872-899.
7. Canals Claudia, US growth: the power of human capital, Labour market and demographics, July 2nd, 2018.
8. Human Capital: Digital Inclusion and Skills, Europe's Digital Progress Report 2017, 22 page
9. Growıng Government Innovatıon Labs, UNDP, p. 2 https://www.eurasia.undp.org/content/dam/rbec/docs/undp-innovation-lab-report.pdf
10. Ələkbərov Urxan, Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları, Bakı: Təhsil, 2017, 176 səh.

11. Rəhimli Rəcəb, Davamlı inkişafın idarə edilməsində müəssisələrin rolu http://sdf.gov.az/development/uploads/qrantlar_uzre_meqale_eif-2013-9-15/meqale/41-meqale-4.pdf
12. Ələkbərov Urxan, Rəcəb Rəhimli, Ziyafət Həbibova, Murtəza Həsənov, İnsan potensialına əsaslanan sosial müəssisələr Azərbaycanda davamlı innovativ inkişaf texnologiyası kimi, Bakı: Elmin inkişaf fondu, 2018, 184 səh.
13. "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir, https://president.az/files/future_az.pdf
14. 2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası, AzərTac (İnternet Resursu) https://azertag.az/xeber/2019_2030_cu_iller_uchun_Azerbaycan_Respublikasinin_Mesgulluq_Strategiyasi-1209753?__cf_chl_jschl_tk__=61c3120d12155c7f64e28ff23b46b816fce37227-1605796458-0-AdGpsclB4I-w7WiwBZE15usYPuUlfdfG2-y9ZoX3MDeQ5mBz9oQwebQTwPhXz5qfZZJZU4Cg52r2D2K9D8r02Ek3WY81uzR-TXqz0EoEgQrccQ_8ONcOtBHRNpnkUwJfqDHgG-xKS4A_kPPqdEpoNq0LqNQMtGqCOelb6bSag9y7IaHdTKUIaTblYAAS10qy374QhvKKiQqg3d2xYquoLD1xXAW1XM1cBgGPlpGwMirryTnvwQ2c6b9qKrc08naYex9Cpgqzal0MN2MdCNjjMTz5tOI5HE1pUZTH_IvPk4uNj4msTARC5E2d-nifE8K9fxZUfaCKp88su7kYtPpi23xZ213BoW3ZXfYoiYOU9j00fQE7Bu9ZB7WKslI44hXxsmkU-SPk_lrll7CTZBo4SbEMJfpzdZ2xDQXZwasXoGnE

## XÜLASƏ

## AZƏRBAYCAN RESPUBLİKASINDA DAVAMLI İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ İNSAN KAPİTALININ ROLUNU ARTIRMAQ ÜÇÜN DÖVLƏT İDARƏETMƏ MEXANİZMLƏRİ

**Mehdiyev Ü.R.**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

Azərbaycan Respublikasında davamlı inkişafın təmin olunmasında insan kapitalının rolunun artırılmasına yönəlmiş dövlət idarəçilik mexanizmləri ilə əlaqədar hazırlanmış məqalədə insan kapitalı və onun dövlət idarəçiliyində istifadəsi ilə əlaqədar xarici təcrübə öz əksini tapmışdır. Müxtəlif ölkələrdə

davamlı inkişafın təmin olunması istiqamətində insan kapitalının inkişaf etdirilməsi və bu istiqamətdə dövlət mexanizmlərinin səfərbər olunması təcrübəsinə yer verilmişdir. Eyni zamanda Azərbaycan Respublikasında da bu sahədə mövcud olan vəziyyətlə bağlı məlumat təmin edilmiş, bu istiqamətdə aparılan dövlət siyasəti təhlil olunmuşdur. Sözügedən dövlət siyasətinin müxtəlif istiqamətləri və aspektləri nəzərdən keçirilmiş, gələcək üçün qarşıda duran vəzifələr haqqında qısa şəkildə fikir yürüdülmüşdür. Eyni zamanda Azərbaycan Respublikasında bu istiqamətdə aparılan dövlət siyasətinin nəticələrinə də yer verilmişdir.

***Açar sözlər:*** *Azərbaycan Respublikası, insan kapitalı, dövlət idarəçiliyi, davamlı inkişaf*

## РЕЗЮМЕ

## МЕХАНИЗМЫ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ С ЦЕЛЬЮ ПОВЫШЕНИЯ РОЛИ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА В ОБЕСПЕЧЕНИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Мехдиев У.Р.**

*Академия Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по политическим наукам*

В статье о механизмах государственного управления для повышения роли человеческого капитала в обеспечении устойчивого развития в Азербайджане отражен зарубежный опыт, связанный с человеческим капиталом и его использованием в государственном управлении. Приведен опыт развития человеческого капитала и мобилизации государственных механизмов в этом направлении для обеспечения устойчивого развития в разных странах. При этом дается информация о текущей ситуации в Азербайджанской Республике в этой сфере, и анализируется проводимая в этом направлении государственная политика. Рассмотрены несколько направлений и аспектов государственной политики, дан краткий обзор задач на будущее. Вместе с тем освещаются результаты проводимой в Азербайджанской Республике государственной политики в этом направлении.

***Ключевые слова:*** *Азербайджанская Республика, человеческий капитал, государственное управление, устойчивое развитие*

DOI: 10.30546/mab.17.2022.123

UOT 327(4/9);930.22(4/9); 327; 351.78; 504.4/8; 614.8

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR KONTEKSTİNDƏ EKOLOJİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ VƏ MÜASİR ÇAĞIRIŞLAR

**Hümbətov F.D.**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*Davamlı inkişafın planlaşdırılması və*
*idarə edilməsi kafedrasının dosenti,*
*BDU-nun siyasi elmlər doktoru proqramı üzrə doktorantı*

*e-mail: fuad.humbatov@mail.ru*

*Məqalədə beynəlxalq münasibətlər kontekstində ekoloji təhlükəsizlik institutlarının formalaşması və siyasi proseslərə təsir mexanizmləri, qlobal ekoloji təhlükəsizliyin təmin edilməsində beynəlxalq əməkdaşlığın rolu, bu sahədə müasir çağırışlar, habelə siyasi təhlükəsizlik və ekoloji təhlükəsizlik risklərinin korrelyasiya kimi mühüm məsələlər tədqiq edilmişdir.*

***Açar sözlər:*** *təhlükəsizlik, ekoloji təhlükəsizlik, beynəlxalq münasibətlər, dayanıqlı inkişaf, iqlim dəyişmələri*

Məqalədə beynəlxalq münasibətlər kontekstində ekoloji təhlükəsizlik institutlarının formalaşması və siyasi proseslərə təsir mexanizmləri, qlobal ekoloji təhlükəsizliyin təmin olunmasında beynəlxalq əməkdaşlığın rolu, bu sahədə müasir çağırışlar, habelə siyasi təhlükəsizlik və ekoloji təhlükəsizlik risklərinin korrelyasiya kimi mühüm məsələlər tədqiq edilmişdir. Bununla yanaşı, "ekoloji təhlükəsizlik" termininin beynəlxalq münasibətlər anlamında təhlili əsasında belə nəticə əldə olunmuşdur ki, o, "ətraf mühit", "təhlükəsizlik" və "beynəlxalq münasibətlər" kimi kateqoriyaların sintezindən formalaşmışdır və beynəlxalq münasibətlər sistemində ekoloji risklərin əhəmiyyətinin artması ilə bu anlayış "təhlükəsizlik" anlayışını xeyli transformasiyaya uğratmış, "beynəlxalq münasibətlər" sisteminin klassik nəzəri kontekstini genişləndirmişdir. Belə ki, əvvəlki dövrlərdə bir sıra hallarda nəzəri və praktiki anlamda ciddi əhəmiyyət verilməyən, habelə klassik "təhlükəsizlik" məktəbi (realizm cərəyanı) və digərləri tərəfindən heç bir siyasi təhlükəsizlik riski kimi qəbul edilməyən ekoloji risklərin günümüzdə ekoloji deqradasiya, xüsusən də iqlim

dəyişmələri və digər neqativ ekoloji proseslər fonunda ümumən qlobal və regional siyasi təhlükəsizlik sisteminə ciddi təhlükə yaratması müəllif tərəfindən konkret araşdırılmış və bu təhlükələrin getdikcə intensivləşməsi proqnozlaşdırmışdır.

Günümüzdə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasına qlobal miqyasda mane olan təhlükələr, risklər sırasında əsas yeri regional və lokal hərbi münaqişələr, siyasi qarşıdurmalar, iqtisadi və maliyyə böhranları, habelə qlobal ekoloji problemlər tutur. Bir sıra hallarda bu səbəblər bir-birilə əlaqədar olur, xüsusən geo-siyasi aktorların birbaşa və dolayısı iştirakı ilə baş verən hərbi münaqişələr, siyasi qarşıdurmalar iqtisadi, maliyyə böhranlarını, ekoloji və digər riskləri öz miqyasına və təsir gücünə görə daha təhlükəli edir. Bunu, məsələn, Ukraynada baş verən müharibə ilə əlaqədar RF ilə qərb ölkələri arasında davam edən hərbi-siyasi qarşıdurma nəticəsində Avropa İttifaqı və digər qərb ölkələrində meydana gəlmiş enerji böhranı, digər ölkələrdə taxıl təminatı məsələlərində baş vermiş problemlər, müharibə ilə bağlı bölgədə və ətrafında intensivləşmiş ekoloji problemlər də sübut edir. Qeyd edək ki, belə miqyasda müharibələrin qlobal iqlim dəyişmələrinə və istiləşmə prosesinə, ekoloji deqrasadiyaya təsirləri böyükdür.

Bu risklər sırasında qlobal ekoloji problemləri, yəni qlobal ekoloji deqradasiya, qlobal istiləşmə, biomüxtəlifliyin azalması, ətraf mühitin təmizliyi ilə bağlı problemlər və digər məsələləri də xüsusi qeyd etmək lazımdır. Belə ki, bu problemlərin öz müxtəlif təzahürlərini daha intensiv və bəzən dağıdıcı formalarda göstərməsi ekoloji prioritetlərin müxtəlif fəaliyyət sahələrində də formalaşmasına səbəb olmuşdur.

Bu mənada, ekoloji problemlər artıq beynəlxalq münasibətlər sisteminə daha geniş surətdə sirayət etmiş, bu sistemi institusional, nəzəri anlamda zənginləşdirmiş, hətta bir sıra klassik anlayışların yenidən nəzər keçirilməsi ehtiyacını yaratmışdır.

Belə klassik anlayışlardan biri də beynəlxalq münasibətlər sistemində mərkəzi və müəyyən dərəcədə əsas rola malik olan "təhlükəsizlik" anlayışıdır.

Belə ki, müvafiq mənbələr üzrə apardığımız təhlillər, o cümlədən, mövzu üzrə terminoloji araşdırmaların icmalı xarakterli məqalələrdəki [1], [2], [3] əsaslandırma bunu deməyə əsas verir ki, "ekoloji təhlükəsizlik" termini nəzəri anlamda "ətraf mühit", "təhlükəsizlik" və "beynəlxalq münasibətlər" kimi kateqoriyaların sintezindən formalaşmışdır və o, "təhlükəsizlik" anlayışını xeyli transformasiyaya uğratmış və "beynəlxalq münasibətlər" sisteminin klassik nəzəri kontekstini genişləndirmişdir.

"Ekoloji təhlükəsizlik" termininə gəldikdə, hələ 1987-ci ildə BMT-nin altqurumu olan Ətraf Mühit və İnkişaf üzrə Ümumdünya Komissiyası (The World Commission on Environment and Development, Brundtland Komissiyası kimi

tanınır) tərəfindən dərc edilmiş «Ümumi gələcəyimiz» adlı məruzədə, davamlı inkişaf konsepsiyası geniş şəkildə izah olunmaqla yanaşı, dünyada ilk dəfə olaraq «ekoloji təhlükəsizlik» termini istifadə olunmuşdur [4], [5].

Təsadüfi deyildir ki, "təhlükəsizlik" anlayışı tarixən, mövcud qlobal və regional siyasi proseslərin təsiri nəzərə alınmaqla, hər hansı dövlətin digər dövlət və ya dövlətlər, yaxud da onların birlikləri tərəfindən gözlənilən hər hansı potensial təhlükənin, riskin təhlili əsasında formalaşdırdığı özünümüdafiə sisteminin elmi ifadəsi kimi meydana gəlmişdir. Faktiki olaraq, İkinci Dünya Müharibəsindən sonra keyfiyyətcə yeni forma və məzmunda formalaşmış beynəlxalq münasibətlər sistemində "təhlükəsizlik" anlayışı klassik mənada məhz belə anlam kəsb etmişdir. Yəni, təhlükəsizlik anlayışında istinad obyekti, yəni təhlükə mənbəyi rolunu digər dövlət(lər) və ya onların birliyi oynamışdır. Qeyd olunduğu kimi, bu anlayış bütöv beynəlxalq münasibətlər sisteminin, o cümlədən "Beynəlxalq münasibətlər" predmetinin müvafiq surətdə formalaşmasına təsir etmişdir.

Məhz "realizm" adlanan nəzəriyyədə "təhlükəsizlik" anlayışı üçün ənənəvi olaraq belə yanaşma qəbul edilmişdir. Yəni yalnız dövlət və ya onların birliyi təhlükə mənbəyi kimi qəbul edilmiş, "təhlükəsizlik" anlayışı belə dar, kompakt tərif əsasında formalaşmışdır. Bu yanaşmada, təhlükəsizlik gücün tətbiq edilməsi və onunla təhdid edilməsi yolu ilə təmin edilir [6]. Maraqlıdır ki, məhz bu cərəyanın davamçıları (yəni "realistlər") təhlükəsizliyi bu anlamda "yüksək" siyasət sahəsinə ("high" politics) aid etdikləri halda, ekoloji problemləri aşağı siyasət sahəsinə ("low" politics) daxil etmişlər. Bir növ "realistlər" ekoloji problemlərin beynəlxalq münasibətlərdə real təhlükə mənbəyi ola biləcəyini inkar etmişlər. Məsələn, bu cərəyanın tanınmış təmsilçisi Mark Leisi (M.Lacy) bu mövzuya aid kitabında [7] qeyd edir ki, "realist"lər təhlükələrin, yəni risklərin ierarxiyasını bu prinsip əsasında müəyyən etməyə üstünlük vermişlər. Onlar ekoloji və digər bəzi riskləri ümumiyyətlə "təhlükəsizlik gündəliyinə" daxil etmirdilər. Sonrakı mərhələdə konstruktivist və postkonstruktualist alimlər, xüsusən də Kopenhagen Məktəbinə aid olan bir qrup alim tərəfindən realistlərin təklif etdikləri tərifin bir qədər də dar çərçivəyə salınmasına cəhd edilmiş, yəni, faktiki olaraq, təhlükə və risklərin sosial cəhətdən təsnif edilməsi, sosial konstruksiya əsasında aparılması irəli sürülmüşdür. Bu yanaşma əslində elmi dairələrdə böyük mübahisələrə və etirazlara səbəb olmuşdu. Buna baxmayaraq, Kopenhagen Məktəbinin görkəmli nümayəndələri, o cümlədən Barry Buzan və Ole Waever öz əsərlərində "təhlükəsizlik" anlayışının genişləndirilməsinin, o cümlədən ekoloji və digər risklərin, məsələlərin bu anlayışa daxil edilməsinin nəzəri cəhətdən neqativ yan effektlərinin ola biləcəyini vurğulamışlar. Belə ki, onların fikrincə, dar, klassik mənada təhlükəsizlik dövlətlərin varlığı, "ölüm-dirim" məsələsi olduğu halda, ekoloji

təhlükəsizlik məsələsi klassik təhlükəsizlik məntiqinə uyğun gəlmir, daha çox siyasi çağırış anlamı kəsb edir və buna görə də siyasi anlayışlara, siyasi fəaliyyət sahəsinə daxil edilməlidir [3].

Fikrimizcə, müasir ekoloji çağırışlarla əlaqədar, belə yanaşma tamamilə yanlışdır, çünki günümüzdə, yalnız iqlim dəyişmələrinin ağır nəticələrini təhlil etsək, görərik ki, bir çox ölkələrdə, xüsusən də kiçik ada-dövlətlərdə dəniz səviyyəsinin artması, yağıntıların qeyri-bərabərliyi və intensivliyinin artması nəticəsində xeyli insan tələfatı, iqtisadi zərərlər bir çox ölkələri məhz "ölüm-dirim" məsələsi qarşısında qoymuşdur. Buna görə də, risk və təhlükələrin ağırlıq dərəcəsi meyarı ilə məsələyə yanaşılarsa, hazırda ekoloji təhlükəsizlik sisteminə olan risklərin dağıdıcı potensialı getdikcə daha da yüksəlir və bu risklər həm insan tələfatı, həm sosial-iqtisadi bloka neqativ təsirləri, eləcə də dövlətlərarası münasibətlərə ciddi təsir imkanları baxımdan "realist"lərin arqumentlərini heçə endirmiş olur. Belə ki, təkcə Pakistanda 2022-ci ilin iyun-avqust aylarında intensiv yağışlarla əlaqədar baş vermiş daşqınlar nəticəsində ölkənin üçdə biri su altında qalmış, 1100 nəfər həlak olmuş, 33 milyon nəfərə ziyan dəymişdi. Problemin digər paradoksal tərəfi də ondan ibarətdir ki, bu iqlim dəyişmələrinə səbəb olan istixana qazlarının həcmi atmosferdə son 170-180 ildə sürətlə artmış və onların belə böyük miqdarda toplanmasına (təxminən 2,4 trilyon ton $CO_2$ ekvivalenti) görə tarixi məsuliyyət inkişaf etmiş ölkələrin üzərinə düşdüyü halda, hazırda iqlim dəyişmələrindən ən çox əziyyət çəkən dövlətlər isə əsasən kasib və ya inkişaf etməkdə olan ölkələrdir. Qlobal iqlim dəyişmələri ilə mübarizə üzrə hazırda dünyada ən nüfuzu elmi istinad qurumu olan İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin (İPCC) hazırladığı son 6-cı Qiymətləndirmə Hesabatındakı məlumatlara əsasən, hazırda Mərkəzi- və Şərqi Afrika, Cənubi Asiya, Mərkəzi və Cənubi Amerika, kiçik ada və inkişaf etməkdə olan dövlətlər və Arktika iqlim dəyişmələrinin təsirlərinə ən çox həssas bölgələr hesab edilir. Bu və digər həssas bölgələrdə hazırda təxminən 3,3-3,6 milyard insan yaşamaqdadır. Məhz bu bölgələrdə 2010-2020-ci illərdə kəskin daşqın, fırtına və quraqlıq hadisələri nəticəsində tələf olmuş insanların sayı digər bölgələrlə müqayisədə 15 dəfə çox olmuşdur [24].

Beləliklə, günümüzdə öz aktuallığı ilə seçilən ekoloji risklərlə bağlı, ekoloji təhlükəsizlik konsepsiyasında klassık termindən fərqli olaraq, təhlükə mənbəyi, ayrı-ayrı halları nəzərə almasaq, hər hansı dövlət(lər) deyil, müxtəlif qlobal və ya lokal ekoloji proseslər, o cümlədən iqlim dəyişmələri, ekoloji deqradasiyalar, neqativ dəyişmələrdir. Ayrı-ayrı hallar dedikdə, dövlətlər tərəfindən münaqişələr zamanı müxtəlif ekoloji cinayətlərin törədilməsidir ki, nəticə etibarilə, bu lokal və ya qlobal miqyasda ekoloji fəlakətlərə səbəb olur. Konkret olaraq, Ermənistanın misalında bunu Azərbaycan Respublikasına qarşı 2020-ci ilədək törədilmiş və günümüzdə davam etdirilən ekoloji cinayət-

ləri göstərmək olar ki, bu barədə müəllifin əvvəlki araşdırmalarında geniş bəhs edilmişdir [18], [19].

Məsələn, qlobal iqlim dəyişmələri bu proseslər arasında ən aktual, sosial-iqtisadi anlamda böyük dağıdıcı potensiala malik olan və müxtəlif sahələri əhatə edən fenomendir. Belə ki, ekoloji təhlükə mənbəyi kimi bu fenomen hər hansı ayrıca götürülmüş bir dövlətin digərləri ilə münasibətlərinə təsir üsulu kimi hazırlanmış "xüsusi silah" olmadığı kimi, onunla effektiv mübarizə də ayrıca götürülmüş hər hansı dövlətin imkanları daxilində deyildir və buna görə də, qlobal səviyyədə beynəlxalq əməkdaşlığı zəruri edir.

Ən maraqlısı da odur ki, bir sıra hallarda qeyd olunan qlobal iqlimi dəyişmələri özü də dövlətlərin qonşu dövlətlərlə münasibətlərinə neqativ təsir edə bilər. Məsələn, iləbəil artan quraqlıq zonaları, ekstremal hava şəraiti ilə bağlı bir sıra bölgələrdə transsərhəd çayların istifadəsi və qorunması, meşə örtüyünün yanmasına qarşı qeyri-effektiv adaptasiya tədbirləri və s., nəticə etibarilə qonşu ölkələr arasında beynəlxalq münaqişələrə səbəb ola bilər. Bu da ekoloji təhlükələrin bilavasitə klassik mənada, siyasi, regional təhlükəsizlik sisteminə neqativ təsir potensialının mövcud olduğunu sübut edir.

Qeyd olunduğu kimi, klassik təhlükəsizlik anlayışından fərqli olaraq, ekoloji təhlükəsizlik anlayışında təhlükə mənbəyi konkret dövlət(lər) deyildir, bu təhlükə mənbəyinin ərazisi də qeyri-müəyyəndir, üstəlik siyasi-hərbi interpretasiya anlamında əsas etibarilə dövlətlərarası xüsusiyyətə malik deyildir. Belə ki, klassik mənada "təhlükəsizlik" dövlətlərarası əlaqələr və ya qarşılıqlı asılılıqla formalaşan anlayışdır və məlum "təhlükəsizlik dilemması" ilə xarakterizə olunur [4, s.66], yəni hər bir dövlət öz "suverenliyi" və "müstəqilliyi"ni öz ərazisinin toxunulmazlığı vasitəsilə təmin edir. Amma getdikcə beynəlxalq münasibətlər sisteminə daha geniş inteqrasiya edən ekoloji təhlükəsizlik sistemində "ərazinin toxunulmazlığını" təmin etmək üçün bir çox hallarda, ekoloji təhlükənin mənbəyi, intensivliyi barədə adekvat məlumat əldə etmək olmur, həm də bu səbəbdən onun aradan qaldırılması ayrıca götürülmüş dövlət üçün problematik olur. Məhz bu mənada, Deudney öz məqaləsində qeyd edir ki, ənənəvi təhdid və təhlükə mənbəyi kimi mütəşəkkil cinayət (beynəlxalq hüquq anlamında) belə ekoloji təhlükələrlə analitik cəhətdən müqayisə oluna bilməz [8]. Təsadüfi deyildir ki, Buzan, ekoloji təhlükəsizliyə bütün insan fəaliyyətinin asılı olduğu əsas dəstək sistemi kimi yerli və planetar biosferin qorunması kimi nəzərdən keçirir [9].

Qeyd olunanları nəzərə alaraq, klassik təhlükəsizlik konsepsiyasından ekoloji məsələlərin də daxil edildiyi daha müasir "təhlükəsizlik" anlayışına keçid labüddür və bu keçidin zəruriliyini sübut edən araşdırmalara, nəzəri materiallara misal olaraq Hugh C.Dyer, D. Pirages, R.B.J. Walker və digərləri tərəfindən yazılmış məqalələri [3], [10], [11] misal göstərmək olar.

Digər tərəfdən bölgəsəl və qlobal ekoloji problemlərin dövlətlərarası (məsələn, Pakistan və Əfqanıstanın timsalında – F.H.) münasibətlərin gərginləşməsi və münaqişənin yaranması üçün sövqedici, hərəkətverici rolunu nəzərə alaraq, NATO Müasir Cəmiyyətin Çağırışları Komitəsi (Committee on the Challenges of Modern Society – CCMS) tərəfindən maliyyələşdirilən "Beynəlxalq Kontekstdə Ətraf Mühit və Təhlükəsizlik" ('Environment and Security in an International Context') adlı pilot tədqiqat layihəsi 1995-ci ildə başlanılmış və 1999-cu ildə başa çatdırılmışdır. Bu layihə barədə hesabatın ana xəttini məhz təhlükəsizlik konsepsiyasına ekoloji problemlərin daxil edilməsi məsələsi təşkil etmişdir [24]. Belə ki, dünyada nüfuzlu hərbi-siyasi alyans, beynəlxalq təşkilat kimi NATO tərəfindən maliyyələşdirilmiş bu tədqiqat işinə aid hesabat qeyd olunur ki, NATO uzun müddətdir qeyri-ənənəvi xarakterli (o cümlədən ekoloji) təhlükəsizlik məsələlərinə maraq göstərir və bu məsələlərdən biri ekoloji stressdir. Ekologiya tarixini öyrənən hər kəsə məlum olduğu kimi, bir sıra alimlər ekoloji stressin insan tarixində bir çox hadisələrin hərəkətverici qüvvəsi olduğunu düşünürlər. Sənəddə eyni zamanda həm irimiqyaslı, həm də yerli ekoloji problemlərin təhlükəsizlik məsələləri üçün eyni dərəcədə risk təşkil etdiyi vurğulanmışdır. Bu nəticələr böyük ölçüdə NATO-nun Müasir cəmiyyətin problemləri (CCMS) üzrə Komitəsi tərəfindən 1995-ci ildə başlanılmış "Beynəlxalq kontekstdə Ətraf mühit və təhlükəsizlik" adlı layihə çərçivəsində araşdırmada istifadə edilmişdir. Qeyd olunan araşdırma ABŞ və Almaniyada tanınmış mütəxəssislər tərəfindən həyata keçirilmişdir [14]. Araşdırma qeyd olunan ekoloji mənşəli siyasi qarşıdurma situasiyalarını vaxtında müəyyən edən və potensial münaqişələrin ilkin xəbərdarlıq sistemini təmin edən bir sıra "sindrom"lar adlanan faktorlar çoxluğunu müəyyən etmişdir. Bu çoxluq bir-birləri ilə üzvi, həm də patoloji cəhətdən əlaqəli olan ekoloji, sosial, demoqrafik və siyasi faktorlardan ibarətdir.

Məsələnin digər önəmli tərəfi ondan ibarətdir ki, ətraf mühit, ekoloji təhlükəsizlik məsələlərinə dair risklərin hansı meyarlar əsasında seçilməsi məsələsidir. Qeyd olunan məsələ bəzən ciddi elmi ritorikaya da səbəb olur [3]. Belə ki, məsələn, elmi ədəbiyyatda "məşhur" "su müharibələri" [15], [16], [17] kimi adlandırılan dövlətlərarası qarşıdurmaların obyekti su resursları olmuşdur. Burada nəzəri ritorikaya səbəb olan məqam ondan ibarətdir ki, su resurslarının ətraf mühit elementi olduğu üçün bu tip risklər ekoloji təhlükəsizlik məsələlərinə aid edilməlidirmi, yoxsa burada söhbət yalnız iki dövlət arasında transsərhəd çaylardakı su resurslarının idarəçiliyinin qeyri-effektiv təşkil edilməsi ilə bağlıdır və heç də bunun ekoloji təhlükəsizlik məsələlərinə aidiyyatı yoxdur. Fikrimizcə, transsərhəd su resurslarının idarəçiliyinin qeyri-effektiv idarəçiliyi və ya ədalətsiz bölgüsü məsələləri ilə bağlı olmasından asılı olmayaraq, dövlətlər arasında potensial münaqişə ocağı yaratması potensialı təhlil

edilməli və bunun əsasında qeyd olunan məsələ təhlükəsizlik riski kimi qiymətləndirilməlidir.

Fikrimizcə, bu kimi məsələlərdə siyasi təhlükəsizlik sistemi üçün təhlükə mənbəyi olan məsələnin qlobal ekoloji dəyişmələr, ekoloji deqradasiya, o cümlədən qlobal iqlim dəyişmələri ilə bağlılığı da müəyyən edilməlidir. Məsələn, resurs qismində suyun qıtlığına məhz iqlim dəyişmələri və ya hər hansı digər ekoloji deqradasiya prosesləri səbəb ola bilər və bu mənada onu ekoloji təhlükəsizlik sistemi, hən də yuxarıdakı nümunənin misalında ümumən təhlükəsizlik sistemi üçün də risk hesab etmək olar.

Qeyd olunanlarla əlaqədar, bəhs edilən məsələlər, su qıtlığından əziyyət çəkən qonşu ölkələrin diplomatik münasibətlərində xüsusi əməkdaşlıq formatının qurulmasına təkan verə bilər, habelə beynəlxalq təşkilatlar və digər ölkələr tərəfindən dəstəyin genişlənməsini stimullaşdıra bilər. Məsələn, hazırda transsərhəd su hövzələrinin mühafizəsi və istifadəsi məsələsində çətinliklər Azərbaycan Respublikasının Gürcüstan və Ermənistanla münasibətlərində də mövcuddur və iki qonşu ölkədən respublikamıza daxil olan çayların, yeraltı suların məişət və sənaye tullantıları ilə çirkləndirilməsi, həmin su ehtiyatlarının ildən ilə azalması məsələləri xüsusən iqlim dəyişmələrinin təsiri ilə daha da kəskin hal almışdır. Eyni zamanda, Azərbaycandan fərqli olaraq, Ermənistan və Gürcüstanın qeyd olunan məsələlərin tənzimlənməsi üçün 1992-ci ildə qəbul edilmiş Helsinki Konvensiyasına [26] indiyədək üzv olmaması ölkələrimiz arasında qeyd olunan problemlərin beynəlxalq hüquqi çərçivədə həllini əngəlləyir və bu da yaxın perspektivdə regional ekoloji və xüsusən siyasi təhlükəsizlik sisteminə ciddi risklər formalaşdırmış olur. Halbuki Azərbaycan Respublikası transsərhəd su axınları və beynəlxalq göllərinin mühafizəsi və istifadəsi haqqında Konvensiyanı hələ 2000-ci ildə ratifikasiya etmişdir. Ermənistan və Gürcüstan isə beynəlxalq ictimaiyyətin, ekspertlərin tövsiyələrinə məhəl qoymayaraq, qeyd olunan konvensiyaya qoşulmağa məqsədyönlü surətdə tələsmir və Azərbaycana bu ölkələrdən axan çayların sistematik çirkləndirilməsi və ədalətsiz istifadəsini davam etdirir.

Beləliklə, bu nümunələrin təhlili onu göstərir ki, ekoloji təhlükəsizlik məsələləri getdikcə daha çox regional siyasi təhlükəsizlik problemlərini yeni müstəvidə, bəzən də gözlənilməyən tərzdə aktuallaşdırmış olur və faktiki olaraq, onun tərkib hissəsinə çevrilir.

Belə misalların sayını artırmaq olar, məsələn, transsərhəd hava çirklənməsi (Cenevrə Konvensiyası ilə tənzimlənir, 1979-cu ildə qəbul edilmişdir, Azərbaycan Respublikası 2002-ci ildə ratifikasiya etmişdir), təhlükəli tullantıların transsərhəd hərəkəti və yerləşdirilməsi (Basel Konvensiyası ilə tənzimlənir, 1989-cu ildə qəbul edilmişdir və AR 2001-də ratifikasiya etmişdir) və digər bu qəbildən olan məsələlərdir.

Eyni zamanda, yuxarıda qeyd edildiyi kimi, klassik təhlükəsizlik anlayışından fərqli olaraq, ekoloji təhlükəsizlik konsepsiyasında təhlükə mənbəyi təkcə digər ölkə və ya onların birliyi deyildir, bu bir sıra hallarda ətraf mühitdə baş verən qlobal dəyişmələr, qlobal deqradasiya (məsələn, iqlim dəyişmələri və s.) proseslərdir və bu mənada bu təhlükə zaman və sərhəd tanımır, bəzən bir ölkəni deyil, bir neçə və daha çox ölkələrin ərazisini əhatə edə bilir. Bir qayda olaraq, onunla mübarizə ayrıca götürülmüş dövlətin imkanları xaricindədir. Bir növ beynəlxalq münasibətlər sistemində ekoloji təhlükəsizlik anlayışının "universallığı" meydana gəlir və bu da öz növbəsində ekoloji təhlükələrin təsirlərinin hər bir dövlət, əlaqədar beynəlxalq təşkilatlar tərəfindən nəzərə alınması ehtiyacını formalaşdırmış olur [1], [12].

Ekoloji təhlükəsizlik konsepsiyasının ötən əsrin 90-cı illərinin əvvəllərindən etibarən istər beynəlxalq münasibətlər, istərsə də ölkələrin idarəçilik sisteminə inteqrasiyası səviyyəsi genişləndikcə, bu istiqamətdə beynəlxalq və lokal səviyyədə müxtəlif orqanlar, yeni institusional mexanizmlər meydana gəlmişdir.

Belə ki, müxtəlif ölkələr tərəfindən bu istiqamətdə atılmış addımlar sırasında hələ 1993-cü ildə ABŞ-da Müdafiə Nazirinin Ətraf Mühitin Təhlükəsizliyi üzrə müavini vəzifəsinin təsis edilməsini misal göstərmək olar. Bir qayda olaraq, bu postu tutmuş şəxs aktiv surətdə ekoloji təhlükəsizlik məsələləri ilə məşğul olur, hətta ölkənin əsas siyasi təhlükəsizlik xidmətləri (Mərkəzi Kəşfiyyat Agentliyi, Dövlət Departamenti və s.) ilə birlikdə ətraf mühitlə bağlı yarana biləcək hər hansı risklər, təhlükəsizlik məsələləri ilə ciddi surətdə məşğul olurlar. Göstərilən misal ABŞ və digər inkişaf etmiş dövlətlərdə xeyli müddət əvvəldən ümumi, universal təhlükəsizlik sisteminin ekoloji təhlükəsizlik məsələlərini də ehtiva etdiyini sübut edir. Bu prosesi önümüzdəki illərdə digər ölkələrdə baş verməsi gözləniləndir, belə ki, qlobal təhlükəsizlik sisteminin vacib elementi kimi ekoloji təhlükəsizlik sisteminin effektiv qurulması istər ayrı-ayrı ölkələrin təhlükəsizlik mexanizminin transformasiyası, istərsə də beynəlxalq təşkilat və qurumların yenidən şəkillənməsi hesabına baş verəcəkdir. Qeyd edək ki, bu istiqamətdə cəhd kimi hələ 2007-ci ilin aprel ayında Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurasında (TŞ) qlobal ekoloji təhlükə mənbəyi kimi iqlim dəyişikliyinin təhlükəsizlik məsələləri baxımdan nəticələrinin müzakirə olunmasını göstərmək olar. Lakin həmin dövrdə BMT TŞ-da təmsil olunan dövlətlərin təmsilçiləri ümumən ətraf mühitin pisləşməsinin təhlükəsizlik məsələsi kimi nəzərdən keçirilməsini, təəssüf ki, fikir ayrılığı ilə qarşılaşmışdılar [6].

Halbuki, qlobal ekoloji təhlükəsizlik məsələlərinin, o cümlədən iqlim dəyişmələrinin hərbi-siyasi təhlükəsizlik məsələlərinə bilavasitə və nəzərəçarpan təsirinin olması ATƏT və digər nüfuzlu beynəlxalq siyasi təhlükəsizlik

institutlarının gündəliyinə xeyli müddət əvvəl daxil edilmişdir və bu istiqamətdə konkret layihələr icra olunmaqdadır. Belə ki, məsələn, iqlim dəyişmələrinin milli və qlobal təhlükəsizlik təhlükəsizlik mənbəyi kimi təsirinin artması ilə bağlı ATƏT tərəfindən "Ətraf mühit və təhlükəsizlik" (ENVSEC) adlı təşəbbüs [27] qurumun İqtisadi və Ekoloji Forumunda müzakirələrə çıxarılmış və 2003-cü ilin may ayında Kiyev şəhərində keçirilmiş "Avropa üçün ətraf mühit" mövzulu Nazirlər Konfransında və Praqada keçirilmiş ATƏT-in On Birinci İqtisadi və Ekoloji Forumunda eyni vaxtda bəyan edilərək onun implementasiyasına başlanılmışdır. ATƏT tərəfindən irəli sürülmüş və maliyyəşdirilməsinə başlanılmış bu layihəyə daha sonra Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) və Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) və BMT Avropa üzrə İqtisadi Komissiyası (UNECE) da qoşulmuşlar. Layihənin əsas məqsədi dörd bölgə - Şərqi Avropa, Cənub-Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya bölgələri arasında və bölgədaxili ölkələr arasında ekoloji əməkdaşlığı təşviq etməklə təhlükəsizlik baxımdan ekoloji risklərlə və təhlükəsizlik risklərinə qarşı mübarizə aparılmasında ibarətdir. Belə ki, ölkəmizin və ümumən Cənubi Qafqaz regionunun da əhatə edildiyi "Ətraf mühit və təhlükəsizlik" (ENVSEC) təşəbbüsünü ərsəyə gətirən əsas mülahizə iqlim dəyişmələrinin hazırda regional hərbi-siyasi təhlükəsizlik sisteminə müxtəlif yollarla neqativ təsir etməsindən ibarətdir. Belə ki, iqlim dəyişmələrinin artan təsiri ilə su və digər təbii resurslara çıxış üçün dövlətlər arasında rəqabətin güclənməsi müvafiq mübahisələrin həlli üçün səmərəli mexanizmlər yaradılmadığı təqdirdə, ciddi münaqişə mərhələsinə keçə bilər və ya regionda artıq mövcud münaqişələri daha da gücləndirə bilər. Bundan əlavə, iqlim dəyişmələrinin səbəb olduğu ekstremal hava hadisələrinin və təbii fəlakətlərin intensivliyinin və miqyasının getdikcə artması region ölkələrində siyasi qeyri-sabitliyi daha da artıra bilər və əhalinin yaşayış səviyyəsinə ciddi neqativ təsir edə bilər ki, bu da öz növbəsində əhalini kütləvi surətdə miqrasiyaya məcbur edə bilər və ya onları qeyri-formal iqtisadiyyata keçməyə, qanunsuz gəlir mənbələrinə üstünlük verməyə sövq edə bilər. Eyni zamanda, iqlim dəyişmələri nəticəsində kənd təsərrüfatı və digər sektorlarda məhsuldarlığın azalması region ölkələrində ərzaq istehsalı və təminatı zəncirinin pozulmasına, nəticədə ərzaq qiymətlərinin ciddi surətdə artmasına səbəb ola bilər ki, bu da regionda sosial gərginlik, qeyri-sabitlik, şiddətli etirazlar və iğtişaşlara gətirib çıxara bilər. Bununla yanaşı, region ölkələrində, orta temperaturun getdikcə artması və illik yağıntıların qeyri-bərabərliyi və azalması su elektrik stansiyalarında, mümkün yaşıl hidrogen istehsalı müəssisələrində enerji istehsalının azalmasına, enerji təchizatına tədricən neqativ təsir edə bilər. Həmçinin, ekstremal hava hadisələri nəticəsində enerji istehsalı və ötürmə infrastrukturuna vurula bilən zərər və itkilər enerji tədarükü

zənciri və ümumən enerji təhlükəsizliyi sisteminə ciddi təhlükə formalaşdıra bilər. Konkret olaraq, iqlim dəyişmələrinin neqativ təsirlərinin güclənməsi Azərbaycanda yaşıl enerjiyə keçid, dekarbonizasiya və yaşıl enerjinin Avropa İttifaqında ixracı məsələlərində problemlər yarada bilər, qeyd olunan ixracla bağlı müvafiq sazişlərin icrası ilə bağlı problemlər tərəfdaş ölkələrlə və digər dövlətlərlə ikitərəfli və çoxtərəfli anlamda neqativ təsir edə bilər. Bundan əlavə, bütün ölkələrdə orta illik temperaturun davamlı artması və quraqlıq zonalarının genişlənməsi fonunda əhalinin artması və iqtisadi fəaliyyətin tədricən genişlənməsi ölkələrdə suya tələbatın artmasına və su ehtiyatlarının idarə edilməsi üzrə mövcud mexanizmlərə etimadın azalması, habelə transsərhəd su hövzələrindən istifadə ilə bağlı qonşu dövlətlərlə siyasi münasibətlərin gərginləşməsinə səbəb ola bilər.

Qeyd olunan aspektlər üzrə Cənubi Qafqaz ölkələri arasında su, kənd təsərrüfatı və enerji məsələləri üzrə münasibətlər xüsusilə həssas xarakter daşıyır. Bu, ələlxüsus su ehtiyatlarının müxtəlif sektorlar üzrə milli səviyyədə istifadəsi və transsərhəd çayların axımından yuxarıda və aşağıda yerləşən ölkələr arasında su ehtiyatlarının koordinasiyalı istifadəsi məsələləri ilə əlaqədardır. Məhz su məsələsi, geniş anlamda regional təhlükəsizlik məsələsinə risk formalaşdıran məqam kimi hazırda regionun hər üç qonşu ölkəsi arasında su ehtiyatlarının əlaqəli istifadəsi və mühafizəsi haqqında ikitərəfli və üçtərəfli formatlarda beynəlxalq müqavilələrin imzalanması məsələsini aktuallaşdır-mışdır. Məsələn, Azərbaycan ilə Gürcüstan arasında Kür çayı üzrə ikitərəfli sazişin hazırlanması istiqamətində fəaliyyət hazırda davam etdirilir. Lakin Ermənistan ilə bu istiqamətdə hər hansı müqavilənin imzalanması yalnız Azərbaycan Respublikasının bu ölkə ilə müvafiq sülh sazişinin imzalanmasından sonra mümkündür ki, bu da bir daha AR Prezidenti İlham Əliyev tərəfindən Münhen Təhlükəsizlik Konfransında qeyd olunan sülh sazişinin imzalanmasının vacibliyi barədə bildirilən fikirlərin əhəmiyyətini artırmış olur. Belə ki, Prezident İlham Əliyev həmin konfransda bu xüsusda açıq mesaj verərək bildirmişdir: “Hesab edirəm ki, Azərbaycan və Ermənistan uzun müddət çəkmiş toqquşmadan uzaqlaşmanı nümayiş etdirməli, qarşılıqlı ədavət və düşmənçiliyə son qoymalıdırlar. Hazırda biz Ermənistan ilə Azərbaycan arasında sülh sazişi üzərində çalışırıq. Ümid edirik ki, biz bu işi gec yox, tezliklə tamamlayacağıq. Düşünürəm ki, bu, ciddi tarixi fikir ayrılığına malik olan ölkələrin bir araya gəlməsi və düşmənçilik səhifəsinin bağlanmasında yaxşı nümunə ola bilər...” [29].

Bundan əlavə, Cənubi Qafqaz regionunda iqlim dəyişmələrinin getdikcə ağırlaşacaq fəsadları kimi intensivləşən torpaq sürüşmələri, daşqınları və digər hallar ayrı-ayrı ölkələrin və ümumən bölgənin infrastrukturuna, əhalinin sosial-iqtisadi vəziyyətinə, mövcud geniş dağ ekosistemlərinin və sahilboyu

zonalarının dayanıqlı inkişafına neqativ təsirlər göstərəcəkdir. Beləliklə, ekoloji təhlükəsizlik məsələlərinin beynəlxalq münasibətlər sisteminin önəmli institutu olan beynəlxalq əməkdaşlıq üzrə yeni effektiv institusional mexanizmlərin formalaşmasını da zəruri edir.

Qeyd edək ki, hazırda ekoloji məsələlər üzrə effektiv beynəlxalq əməkdaşlığın qurulması üzrə uğursuzluqların, bu sahədə olan ləngimə və maneələrin əksəriyyəti dövlətlərin bir çox hallarda qlobal xarakter kəsb edən ekoloji təhlükəsizlik məsələlərinə deyil, təəssüf ki, guya "öz milli maraqlarına" cavab verən məsələlərə üstünlük verməsi ilə bağlıdır. Buna misal olaraq, qlobal iqlim dəyişmələri ilə mübarizə sahəsində hazırda müxtəlif ölkələrin beynəlxalq əməkdaşlığa, Paris Sazişi, Kioto Protokolu üzrə öhdəliklərin yerinə yetirilməsinə tam gücü və potensialı ilə səy göstərməməsi, öz "milli maraqlarına", geosiyasi prioritetlərinə üstünlük verməsini (məsələn, Çin, Rusiya və s.) misal göstərmək olar. Lakin nəzərə almaq lazımdır ki, məhz qlobal istiləşmə ilə əlaqədar, hər il müxtəlif bölgələrdə, o cümlədən "milli maraqlarına" üstünlük verən ölkələrdə milyardlarla dollar itki və ziyan baş verir. Belə ki, Ümumdünya Meteoroloji Təşkilatının 2022-ci ildə qlobal iqlimin vəziyyəti ilə bağlı müvəqqəti məruzəsinə əsasən, ekstremal istilik dalğaları, quraqlıq və dağıdıcı daşqınlar milyonlarla insana təsir etmiş və milyardlarla ABŞ dollarına başa gəlmişdir. Məsələ ilə bağlı, "Nature Climate Change" jurnalında 2021-ci ildə aparılmış araşdırmaya əsasən, hazırda dünya əhalisinin təxminən 85%-i insan fəaliyyətindən irəli gələn iqlim dəyişikliyindən faktiki əziyyət çəkməkdədir. Bundan əlavə, fırtınaların kəskinləşməsindən artan meşə yanğınlarına qədər təhlükəli hava şəraiti insan sağlamlığına ciddi təhlükə yaradır. Milli Okean və Atmosfer Tədqiqatları Idarəsinin Milli Ekoloji Informasiya Mərkəzinin məlumatına görə, yalnız 2021-ci ildə ABŞ-da 18 iqlim fəlakəti baş vermişdir [28].

Beləliklə, dövlətlərin öz "milli maraqları" ilə əsaslandırdıqları bu eqoistik, nihilistik münasibət qlobal ekoloji təhlükəsizlik sisteminin effektiv qurulması prosesini ləngidir və kollektiv səyləri qeyri-effektiv edir. Təəssüflər olsun ki, dövlətlərin əksəriyyəti bəzən geosiyasi proseslər, regional qarşıdurmalar, beynəlxalq münaqişələr, daxili siyasi konyunktura və digər məqamların təsiri ilə qlobal ekoloji təhlükəsizlik sisteminə töhfə vermək əvəzinə, öz siyasi ambisiyalarının girovuna çevrilirlər. Son nəticədə bu dövlətlər ayrı-ayrılıqda ekoloji problemlərlə mübarizə aparmağa nəinki aciz olurlar, üstəlik bəhs edilən qlobal ekoloji təhlükə və risklər fonunda yeni regional və siyasi qarşıdurma mənbələrinin yaranmasına və ya daha da dərinləşməsinə səbəb olurlar. Məsələn, hazırda qlobal iqlim dəyişmələrinə qarşı beynəlxalq əməkdaşlıq formatında ciddi addımlar atılmasa yaxın perspektivsə hər bir ölkədə qida təhlükəsizliyi, sağlamlıq sistemi, insan haqlarının təmini və ümumilikdə dayanıqlı inkişaf

məqsədlərinin impementasiyası məsələlərinə ciddi maneələr törədəcək və yuxarıda qeyd edildiyi kimi, ayrı-ayrı qlobal və regional münaqişə ocaqlarını alovlanması ehtimalını artıracaqdır. Bu da geosiyasi qarşıdurmalar, münaqişələrlə birlikdə qlobal miqyasda siyasi təhlükəsizlik sisteminə ciddi risk formalaşdıracaqdır.

Bununla əlaqədar, qlobal iqlim dəyişmələrinin ekoloji təhlükəsizlik kontekstində yaratdığı risklər, beynəlxalq münasibətlər formatında bu qlobal fenomenlə mübarizə istiqamətində digər ölkələrlə yanaşı Azərbaycan Respublikasında da ötən dövrdə həyata keçirilmiş ekoloji diplomatiya fəaliyyəti, ekoloji siyasət böyük əhəmiyyət daşıyır. Qeyd olunan məsələlər, habelə iqlim dəyişmələrinin təsirlərinin azaldılması üzrə dekarbonizasiya və iqlim dayanıqlığının təmin edilməsi üzrə tədbirlər müəllifin müvafiq monoqrafiyasında geniş tədqiq edilmişdir [20]. Bundan əlavə, müəllifin digər əsərlərində [21], [22] qlobal energetik və ekoloji təhlükəsizlik məsələlərinin təmin edilməsi üzrə beynəlxalq əməkdaşlıq institutlarının, beynəlxalq təşkilatların fəaliyyəti geosiyasi kontekstdə araşdırılmış, bu əməkdaşlıq formatlarının rolu və siyasi əhəmiyyəti tədqiq edilmiş, ekoloji təhlükəsizlik məsələlərinin təmini ilə bağlı yaranmış müasir çağırışlar, bu çağırışların həlli üzrə effektiv beynəlxalq təcrübə və mexanizmlər araşdırılmışdır.

Qeyd olunan qlobal çağırışlar fonunda, hazırda ənənəvi hərbi-siyasi təhlükəsizlik məsələləri ilə yanaşı, ekoloji təhlükəsizlik məsələləri, müvafiq institutlar, bu istiqamətdə əməkdaşlıq əlaqələrinin genişlənməsi, yəni ümumən ekoloji diplomatiyanın əhəmiyyətinin getdikcə artması müşahidə olunmaqdadır. Bununla bağlı, istər qlobal, istərsə də regional siyasi aktyorların ekoloji təhlükəsizlik məsələlərinə və müvafiq risk və təhlükələrə xüsusi önəm verməsinə və doktrinal anlamda bu risklərin gələcək inkişaf dinamikasının modelləşdirilməsinə, o cümlədən ekoloji və siyasi təhlükəsizlik məsələlərinin hazırki və gələcəkdəki korrelyasiyanın ciddi təhlilinə ehtiyac vardır. Belə ki, hazırki məqalədə də bəhs edildiyi kimi, ekoloji təhlükəsizlik məsələlərinin gələcəkdə geosiyasi problemlərdə müəyyənedici və ya ən azından mərkəzi yer oynayacağının, klassik təhlükəsizlik formatını dəyişdiyi kimi beynəlxalq münasibətlər sistemini də xeyli transformasiyaya uğradacağının konturları artıq indidən görünməkdədir.

**Ədəbiyyat:**


1. Dyer HC. 2001. Environmental security and international relations: the case for enclosure. Review of International Studies. 27(3), pp. 441-450.
2. Buzan, Barry (1991) P eople, states, and fear: an agenda for international security studies in the post-Cold War era (New York: Harvester Wheatsheaf), p.19-20.
3. Waever, Ole (1995) 'Securitization and desecuritization' in Ronnie Lipschutz (ed) On security (New York: Columbia University Press), p. 46–86.
4. F. Dell'Anna, Energy Policy, 149, 112031 (2021)
5. R. Kumar, Strategic Analysis, 44(5), 479-489 (2020)
6. Maria Julia Trombetta (2008) Environmental security and climate change: analysing the discourse, Cambridge Review of International Affairs, 21:4, 585-602, DOI: 10.1080/09557570802452920
7. Lacy, Mark (2005) Security and climate change: international relations and the limits of realism (London: Routledge)
8. D. Deudney, 'Environmental Security: Muddled Thinking', Bulletin of The Atomic Scientists, 47: 3 (April 1991), pp. 22–8.
9. Buzan, Barry (1991) People, states, and fear: an agenda for international security studies in the post-Cold War era (New York: Harvester Wheatsheaf), p.19-20.
10. D. Pirages, 'Environmental Security and Social Evolution', International Studies Notes, 16:1 (1991), p. 8.
11. R.B.J. Walker, 'Security, Sovereignty and the Challenge of World Politics', Alternatives, 15:1 (1990), p. 8
12. H. Dyer, 'Environmental Security as a Universal Value: Implications for International Theory', in J. Vogler and M. Imber (eds.), The Environment and International Relations (London: Routledge, 1996)
13. H. Dyer, 'International Theory and Environmental Security: Values, Interests and Agency', Environment and Security, 1:3 (1998), pp. 133–53.
14. Lietzmann and Vest 1999.
15. Bulloch and A. Darwish, Water Wars: Coming Conflict in the Middle East (London: Victor Gollancz, 1993).
16. P. Gleick, 'Water and Conflict: Fresh Water Resources and International Security', International Security, 18:1 (1993).
17. M. Lowi, 'Transboundary Resource Disputes and Their Resolution', in D. Deudney and R. Matthew (eds.), Contested Ground: Security and Conflict in the New Environmental Politics (New York, NY: SUNY Press, 1998).

18. Humbatov F. Environmental and regional security issues in the South Caucasus // “İnsan və biosfer” (MaB, UNESCO) Azərbaycan milli komitəsinin əsərləri. – Bakı: Təhsil, – 2021. – 352 s., – s.197-214.
19. Humbatov F. Environmental crimes of Armenia against the Republic of Azerbaijan, South Caucasia in the context of social, economic and political progress in the post-cold war era, Turkey, Iksad Publications. – 2021. – p.354. – chapter VII. – pp. 231-264.
20. Humbatov F. Low emission development outlook and its role in the environmental security system of the Republic of Azerbaijan. – Baku: “Tuna” PPC LLC. – 256 p.
21. Hümbətov F. Beynəlxalq münasibətlər kontekstində ekoloji təhlükəsizlik sisteminə real təhdid kimi qlobal iqlim dəyişmələri ilə mübarizə məsələləri // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. – 2021. – №3(75). – səh.159-176
22. Hümbətov F. Müasir beynəlxalq münasibətlərdə enerji diplomatiyası. Bakı, – 2018. – 356 s.
23. Кукушкина А.В. Международно-правовые аспекты экологической безопасности // Московский журнал международного права. – 1993. –№2. – с. 59.
24. https://apps.ipcc.ch/comments/ar6syr/fgd/chapters.php
25. the NATO/CCMS web site at http://www.nato.int/ccms/pilot.htm
26. https://treaties.un.org/doc/treaties/1992/03/19920317%2005-46%20am/ch_xxvii_05p.pdf
27. https://www.osce.org/oceea/446245
28. http://www.publichealthnewswire.org/?p=climate-update-2021
29. https://president.az/az/articles/view/58996

## ABSTRACT

## ENVIRONMENTAL SECURITY AND MODERN CHALLENGES IN THE CONTEXT OF INTERNATIONAL RELATIONS

**Humbatov F.D.**

*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*
*Department of Planning and Administration of Sustainable Development*
*Ph.D., Associate Professor*
*Postdoctoral researcher in the political science program*
*at Baku State University*

The paper studies such important issues as the formation of environmental security institutions and mechanisms influencing political processes in the context of international relations, the role of international cooperation in ensuring global environmental security, actual challenges in this area, as well as the correlation of political security and environmental security risks.

***Keywords:*** *security, environmental security, international relations, sustainable development, climate change*

## РЕЗЮМЕ

# ЭКОЛОГИЧЕСКАЯ БЕЗОПАСНОСТЬ И СОВРЕМЕННЫЕ ВЫЗОВЫ В КОНТЕКСТЕ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ

**Гумбатов Ф.Д.**

*Доцент кафедры Планирование и управление устойчивым развитием Академии Государственного Управления при Президенте Азербайджанской Республики, к.ф.-м.н., докторант программы доктора политических наук Бакинского Государственного Университета*

В статье исследованы такие важные вопросы, как формирование институтов экологической безопасности и механизмы влияния на политические процессы в контексте международных отношений, роль международного сотрудничества в обеспечении глобальной экологической безопасности, современные вызовы в этой области, а также корреляция рисков политической безопасности и экологической безопасности.

***Ключевые слова:*** *безопасность, экологическая безопасность, международные отношения, устойчивое развитие, изменения климата*

DOI: 10.30546/mab.17.2022.139

UOT 351

# INNOVATIVE APPROACHES FOR EFFECTIVE MANAGEMENT OF SUSTAINABLE GREEN DEVELOPMENT

**Asadov A.A.**

*Expert on green economy and technologies,*
*Ph.D. in Biophysics*
*e-mail: asafasadov@gmail.com*

**Asadova I.F.**

*The Academy of Public Administration under the*
*President of the Republic of Azerbaijan,*
*Instructor, Department of languages*
*e-mail: irada.asadova@dia.teams.edu.az*

*In the 21st century, it is very important to efficiently use and manage renewable energy and bio-resources, ensure a sustainable flow of public and private investment, and evaluate the efficiency of sustainable development along with social and environmental criteria instead of profitability indicators alone. Guided by the "green energy policy" of President Ilham Aliyev, the creation of production and processing enterprises based on innovative solar energy technologies will provide an impetus for the creation of new jobs in the regions of Azerbaijan, a stable increase in income, and the decrease of the flow of residents of the regions to the cities. At the same time, opportunities will be created to supply city residents and tourist facilities located in the regions with healthy food products. In the article, the main focus will be paid to the role and applications of solar energy for the different sectors of the green economy and the potential role and mechanisms of green clusters for implementation and efficient management of the green sustainable development of cities and rural areas of Azerbaijan.*

***Keywords:*** *effective management of sustainable green development, innovations, green clusters*

## Introduction

Sustainable Development was defined as “the development that meets the needs of the present without compromising the ability of future generations to meet their own needs” [1, p.24]. Securing sustainable development through

effective planning and management will remain a central priority of the development agenda [2, p.132]. The important concept of ecological civilization ("Ecocivil") as a goal of Sustainable Development was developed by U.Alakbarov [3, p.97].

In our article, we use the term “sustainable green development” to underline the role and importance of a green economy and green innovations in the management and implementation of sustainable development in practice [4, p.7; 5, p.10]. The development of the green economy is related to the usage of renewable sources of energy and raw materials, non-waste technologies, and the minimization of losses of valuable natural resources (fertile lands, water resources, forests, and agricultural harvests as sources of food supply) and CO2 emission. The shift to the green economy is complicated by the turbulence of modern society and economy, and the great dependence of the economy on fossil fuels and chemical means for food production; especially this dependence is strengthened with the war of Russia in Ukraine.

The global role of the green economy in sustainable development is evident from the ecological point of view to prevent dramatic climate changes. All human and business activities in the long-term perspective should be shifted to use renewable energy-based technologies and especially solar energy. But at the same time the shift to a green economy should be based on innovations in all spheres of human and business activity, this shift should be founded on economic, educational, and social perspectives too. In Azerbaijan, there are both good potential and a clear understanding of the role of green energetics in ensuring energy security. The capacity of solar and wind energy in the territory of Azerbaijan is estimated at more than 27 gigawatts. There are plans to develop solar and wind power stations in Azerbaijan to ensure energy security in Azerbaijan and export green energy from Azerbaijan to Eastern Europe countries.

President Ilham Aliyev pays special attention to the development of the green energetics potential of Azerbaijan. It is proposed to produce 3 gigawatts of wind energy and 1 gigawatt of solar energy by 2027, and 80% of this energy will be exported [6: https://president.az/en/aricles/view/58807].

In the article, we propose novel concepts and ideas on how to achieve ecological, social, and economic feasibility objectives of sustainable green development in Azerbaijan and other countries, how to use the full potential of solar energy-based technologies in the different sectors of the economy, and we describe the role and working principles of green clusters and efficient management for sustainable green development of cities and regions.

## Effective management and innovations to support sustainable green development

All novel management models in green economy-based sustainable development (SGD) should be feasible and attractive for the government, businesses, and citizens. To achieve these goals, management models of SGD should be backed by an effective long-term policy with intersectoral multi-facet objectives, energy-efficient and cost-effective technologies, opportunities for poverty reduction, creation of new jobs, ensuring food security, and healthy food supply to the growing population of the planet. One of the very important goals of SGD is to decrease rural-to-urban migration and build opportunities for the improvement of economical, social, and ecological activity in rural areas for citizens and businesses. Shift to sustainable green development (SGD) in Azerbaijan and other countries requires the development and implementation of innovative green technologies for the different sectors, including the construction of green buildings and hotels, organic agricultural farms, and healthy food-producing enterprises, where solar energy potential could be used to the full extent. For achieving these purposes, first of all, the cost of production and supply of solar-powered electrical and thermal energy should be compatible with or less than the cost of electric and gas energy. For this purpose, it is important to partially subsidize the cost of solar energy used by "green enterprises" by implementing "green taxes" for enterprises that exceed the limits of carbon dioxide emissions into the atmosphere. Such kinds of "green taxes" could be accumulated in the special "green fund" and used for funding green innovations and encouraging enterprises to implement innovative cost-effective and energy-efficient green technologies.

The key principle of sustainable development management is the integration of environmental, social, educational, and economic concerns into all aspects of management, especially planning and decision-making processes. Institutionally, government organizations are typically organized into sectoral ministries and departments, urban and regional authorities which are focused on sectoral and local territorial tasks execution. In practice, achieving the goals of SGD requires the integration of economic, social, technological, and ecological objectives across sectors, territories, and collaborative efforts of all governmental and private structures. Therefore, effective management of SGD requires the elimination of existing fragmentation between government and regional organizations and encouraging the collaborative efforts ("complementarity") of all actors in the management and implementation of green innovations for sustainable green development of cities, periurban, and villages of the country. The main actors

in SGD are indicated in Scheme 1. These actors should be complementary in collaborative efforts in the management of SGD with the following roles:

1) State bodies (Sectoral Ministries and Agencies) that are responsible for planning, decision-making, execution, and performance measurement of efficiency of management and implementation of the policy of SGD. The state bodies should also elaborate action plans to ensure financial mechanisms and tax incentives, subsidies for the shifting to greener technologies, processes in the different sectors of the economy, and supply of renewable energy sources. The state bodies should impose penalties and “green taxes” for enterprises, especially for large companies, exceeding established limits of CO2 emission into the atmosphere, and redirect funds from paid fines and green taxes to special green fund.

2) Urban/Regional authorities that are responsible for the administration of measures of state policy and planning in SGD, monitoring, and reporting, coordination of collaborative efforts of local business and civic communities in achieving short-term goals of SGD.

3) Responsible Large Companies that are seeking to meet Environmental, Social, and Governance (ESG) criteria. The role of these large companies as key economic actors in shifting to SGD management is very important and at the same time, these companies are more resistant and require more time and capital for shifting to greener technologies and processes in comparison with SMEs.

4) Green Funds and Banks will play a key role in providing green investments and soft credit lines for green SMEs, green ventures (startups), and grants for green education and training programs

5) Regional SMEs and farmer cooperatives play a key role in regional SGD and they need financial, technological, and educational support in shifting to greener technologies and processes. In this regard, it is important to build green regional clusters, especially for the production and supply of healthy food products to cities and for providing green services by village bio hotels which will provide eco-tourism services and healthy food at reasonable prices to the population. These clusters will be stable buyers of organic food (meat, milk, vegetables, and fruits) produced by local farmer cooperatives and served as the basis of economic, social, and ecological sustainability in regions. As result, these clusters will decrease rural-to-city migration, and stimulate the growth of jobs and income, growth of the economy, and productive forces in regions.




**Scheme 1.** The main actors in Sustainable Green Development (SGD)

6) Universities, Green Training Centers, and NGOs are responsible for the education and training of students, entrepreneurs, and local authorities in the technologies and management of SGD. At the same time extension of awareness of the population about the goals of SGD by mass media is important for the commitments of the most economically and socially active eco-friendly active part of the population and effective management of SGD.
7) Green Ventures (Startups) will play a key role in developing, training, and implementing innovative green technologies in SMEs. Most successful ventures should be supported by grants from Green Funds and Banks and investments from outbox-thinking eco-responsible business angels and companies. For achieving this goal, the best way is the establishment of a Green Ventures Center, where multi-disciplinary teams of specialists and students will develop and test prototypes for the commercialization of disruptive green innovative technologies for regional and global applications.

The main goals for effective management of SGD are ensuring effective integration of the main actors, elimination of fragmentation, and achieving domination of common values over the sectoral, administrative, and territorial limitations. For these purposes, criteria for SGD should be included as top performance indicators in all plans of action for state bodies, and urban and regional authorities and as eligibility criteria for selection and funding of

**Table 1.** Green Innovations required in the different sectors for SGD

| № | Sectors of economy | Innovations |
|---|---|---|
| 1 | **Energetics** | 1. Building and extension of the Low-Carbon Hybrid Electrical Power Supply Systems, based on the integration of solar power stations, on-shore and off-shore wind energy farms with the conventional electric grid<br>2. AI-managed Microgrid control systems for renewable and conventional grid energy storage and delivery at an intermittence of solar/wind energy |
| 2 | **Food production** (by regional SMEs) | 1. Establishment and extension of Green Regional Clusters for healthy food production<br>2. Building and extension of Solar-powered Mini Plants for drying vegetables and fruits and processing them into natural functional food ingredients and healthy food products |
| 3 | **Food Service** (by urban and regional SMEs) | 1. Establishment and extension of a chain of Healthy Food Cafe/Restaurants in cities and rural areas and resorts<br>2. Establishment and extension of a chain of Rural Bio Hotels, which will operate within Green Regional Clusters<br>3. Periurban Factories-Kitchens for healthy food production and delivery to the city's Healthy Food Mini Markets |
| 4 | **Industry/ Construction** | 1. Low-carbon Enterprises with hybrid energy-powered equipment<br>2. Green Buildings (Residential and Business) based on eco-friendly materials, renewable energy, water saving and recirculation, solar-powered rooftop equipment and facilities for healthy food self-production and supply to habitants |
| 5 | **Logistics and Transport** | 1. Increase in production of hybrid and electrical energy-driven cars and trucks<br>2. Extension of solar-powered stations for charging electrical cars |
| 6 | **Agriculture** | 1. Building and extension of solar-powered aeroponic bio greenhouses for saving water resources and production of organic vegetables, fruits, culinary and medical herbs<br>2. Production of solar-powered smart drop irrigation and ventilation equipment<br>3. Building solar-powered ponds for algae biomass production as a valuable source of food nutrients (protein, vitamins, micro and macro elements) |
| 7 | **Healthcare** | Establishment and extension of the Centers for Early Diagnostics and Preventive Medicine with remote AI-managed control of patients and personalized nutrition based on healthy and functional food production in green food clusters |

projects of private and state organizations, green ventures (startups), and universities. It is very important to underline the top priority of support and promotion of green innovations required for the different sectors of the economy. In Table 1, the innovations required for basic sectors which are the most important for SGD are briefly described. As it is shown in Table 1 renewable energy and food supply play key roles in SGD. From point of energy security shifting to green energetics will require time and a combination of the use of renewable energy sources (solar and wind energy) with existing electric energy generation practices but fossil fuels-driven electricity generation and use should be decreased without any disputes. At the same time, solar energy should be used not only for electric energy generation.

Solar energy should be used also for the generation of thermal energy in industry, building construction, agriculture, and food production. In this light, it is necessary to pay special attention to using innovative solar technologies for the preservation of agricultural harvests from losses and using the saved part of these harvests, especially vegetables, and fruits, for solar-powered food drying and processing to healthy food. The solar-powered food drying and processing technologies being implemented over the world could minimize huge post-harvest losses of vegetables and fruits, especially in developing countries which are as estimated as 40% (FAO). It will allow to produce and supply more healthy food to the growing population of the planet and ensure the creation of a lot of green jobs in rural areas of developing countries. To achieve the main goals of sustainable development in developing countries such as food security, poverty reduction, improved nutrition, and sustainable agriculture [7, p.11] it is necessary to ensure industrial manufacturing of solar-powered food drying and processing mini plants on a global scale.




**Scheme 2.** The network of Healthy Food (HF) Green Clusters

These mini plants will serve as basic solar-powered innovative SMEs for ensuring high economic, social, and ecological sustainability in the rural areas of developing countries. To achieve these SGD goals, the mini plants should be integrated with farmer cooperatives, agricultural SMEs, and green bio hotels within green clusters. The innovative business model of green clusters for regional SGD should be implemented and extended over the world. These regional clusters integrate activities of local farmers with local SMEs by technologies for the prevention of losses of their harvest and allow them to produce in these mini plants natural food ingredients and bio-enforced (functional) healthy food products for export to developed countries. The regional green clusters will play a key role in ensuring food security and healthy food supply to cities and will allow the building of a network of interconnected green clusters functioning in regions, periurban, and cities as it is shown in Scheme 2.

**Conclusions**

1. In the 21st century, it is very important to effectively use and manage renewable energy and bioresources, ensure a steady flow of public and private investments in the development of green innovations, and evaluate the effectiveness of sustainable development not only in terms of economic profitability but also in terms of social and environmental criteria.
2. The main goals for effective management of SGD are ensuring effective integration of the main actors, elimination of fragmentation, and achieving domination of common values over the sectoral, administrative, and territorial limitations.
3. It is very important to support and promote as top priority green innovations required for the different sectors of the economy, especially technologies based on effective use of the full potential of solar energy.
4. Economic, social, and ecological objectives of SGD in the creation of new jobs, an increase of incomes and business activity in regions, and protection of the health of humans and the environment could be achieved by effective planning and management, building a novel network of interconnected solar energy-powered enterprises of healthy food clusters in city, periurban, and regions.

**References:**

1. Report of the World Commission on Environment and Development: note by the Secretary-General. 1987, p.1-374

2. U. Alakbarov. Effective Management of Resources to Support Sustainable Development and Move towards Ecological Civilization: Experience of the Republic of Azerbaijan // Journal of Human Resource and Sustainability Studies. – 2014. – №2. – p.131-135
3. U. Alakbarov, J. Lawrence. Towards Ecological Civilization: Ideas from Azerbaijan // Journal of Human Resource and Sustainability Studies. – 2015. – №3. – p.93-100.
4. issuu.com/oecd.publishing/docs/oecd-work-on-green growth-brochure-2023 // OECD work on Green Growth. – 2023. – January. – p.1-92
5. oecd.org/dac/environment-development/50559116.pdf.// ”Green Growth and Developing Countries”. – 2012. – p.1-145
6. https://president.az/en/aricles/view/58807
7. https://unstats.un.org/sdgs-Report-2022.pdf. United Nations // The Sustainable Development Goals Report, 2022, p.1-68

## XÜLASƏ

## DAVAMLI YAŞIL İNKİŞAFIN EFFEKTİV İDARƏ OLUNLMASI ÜÇÜN İNNOVATİV YANAŞMALAR

**Əsədov A.Ə.**
*b.e.n. (biofizika),*
*yaşıl iqtisadiyyat və texnolgiyalar üzrə ekspert*

**Əsədova İ.F.**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*“Dillər” kafedrasınn müəllimi*

Prezident İlham Əliyevin “yaşıl energetika siyasəti”ni rəhbər tutaraq, günəş enerjisinə əsaslanan innovativ texnologiyalardan istifadə etməklə istehsal və emal müəssisələrinin yaradılması Azərbaycanın regionlarında yeni iş yerlərinin açılmasına, əhalinin gəlirlərinin sabit artımına təkan verəcək, rayon sakinlərinin şəhərlərə axını azaldacaq. Eyni zamanda, şəhər sakinlərinin və regionlarda yerləşən turizm obyektlərinin sağlam qida məhsulları ilə təmin edilməsinə imkanlar yaradılacaq. Məqalədə davamlı yaşıl inkişafda əsas aktorların rolu, yaşıl iqtisadiyyatın müxtəlif sektorlarının inkişafı üçün tələb olunan innovasiyalar, eləcə də şəhər və regionların davamlı yaşıl inkişafının səmərəli idarə olunması üçün innovativ yaşıl klasterlərin potensial rolu və mexanizmləri müzakirə olunacaq.

***Açar sözlər:*** *davamlı yaşıl inkişafın idarə edilməsi, innovasiyalar, yaşıl klasterlər*

# РЕЗЮМЕ

## ИННОВАЦИОННЫЕ ПОДХОДЫ ДЛЯ ЭФФЕКТИВНОГО УПРАВЛЕНИЯ УСТОЙЧИВЫМ ЗЕЛЕНЫМ РАЗВИТИЕМ

**Асадов А.А.**
*доктор философии по биологическим наукам (биофизика), эксперт в области зеленой экономики и технологий*
**Асадова И.Ф.**
*Преподаватель кафедры Языков Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

Руководствуясь «политикой зеленой энергетики» Президента Ильхама Алиева, создание производственных и перерабатывающих предприятий с использованием инновационных технологий на базе развития солнечной энергетики придаст импульс созданию новых рабочих мест в регионах Азербайджана, стабильному росту доходов, уменьшению оттока жителей регионов в города. В тоже время будут созданы возможности для обеспечения жителей городов и расположенных в регионах туристических объектов продуктами здорового питания. В статье основное внимание уделяется роли основных акторов в зеленом устойчивом развитии, инноваций, требуемых для развития различных секторов зеленой экономики, а также потенциальной роли и механизмам функционирования инновационных зеленых кластеров для эффективного управления устойчивым зеленым развитием городов и регионов Азербайджана.

Ключевые слова: эффективное управление устойчивым зеленым развитием, инновации, зеленые кластеры

DOI: 10.30546/mab.17.2022.149

UOT 328; 342.5; 351/354; 351

# GƏLİRLƏRDƏ BƏRABƏRSİZLİK: LORENTS ƏYRİSİ, GİNİ ƏMSALI, İNKLÜZİV İNKİŞAF

**Mehdiəliyev A.İ.**

*Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının
"İntellektual sistemlərin idarə olunması" kafedrasının dosenti,
fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru*

*e-mail: aga_mehdi@mail.ru*

*Məqalə ölkədə və cəmiyyətdə gəlirlərin, sərvətin bölünməsində mövcud olan bərabərsizlik problemlərinə həsr olunub. Xüsusi halda, gəlirlərdə bərabərsizliyin innovasiyalı iqtisadiyyat nöqteyi-nəzərindən yaxşımı və ya pismi olması sualına cavab axtarılır.*

***Açar sözlər:** bərabərsizlik, gəlirlər, sərvət, Gini indeksi, Lorents əyrisi, inklüziv inkişaf.*

Gəlirlərdə bərabərsizlik nədir? Əhməd ayda 700 manat qazanır, Məmməd isə ayda 400 manat əmək haqqı alır. Bunu gəlirlərdə bərabərsizlik adlandırmaq olarmı? Cavab aşkardır - hə. Bir nəfərin başqasından çox qazanmasına külli sayda misal göstərmək olar: kimsə böyük tələbat olan ixtisas üzrə ali təhsil alır, kimsə doqquzuncu sinfi qurtarıb işləyir, kimsə daha cəhdlə işləyir, kimsə tənbəldir, kiminsə bəxti gətirir, kiminsə yox və s. Deməli, gəlirlərdə bərabərsizliyin olması təbii bazar proseslərinin nəticəsi sayıla bilər.

Gəlirlərdə bərabərsizliklə mübarizə iqtisadiyyatda vacib məsələlərdən biridir. Gəlirlərdə bərabərsizlik elə bir situasiyadır ki, ölkədə gəlirlər əhali arasında qeyri-bərabər paylanır. Problemlər onda yaranır ki, əhalinin kiçik bir hissəsi ümumi gəlirlərin çox böyük hissəsini əldə edir, digərləri isə öz aralarında qalıqları bölüşdürməyə məcburdurlar.

Situasiyanı şərti olaraq X adlanan bir ölkə misalında araşdıraq. Fərz edək ki, bu ölkənin əhalisi aşağıdakı qruplara bölünür.

**Cədvəl 1.** X ölkəsinin əhalisinin strukturu və gəlirlərin qruplar arasında bölüşdürülməsi

| Qruplar | Ümumi sayda %-i | Ümumi gəlirdə %-i |
|---|---|---|
| Kasıb adamlar | 20% | 2% |
| Gəlirləri orta qiymətdən aşağı olanlar | 20% | 4% |
| Gəlirləri orta qiymət səviyyəsində olanlar | 20% | 14% |
| Gəlirləri orta qiymətdən yuxarı olanlar | 20% | 20% |
| Varlı adamlar | 20% | 60% |

Cədvəldən görünür ki, kasıb adamlar əhalinin 20%-ni təşkil etməklə ümumi gəlirin cəmi 2%-ni qazandıqları halda çox varlı adamlar yenə də əhalinin 20%-ni təşkil edir, lakin onların payına ümumi gəlirin 60%-i düşür.

Bu cədvəldəki verilənlər əsasında aşağıdakı qrafiki qura bilərik. Şəkildən görünür ki, üfüqi oxda əhali sayının ayrı-ayrı qruplar üzrə ümumi sayda faizi, şaquli oxda isə onların ümumi gəlirdə faizi göstərilmişdir.




Qrafik (0%,0%) nöqtəsindən başlayır – 0% gəlir 0% əhali tərəfindən qazanılır.

Ən kasıblar ümumilikdə gəlirlərin 2% -ni qazanır, bu (20%, 2%) nöqtəsidir. 0% əhali + 20% - ən kasıblar ölkədə ümumi gəlirin 0%+ 2% -ni qazanır.

Əhalinin növbəti zümrəsi (20%) gəlirləri orta qiymətdən aşağı olan adamlardır, onlar ümumi gəlirin 4%-ni qazanırlar. Onları kasıblara əlavə edək – bu (40%, 6%) nöqtəsidir. Başqa sözlə, 20% kasıblar + 20% - gəlirləri orta qiymətdən aşağı olanlar əhali gəlirlərinin 2% + 4% = 6% -ni qazanırlar.

Sonra gəlirləri orta qiymət səviyyəsində olan adamlar (20%) gəlir, onlar ümumi gəlirin 14% -ni qazanırlar. Bunları da əlavə etdikdə artıq (60%, 20%) nöqtəsini alırıq. Analoji olaraq:

20% kasıblar + 20% gəlirləri orta qiymətdən aşağı olanlar + 20% gəlirləri orta qiymət səviyyəsində olan adamlar ümumi gəlirin 2% + 4% + 14% = 20% faizini qazanırlar.

Növbəti 20%-li qrup gəlirləri orta qiymətdən yuxarı olanlardır... Və nəhayət, 20%-li varlılılardan ibarət əhali zümrəsi.

Bizim qurduğumuz əyriyə əhalinin müxtəlif təbəqələri arasında gəlirlərin paylanması əyrisi deyilir. Bu əyrini Amerika riyaziyyatçısı və iqtisadçısı Maks Otto Lorents (Maks Otto Lorenz (1876-1959)) iqtisadi nemətlərin əhali arasında paylanmasının bir aləti kimi fikirləşib tapmışdır.

Lorents əyrisi nemətlərin əhali arasında paylanmasının qrafik təsviridir.

Lorents əyrisi nəyi göstərir? Bu suala cavab vermək üçün gəlirlərin bərabər paylandığı bir utopik ölkə təsəvvür edək. Belə bir ölkədə varlılar və kasıblar olmamalıdır, çünki hesab olunur ki, gəlirlər bu ölkə əhalisi arasında bərabər paylanir.

Bəs, bu halda gəlirlər necə paylanmalıdır?

Əhalinin 0%-i gəlirlərin 0%-ni qazanırlar. Əhalinin 20, 40, 60 faizi gəlirlərin uyğun olaraq 20, 40, 60 faizlərini və nəhayət, əhalinin 100%-i gəlirlərin 100%-ni qazanırlar.

Baxdığımız Utopiya ölkəsi üçün Lorents əyrisini quraq.



Bu şəkildə əlavə çəkilmiş qalın tünd-qara rəngli düz xətt parçasına diqqət yetirək. Əgər biz bu xətt üzrə gəzişməyə başlasaq, bu xəttin bütün nöqtələrində **gəlirlər = əhali** münasibətinin ödəndiyini görərik. Lorents əyrisi gəlirlərin bərabər paylandığı ölkədə belə də olmalıdır! Düz xəttə çevrilən bu Lorents əyrisini (düz xətt parçasını) **mütləq bərabərlik xətti** adlandırırlar.

Mütləq bərabərlik xətti hamının bərabər gəlir əldə etdiyi hipotetik ölkəyə aid olan Lorents əyrisidir.

Yaxşı, əgər mütləq bərabərlik əyrisi vardırsa, onda mütləq bərabərsizlik əyrisi də olmalıdır, elə deyilmi? Onda mütləq bərabərsizlik əyrisi nədir? Bu gəlirlərin mütləq şəkildə bərabər olmayan paylanmasıdır. Bu necə ola bilər?! Bu o zaman ola bilər ki, bütün gəlirlər bir adamın əlində toplanır, yerdə qalanlar hava ilə dolanır!

**Mütləq bərabərsizlik xətti bir nəfərin ölkənin 100% gəlirlərinə malik olan, qalanlara isə 0% gəlir düşən ölkənin (hipotetik) Lorents əyrisidir.**

Mütləq bərabərsizlik xətti nəzərdən keçirdiyimiz şəkildə absis oxunu örtən və ona perpendikulyar olan qalın qara rəngli sınıq xətdir. Bu halda ölkənin bütün əhalisi kasıb olub 0% gəlir əldə edir və yalnız bir nəfər 100% gəlir əldə edərək ən varlı adam olur. Uyğun olaraq bu bir nəfərlə birlikdə bütün əhali 100% gəlir əldə edir.

Həm mütləq bərabərsizlik əyrisi, həm də mütləq bərabərlik əyrisi sırf nəzəri məna daşıyır. Tarixdə hələ elə bir ölkə olmamışdır ki, orada mütləq bərabərlik və ya mütləq bərabərsizlik mühiti hökm sürsün. Bu mühakimələri biz yalnız ona görə yürütdük ki, görək baxdığımız X hipotetik ölkəsi üçün Lorents əyrisi hansi ifrat situasiyaya çevrilə bilər.

İndi bu müqayisə variantlarının mövcudluğuna rəğmən aydın olur ki, Lorents əyrisi mütləq bərabərlik xəttindən nə qədər uzaqlaşırsa (və ya mütləq bərabərsizlik xəttinə yaxınlaşırsa) bir o qədər gəlirlərin qeyri-bərabər paylanması baş verir.

Burada təbii bir sual ortaya çıxır: bərabərsizlik səviyyəsini göstərə biləcək hər hansı bir kəmiyyət göstəricisi yoxdurmu?

Xoşbəxtlikdən belə bir göstərici 1912-ci ildə İtaliya statistiki Korrado Cini (Corrado Gini (1884-1965)) tərəfindən sonradan onun şərəfinə Gini əmsalı (Gini indeksi) adlandırılan belə bir göstərici daxil edilmişdir.

**Gini əmsalı 0-dan 1-ə qədər qiymətlər alan və gəlirlərin bərabərsizliyini xarakterizə edən bir göstəricidir. Belə ki, 0 – gəlirlərin mütləq bərabərliyini, 1 – mütləq bərabərsizliyini göstərir.**

Aşağıdakı şəkillərdə Lorents əyrisinin həndəsi interpretasiyası və sadə hal üçün Gini indeksinin qrafik üsulla hesablanması metodları təsvir olunur.







Yuxarıda nəzərdən keçirdiyimiz hipotetik X ölkəsinə gəldikdə isə aşağıdakı şəkildən göründüyü kimi Lorents əyrisinin altında yerləşən qapalı çoxbucaqlı bir üçbucaqdan və dörd trapesiyadan ibarətdir.




Deməli, bu çoxbucaqlının sahəsini tapmaq üçün bir üçbucaq və dörd trapesiyanın sahələrini hesablayıb cəmləmək lazımdır.




İndi də Gini əmsalının (indeksinin) analitik yolla hesablanması məsələsi ilə məşğul olaq.

Qeyd edək ki, Gini əmsalını hesablamaq üçün müxtəlif düsturlar mövcuddur. Biz daha populyar olan aşağıdakı düsturdan istifadə edəcəyik.

$$G = 1 - 2\sum_{i=1}^{n} x_i \cdot cumy_i + \sum_{i=1}^{n} x_i \cdot y_i \qquad (1)$$

Burada

G – Gini əmsalı;

$x_i$ - əhali tərkibində *i*-ci qrupun faizi və ya hissəsi;

$y_i$ - əhali tərkibində *i*-ci qrupun gəlirinin ümumi gəlirdə faizi və ya hissəsi;

$cumy_i$ - *i*-ci qrupun gəlirinin kumulyasiya olunmuş (toplanmış) həcmidir.

X ölkəsinin əhalisinin strukturu və gəlirlərin qruplar arasında bölüşdürülməsi üzrə verilənlərdən ibarət Cədvəl 1-ə qayıdaq.

Bu cədvələ (1) düsturu ilə hesablamalar aparmaq üçün zəruri olan kəmiyyətlərdən ibarət daha iki sütun əlavə edək və uyğun hesablamaları həmin sütunlara yerləşdirək.

**Cədvəl 2**

**X ölkəsinin əhalisinin strukturu və**
**Gini indeksini hesablamaq üçün aralıq hesablamalar**

| Əhali qrupları, *i* | Əhali qruplarının ümumi cəmdə hissəsi, $x_i$ | Əhali qruplarının ümumi gəlirdə hissəsi, $y_i$ | $x_i y_i$ | Cumulyativ cəm $x_i\ cum\ y_i$ |
|---|---|---|---|---|
| Kasıb adamlar | 20% | 2% | 20%×2%=0,2×0,02= =0,004 | 20%×2%=0,2×0,02=0,004 |
| Gəlirləri orta qiymətdən aşağı olanlar | 20% | 4% | 20%×4%=0,2×0,04= =0,008 | 20%×(2%+4%)=0,2×0,06= =0,012 |
| Gəlirləri orta qiymət səviyyəsində olanlar | 20% | 14% | 20%×14%= =0,2×0,14=0,028 | 20%×(2%+4%+14%)= =0,2×0,06=0,012 |
| Gəlirləri orta qiymətdən yuxarı olanlar | 20% | 20% | 20%×20%=0,2×0,2= =0,04 | 20%×(2%+4%+14%+20%)= =0,2×0,2=0,04 |
| Varlı adamlar | 20% | 60% | 20%×60%=0,2×0,2= =0,04 | 20%×(2%+4%+14%+20%+ +60%)=0,2×1=0,2 |
| Σ | 100% | 100% | 0,2 | 0,336 |

Beləliklə, bu cədvəl vasitəsi ilə biz artıq (1) düsturunda istifadə olunacaq

$$\sum_{i=1}^{n} x_i \cdot cumy_i \qquad \text{və} \qquad \sum_{i=1}^{n} x_i \cdot y_i$$

hədlərini də almış oluruq.

Nəhayət, bu qiymətləri (1) düsturunda yerinə qoysaq Gini əmsalı üçün alırıq:

$$G = 1 - 2 \cdot \Sigma\, x_i\, cum\, y_i + \Sigma\, x_i\, y_i = 1 - 2 \cdot 0{,}336 + 0{,}2 = 1 - 0{,}672 + 0{,}2 = 0{,}528.$$

İndi də baxdığımız misal üçün Gini indeksini daha əyani olan qrafik üsulla hesablamağa cəhd edək.

Yuxarıda məxsusi olaraq bu misal üçün çəkilmiş Lorents əyrisi təsvir olunmuş şəkilə bir daha nəzər salaq.




Lorents əyrisinin altında yerləşən sahəyə A, G, F, E, D, B, C nöqtələri ilə hüdudlanan bir qapalı çoxbucaqlı kimi baxmaq olar. O da aydındır ki, bu çoxbucaqlı bir üçbucaq və dörd trapesiyadan ibarətdir. Bu həndəsi fiqurları uyğun olaraq a, b, c, d, e hərfləri ilə işarə edək.




Aydındır ki, Gini indeksinin tərifinə görə o aşağıdakı düsturla hesablanmalıdır:

$$\frac{S_{ABDEFG}}{S_{ABC}} = \frac{S_{ABC} - S_{AGFEDBC}}{S_{ABC}}$$

Ona görə də AGFEDBC çoxbucaqlısının sahəsini a, b, c, d, e fiqurlarının sahələrinin cəmi kimi hesablaya bilərik. Beləliklə, alırıq:

$$\frac{S_{ABC} - S_{AGFEDBC}}{S_{ABC}} =$$
$$= \frac{S_{ABC} - S_a - S_b - S_c - S_d - S_e}{S_{ABC}}$$

İndi biz asanlıqla ayrı-ayrılıqda $S_{ABC}$, $S_a$, $S_b$, $S_c$, $S_d$, $S_e$ sahələrinin hesablanmasına girişə bilərik.

$$S_{ABC} = \frac{1}{2} * 1 * 1 = \frac{1}{2}$$

$$S_a = \frac{1}{2} * \frac{1}{5} * 0,02 = 0,002$$

$$S_b = \frac{1}{2} * (0,02 + 0,06) * \frac{1}{5} = 0,008$$

$$S_c = \frac{1}{2} * (0,06 + 0,2) * \frac{1}{5} = 0,026$$

$$S_d = \frac{1}{2} * (0,2 + 0,4) * \frac{1}{5} = 0,06$$

$$S_e = \frac{1}{2} * (0,4 + 1) * \frac{1}{5} = 0,14$$

Deməli,

$$\frac{S_{ABC} - S_a - S_b - S_c - S_d - S_e}{S_{ABC}} == \frac{\frac{1}{2} - 0,002 - 0,008 - 0,026 - 0,06 - 0,14}{\frac{1}{2}} = 0,528$$

Göründüyü kimi, qrafik üsulda da Gini indeksi üçün eyni ilə onun yuxarıda cəbri yolla hesabladığımız 0,528 qiyməti alındı!

Gini indeksi ilə tam tanışlıqdan sonra məşhur Pareto prinsipindən də bir qədər danışmaq yerinə düşür.

Digər bir italyan iqtisadçısı, sosioloqu Valfredo Pareto tərəfindən irəli sürülən Pareto prinsipi (bu həmçinin, “80/20 prinsipi” də adlanır) ən ümumi halda belə formula olunan empirik bir qaydadır: “Bütün cəhdlərin 20% -i 80% nəticəni təmin edir, cəhdlərin qalan 80%-i isə nəticənin yalnız 20%-ni verir”. Pareto hesablamışdır ki, İtaliyanın torpaqları onun əhalisinin 20%-nin mülkiyyətindədir. O, həmçinin, bu cür oxşar qanunauyğunluğun olduğunu öz bağında da müşahidə etmişdir: bitkilərin 20% -i meyvə məhsulunun 80%-ni verir.

Pareto prinsipinin, ilkin olaraq, həsr olunduğu məsələ elə nəzərdən keçirdiyimiz - ölkənin sərvətlərinin onun əhalisi arasında paylanması olmuşdur. Bu səbəbdən onu gəlirlərdə bərabərsizliyi xarakterizə edən Lorents əyrisi ilə müqayisə etmək maraqlıdır.

Pareto prinsipi heç kim tərəfindən isbat olunmamışdır. Lakin bu prinsipin bir çox müxtəlif təbiətli məsələlərin həllinə tətbiq olunması faktları artıq prinsipin həqiqətən doğru olması təəssüratını yaradır. Elə bu məqsədlə hesablanan Gini indeksinin qiymətinin bütün dünyada sərvətin əhali arasında paylanması üçün hesablanmış Gini indeksinə (0,6) uyğun olması da bu faktı bir daha təsdiq edir!

Qeyd edək ki, dünya ölkələri üçün Gini indeksinin hesablanması mütəmadi olaraq beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilir və BMT-nin hesabatlarında önəmli yer tutur. Düşünürük ki, Azərbaycan Respublikası üçün bu indeksin qiymətini bilmək maraqlı olar. Aşağıdakı şəkildə Azərbaycan üzrə Gini əmsalı "böyük yeddilik" (G 7) ölkələri üçün 2017-ci il verilənləri əsasında müqayisəli şəkildə verilmişdir.




Yuxarıda qeyd etdiyimiz kimi, Gini indeksi nə qədər az olsa, cəmiyyətdə gəlirlər və təbəqələşmə də bir o qədər az olar. Bu eyni zamanda o deməkdir ki, Gini indeksinin qiyməti nə qədər az olsa, gəlirlər cəmiyyətdə daha ədalətli bölünər. Bu isə inklüziv cəmiyyətin əsas tələblərindəndir. Şəkildən görünür ki, Azərbaycan "böyük yeddilik" ölkələri arasında yalnız Almaniyadan geridədir. Bu qrupa daxil olan digər 6 ölkənin Gini indeksi bizim göstəricimizdən yüksəkdir. Beləliklə, demək olar ki, Azərbaycan Respublikasında həyata keçirilən inkişaf strategiyası, bu sahədə aparılan siyasət inklüziv cəmiyyətin qurulmasına və onun davamlı inkişafına yönəlib.

Gini indeksi inklüziv inkişafın vacib göstəricilərindən biri olub ölkədə inklüziv inkişaf sahəsində həyata keçirilən siyasətin nə dərəcədə uğurlu olmasını qiymətləndirmək məqsədi ilə istifadə olunur.

İnklüziv inkişaf dedikdə, dövlətin tərəqqisinin elə bir yolu başa düşülür ki, ölkənin hərtərəfli inkişafı həyata keçirilir və bu prosesin müsbət nəticələrini bütün vətəndaşlar hiss edir.

Biz bu işdə gəlirlərdə bərabərsizlik problemlərinin əsasən riyazi aspektlərinə toxunaraq Lorents əyrisinin, Gini əmsalının yaranması zərurətindən, hesablanma üsullarından söhbət açdıq. Bəs, görəsən gəlirlərdə bərabərsizliyin

olması yaxşıdır, yoxsa pis? Bax, bu məsələdə iqtisadçıların fikirləri haçalanır. İqtisadi dairələrdə çoxdan qızğın müzakirələr gedir: axı, bütün ölkələrdə, bütün dövrlərdə əhalinin ayrı-ayrı qruplarının gəlirlərində həmişə bərabərsizlik olmuşdur və yəqin ki, gələcəkdə də olacaqdır. Bu cür vəziyyət innovasiyalı iqtisadiyyatın inkişafına necə təsir edir? Sosial-iqtisadi ədəbiyyatın geniş təhlili göstərir ki, gəlirlərdə bərabərsizliyin düzgün başa düşülməsi bir çox iqtisadi, sosial və hətta psixoloji faktorların nəzərə alınmasını tələb edir.

Məlumdur ki, iqtisadiyyatda istifadə olunan göstəricilər iki qrupa bölünür. Qrupun biri istehsalı, yəni resurslardan səmərəli istifadəni xarakterizə edir. Buna görə də bu göstəriciləri təmiz iqtisadi göstərici hesab edirlər. İkinci qrupa isə istehlak üçün istehsal olunmuş məhsulların cəmiyyətin üzvləri arasında paylanmasını xarakterizə etdiyinə görə sosial göstəricilərə aid edirlər.

İqtisadi göstəriciləri bir kənara qoyaraq fikrimizi bir qədər sosial göstəricilərə, birinci növbədə individiumun özünün rifahının alıcılıq qabiliyyətinin yüksəltməsi yolu ilə imkanlarında bərabərsizlik göstəricilərinə yönəldək. Müasir iqtisadiyyatda iki növ faktoru fərqləndirirlər:

- verilmiş qeyd olunmuş zaman anında alıcılıq qabiliyyətini müəyyənləşdirən sərvətin həcmi;
- müəyyən period ərzində alıcılılıq qabiliyyətinin nə qədər artdığını göstərən gəlir.

Beləliklə, hər iki faktor – həm gəlir, həm də sərvət individiumun alıcılıq qabiliyyətini təyin edir. Bu iki faktordan əsas olanı gəlirlərdə bərabərsizlikdir. Birincisi, ona görə ki, bu faktor (“sərvət” faktoru ilə müqayisədə) təhlilə və kvantifikasiyaya (keyfiyyət xarakteristikalarının kəmiyyət xarakteristikalarına gətirilmə) nisbətən asan yatımlıdır. İkincisi, o adi individiuma psixoloji olaraq daha aydın və adət olunandır.

Sosial-iqtisadi statistikada Lorents əyrisindən və Gini indeksindən başqa da gəlirlərin differensial əmsalı, gəlirlərin desil differensial əmsalı, kvintil nisbətin dəyərləri, Palma göstəricisi, Atkinson indeksi və s. kimi digər göstəricilərdən də istifadə olunur. Bütün bu göstəricilər bir-birindən ölçü şkalaları ilə (şkalaların ölçüləri və ölçü vahidlərinin xarakteristikaları ilə), həmçinin, bu şkalalarda hər bir şkala və verilmiş sosial-iqtisadi və siyasi formasiyalar üçün normal və ya əksinə ekstremal hesab olunan qiymətlər ilə fərqlənirlər. Məsələn, kvintil nisbətin dəyərləndirilməsi zamanı əhali arasında 20 faiz ən zəngin olanların orta gəlirlərinin 20 faiz ən yoxsul əhalinin orta gəlirini necə dəfə üstələdiyi müəyyən edilir. Alınmış rəqəm nə qədər aşağı olsa, ölkənin siyasəti sosial baxımdan bir o qədər ədalətli dəyərləndirilir.

Çox vaxt hökm edirlər ki, müəyyən sosial bərabərsizlik istənilən cəmiyyətə xasdır. Bu nöqteyi-nəzərdən onun azaldılması problemi guya süni və uydurulmuş bir problemdir. Bu zaman nəzərə alınmır ki, gəlirlərin paylanmasının bərabər səviyyəsi bir ölkədə sosial problem ola bilər, digərində yox. Gəlirlərin

bərabərsizliyi o zaman sosial problemə çevrilir ki, əhalinin azgəlirli təbəqəsinin mütləq və nisbi ölçüləri böyükdür, yəni cəmiyyətdə kasıb əhalinin çox böyük təbəqəsi əmələ gəlir.

Bundan başqa, çox da uzaqda olmayan keçmiş zamanda belə bir iqtisadi konsepsiya irəli sürülmüşdü ki, gəlirlərdə böyük bərabərsizlik iqtisadi artıma müsbət təsir göstərə bilər, hesab olunurdu ki, gəlirlərin zənginlərin xeyrinə yenidən bölüşdürülməsi iqtisadi artıma gətirə bilər, çünki zənginlər kasıblardan fərqli olaraq gəlirləri qoruyub saxlaya bilərlər. Bu nöqteyi-nəzər o fərziyyəyə əsaslanırdı ki, iqtisadiyyatın daha böyük artımı böyük bərabərsizlik bahasına əldə oluna bilər. Bu tezisin isbatı üçün əksini fərz etməklə acınacaqlı sovet "bərabərlik" təcrübəsinə müraciət edirdilər. İndi iqtisadçılar arasında bu mövqeyin az-maz da olsa tərəfdarları çətin tapılar ki, adamların hamısının eyni cür yaşamalarının mümkünlüyünü qəbul etsinlər, lap elə sovet dönəmində də real olaraq belə hesab olunmurdu. Lakin bir çox ölkələrin inkişaf təcrübəsi göstərdi ki, bərabərsizliyi azaltmaqla istehsalın səmərəliliyini və iqtisadi artımı çoxaltmaq olar.

Qeyd etmək lazımdır ki, iqtisadi sosiologiyada çoxdan normal və izafi bərabərsizlik anlayışları formalaşmışdır.

Normal bərabərsizlik termini altında əhalinin 10% ən zəngin təbəqəsinin gəlirləri əhalinin ən kasıb təbəqəsinin 10%-nin gəlirlərindən 6-8 dəfədən çox olmayan hal nəzərdə tutulur. Bu, adətən, idarə olunan sol hakimiyyətin olduğu ölkələr üçün xarakterikdir.

Normal bərabərsizlikdən 6-8 dəfədən çox olan hal isə izafi bərabərsizlik hesab olunur. Bəzi ölkələrdə gəlirlərdə bu fərq 25–30, paytaxtlarda və ayrı-ayrı şəhərlərdə isə 40-50 dəfə təşkil edir.

Sosioloqlar və iqtisadçılar hesab edirlər ki, normal, mülayim bərabərsizlik cəmiyyətə və onun iqtisadiyyatına müsbət təsir edirsə, izafi bərabərsizlik özünü neqativ faktor kimi göstərir. İzafi bərabərsizliyin 1% aşağı salınması iqtisadi artımın 5%, investisiyaların artım tempinin 6,2% yüksəlməsinə səbəb olur.

**Ədəbiyyat:**


1. Gini Index Explained and Gini Co-efficients Around the World. https://www.investopedia.com/terms/g/gini-index.asp
2. What is the Inclusive Development Index [IDI]? https://byjusexamprep.com/current-affairs/inclusive-development-index-idi
3. Urxan Ələkbərov. İnklüziv inkişafın idarə edilməsinin əsasları. Ali məktəblər üçün dərslik. – Bakı. – 2018. – 215s.

## ABSTRACT

## INEQUALITY IN INCOMES: LORENTZ CURVE, GINI COEFFICIENT, INCLUSIVE DEVELOPMENT

**Mehdialiev A.I.**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Department of Management of Intelligent Systems*
*Ph.D in Physical and Mathematical Sciences, Associate Professor*

The article discusses the degree of inequality in the distribution of income or wealth in society. The author analyzes if it is good or bad from the point of view of the innovative economy.

***Keywords:*** *inequality, income, wealth, Gini index, Lorenz curve, inclusive development*

## РЕЗЮМЕ

## НЕРАВЕНСТВО В ДОХОДАХ: КРИВАЯ ЛОРЕНЦА, КОЭФФИЦИЕНТ ДЖИНИ, ИНКЛЮЗИВНОЕ РАЗВИТИЕ

**Мехталиев А.И.**

*Доцент кафедры «Управление интеллектуальными системами»*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по физико-математическим наукам*

В статье обсуждаются вопросы степень неравенства в распределении дохода или богатства в обществе. В частности, анализируется ситуация: хорошо или плохо это с точки зрения инновационной экономики?

***Ключевые слова:*** *неравенство, доходы, богатство, индекс Джини, кривая Лоренца, инклюзивное развитие*

DOI: 10.30546/mab.17.2022.163

UOT 328; 342.5; 351/354; 351

# SU RESURSLARININ İQTİSADİ DƏYƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Əhmədov E.N.**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Davamlı inkişafın planlaşdırılması və idarəedilməsi" kafedrasının dosenti, iqtisad elmləri fəlsəfə doktoru*

*e-mail: elshen80@gmail.com*

*Sudan istifadənin iqtisadi səciyyələndirilməsinə gəldikdə, təhlil müxtəlif metodlar üzrə aparılmaqdadır. Onlar arasında qarşılaşdırma, beynəlxalq məlumatların təhlili və riyazi təhlil vardır. İlk olaraq su resurslarının davamlılığını artırmaq üçün ölkədə su resurslarının idarəçiliyi səmərəli və davamlı olmalıdır. Məqalə su təchizatı ilə əlaqədar ən son tendensiyalara istinad edərək ölkədə su ehtiyatlarından istifadəni tənzimləyən inzibati və siyasi çərçivəni təsvir edir. Digər tərəfdən suyun iqtisadi dəyərini tədqiq edir. Tədqiqat Azərbaycanda suyun iqtisadiyyata verdiyi əlavə dəyərin aşağı səviyyədə olduğunu ortaya qoyur.*

**Açar sözlər:** *su resursları, su iqtisadiyyatı, iqtisadi dəyər, davamlı inkişaf*

Bu gün iqtisadi-ekoloji problemlərin həlli bir çoxları tərəfindən çox bahalı görünə bilər və eyni zamanda ekoloji problemlərin həlli üçün nəzərdə tutulan investisiyalar iqtisadi geri dönüşümü uzun zaman aparan proses kimi irəli sürə bilər. Əslində isə hər hansı bir ekoloji layihənin həyata keçməsi, əmək və materialların istifadəsində balanssızlığı aradan qaldırmaq, resurs istifadəsinin səmərəsini yüksəltmək və məhsuldarsız xərcləmələrdən imtina etmək və s. kimi böyük iqtisadi fürsətlər yarada bilər.

Misal olaraq dünyada su resurslarının məhsuldarlığını artırmaq üçün ölkələr milli strategiyalar hazırlayır və uyğulayırlar. Su resurslarının hər hansı bir ölkədə nə qədər səmərəli istifadə edildiyini qiymətləndirmək üçün hal hazırda dünya bankının statistik məlumatlarına nəzər yetirməkdə fayda olardı. Belə ki, həmin statistika bazasında cəmi ümumi şirin suyun hər kubmetrinə görə ölkələrin ÜDM-da neçə ABŞ dolları əldə etdiyinə dair rəqəmlər göstərilmişdir [12]. Hal hazırda həmin qiymətləndirmə metodikasının tam olaraq dəqiqliyini təsdiq edən qəti bir metodologiya yoxdur. Ancaq həmin statistika bu istiqamətdə aparılan yeni tədqiqatdır. Burada verilən məlumatlara əsasən

Azərbaycanın su resurslarının ÜDM-dakı dəyəri çox aşağıdır. Aşağıdakı cədvəldə suyu dəyərləndirən yüksək, orta və aşağı ölkələr qeyd edilmişdir. Eyni zamanda Azərbaycanın su resurslarının ÜDM-dakı indikatoru da qeyd edilmişdir.

**Cədvəl**

**Cəmi ümumi şirin suyun hər kubmetrinə görə ÜDM-da dəyəri (ABŞ dolları)**

| | | |
|---|---|---|
| 1. | Dünya | 21 |
| 2. | Monako | 1,416 |
| 3. | Lüksemburq | 1,342 |
| 4. | Maldiv | 1,154 |
| 5. | Singapur | 710 |
| 6. | Qatar | 670 |
| 7. | İzrail | 308 |
| 8. | Türkiyə | 16 |
| 9. | ABŞ | 45 |
| 10. | Azərbaycan | 4 |

Mənbə: Dünya bankının statistik məlumatları

Cədvəldən görüldüyü kimi Azərbaycanda suyun iqtisadi dəyəri demək olar ki heç səviyyəsindədir. Suyun iqtisadiyyata verdiyi əlavə dəyər də yox səviyyəsindədir. Suyun ilk olaraq iqtisadi dəyər kimi qiymətləndirilməsinə ehtiyac vardır və onun səmərəli istifadəsi ilə əlavə iqtisadi dəyər yaratmaq qarşıya hədəf kimi qoyulmalıdır [11].

İstifadə olunan suyun həcmini təsərrüfat fəaliyyətinin nəticələri ilə müqayisə edən su resurslarından istifadənin səmərəliliyinin ümumiləşdirilmiş göstəricisi suyun intensivliyidir. Bütövlükdə iqtisadiyyatın miqyasında onu aşağıdakı kimi ölçmək olar:

$$W = (R_1 + R_2) / V, \text{м}^3/\text{azn}$$

W – milli gəlirin su intensivliyi;

$R_1$ – şirin suyun illik istehlakı;

$R_2$ – dövriyyədə olan su təchizatının illik həcmi.

Suyun intensivliyi milli gəlir vahidini əldə etmək üçün nə qədər su ehtiyatının xərclənməsi lazım olduğunu göstərir. Bu göstəricinin dinamikası su

ehtiyatlarından istifadənin səmərəliliyinin göstəricisi kimi çıxış edə bilər. Oxşar göstəricilər həm sənaye kompleksləri, həm də ayrı-ayrı sənaye sahələri üçün hesablana bilər. Suyun fiziki və kimyəvi vəziyyətini dəyişmədən resurs kimi istifadə edən sənaye sahələrinə su istifadəçiləri deyilir. Bunlara, xüsusən su nəqliyyatı, balıqçılıq, hidroelektrik enerjisi daxildir. Su təsərrüfatına gəldikdə, əvvəllər mövcud olan təşkilati struktur su mənbələrinin qorunması, su ehtiyatlarının səmərəli istifadəsi və təkrar istehsalı problemlərini praktiki olaraq həll etmirdi, bu da su resurslarının tükənməsinin sürətlənməsinə, ekoloji vəziyyətin kəskinləşməsinə səbəb oldu. Burada ekoloji vəziyyətin kəskinləşməsinə səbəb kimi daxili təsirlərdən başqa həm də xarici təsirləri qeyd etmək mümkündür. Xarici təsirlərin bir neçə növü vardır [8].

Xarici təsirlər (Ekstrenal) sudan və təbiətdən istifadədə çox vacib bir anlayışdır. İqtisadi fəaliyyət zamanı su resursları, ümumilikdə təbiət, insanlar və müəyyən obyektlər mütəmadi təsirə məruz qalırlar. Eksternalinin yaranması bu cür təsirlərə bağlıdır. Ümumilikdə onlar bir tərəfin digər tərəfə kompensasiya olunmayan təsiri kimi səciyyələdirilir. Eksternal istehsal nəticəsində və ya malların və xidmətlərin istehlakı ilə bağlı yarana bilər. Onların xarakterik xüsusiyyətlərinə aşağıdakılar aiddir:

- ➢ Eksternal şirkətin və ya şəxsin fəaliyyəti digər şirkət və şəxsin xərcləri və faydasına bilavasitə təsir edir.
- ➢ Eksternal bazar qiymətlərində öz əksini tam tapmır.
- ➢ Bazar əməliyyatlarında satıcı və ya alıcı kimi iştirak etməyən üçüncü şəxslərə təsir və əməliyyatdan yaranan xərclər və ya fayda onların hesabına ayrılması eksternal üçün xarakterikdir.

Eksternal üçün bazar sövdələşmələrində satıcılar və ya alıcılar kimi iştirak etməmiş üçüncü şəxslərin təsiri və sövdələşmədən məsrəf və ya gəlirlərin bir hissəsinin onlara aid edilməsi xarakterikdir. Yəni, malların və xidmətlərin istehsalı və ya istehlakı hər hansı bir üçüncü tərəfin əvəzlənməyən məsrəflərini əmələ gətirdikdə kənar təsirlər yaranır. Eksternalar mənfi və müsbət ola bilər. Mənfi eksternalar, tərəflərdən birinin fəaliyyətinin digər tərəfin məsrəflərini, onların rifahlarının aşağı düşməsinə gətirib çıxarması halında yaranırlar. Müsbət eksternalar, tərəflərdən birinin fəaliyyətinin digər tərəfə gəlir gətirdikdə, onların rifahını artırdıqda yaranırlar. Tutaq ki, sizin bağ sahəniz bataqlıqda yerləşir ki, burada nəsə tikmək və yetişdirmək mümkün deyil. Lakin sizin əməksevər və imkanlı qonşunuz var ki, o, öz sahəsini qurudur drenaj yaradır və yol çəkir və s. Bu vəziyyətdə böyük ehtimalla sizin sahəniz də daha quru olacaq və siz etibarlı ev tikə, sevimli güllərinizi becərə, qonşunuzun çəkdiyi yoldan istifadə edə biləcəksiniz və s. Yəni siz qonşunuzun fəaliyyətindən əhəmiyyətli xeyir əldə edirsiniz. Bu müsbət eksternalar üçün nümunədir. Həyatda

geniş yayılmış mənfi eksterna təsirlərinə nümunə kimi avtomobil səfərləri və ya siqaret çəkməni aid etmək olar ki, bu halda intensiv nəqliyyat hərəkətli rayonların sakinləri səs küydən, siqaret çəkməyənlər isə həmin növ ətraf mühit çirklənmələrinin qurbanları olurlar, xüsusən öz sağlamlıqlarının qorunması üzrə əlavə xərclərə düşə bilərlər. Müsbət təsirlərin klassik nümunəsi təhsildir. Təhsil fərdi istehlakçılara gəlir gətirir: savadlı insanlar adətən daha az savadlılarla müqayisədə daha çox gəlir əldə edirlər. Lakin təhsil ümumilikdə bütün cəmiyyətə böyük xeyirlər gətirir. Cəmiyyətin hər bir üzvü digər vətəndaşların da yaxşı təhsil almasından qazanır [9]. İqtisadiyyat da bütövlükdə daha universal və daha məhsuldar işçi qüvvəsinin olması səbəbindən qazanır. Təsadüfi deyil ki, postsənaye cəmiyyətində istehsalatın insan kapitalı kimi amili daha böyük əhəmiyyət kəsb edir (fiziki kapitalın və təbii ehtiyatların azalması ilə müqayisədə). Hazırda səviyyəsi aşağı düşmüş olan insan inkişafına ayrılan investisiyalar daha mühüm yer təşkil edirlər. Nəzəriyyədə ətraf mühitin mühafizəsi sahəsində mənfi eksternal problemi daha yaxşı öyrənilmişdir. Burada mənfi təsirlərin çoxluğu mənfi xarici effektlərin yaranması ilə əlaqədardır: müxtəlif növ çirklənmələr, tullantılar, təbiət obyektlərinin dağıdılması, ekoloji zərərlər və s. Əsasən iqtisadi fəaliyyətin belə neqativ ekoloji-iqtisadi nəticələrini, bu fəaliyyətin subyektləri nəzərə almırlar. Mənfi xarici effektlər (təsirlər) "çirkləndiricilərin" iqtisadi vəziyyətinə cüzi təsir göstərir. Bu vəziyyətdə, onların fəaliyyətindən yaranan xərclər və zərərlər öz istehsal xərclərinə və daxili xərclərinə təsir göstərmədiyi üçün çirkləndirici istiqamətli müəssisənin qapısından kənarda, tamamilə xaricdədir. Çirklənməni yaradanlar əvvəlcə öz daxili xərclərini minimuma endirmək marağındadırlar, ümumiyyətlə xarici (eksternal) xərcləri öz həlləri üçün əlavə xərc tələb edən bir problem olaraq görməzlikdən gəlirlər [9]. Nəticə etibarı ilə, xarici (eksternal) təsirlərlə mübarizə xərclərini başqaları çəkirlər. Bu səbəblə istehsalçılar istehsalın nə qədər olacağı mövzusunda çox aşağı xərclərə əsaslanan qərarlar alırlar. Əslində, onlar resursların işlədilməsi üçün ödəniş etmirlər, hansı ki bu resursların alternativ istifadəsi üçün dəyərini kiçik hesab edirlər. Burada iqtisadiyyat üçün sual yaranır: niyə xarici təsirlərə məruz qalan insanların, biznesmenlərin və s. mənfi təsirlərə, müxtəlif ziyanlara qarşı özlərini kompensasiya etmələri olduqca çətindir? Xarici effekt anlayışını fərqli təsirlərə (zaman içərisində, sektorlar və ya bölgələr arasında və s.) bağlı olaraq geniş ələ almaq üçün aşağıdakı növlərə ayırmaq mümkündür:

***Temporal (zamana görə, nəsillər arası) eksternalar.*** Bu növ eksternalar davamlı inkişaf konsepsiyasıyla sıx bağlıdır. Müasir nəsil öz ehtiyaclarını ödəməklə gələcək nəslin ehtiyaclarını ödəmək imkanlarını saxlamalıdır. Bu gün qlobal problemlərin mövcudluğu, qeyri-bərpa olunan təbii resursların tükənməsi, ətraf mühitin çirklənməsi və s. müasir cəmiyyət tərəfində gələcək nəsil

üçün böyük ekoloji, iqtisadi və sosial problemlər yaradır. Burada prinsipial iqtisadi məqam ondan ibarətdir ki, bugünkü nəsil gələcək nəsillərə əlavə eksternal xərcləri miras kimi saxlayır. Beləliklə, neftin tükətilməsi, kütləvi kənd təsərrüfatı torpaqların deqradasiyası, yaxın gələcəkdə enerji və ərzaq problemləri yaratmaqla, öz ehtiyaclarını ödəmək üçün gələcək nəsillərə sayılmaz xərclər ötürməsinə zəmin yaradacaqdır. Bu da temporal eksternalar deməkdir. Amma müsbət temporal xarici effekterdə mümkündür. Texnoloji partlayışlar, müasir cəmiyyətin elmi-texniki inqilabının nailiyyətləri gələcəkdə əlavə xərclərin aşağı salınmasına da gətirib çıxarda bilər. Məsələn, yeni texnologiyanın mənimsənilməsi ilə bu mümkündür.

***Qlobal eksternalar (xarici effektler).*** Dünya miqyasında bu cür mənfi eksternalar artıq bir sıra konkret problemlər yaratmışdır, məsələn beynalxalq transsərhəd resurslarının çirkləndirilməsi və sərhəddən çay, göl, meşə vasitəsilə ötürülməsi. Atmosferə kimyəvi birləşmələrin atılması, çayların çirklənməsi və digər ekoloji təsirlər, ciddi iqtisadi-ekoloji problemlər və digər ölkələrə əlavə xərclər yaradır. Xüsusilə bu problemlər sənayeləşmiş və inkişaf etməkdə olan ölkələrdə daha kəskin görünür. Çünki təbii resursların istehlakçıları daha çox zəngin ölkələrdir, mənfi ekoloji təsirləri böyük olan ölkələr də onlardır, ziyan çəkən tərəf isə adətən yoxsul ölkələr olur. Əgər qlobal iqlim dəyişikliyi olsa, və dəniz səviyyəsinin bir metr qalxması baş versə, Banqladeş ərazisi 17% azalmış olar, halbuki bu ölkənin dünyanın ekoloji çirklənməsindəki payı inkişaf etmiş ölkələrə nəzərən çox daha aşağıdır – 0,3% parnik qazının tullantısı kimi [9].

***Sektor arası eksternalar.*** İqtisadiyyat sektorları inkişaf etdikcə, xüsusilə də təbiət-istismarlı sahələri, digər sahələrə əhəmiyyətli zərər verir və mənfi xarici effektlər yaradır. Məsələn, Rusiyada Kursk maqnit anomaliyasında (metallurgiya kompleksi) dəmir filiz hasilatı aqrar sektora böyük zərər verir, bu da dünyada ən yaxşı torpaq sayılan – qara torpağın, kənd təsərrüfatı tədavülündən çıxarılmasına gətirib çıxarır.

Volqa çayının üzərində HES kaskadının yaradılması (enerji sektoru) 5-7 mln ha yüksək məhsuldar əkin ərazilərin su altında qalmasıyla nəticələndi. Müsbət sektorarası eksternalar da mövcuddur. Bir sektorun inkişafı, digər sektorlar üçün əhəmiyyət kəsb edən müsbət iqtisadi nəticələrə gətirə bilər. Məsələn, emal sənayesinin inkişafı, və məhsulun yenidən emalı təbii resursların hasilatını azalda bilər.

***Regionarası eksternalar.*** Bu eksterna tipini qlobal eksterna tipinin kopyasına bənzətmək olar, sadəcə bir ölkə çərçivəsində. Klassik bir nümunə: Kür çayının yuxarı Gürcüstan ərazisindəki regionlarda çirkləndirilməsi Azərbaycan ərazisində onun təmizlənməsi üçün əlavə xərclər yaradır.

***Yerli eksternal hadisələr*** – bu növ eksternal hadisələr nəzəriyyədə daha çox öyrənilir. Adətən məhdud sahədə müəssisə nəzərdən keçirilir və alıcılarda bu müəssisənin fəaliyyət ilə bağlı yaranan xarici xərcləri təhlil olunur.

Sosial xərclərin hesabatı – eksternal problemlər və onlarla bağlı olan xərcləri ilk dəfə A. Piqu "İqtisadiyyatın rifahı" əsərində kəşf etmişdir. O bütün cəmiyyətin dəyərlərini, ümumi, xüsusi və fərdi xərclərini hesabladı. Görünür ki, istənilən sahibkar üçün ən mühüm məqsəd mənfəət artımı üçün xüsusi xərclərin minimuma endirilməsi olur. Burda ən asan yol öz xərclərinə qənaət etməkdir. Belə eksternal hadisələrin əmələ gəlməsində xarici effektlər ən təşəbbüskar yol hesab edilmir və onların aradan qaldırılması üçün müvafiq xərclər əmtəədə əks olunmur. Belə məqamda ayrı-ayrı şəxslər, şirkətlər və s. verilmiş zərərin aradan qaldırılması üçün əlavə vəsait ödəməli olurlar. Belə olduqda məhsul istehsalındakı ümumi sosial xərclər xüsusi və mənfi ekstremal xərclərdən ibarət olacaq. Müvafiq olaraq ictimai faydaların müsbət xarici təsirləri məhz həmin təsirlərdən və şəxsi faydalardan ibarətdir. Bu münasibətləri -

$$MSC+MRC+MEC$$
$$MSV=MRV=MEV$$

MSC(MCV) – marjinal sosial xərclər,
MRC(MRV) – marjinal xüsusi xərclər,
MEC(MEV) – Marjinal Eksternal Xərclər

Sadələşdirilmiş formada bir məhsulu istehsal etmək üçün yaranan ümumi sosial xərcləri (Cs) fərdi xərclər (Cp) və eksternal xərclər (E) kimi göstərə bilərik. Aşağıdakı formula bax:

$$Cs = Cp + E = Cp + \sum i\ E_i$$

$E_i$ – $i$ xarici təsirlərin növləri

Xarici təsirin qiymətləndirilməsi (pul ekvivalentində) ən çətin iqtisadi problemlərdən biridir. Xarici təsirin mövcudluğu məhsulların cəmiyyət tərəfindən tam şəkildə qiymətləndirilməsinə imkan vermir. Aydındır ki, xarici xərclərin düzgün qiymətləndirilməməsi, bazarların səmərəsizliyi, qiymətlərin və real sosial xərclərin təhrif olunması buna təsir edir. Xarici faktorların mənfi təsiri dedikdə zərərli malların və xidmətlərin izafi (həddən artıq) istehsalı, müsbət təsir dedikdə isə onların aşağı istehsalı nəzərdə tutulur. Sadələşdirilmiş iqtisadi yanaşmadan istifadə edək və xarici xərclərin formalaşması və qiymətləndirilməsi probleminə dair konkret misal gətirək. Güman edək ki, çay sahilində tullantılarının təmizlənməsi çətin olan və çox xərc tələb edən kimyəvi zavod yerləşir və çayı çirkləndirən əsas amildir. Çayın aşağı axınında isə

istehsal üçün təmiz su tələb edən zavod (məsələn, limonad istehsalı üçün) və kiçik bir kənd yerləşir. Kompensasiya mexanizmlərinin olmaması və çirklənmənin aradan qaldırılması şərtilə kimyəvi zavod minimal ekoloji xərcləri ilə öz məhsulunu istehsal edə bilər. Lakin belə əlavə xərclərin həmin limonad zavodu və kənd əhalisi üçün istifadə olunması daha məqsədə uyğun olardı.

**Nəticə**

Məqalənin nəticə qismində bu qənaətə gəlmək olar ki, su resurslarının iqtisadi dəyərinin artırılması və iqtisadi-ekoloji problemlərin həlli üçün həm səmərəlilik indeksinin yüksəldilməsi, həm də kompensasiya mexanizmlərinin tətbiqi labüddür. Digər tərəfdən cəmi ümumi şirin suyun hər kubmetrinə görə ÜDM-da dəyəri artırılmalıdır. Suyun iqtisadi dəyərini artırmaq üçün aşağıdakı mexanizmləri tətbiq etmək məqsədə uyğun olardı.

İqtisadi təhlilin nəticələrinə uyğun olaraq, hər bir çay hövzəsi rayonu və ya ərazisi beynəlxalq çay hövzəsi rayonunun bir hissəsi kimi fəaliyyət planı həyata keçirməli və səmərəli idarəetmə su standartlarını təmin etməlidir.

Fəaliyyət planını iki hissəyə bölmək mümkündür (əsas fəaliyyət planı və yardımçı fəaliyyət planı). Əsas fəaliyyət planına aşağıdakı funksiyaları daxil etmək olardı:

- Sudan istifadə xərclərinin ödənilməsinin həyata keçirilməsi üçün tədbirlər;
- Sudan səmərəli və davamlı istifadəni təşviq etmək üçün tədbirlər;
- İçməli su mənbələrinin mühafizəsi tədbirləri;
- Yerüstü və yeraltı sulardan suyun götürülməsinə və onların su anbarlarına yığılmasına nəzarət tədbirləri;
- Nəzarət nöqtəsi və diffuz çirklənmə mənbələri üçün tədbirlər;
- Suyun yeraltı sulara birbaşa axıdılmasına icazə verən tədbirlər;
- Prioritet çirkləndiricinin idarə olunması üçün tədbirlər;
- Səth sularında fiziki dəyişikliklərə nəzarət tədbirləri;
- Suyun vəziyyətinə təsir edən hər hansı digər fəaliyyətə nəzarət etmək üçün tədbirlər;
- Təsadüfi çirklənmənin qarşısını almaq üçün tədbirlər.

Dəstəkləyici fəaliyyət planına aşağıdakı funksiyaları daxil etmək olar:

- qanunvericilik vasitələri;
- inzibati vasitələr;
- iqtisadi və ya fiskal vasitələr;
- müzakirə edilmiş ətraf mühit sazişləri;

– emissiyalara nəzarət;
– yaxşı təcrübənin öyrənilməsi və tətbiqi;
– rekreasiya və bataqlıqların bərpası;
– suyun çıxarılmasına nəzarət.

Beləliklə məqalənin nəticə qismində belə qənaətə gəlmək olar ki, su məcəlləsinə suyun iqtisadi dəyərinin və səmərəsinin yüksəldilməsi naminə yeni standartların əlavə edilməsi labüddür. Bunlara şəhər tullantı sularının təmizlənməsi, nitratlar, içməli su, yaşayış mühitinin, vəhşi flora və faunanın mühafizəsi üzrə direktivlər, çimmək üçün su, kanalizasiya lilləri üzrə direktivlərin yenilənməsi və tətbiq edilməsi vacibdir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasi Milli Su Strategiyası, 2016.
2. Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" 16 mart 2016-cı il
3. Azərbaycan Respublikasının Ətraf mühitə dair qanunvericilik toplusu. Azərbaycan Respublikası Ekologiya və Təbii sərvətlər Nazirliyi. 2002, 1-ci cild.
4. Azərbaycan Respublikasının Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafına dair Milli Proqramı. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Bakı, 2002.
5. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji yol Xəritəsi"
6. U. Ələkbərov. İnklüziv inkişafın idarə edilməsinin əsasları. Ali məktəblər üçün dərslik. – Bakı: Təhsil, – 2018.
7. Əhmədzadə Ə.C., Həşimov A.C. Meliorasiya və su təsərrüfatı sistemlərinin kadastrı. – Bakı, 2006.
8. Əhmədov E.N. Su resurslarının davamlı idarə edilməsində dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. – №2 (102). – 2022. – s.186-198.
9. Əhmədov E. Təbiətdən istifadənin iqtisadiyyatı və proqnozlaşdırılması. Ali məktəblər üçün dərs vəsaiti. – Bakı, – 2017. – 360 s.
10. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi http://www.stat.gov.az/source/environment/
11. Elshan Ahmadov. Water resources management to achieve sustainable development in Azerbaijan. Elsevier, Sustainable Futures 2, 100030 https://www.sciencedirect.com/science/article/pii/S266618882030023X
12. Dünya bankının statistik məlumatları. https://www.worldbank.org/en/home

## ABSTRACT

## EVALUATION OF THE ECONOMIC VALUE OF WATER RESOURCES

**Ahmadov E.N.**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Ph.D. in Economics, Associate Professor*

As for the economic characteristics of water use, the analysis is carried out using different methods. Among them are comparative analysis, analysis of international statistical data, and mathematical analysis. First of all, to increase the sustainability of water resources, the management of water resources in the country should be effective and sustainable. The article describes the administrative and political base that regulates the use of water resources in the country, talking about the latest trends in the field of water supply. On the other hand, the economic value of water is studied in the article. The study shows that the added value of water for the economy of Azerbaijan is at a low level.

***Keywords:*** *water resources, water economy, economic value, sustainable development*

## РЕЗЮМЕ

# ОЦЕНКА ЭКОНОМИЧЕСКОЙ ЦЕННОСТИ ВОДНЫХ РЕСУРСОВ

**Ахмадов Э.Н.**

*Доцент кафедры «Планирование и управление устойчивым развитием» Академии Государственного Управления при Президенте Азербайджанской Республике, доктор философии по экономике*

Что касается экономической характеристики водопользования, то анализ проводится разными методами. Среди них сравнительный анализ, анализ международных статистических данных и математический анализ. Прежде всего, для повышения устойчивости водных ресурсов управление водными ресурсами в стране должно быть эффективным и устойчивым. В статье описывается административно-политическая база, регулирующая использование водных ресурсов в стране, говоря о последних тенденциях в области водоснабжения. С другой стороны, в статье изучается экономическая ценность воды. Исследование показывает, что добавленная стоимость воды для экономики Азербайджана находится на низком уровне.

***Ключевые слова:*** *водные ресурсы, водное хозяйство, экономическая ценность, устойчивое развитие*

DOI: 10.30546/mab.17.2022.173

UOT 328; 342.5; 351/354; 351

# ESTABLISHMENT AND DEVELOPMENT OF INTERNATIONAL CULTURAL RELATIONS OF AZERBAIJAN

**Farmanova A.R.**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Ph.D. in Political Science, Associate Professor*

*e-mail: farmanova.aynur@gmail.com*

*The article investigates the work carried out in the direction of protecting of cultural heritage of Azerbaijan and informing the world. Firstly, the main directions and development dynamics of Azerbaijan's cooperation with UNESCO in establishing and expanding international cultural relations are studied. In addition, on November 8, 2020, the liberation of Shusha from the invaders by the Azerbaijani Army as a result of the Second Karabakh War, as well as the restoration of the city's true historical image, traditions and ancient cultural monuments are analyzed in the article. The article examines the historical and cultural significance of Shusha, the cultural capital of Azerbaijan. In addition, the importance of international cultural events held in Shusha in terms of informing Azerbaijan's cultural heritage to the world is studied in the article. In particular, the article draws attention to the designation of the city of Shusha as the "Cultural Capital of the Turkic World" for 2023 by the Permanent Council of Ministers of Culture of TURKSOY member countries. On April 8, 2023 the importance of the closing meeting of the UNESCO National Commissions of the TURKSOY member countries in Shusha, and on May 12, the official opening ceremony of "Shusha - the cultural capital of the Turkic world - 2023" are especially noted in the article.*

***Keywords:*** *The Republic of Azerbaijan, cultural heritage of Azerbaijan, UNESCO, international relations, Karabakh, Shusha, Cultural Capital, TURKSOY*

## Establishment of international cultural relations of Azerbaijan

Azerbaijan has been involved in the activities of UNESCO in the 60s of the XX century being part of the Soviet Union. Exhibitions dedicated to “Azerbaijani carpets” (1981), “Azerbaijani manuscripts” (1985) held at

UNESCO Headquarters in Paris, and that depicting “the Architecture of Baku” held later in London, were consecutively arranged under the auspices of UNESCO. During the Soviet era UNESCO provided financial assistance to Azerbaijan in holding “A Language and a City” (1981), and “the Oriental Carpet Art” (1983), conferences. The nationwide leader of Azerbaijan Heydar Aliyev greatly contributed to the development of relations between Azerbaijan and UNESCO during the Soviet period [1, 30].

In 1983, at the First International Symposium dedicated to the “Art of the Oriental Carpet”, in Baku Haydar Aliyev member of Political Bureau of the Central Committee of the Communist Party of the Soviet Union met with the Special Adviser to the Director-General of UNESCO Mr. Frederico Mayor. This friendly relation after gaining independence influenced greatly on relation between Azerbaijan and UNESCO, and thus laid the foundation for the success of Azerbaijan in the organization [1, p.30-31].

The Republic of Azerbaijan after gaining its independence on October 18, 1991, became a member of the United Nations specialized agency UNESCO on 3 July 1992 [4, p.57-58]. The development of Azerbaijan's relations with UNESCO started in the second half of 1993, after the return of power to the nationwide leader Heydar Aliyev. Thus, the most important step in the development of Azerbaijan-UNESCO relations was the first official vizit of Heydar Aliyev to the Republic of France in 1993, which lasted from December 19 to 21, meeting the Director-General of UNESCO Federico Mayor [4, p.58; 2, p.38-40].

The next action for informing the world community about cultural heritage of Azerbaijan was Heydar Aliyev’s 20 April, 1997 Decree on celebration of the 1300 th anniversary of the “Kitabi Dede Gorgud (Book of Dede Gorgud”) [1, p.31]. 1300 th jubilee celebrations of the “Kitabi Dede Gorgud (Book of Dede Gorgud”) were held in Dresden, Moscow, in different cities of Turkey in the framework of UNESCO in 2000. These events ended with a meeting with VI Summit of Heads of Turkic Speaking Counties at the jubilee ceremony.

**Protection of cultural heritage of Azerbaijan**

The protection of cultural and natural heritage of Azerbaijan is one of the main directions of cooperation with UNESCO. In this regard, The Walled City complex of Baku city was inscribed on the UNESCO's World Cultural Heritage list in December, 2000. As a result of the earthquake in Azerbaijan, and the damage to a number of architectural monuments to the Walled City complex of Baku at the 27th session of the World Heritage Committee the Walled City complex was inscribed on the List of World Heritage in Danger of UNESCO on July 4, 2003 [7]. On June 22-30, 2009 within the 33rd session of the World Heritage Committee, the Walled City complex removed from the List of World Heritage in Danger in Seville, Spain [8]. In 2007, within the 31st session of the World Heritage Committee, Gobustan Rock Art Cultural Landscape was inscribed on the UNESCO's World Cultural Heritage list in New Zealand [9].

In 2003, Azerbaijan and UNESCO signed the Framework Agreement on cooperation in the areas of culture, science, education and communication, which allowed Azerbaijan to become one of the donors of UNESCO. This is our obligation and commitment in front of the least developed countries. According to the expert's opinion ancient Mugham lived its flourishing period at the time of Eastern Renaissance. Herein, the traditionally defined norms of art and improvisation in the creative process are striking in harmony. Following periods could not at all change the essence and meaning of this art. Nowadays Mugham exists as a spiritual wealth of the past on the other hand, it remains the art of the contemporary world. Only Mugham performers are capable of feeling this mystery by apprehension giving life to this art.

On November 7, 2003, accepted as an integral part of our nation's fundamental cultural values, the Azerbaijani Mugham was inscribed in the List of Masterpieces of the Oral and Intangible Heritage of Humanity proclaimed by UNESCO [4, p.60; 10]. On September 28 to October 2, 2009 within the 4th session of the Inter-Governmental Committee for the Safeguarding of the Intangible Heritage of UNESCO in Abu Dhabi city of the United Arab Emirates, international Nowruz holiday officially registered on the UNESCO List of the Intangible Cultural Heritage of Humanity, it should be considered an important event for Azerbaijani culture [11].

The ancient and rich culture of Azerbaijan turned from national into international level, being a part of world culture. UNESCO being a multilateral organization established mutual cooperation of different countries. As a result of it, the Republic of Azerbaijan builds and expands its ties in the educational, scientific and cultural fields with UNESCO and various countries. Not surprisingly, developing intercultural dialogue and multiculturalism among nations and to support it, is an important part of government's policy nowadays for the sake of future of all the people.

The First Vice President of the Republic of Azerbaijan, President of Heydar Aliyev Foundation, Mehriban Aliyeva's activity, global projects for the development of science, education and culture established a new stage in relations with UNESCO. It is no coincidence that this influential organization attaches great importance in cooperation with Azerbaijan over recent years and supports a number of projects. The President of the Heydar Aliyev Foundation Mehriban Aliyeva renders great services in the promotion of cultural heritage of Azerbaijan, ensures the protection of it on the national and regional levels. In order to promote the traditional classical music of Azerbaijan around the world Mrs. Mehriban Aliyeva initiated the establishment of the International Mugham Center in Baku.

In 2009, Baku was declared the capital of Islamic culture. As the establishment of Silk Road connecting East and West was laid in Baku, the capital of Azerbaijan has turned into the center for the art festivals, international, scientific conferences. On 30 July, 2010 in recognition of her selfless activities, Mrs. Mehriban Aliyeva was consecutively awarded with the Golden Mozart Medal by Director-General Irina Bokova [12].

The World Forum on Intercultural Dialogue was initiated by Ilham Aliyev the President of the Republic of Azerbaijan to host a conference of ministers responsible for culture on December 2-3, 2008, in Baku with the theme of "Intercultural dialogue as a basis for peace and sustainable development in Europe and its neighboring regions" [13].

Starting its activity since on May 10, 2004, the Heydar Aliyev Foundation has been actively participating in building a new society and contributing to the social and economic development of the country, by implementing various projects in spheres such as education, public health, culture, sports, science and technology, environment, and social and other spheres. The Heydar Aliyev Foundation has been established on the grounds of the nation's wish to express its esteem for the memory of

Heydar Aliyev, who entered our history as a builder of an independent state, and the necessity of reflecting his rich moral heritage, underlining the importance for our country of the philosophy of Azerbaijanism and cultivating the national statehood ideas in our children.

Successful projects include the opening of the International Mugham Center designed to develop and promote traditional Azerbaijani music, which was inscribed on the UNESCO Representative List of the Intangible Cultural Heritage of Humanity, and the establishment of the Museum of Modern Art, the Museum of Azerbaijan Carpets and Applied Art, and the Gala Archaeological and Ethnographic Museum Complex [3].

**Presenting Azerbaijan's cultural heritage to the world**

"The Framework Agreement on cooperation in the fields of education, science, culture and communication between the Republic of Azerbaijan and UNESCO" was signed in 2013, with the initiative and support of the First Vice President of the Republic of Azerbaijan Mrs.Mehriban Aliyeva. On November 17, 2015 at the Leaders' Forum of the 38th Session of UNESCO General Conference, dedicated to the 70th anniversary of UNESCO in Paris, Mrs. Mehriban Aliyeva emphasized global financial crisis in the world, the serious consequences of millions of people faced with racial, ethnic roots, religious discrimination and isolation [17].

The 7th Global Forum of the United Nations Alliance of Civilizations held in Baku on 25-27 April 2016, was a new stage in the promotion of Azerbaijan in the world. Heads of state and government of the member states of the UN, political leaders, partner organizations, international and regional organizations, the private sector, the representatives of arts, media and academies, including donor organizations and foundations, about 2,000 delegates representing 140 countries attended the forum [26]. The Baku Declaration was signed at the end of the event, and it became not only the political history of our country but also an important event in the history of world culture. In addition, the 7th Global Forum of the UN Alliance of Civilizations confirmed the tolerance and multicultural values of Azerbaijan once again.

In June 2018, Azerbaijan was elected a member of the UNESCO Intergovernmental Committee for the Safeguarding of the Intangible Cultural Heritage. Undoubtedly, that is the greatest achievement of our country and the indicator of Azerbaijan's reputation in the international

arena, including in UNESCO. This committee is a decision-making body for the safeguarding of the intangible cultural heritage of the peoples of the world and accepting heritage samples on the UNESCO Intangible Cultural Heritage List.

National report submitted by the side of Azerbaijan a file on "Chovqan a traditional Karabakh horse-riding game" was accepted. In addition, it is remarkable to note that "Yalli (Kochari, Tenzere), traditional group dances" of Nakhchivan Autonomous Republic have been included to the UNESCO List of Intangible Cultural Heritage in Need of Urgent Safeguarding [14]. Through the joint efforts of Azerbaijan, Turkey and Kazakhstan, "Kitabi-Dede Gorgud" (the book of Dede Gorgud): Epic culture, folk tales and music was included in the Representative List of UNESCO Intangible Cultural Heritage [15].

At the same time, it is important to note that including Azerbaijan's four multinational nominations (Nowruz Holiday, Lavas, Kamancha (a bowed string instrument), Dada Gorgud)) in the Representative List of UNESCO Intangible Cultural Heritage was great event [16].

On July 9, 2019, another prestigious event - 43rd session of the UNESCO World Heritage Committee held in Baku. 3000 representatives from more than 200 countries took part at the session. Special programs are planned within the framework of the session. These are "Young Professionals" and "Monument Managers" forums. Azerbaijan`s historic centre of Sheki with the Khan's Palace has been included to UNESCO's World Heritage List at the 43rd session of the World Heritage Committee held in Baku [18].

As a result of the exceptional services of Mrs.Mehriban Aliyev, 3 relevant tangible and 16 intangible cultural heritage have been included to the UNESCO Representative List. Based on the above mentioned facts and analysis give grounds to assert that Mrs.Mehriban Aliyeva has exceptional merits in the development of international cultural ties of Azerbaijan over the past 19 years.

## Presenting Azerbaijan's cultural heritage to the world after the Second Karabakh war

As a result of the successful offensive operation of Azerbaijan army, which began on September 27 in Karabakh, by November 9, 5 cities, 4

villages and 286 villages were liberated from occupation. With the rapid combat operations carried out within 44 days, Jabrayil city and 90 villages of district, Fuzuli city and 53 villages of district, Zangilan city, Minjivon, Aghband, Bartaz settlements and 52 villages of district, Hadrut settlement and 35 villages of Khojavand Region, 3 villages of Tartar region, Gubadli city and 41 villages of district, 9 villages of Khojaly region, Shusha City, 3 villages of Lachin district, as well as several strategic heights in Agdara and Murovdag directions, Bartaz, Sigirt, Shukurataz heights and 5 nameless heights were liberated in Zangilan [19].

On November 10, President of Azerbaijan, Prime Minister of Armenia and President of Russia signed a statement on the complete cessation of fire and all military operations in the conflict zone. According to the statement, on November 20, the Aghdam district, on November 25, the Kalbajar district and on December 1 the Lachin districts were transferred to Azerbaijan. After the cessation of military operations on November 10, the sovereign rights of Azerbaijan over other cities, settlements and villages in the territory of Karabakh were recognized, the territorial integrity of the Republic of Azerbaijan was restored [19].

On November 8, 2020, Shusha, the pearl of Karabakh which was under occupation for twenty-eight and a half years, was liberated by our brave army under the command of Commander-in-Chief Armed Forces, President Ilham Aliyev. This was the most important historical event and a great military victory among the successful counter-offensive operations carried out in 44 days. Azerbaijan's military-diplomatic successes, especially the liberation of the strategically important city of Shusha, had a serious impact on the subsequent course and fate of the war [5, p.211].

Before occupation there were more than 800 residential buildings which are considered architectural monuments and about 300 cultural and historical monuments in Shusha. In 1977, Shusha was declared Historical and Architectural Reserve on the initiative of National Leader Heydar Aliyev [5, p.19].

Shusha had more than 850 residential buildings on record as architectural sites and close to 300 items of cultural and historical heritage before the occupation.The Shusha Historical and Architectural Reserve includes such monuments as the Shusha and Shushakand Stone box graves, the end of the Bronze age and the beginning of the Iron age, the Stone Age monument Shusha cave camp, the walls of Shusha fortress of XVIII

century, Ganja gate, the palace and library of Panah Khan, tower and castle of Ibrahim Khan, the Khan palace, and caravanserai a religious school, the tomb of M.P.Vagif upper mosque, private house of Hajigulu, a two storeyed caravanserai the complex of private house of Mehmandarovs, Govhar Aga, Khojamarjanli, Mardinli, Saatli, and Kocherli mosques, the house and spring of Khurshidbanu Natavan, the house of E.B.Haqverdiyev, G.B.Zakir, M.M.Navvab, S.S.Akhundov, N.B.Vazirov, Y.V.Chemenzeminli, the house, mosque and spring of Mamay bey, the house of Behbudov, Faramazov, Zohrabbeyov and Bahman Mirza. Memorial houses of Uzeyir bey Hajibeyov and Bulbul, the houses of Khan Shushinski and tar player Sadikjan, the building of real uyezd school, "Shirin su hamami" (Sweet water bath), Meydan spring were plundered and destroyed [6, p.34].

President Ilham Aliyev said that Shusha held a special place in the history of Azerbaijan and the restoration and revival of Shusha was a matter for all of us. "Of course, all work must be done in a planned manner, the historical image of Shusha must be preserved." The head of state said that architects, historians and residents of Shusha would need to say how they want to see this city, because it is their city. The restoration of Shusha's original historical appearance and ancient cultural monuments should be in line with Azerbaijan's architectural style. The city should have a rich cultural life and our compatriots living in Shusha should return there after all work has been done. "We all want the destroyed cities to be restored soon, but they should also be comfortable for the people returning there and show the power of modern and strong Azerbaijan to the whole world" [20].

On 7 May, 2021 the Decree of President Ilham Aliyev on declaring Shusha the capital of Azerbaijani culture signed emphasizes that the reinstatement of the city's historical appearance, the restoration of its former glory and the reunion with its rich cultural life, as well as the promotion of Azerbaijan's centuries-old culture, architecture and urban planning in the international arena as the country's precious gem, are of tremendous significance. At the same time, this important document states that the historical and cultural significance and exceptional moral value of Shusha for the people of Azerbaijan require a special treatment of the city [21].

On May 12, 2021 Aliyev at the opening of the "Khari Bulbul" festival in Jidir Duzu said: "We have been looking forward to this day for 30 years. We have lived with a longing for the Motherland for 30 years. We had to

reconcile with this injustice for 30 years, but we did not put up with it. We were always saying that we would never come to terms with this situation and that we would liberate our native lands from the occupiers at any cost, and we did exactly that: “The “Kharibulbul” Music Festival, held this year for the first time after a long break, is dedicated to the memory of our martyrs. We are indebted to our heroic soldiers. We are indebted to the people of Azerbaijan. Our people united and showed solidarity, or people united like a fist, and this victory was won by the people of Azerbaijan. This is a victory for all of us” [22].

Several events took place in Shusha, and the town's master plan was presented there on August 29-30, 2021. Importantly, the tomb of the genius Azerbaijani poet and public figure Molla Panah Vagif was inaugurated with Heydar Aliyev's participation on January 14, 1982, and was demolished after the capture of Shusha on May 8, 1992. The museum and tomb complex were reopened after restoration and renovation on 29 August; the bust of the poet was reinstalled in the place where his house had been [6, p.48-49].

Also, the work to be carried out in the memorial house of Uzeyir Hajibeyli, founder of professional music art, a prominent composer and public figure with great services in the development of the musical culture of Azerbaijan was checked out. Hajibeyov's then-destroyed statute and the work to be done on it underwent inspection as well. And the Shusha memorial house of the genius Bulbul who played an essential role in the formation and evolution of the vocal school, already restored, was opened there and then.

The town of Shusha was declared the “Cultural Capital of the Turkic World” in 2023 at the meeting of the Standing Council of Ministers of Culture of the International Organization of Turkic Culture (TURKSOY) held in Bursa, Turkiye on March 31, 2022 [6, p.112].

On 7 April, 2023 the opening ceremony of the 9th meeting of the National Commissions for UNESCO of the TURKSOY Member States co-organized by Azerbaijan’s National Commission for UNESCO under the President of the Republic of Azerbaijan, the International Organization of Turkic Culture (TURKSOY), ADA University and the Institute for Development and Diplomacy (IDD) of the University, was held in Baku. During the opening ceremony the chairmanship of the National Commissions for UNESCO of TURKSOY member states has been

transferred from Turkish National Commission for UNESCO to Azerbaijan's National Commission for UNESCO [23].

On April 8, the closing ceremony of the 9th meeting of the UNESCO National Commissions of TURKSOY member countries was held in Shusha. After listening to the seminars and experts' opinions covering tangible and intangible cultural heritage, natural heritage protection and education issues, the National Commissions for UNESCO of TURKSOY member countries the final statement of the 9th Meeting which was held in Azerbaijan was accepted in Shusha the cultural capital of the Turkic world for 2023 [24].

On May 12, 2023, the official opening ceremony of "Shusha - the cultural capital of the Turkic world - 2023" was held in the city of Shusha jointly organized by the Ministry of Culture of the Republic of Azerbaijan and TURKSOY [25].

It should be noted that the liberation of lands of Azerbaijan from occupation the 44-day Second Karabakh War not only became a source of pride for Azerbaijan, the Turkish states, and peoples as a whole, but also impacted to further strengthening of Turkic unity. As a result, it is neccesary to note the importance of the international events held in Shusha, after the liberation of lands of Azerbaijan from occupation in the Second Karabakh War.

From this point of view, it is very important for foreign experts, researchers, especially public figures who visit the liberated territories to witness the acts of vandalism committed by the Armenians during the occupation, especially the brutal destruction of the historical architectural monuments of Azerbaijan. In addition, informing the international community about the large-scale reconstruction work in the liberated territories, and Azerbaijan's cultural heritage to the world are very important.

**References:**

1. Azerbaijan-UNESCO: Partnership Based on Human Rights/ Chairman of the editorial board: the Commissioner for Human Rights (Ombudsman) of the Republic of Azerbaijan Professor Elmira Suleymanova, Rumzada R. R, Baku, 2014, 287 p.

2. Heydar Aliyev introducing Azerbaijan to the world /Compiler: I. Shukurov/. Baku, 1994, 175 p.
3. Фонд Гейдара Алиева – основа успехов. Интервью первой леди Азербайджана Мехрибан Алиевой журналу “The Business Year” // Бакинский рабочий. – 2014. – 15 мая.
4. Микеладзе Г. Гражданский подвиг Рамиза Абуталыбова: пути и судьбы эмиграции. – Баку, – 2010. – 72 с.
5. Daniel Pommier, Elchin Ahmadov. Shusha - Capitale culturale dell' Azerbaigian. Sandro Teti. – Roma. – 286 p.
6. Ahmadov E. Shusha - historical and strategically important cultural capital of Azerbaijan. – Baku: “Zərdabi Nəşr” MMC. – 2022. – 472 p.
7. World Heritage Committee. Twenty-seventh session. Paris, UNESCO Headquarters, Room XII. 30 June - 5 July 2003. - http:// www.whc.unesco.org/en/107/
8. World Heritage List. - http:// www.whc.unesco.org/en/decisions/1785
9. World Heritage List. - http:// www. whc.unesco.org/en/list/1076
10. World Heritage List. - http://www.unesco.org/culture/ich/en/RL/azerbaijani-mugham-00039
11. International Day of Nowruz. - https://en.unesco.org/commemorations/nowruzday
12. Azerbaijan and UNESCO. - https://mfa.gov.az/en/content/169/yunesko
13. “Intercultural dialogue as a basis for peace and sustainable development in Europe and its neighbouring regions”. - http://www.coe.int/t/dg4/cultureheritage/culture/baku/BakuReader.pdf.
14. Yalli (Kochari, Tenzere), traditional group dances of Nakhchivan. - https://ich.unesco.org/en/USL/yalli-kochari-tenzere-traditional-group-dances-of-nakhchivan-01190
15. Heritage of Dede Qorqud/Korkyt Ata/Dede Korkut, epic culture, folk tales and music. - https://ich.unesco.org/en/RL/heritage-of-dede-qorqud-korkyt-ata-dede-korkut-epic-culture-folk-tales-and-music-01399
16. Elements on the Lists of Intangible Cultural Heritage. - https://ich.unesco.org/en/state/azerbaijan-AZ?info=elements-on-the-lists&fbclid=IwAR07aXvF78hpGtE6pAUsCPcCcN5G9u6ZQy0j5TY8t4-cguSYn9TKIpWdJ20
17. President Ilham Aliyev attended the Leaders' Forum of the 38th Session of UNESCO General Conference. -

https://azertag.az/en/xeber/President_Ilham_Aliyev_attended_the_Leaders_039_Forum_of_the_38th_Session_of_UNESCO_General_Conference_VIDEO-903008 - 17.11.2015
18. Historic Centre of Sheki with the Khan’s Palace. - https://whc.unesco.org/en/list/1549
19. Liberated from occupation Azerbaijani cities and villages - https://azerbaijan.az/en/related-information/308
20. Speech by Ilham Aliyev at the opening of “Kharibulbul” Festival in Shusha - https://en.president.az/articles/51466 - 12.05.2021
21. President Ilham Aliyev laid foundation stones for Fuzuli-Shusha highway and Fuzuli airport in Fuzuli district, visited the city of Shusha. https://azertag.az/en/xeber/President_Ilham_Aliyev_laid_foundation_stones_for_Fuzuli_Shusha_highway_and_Fuzuli_airport_in_Fuzuli_district_visited_the_city_of_Shusha_VIDEO-1688553 - 15.01.2021
22. The Order of the President of the Republic of Azerbaijan on declaring the city of Shusha as the cultural capital of Azerbaijan. - https://azertag.az/xeber/Susa_seherinin_Azerbaycanin_medeniyyet_paytaxti_elan_edilmesi_haqqinda__Azerbaycan_Respublikasi_Prezidentinin_Serencami-1775545 - 07.05.2021
23. Chairmanship of UNESCO National Commissions of TURKSOY member states passes from Türkiye to Azerbaijan. – 07.04.2023. – https://azertag.az/en/xeber/Chairmanship_of_UNESCO_National_Commissions_of_TURKSOY_member_states_passes_from_Turkiye_to_Azerbaijan-2562689
24. 9th meeting of UNESCO National Commissions of TURKSOY member states wraps up in Shusha. – 08.04.2023. – https://azertag.az/en/xeber/9th_meeting_of_UNESCO_National_Commissions_of_TURKSOY_member_states_wraps_up_in_Shusha-2564225
25. Shusha hosts official opening ceremony of “Year of Shusha – the Cultural Capital of the Turkic World 2023”. – 12.05.2023. – https://azertag.az/en/xeber/Shusha_hosts_official_opening_ceremony_of_Year_of_Shusha___the_Cultural_Capital_of_the_Turkic_World_2023_VIDEO-2613695
26. “Azerbaijan” newspaper, Baku, April 26, 2016

## XÜLASƏ

## AZƏRBAYCANIN BEYNƏLXALQ MƏDƏNİ ƏLAQƏLƏRİNİN QURULMASI VƏ İNKİŞAFI

**Fərmanova A.R.**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının dosenti,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

Məqalədə Azərbaycanın mədəni irsinin qorunması və dünyada tanıdılması istiqamətində görülən işlər geniş təhlil edilir. İlk növbədə, Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin qurulması və genişlənməsi istiqamətində YUNESKO ilə əməkdaşlığının əsas istiqamətləri və inkişaf dinamikası tədqiq olunur. Bununla yanaşı, məqalədə İkinci Qarabağ müharibəsi nəticəsində 2020-ci il noyabrın 8-də Azərbaycan Ordusu tərəfindən Şuşanın işğalçılardan azad edilməsi, eləcə də şəhərin əsl tarixi siması, ənənələri və qədim mədəni abidələrinin bərpası istiqamətində aparılan işlər təhlil edilir. Məqalədə Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın tarixi və mədəni əhəmiyyəti tədqiq edilir. Bununla yanaşı, Şuşada Azərbaycanın mədəni irsinin dünyaya çatdırılması baxımından keçirilən beynəlxalq mədəni tədbirlər əhəmiyyəti öyrənilir. Xüsusilə, məqalədə TÜRKSOY-a üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının tərəfindən Şuşa şəhərinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” seçilməsi diqqətə çatdırılır. 2023-cü il aprelin 8-də Şuşa şəhərində TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının yekun islasının və mayın 12-də “Şuşa–Türk dünyasının mədəniyyət paytaxtı – 2023” ilinin rəsmi açılış mərasiminin keçirilməsinin əhəmiyyəti xüsusi qeyd edilir.

*Açar sözlər: Azərbarbacan Respublikası, Azərbaycanın mədəni irsi, YUNESKO, beynəlxalq münasibətlər, Qarabağ, Şuşa, Mədəniyyət paytaxtı, TÜRKSOY*

## РЕЗЮМЕ

# СОЗДАНИЕ И РАЗВИТИЕ МЕЖДУНАРОДНЫХ КУЛЬТУРНЫХ ОТНОШЕНИЙ АЗЕРБАЙДЖАНА

**Фарманова А.Р.**

*Доцент Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по политическим наукам*

В статье широко анализируются работы, проводимые в направлении защиты культурного наследия Азербайджана и его представления миру. Прежде всего, изучаются основные направления и динамика развития сотрудничества Азербайджана с ЮНЕСКО в направлении установления и расширения международных культурных связей. Кроме того, в статье анализируется освобождение Шуши от оккупантов Азербайджанской Армией 8 ноября 2020 года в результате Второй Карабахской войны, а также восстановление истинного исторического облика города, традиций и древних памятников культуры. В статье рассматривается историческое и культурное значение Шуши, культурной столицы Азербайджана. Кроме того, изучается значение международных культурных мероприятий, проводимых в Шуше, с точки зрения донесения культурного наследия Азербайджана до мира. В частности, в статье обращается внимание на избрание города Шуши «Культурной столицей тюркского мира» на 2023 год Постоянным советом министров культуры стран-членов ТЮРКСОЙ. Особо отмечена важность проведения 8 апреля 2023 года в Шуше итогового заседания национальных комиссий стран-членов ТЮРКСОЙ по делам ЮНЕСКО и официальной церемонии открытия 12 мая «Шуша – культурная столица тюркского мира – 2023».

***Ключевые слова:*** *Азербайджанская Республика, культурное наследие Азербайджана, ЮНЕСКО, международные отношения, Карабах, Шуша, культурная столица, ТЮРКСОЙ*

DOI: 10.30546/mab.17.2022.187

UOT 327; 930.22

# İŞĞALDAN AZAD OLUNMUŞ BÖLGƏLƏRDƏ ERMƏNİ VANDALİZMİNİN İFŞASI VƏ QURUCULUQ SİYASƏTİ

**Məmmədov Z.V.**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Politologiya və siyasi idarəetmə" kafedrasının baş müəllimi*

*e-mail: zaur.mammadov@dia.edu.az*

*Məqalədə 44 günlük müharibədən sonra Azərbaycan Respublikasının Qarabağ və Şərqi Zəngəruzdakı siyasəti təhlil edilir. Rəsmi Bakı tərəfindən işğaldan azad edilmiş ərazilərdə erməni vandalizminin ifşası göstərilir, hökumət tərəfindən aparılan bərpa işləri də araşdırılır.*

***Açar sözlər:*** *Xarici siyasət, informasiya müharibəsi, erməni vandalizmi, beynəlxalq ictimaiyyət, aşkara çıxarma siyasəti, bərpa işləri, Şərqi Zəngəzur, Qarabağ*

Məlumdur ki, 2020-ci ilin payızı iki əsrə qədər davam edən azərbaycanlıların faciəvi tarixinin sonu, tarixi ədalətin bərpası və qələbəsi idi. XIX əsrin əvvəllərindən başlayaraq xalqımızın dövlətçilik ənənəsinə vurulan zərbə, doğma coğrafiyamızda bizləri iki yerə parçalama gələcəkdə xalqımızı çətin vəziyyətə salacaq və torpaqlarımızda erməni dövlətinin qurulmasına kömək edəcəkdi. 1827-ci ilin aprelin 27-də Xüdafərin körpüsünün işğal edilməsi Azərbaycan xalqının iki yerə parçalanmasının Türkmənçay müqaviləsinə kimi əsas dayaq nöqtələrindən idi. Məhz həmin dövrdən azərbaycanlıların tarixində yeni mərhələ – erməni işğalı səhifəsinə start verildi. Mütəmadi olaraq Azərbaycan torpaqlarının ermənilərə bəxş edilməsi onları daha da şirnikləşdirdi və nəticədə dayanmaq bilməyərək daha çox ərazinin işğalını qarşılarına məqsəd qoymuşdular. Hətta, 2020-ci ilin 44 günlük müharibəsi ərəfəsində erməni şovinistləri və faşistləri ötən iki əsr ərzində əldə etdikləri ilə kifayətlənmək fikrində deyil, əksinə "yeni torpaqlar uğrunda yeni müharibə" şüarı ilə digər ərazilərimizi də işğal etməyi və nəticədə "Böyük Ermənistan" layihəsini həyata keçirməyi planlaşdırırdılar. Lakin, Azərbaycan Prezidenti İlham Əliyevin dəqiq konseptual analizi, xarici siyasətə sistemli baxışı, rasional və soyuqqanlı xarici siyasət davranışı iki əsr davam edən tarixin qara səhifələrini arxada buraxaraq uzun müddətdən sonra ölkəmizə və xalqımıza böyük qələbə bəxş elədi.

Əgər beynəlxalq münasibətlərə və münaqişələrə dair elmi yanaşmalara nəzər salsaq hər bir dövlət başqa dövlətin fəaliyyətinə bir neçə metodla nəzarət edir. İnandırma, şirnikləşdirmə, cəzalandırma və məcburetmə [1, s.137]. Son illərdə Azərbaycan Respublikası işğal faktorunun aradan qaldırılmasında beynəlxalq aləmin dəstəyini almaq üçün bu istiqamətlərin hər birindən maksimum şəkildə məhsuldar şəkildə istifadə etdi. Nəticədə, 44 günlük müharibə ərzində bəzi beynəlxalq dairələrin kəskin mövqeyinə baxmayaraq rəsmi Bakı qalib gələrək müharibənin nəticəsinin beynəlxalq aləm tərəfindən tanınmasına nail oldu.

Hazırda Ermənistan Respublikası, erməni diasporası və kilsəsi ilə davam etməkdə olan informasiya mübarizəsi kontekstində əsas hədəflərdən biri tarixi həqiqətin möhkəmləndirilməsi, üç onillik ərzində torpaqlarımızda xalqımıza qarşı aparılan maddi – mənəvi terrorun ifşa edilməsidir.

Azərbaycan Respublikası 44 günlük müharibədən sonra azad olunan rayonlar vasitəsilə Ermənistanın işğalçılıq siyasətinin ifşa etdirilməsi üçün əsas arqumentlərdən birini əldə etdi. 30 il ərzində xarabalığa çevrilən, yerlə-yeksan edilən yaşayış məskənlərinin vəziyyəti, orada xalqımızın mədəni, dini irsinin məhv edilməsi kimi ümumbəşəri sayılacaq cinayətlər Ermənistan Respublikasının beynəlxalq aləmdə ifşası üçün vacib sübutlar idi. Bunun da nəticəsidir ki, 2020-ci ilin 10 noyabr Üçtərəfli Sazişindən sonra xarici siyasət fəaliyyətimizdə işğal vaxtı ermənilər tərəfindən torpaqlarımızda aparılan vandalizm aktlarının ölkəmizdə akkreditasiya olunan səfirliklərin nümayəndələrinə, beynəlxalq təşkilatçıların təmsilçilərinə və xarici jurnalistlərə göstərilməsi istiqamətində ardıcıl işlər aparılmaqdadır. Ermənistanın iddia etdiyi Qarabağ və Şərqi Zəngəzur torpaqlarının 30 illik dövrdəki acı aqibəti fonunda, Azərbaycan hökumətinin 44 günlük müharibədən 3 ilə yaxın vaxt keçməsinə baxmayaraq bölgəni cənnət guşələrindən birinə çevirməsi üçün atdığı addımlar, orada yenidənqurma və bərpa işlərinin surətlə həyata keçirilməsi bu ərazilərin həqiqi sahibinin kim olduğunu və torpağa necə yanaşdığının beynəlxalq aləm qarşısında bariz nümunəsi idi.

Məlumdur ki, Azərbaycan Prezidenti İlham Əliyev Vətən müharibəsi bitər – bitməz üç ilə yaxındır ki, mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına səfərlər edir, yenidənqurma və bərpa işləri ilə şəxsən tanış olur, göstərişlər verir. Həmin səfərlərin birində dövlət başçımız tamamilə doğru şəkildə erməni generallarının və işğalçılarının vəhşiliyini qeyd etmişdir: "Vəhşilər bizim şəhərimizi nə günə salıblar?! Dağıdıblar, evləri dağıdıblar, bütün infrastrukturu dağıdıblar, bir dənə də salamat bina yoxdur. Bütün dünya görməlidir erməni vəhşiliyi nə deməkdir və bütün dünyaya biz bunu göstərəcəyik. Təkcə Füzuli yox, Ağdam şəhəri nə gündədir, başqa şəhərlər. Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib" [2].

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidentinin müvafiq tapşırığı əsasında, 10 noyabr Üçtərəfli Sazişin imzalanmasından sonra müntəzəm

olaraq ölkəmizdə akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin işğaldan azad edilmiş ərazilərimizə səfərləri təşkil olunur. Diplomatik nümayəndəliklər yerindəcə bu torpaqlara özününkü deyən kəslərin törətdikləri vandalizm aktları, Azərbaycan xalqının maddi və mənəvi irsinin məhv edilməsi ilə tanış olurlar. Diplomatik nümayəndəliklər ilə bu səfərlərdə iştirak edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev məsələnin aktuallığına toxunaraq qeyd edir ki, “bu kimi səfərlər olduqca əhəmiyyətlidir. Diplomatlar real faktlar ilə yerində tanış olmaq imkanı əldə etdilər. Səfirlərin tam dolğun məlumatla təmin olunması onların təmsil etdikləri ölkələrin düzgün məlumatlandırılması və yalan və qərəzli siyasi kampaniyaların qarşısının alınmasıdır. Bu, bir daha Azərbaycanın bu kimi məsələlərdə açıqlığını və şəffaflığını göstərir” [3].

İşğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası fonunda, həm də, ermənilərin apardığı vandalizm siyasətinin ifşası bu gün ölkəmizə qarşı qarayaxma kampaniyası aparan və rəsmi Bakını erməni maddi – mənəvi irsinə qarşı guya ki cinayətlər törətməkdə ittiham edən Ermənistan Respublikasının ifşası üçün olduqca əhəmiyyətlidir. Bölgəyə səfər edən qonaqlar yaşayış məskənlərinin işğal dövründə məhv edilməsi ilə tanış olduqca öz heyrətlərini gizlətmir, bunun əvəzində Azərbaycan dövlətinin belə qısa zaman ərzində böyük quruculuq işlərinin gördüyünə yüksək qiymət verirlər.

Ağdama səfəri zamanı Somalinin Azərbaycandakı yeni təyin olunmuş səfiri Cama Abdullahi Mohammed gördüklərindən heyrətə gələrək “bir tərəfdən məhv edilmiş və əhalisi qaçmağa məcbur qalmış şəhəri görürük. Buna görə bu şəhərin kədərli bir tarixə sahib olması təəssüratı yaranır. Ancaq sevindirici təəssürat odur ki, əhali bura qayıdır və onlar burada şəhərlərini yenidən quracaqlar”, qeyd edir [4].

İtaliyanın Azərbaycandakı səfiri Klaudio Taffuri isə, azad olunmuş Ağdam haqqında danışarkən aşağıdakıları qeyd edib: “Ağdam şəhərində hər şey məhv edilib. Bu şəhərin böyük ağrısını hiss etmək, insanların burada əziyyət çəkdiyini görmək mümkündür. İndi yenidən başlamağın, yenidənqurma barədə düşünməyin vaxtıdır. Bir çox İtaliya şirkəti buna hazırdır və yenidənqurma işində iştirak etməyə ümidvardırlar” [4].

İsrailli mərhum ekspert Arye Qut 44 günlük müharibədən sonra Şuşaya səfər zamanı “mən erməni vəhşiliyinin və vandalizminin nəticələrini gördüm” bildirmişdir [5].

Yuxarıda xarici nümayəndələr, işğaldan azad olunmuş ərazilərə səfər edən və orada həqiqəti öz gözləri ilə görən və bunu bəyan edənlərin sadəcə bir hissəsidir. 2021-2023-cü illər ərzində onlarla tanınmış xarici jurnalist, ekspert, diplomat Qarabağ və Şərqi Zəngəzur bölgələrinə səfər etmiş, bir tərəfdən yerlə - yeksan olunan şəhərləri görmüş, dağıdılan abidələr, qəbiristanlıqlar, mülki evlərə şahidlik etmiş, digər tərəfdən isə, Azərbaycan hökumətinin qısa vaxt

ərzində ermənilər tərəfindən dağıdılan yaşayış məskənlərində apardığı işlərlə tanış olmuşlar. Sözsüz, kifayət qədər intellektə malik qonaqların səfərləri zamanı keçmişi (işğal dönəmi) və bu günü (azad olunmuş torpaqlarda quruculuq işləri) müqayisə etmələri onların və ətraflarının Qafqazdakı hadisələrə dair bir çox hallarda baxış bucaqlarını bütövlükdə dəyişdi. Dünənə qədər erməni mifinə inanan bu və ya digər fəallar son 3 ilə yaxın dövr ərzində həqiqətin əslində necə olduğunu görmüş oldular.

Sirr deyil ki, yerlə-yeksan edilmiş yaşayış məskənlərinin sıfırdan yenidən salınması, dağıdılmış və məhv edilmiş tarixi – mədəni abidələrin bərpası, ekoloji terrorunun fəsadlarının aradan qaldırılması, minalanmış ərazilərin təmizlənməsi və ən nəhayət böyük qayıdış planının həyata keçirilməsi milyardlarla dollar vəsait tələb edir. Daxili investisiyalar, dövlət büdcəsi hesabına ərazilərin yenidənqurma və bərpası hal-hazırda dövlətimiz üçün əsas prioritet istiqamətdir. Əgər rəsmi statistik göstəricilərə nəzər salsaq, 2021-ci ildə işğaldan azad olunmuş rayonlardakı tikinti-quraşdırma işlərinə 2.2 milyard manat ayrılmışdısa, 2022-ci ildə bu göstərici 2 milyard 700 milyon manat təşkil etmişdi, bu il isə dövlət büdcəsində Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinə artıq iki milyard manat xərclənib [6], [7].

Belə bir az vaxt keçməsinə baxmayaraq, indiyə qədər Şərqi Zəngəzur və Qarabağda 11 su elektrik stansiyası inşa edilib, uzunluğu 2241 km təşkil edən 11 avtomagistralın tikintisi davam edir, Füzulidə hava limanı istifadəyə verilib. 9-dan çox şəhərin yenidən qurulması və bərpası, ilkin mərhələdə 300-dən çox qəsəbə və kəndlərin qurulması, əlbəttə ki, olduqca mühüm və çətin prosesdir.

Eyni zamanda qeyd edilməlidir ki, Zəngəzur dəhlizinə istiqamətlənən yolların çəkilişi ilə eyni vaxtda həm də beynəlxalq miqyaslı müxtəlif layihələrin həyata keçirilməsi planlaşdırılır. Misal üçün, bu yaxınlarda Cəbrayılda eyniadlı qovşaq yarımstansiyası istifadəyə verilib. Naxçıvan vasitəsilə Türkiyəyə, oradan isə Avropaya ixracı nəzərdə tutulan elektrik enerjisinin verilməsi nəzərdən keçirilir. Sözsüz ki, gələcəkdə həm enerji resurslarının, həm də müxtəlif sahələrdə Qərb və Şərq, Cənub və Şimal arasında ticarətin Azərbaycanın tarixi torpaqları vasitəsilə keçməsi Qərb üçün ölkəmizin əhəmiyyətini daha da artırmış olacaq [8].

Son 3 ilə yaxın dövr ərzində görülən işlər Azərbaycanın dünya səviyyəsində müharibədən sonra yerlə-yeksan olmuş torpaqlarda intensiv işləri aparan nadir ölkələr siyahısına aid edir. Sözsüz ki, bunun bir səbəbi var, siyasi iradə, iqtisadi-siyasi suverenlik və hədəflərə dair sistemli yanaşma. Azərbaycan yalnız öz daxili resursları hesabına milyardlarla dollar vəsait sərf etməklə Şərqi Zəngəzur və Qarabağda misligörünməmiş ən müasir standartlara cavab verən innovativ yenidənqurma işləri aparır. Təkcə yaşayış məskənlərinin salınmasına nəzər yetirsək Zəngilanın Ağalı kəndi timsalında Qafqazda ilk "ağıllı yaşayış məskəni" konsepsiyasının həyata keçirildiyini böyük iftixarla qeyd edə bilərik.

Yenidənqurma və abadlıq işlərinin aparıldığı dövrdə demək olar ki mütəmadi olaraq Azərbaycan tərəfi ermənilərin xalqımıza vurduğu zərbələri faktlarla ortaya qoyur. AMEA Bakıxanov adına Tarix institutunun əməkdaşı Faiq İsmayılov təkcə Tuğ kəndində ermənilər tərəfindən 1737-ci ilə aid tarixi eksponatların oğurlandığıyla yanaşı həm də iyirmi səhifəlik kitabənin də yoxa çıxdığını qeyd edir [9].

İşğal dövründə erməni vəhşiliyinin bariz nümunəsi kimi onların azərbaycanlıların qəbirlərinə qarşı törətdikləri vandalizm aktlarını qeyd etmək olar. Dünyanın tanınmış fotoqraflarında olan Reza Deqati Ağdama səfəri zamanı gördüklərindən dəhşətə gələrək aşağıdakıları qeyd etmişdir: "Onlar qəbirləri ekskavatorla qazaraq qızıl dişlər axtarıblar. Məzarlıqların bu cür kütləvi şəkildə dağıdılması tarixboyu görünməyən hadisədir. Buradan BMT-yə müraciət edirəm ki, bu məsələyə diqqət yetirsinlər" [10].

İnsanlıq əleyhinə bu cinayətlər bəzi ermənilər tərəfindən də etiraf edilməkdədir. Misal üçün, erməni publisist və bloger Nairi Axverdi öz sosial şəbəkə səhifəsində Birinci Qarabağ müharibəsi zamanı generalların qəbirlərlə rəftarına toxunaraq qeyd edir ki, " 40 yaşlı veteran mənə danışdı ki, müharibə zamanı komandiri azərbaycanlıların məzarlarını qazıb, orda qızıl dişləri axtarmaq üçün onlara əmr vermişdi. Veteranın sözlərinə görə, komandirin və əsgər yoldaşlarının acgözlük və "məzar həvəsi" çox qorxuducu idi..." [11].

Beləliklə, 44 günlük müharibədən sonra Azərbaycan hökumətinin atdığı addımlar dünyada işğalın, terrorun, soyqırımların bir daha təkrarlanmamasına yönəlib. Rəsmi Bakı, bu gün beynəlxalq münasibətlər sistemində dövr edən baxış bucağının, ümumbəşəri maraqlar, kollektiv təhlükəsizlik, beynəlxalq cinayətlərin hüquqi tənzimlənilməsi kimi şüarların real politikada həyata keçirilməsi üçün əməli addımlar atır. Yuxarıda qeyd edilən cinayətlərin bir daha dünyanın hansısa xalqına qarşı törədilməməsi üçün mütləq şəkildə beynəlxalq ictimaiyyət tərəfindən kollektiv və sistemli yanaşmalara və atılması nəzərdə tutulan addımlara ehtiyac var. Azərbaycanın dağıdılmış və viran edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrini yenidənqurması, abadlaşdırması, gələcəkdə sabit Qafqaz üçün olduqca vacibdir.

Azərbaycan Respublikası bu gün öz xarici siyasət fəlsəfəsində nəzəriyyə və təcrübə arasında sıx vəhdəti tapmağı bacararaq onların ardıcıl və sistemli şəkildə həyata keçirilməsinə müvəffəq olmuşdur. Bunun da nəticəsidir ki, getdikcə dünyanın daha çox dövlətləri və institutları ermənilərin işğal vaxtı törətdikləri cinayətlər haqqında tanış olaraq hayların ölkəmizə qarşı yalanlarına inanmamağa başlayıb. Uzun müddət ərzində ölkəmizi xristian dini abidələri dağıtmaqda günahlandıran, erməni mədəni abidələrinə qarşı cinayət törətməkdə günahlandıran erməni təbliğatı hazırda ciddi böhran keçirtməkdədir.

**Ədəbiyyat:**


1. Ağalar Abbasbəyli, Etibar Nəcəfov. Beynəlxalq münasibətlər nəzəriyyəsi. – Bakı, – 2007. – s.139.
2. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar. Azərbaycan Respublikası Prezidentinin saytı. https://president.az/az/articles/view/46840
3. Hikmət Hacıyev xarici diplomatların işğaldan azad edilmiş ərazilərə səfərlərinin təşkilinin məqsədini açıqlayıb. İki sahil qəzeti. [Elektron resurs] https://ikisahil.az/post/233345-hikmet-haciyev-xarici-diplomatlarin-ishgaldan-azad-edilmish-erazilere-seferlerinin-teshkilinin-meqsedini-achiqlayib
4. Diplomatların Ağdamda gördükləri erməni vəhşiliyi. Yeni müsavat qəzeti. [Elektron resurs].https://musavat.com/news/diplomatlarin-agdamda-gorduyu-ermeni-vehsiliyi-dunya-heqiqetleri-anlayacaq_807350.html. [15.06.2021]
5. İsrailli ekspert: Şuşaya səfər zamanı mən erməni vəhşiliyinin və vandalizminin nəticələrini gördüm. Azərbaycan qəzeti. [Elektron resurs] https://azerbaijan.az/news/9673. [08.07.2022]
6. Altı ayda dövlət büdcəsindən Qarabağa 2 milyard manat xərclənib. Marja biznes və maliyə xəbər agentliyi. [Elektron resurs] https://marja.az/105536/6-ayda-dovlet-budcesinden-qarabaga-2-milyard-manat-xerclenib
7. Qarabağ və Şərqi Zəngəzur cənnətə çevrilir. Azərbaycan qəzeti. [Elektron resurs] https://www.azerbaijan-news.az/az/posts/detail/qarabag-ve-serqi-zengezur-cennete-cevrilir-1683329667
8. İlham Əliyev 330 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyasının açılışını edib. Azərbaycan Respublikasının Prezidentinin saytı. https://president.az/az/articles/view/59605
9. Ermənilərin oğurladığı xüsusi dəyərə malik eksponatlar. Azərbaycan qəzeti. [Elektron resurs]. https://www.azerbaijan-news.az/az/posts/detail/ermenilerin-ogurladigi-xususi-deyere-malik-azerbaycan-eksponatlari-1689622872
10. Reza Deqati. Onlar qəbirləri qazıb ekskavatorla qazaraq qızıl dişlər axtarıblar. Moderator saytı. [Elektron resurs] https://moderator.az/msahib/364353/reza-deqati-dunya-ermenilerin-bu-vandalliina-teecuble-yanasir/. [08.02.2021]
11. Наири Ахверди. Как армянские командиры приказывали раскапывать азербайджанские могилы ради золотых зубов. Сайт Корреспондент.аз.

[Elektron resurs] https://korrespondent.az/news/blogersa-rasskazala-kak-armyanskie-komandiry-prikazyvali-raskapyvaty-azerbaydjanskie-mogily-radi-zolotyh-zubov/35229 [12.06.2021]

## ABSTRACT

## EXPOSURE OF ARMENIAN VANDALISM AND RESTORATION WORK IN THE LIBERATED TERRITORIES

**Mammadov Z.V.**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of Political Science and Political Management, Senior Lecturer*

The article analyzes the policy of the Republic of Azerbaijan in Karabakh and Eastern Zangezur after the 44-day war. The exposure of Armenian vandalism by official Baku in the liberated areas is presented, and the restoration work carried out by the government is also examined.

***Keywords:*** *foreign policy, information war, Armenian vandalism, international community, revealing policy, restoration work, Eastern Zangezur, Karabakh*

## РЕЗЮМЕ

## РАЗОБЛАЧЕНИЕ АРМЯНСКОГО ВАНДАЛИЗМА И ВОССТАНОВИТЕЛЬНЫЕ РАБОТЫ В ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ

**Мамедов З.В.**

*Старший преподаватель кафедры "Политологии и политического управления" Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

В статье анализируется политика Азербайджанской Республики в Карабахе и Восточном Зангерузе после 44 дневной войны. Показаны разоблачение армянского вандализма официальным Баку в освобожденных районах, также рассмотрены восстановительные работы, проводимые правительством.

***Ключевые слова:*** *внешняя политика, информационная война, армянский вандализм, международное сообщество, разоблачительная политика, восстановительная работа, Восточный Зангезур, Карабах*

DOI: 10.30546/mab.17.2022.195

UOT 328; 342.5; 351/354;351

# QORUNAN ƏRAZİLƏRİN TƏBİİ EHTİYATLARIN OPTİMAL İDARƏEDİLMƏSİ VƏ DAVAMLI İNKİŞAFDA ROLU

**Qubadov M.N.**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*"Davamlı inkişafın planlaşdırılması və*
*idarə edilməsi" kafedrasının doktorantı*

*e-mail: mirtalib_gubadov@mail.ru*

*Təbii sərvətlərin qorunması və onlardan davamlı istifadə XXI əsrin ən mühüm və qlobal problemlərindən olmaqla, dövlətlərin həllini vacib hesab etdiyi prioritet məsələlərdən biridir. Təbii sərvətlərin və ümumi ekoloji sistemin ayrılmaz hissəsi olan bioloji müxtəliflik çox mühüm, lakin hələ də tam qiymətləndirilməmiş zəngin ehtiyat mənbəyidir. Son zamanlar planetimizdə antropogen fəaliyyət nəticəsində ekosistemlər deqradasiyaya uğramış, bir çox flora və fauna növləri isə məhv olmuş və ya onların sayı kəskin surətdə azalmışdır. Bioloji müxtəlifliyin belə sürətli itkisi Yer kürəsini və bütövlükdə canlı aləmi ciddi təhlükədə qoymaqla, qlobal faciəyə səbəb ola bilər. Hazırki məqalədə Azərbaycan Respublikasında bioloji müxtəlifliyin və ekosistemlərin qorunmasına xidmət edən qorunan ərazilərin, onların turistik və ekoturistik potensialı, davamlı inkişafdakı əhəmiyyəti araşdırılır.*

***Açar sözlər:*** *davamlı inkişaf, qorunan ərazilər, təbii ehtiyatlar, bioloji müxtəliflik, meşə sahələri.*

Müasir dövrün inkişaf istiqamətlərinin əsasında tərəqqi prosesinin davamlı olması prinsipi durur və beynəlxalq səviyyədə bu barədə qəbul olunmuş çoxsaylı qərarların arasında BMT-nin 70-ci Yubiley Sessiyasının təsdiq etdiyi 2030-cu il üçün icrası nəzərdə tutulan 17 məqsəd və 169 hədəf xüsusi əhəmiyyət daşıyır. Davamlı inkişafa nail olmaq müxtəlif ölkələr qarşısında fərqli məqsəd və hədəflər müəyyən edir. Bu ilk növbədə ölkənin iqtisadi və sosial inkişafının səviyyəsindən, regional və milli prioritetlərin xüsusiyyətindən asılıdır. Azərbaycan Respublikasının davamlı inkişaf sahəsində qazandığı yüksək nəticələr ölkədə inklüziv cəmiyyətin formalaşması kimi böyük bir hədəfi ölkə üçün növbəti milli prioritet müəyyən etdi [1]. Bu məqsədə nail olmaq ətraf

mühitin mühafizəsini, təbii ehtiyatlardan səmərəli istifadəni də nəzərdə tutur. Təbii ehtiyatların səmərəli istifadəsi isə öz növbəsində, yaşıl iqtisadiyyat, o cümlədən yaşıl energetikanın tətbiqinə əsaslanır. Ümumiyyətlə təbiətin, xüsusən qorunma statusuna malik olan ərazilərin iqtisadi dövriyyəyə cəlb edilməsi ölkənin davamlı inkişaf etməsi üçün əhəmiyyətli resursdur. Hazırkı məqalə də bu sahədə Azərbaycan Respublikasının potensialının dəyərləndirilməsinə həsr olunmuşdur.

Təbii sərvətlərin qorunması və onlardan davamlı istifadə XXI əsrin ən mühüm və qlobal problemlərindən olmaqla, dövlətlərin həllini vacib hesab etdiyi prioritet məsələlərdən biridir. Təbii sərvətlərin və ümumi ekoloji sistemin ayrılmaz hissəsi olan bioloji müxtəliflik çox mühüm, lakin hələ də tam qiymətləndirilməmiş zəngin ehtiyat mənbəyidir. Son zamanlar planetimizdə antropogen fəaliyyət nəticəsində ekosistemlər deqradasiyaya uğramış, bir çox flora və fauna növləri isə məhv olmuş və ya onların sayı kəskin surətdə azalmışdır. Bioloji müxtəlifliyin belə sürətli itkisi Yer kürəsini və bütövlükdə canlı aləmi ciddi təhlükədə qoymaqla, qlobal faciəyə səbəb ola bilər [4]. Hazırki məqalədə Azərbaycan Respublikasında bioloji müxtəlifliyin və ekosistemlərin qorunmasına xidmət edən qorunan ərazilərin, onların turistik və ekoturistik potensialı, davamlı inkişafdakı əhəmiyyəti araşdırılır.

Davamlı inkişafın planlaşdırılması və idarəedilməsinə təsir göstərən amillərə ətraf təbii mühit, o cümlədən də onu əhatə edən bitki (flora) və heyvanat (fauna) aləminin durumu və zənginliyi aiddir. Flora və fauna nümunələrinin, yəni bioloji müxtəlifliyin zənginliyi ölkə və regionların davamlı inkişafına təsir göstərən vacib faktorlardır. Biomüxtəliflik, Yer kürəsində iqlim proseslərinin stabilliyinə təsir göstərən proseslər də daxil olmaqla, ətraf mühitin stabilliyinin təmin edilməsində əhəmiyyətli rola malikdir. Digər tərəfdən, bioloji müxtəliflik həm qlobal, həm də yerli səviyyədə insanların daim artan və dəyişən iqtisadi, sosial və estetik tələbatlarının ödənilməsi üçün də zəruridir. Bu səbəbdən biomüxtəlifliyin qorunması insan inkişafının bütün mərhələlərində bəşəriyyət üçün prioritet olub [7].

Bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsini təmin etmək bəşəriyyətin qarşısında duran vacib problemlərdəndir. Bu problemin əsas həlli yollarından biri isə qorunan ərazilərin sahəsinin artırılmasından və davamlı inkişaf naminə səmərəli idarəetmədən ibarətdir. Əslində qorunan ərazilər bəşəriyyət üçün həmişə vacib olmuşdur. Çünki qorunan ərazilər biomüxtəlifliyin, təbiətin, canlıların qorunması, ekoloji tarazlığın təmin edilməsi, iqlim dəyişiklikləri prosesinin qarşısının alınması üçün mühüm əhəmiyyət kəsb edən vacib bir amildir. Belə bir vacib məsələ BMT-nin Baş Assambleyasının 70-ci Yubiley sessiyasında 2015-2030-cu illər üçün nəzərdə tutulmuş Davamlı

inkişaf məqsədlərində də yer almışdır. Belə ki, 2030-cu ilə kimi həlli nəzərdə tutulan 169 hədəfdən biri də qorunan ərazilərin yaradılması və onların sahələrinin artırılmasıdır [7].

Bəllidir ki, hazırda dünya ölkələrinin inkişafının dəyərləndirilməsi davamlı və inklüziv inkişaf indeksləri ilə aparılır. Bu indeksin müəyyən edilməsində qorunan ərazilərin sahəsinin dəyişmə dinamikası xüsusi göstərici rolunu oynayır. Məhz bu baxımdan hazırda bütün dünya ölkələri qorunan ərazilərin sahələrinin artırılması üçün bütün səylərini birləşdirir.

Xüsusi mühafizə olunan təbiət ərazisi dedikdə, xüsusi ekoloji, elmi, mədəni və sağlamlaşdırma əhəmiyyəti daşıyan təbiət komplekslərindən və obyektlərindən, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan bitki və heyvan növlərinin yayıldığı yerlərdən ibarət olan torpaq, su sahələri və onların üzərindəki atmosfer məkanıdır [6]. Xüsusi mühafizə olunan ərazilərin vəzifəsi biomüxtəlifliyin qorunması ilə kifayətlənmir. Belə ki, bu təbii ekosistemin funksiyaları genişdir və insan inkişafının müxtəlif mərhələlərində aşağıdakıları ehtiva edib və edir:

- Qorunan ərazilər iqlim proseslərinin tənzimlənməsinə, sunami, daşqın, güclü qasırğa, quraqlıqların intensivliyinin azalması və qarşısının alınmasına, bu hadisələrin nəticələrinin yumşaldılmasına yol açır;
- Qorunan ərazilər keçmişdə insanlar üçün sığınacaq rolu oynayıb, onları yaşayış məntəqələrinin salınması, evlərin tikilməsi üçün materiallarla təmin edib;
- Mühafizə olunan ərazilər hava və suyun keyfiyyətinin qorunmasına, onların təbii təmizlənməsinə yardımçı olur;
- Torpaqların və onların keyfiyyətinin qorunub saxlanması kənd təsərrüfatı istehsalında məhsuldarlığın təmin olunmasına yol açır;
- Qorunan ərazilərin müxtəlifliyi və zənginliyi ümumi və ekoloji turizmin vacib elementləridir [7].

Qeyd etmək lazımdır ki, keçmişdən bugünə qədər dünya ölkələrinin inkişafının dəyərləndirilməsi və qiymətləndirilməsi müxtəlif metodlarla həyata keçirilmişdir. Hazırda inkişafın dəyərləndirilməsində istifadə olunan metodlar arasında ən geniş yayılmışlardan biri davamlı inkişaf indeksidir. Davamlı inkişaf indeksi bir neçə indikator əsasında müəyyən olunur ki, bunlardan biri də qorunan təbii ərazilərin sahələrinin dəyişmə dinamikasıdır. Onlara qoruq, milli park və milli qanunvericilik əsasında təbii komplekslər və biomüxtəlifliyin qorunması məqsədilə mühafizə edilən digər torpaq kateqoriyaları aiddir. Davamlı inkişafın bu göstəricisinin indikatoru ölkədə qorunan təbii ərazilərin payıdır. Kəmiyyət olaraq bu, qorunan ərazilərin ölkənin ümumi ərazisində payı kimi faizlə ifadə edilir. Müxtəlif ölkələrdə bu rəqəmlər fərqlidir [7].

Azərbaycan Respublikasında ekoloji siyasət qorunan ərazilərin sahəsinin artırılmasına istiqamətlənib. Bu siyasətin reallaşdırılması nəticəsində Azərbaycanda qorunan təbii ərazilərin sahəsi son 20 ildə xeyli artıb (şəkil 1).




**Şəkil 1.** Azərbaycan Respublikasında xüsusi mühafizə olunan təbii ərazilərin sahəsinin dəyişmə dinamikası, min hektar, 2003-2021-ci illər.
Məlumat mənbəyi: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2022-ci il [2].

Son illər qorunan ərazilərin yeni tipi formalaşıb. Onlar bütün dünyada biosfer rezervat kimi tanınır. Biosfer rezervat konsepsiyası 1974-cü ildə UNESCO tərəfindən təklif olunub. Bu konsepsiya UNESCO-nun "İnsan və biosfer" proqramı əsasında hazırlanmışdır. Yaradılmış bu şəbəkə insanla təbiət arasında davamlı tarazlığın yaradılmasında, bioloji müxtəlifliyin qorunması və iqtisadi inkişafa kömək sahələrində çox mühüm əhəmiyyət daşıyır. Digər tərəfdən, biosfer rezarvatlar elə həssas institutdur ki, burada davamlı inkişafın təklif olunan prinsipləri sınaqdan keçirilir, dəqiqləşdirilir və alınmış müsbət təcrübə digər ərazilərdə yayılaraq genişləndirilir. Adi qoruq ərazilərindən fərqli olaraq biosfer rezarvatlar spesifik ərazi zonalarına bölünürlər: ərazinin mərkəzində ciddi qoruq rejiminin şamil edildiyi nüvə zonası (core area) yerləşir. Nüvənin ətrafında müəyyən fəaliyyət növlərinin icazə verildiyi bufer zonası (buffer area) yerləşir. Bu zonalar dəqiq sərhədlərə malik olurlar. Biosfer rezervatın üçüncü zonası isə keçid zonası (transition area) adlanır. Bu zonaya bəzən tranzit və ya əməkdaşlıq zonası da deyilir [10].

Biosfer rezervatın özəlliyi ondadır ki, ənənəvi qoruq, yasaqlıqlardan fəqli olaraq, biosfer rezervatda təsərrüfat fəaliyyətinə icazə verilib. Lakin bu fəaliyyət biosfer rezervatın bütün ərazisində həyata keçirilə bilməz. Bunun üçün biosfer rezervatın müvafiq strukturu mövcuddur [7].




**Şəkil 2.** Biosfer rezervatın təşkili strukturu [7].

Şəkil 2-də biosfer rezervatın təşkili strukturu təqdim olunmuşdur. Qeyd edildiyi kimi, biosfer ərazilər strukturuna və istifadə qaydalarına görə üç zonaya bölünürlər:

- Nüvə zonası (corea area) – biosfer ərazisinin bütün təbii kompleksinin ciddi nəzarətdə saxlanılan hissəsidir. Burada müntəzəm olaraq ekoloji sistemlərin monitorinqi, elmi-tədqiqat işləri və təbii proseslərin inkişafına mane olmayan digər tədbirlər həyata keçirilir.
- Bufer zonası (buffer zones) – həmin ərazinin nüvədən sonrakı və onunla sərhəddə olan, müxtəlif təsərrüfat formalı ənənəvi fəaliyyət növlərinin icazə verildiyi hissəsidir (məhdud kənd təsərrüfatı fəaliyyəti sahələri, ekoloji turizm, müxtəlif elmi tədqiqat işləri və s.)
- Keçid zonası (transition area) – həmin ərazinin ekoloji yönümlü təsərrüfat fəaliyyətinin icazə verildiyi hissəsidir [10].

Biosfer rezervatların mövcudluğu və fəaliyyət səmərəliliyi davamlı inkişafın indikatoru kimi çıxış edir. Hazırda dünyanın 134 ölkəsində 738 biosfer rezervat fəaliyyət göstərir [13]. Bütün dünyada olduğu kimi ölkəmizdə də qorunan ərazilərin yeni tipi olan biosfer rezervatların formalaşdırılması və inkişafı işləri həyata keçirilir. Belə ki, Cənubi Qafqazın ilk biosfer qoruğu

Azərbaycanda yaradılacaq. Ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planında Zaqatala-Balakən biosfer qoruğunun yaradılması qarşıya hədəf qoymuşdur [3]. Zaqatala Dövlət Təbiət Qoruğunun bazasında yaradılacaq Zaqatala-Balakən biosfer rezervatı biomüxtəlifliyin qorunması ilə yanaşı, həmin bölgədə ekoturizmin inkişafına və yerli əhalinin məşğulluğunun artırılmasına şərait yaradacaqdır [8]. Qeyd edilməlidir ki, qorunan ərazilər turizmin inkişafına və orqanik məhsulların istehsalına töhfə verməklə yanaşı yeni iş yerlərinin açılması hesabına məşğulluğun artırılmasına və işsizlik səviyyəsinin aşağı salınmasına da müsbət təsir göstərir.

Bundan əlavə, İnkişaf Strategiyasında Azərbaycanda yeni növ xüsusi mühafizə rejimli təbiət ərazisinin – ilk geoloji parkın yaradılması da nəzərdə tutulur. Hazırda bu istiqamətdə müvafiq işlər aparılır. 2020-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının geoloji parkları haqqında ümumi Əsasnamə" bu sahədə fəaliyyətin genişləndirilməsinə xidmət edir [5].

Qeyd etmək lazımdır ki, ölkəmizdə palçıq vulkanlarına geopark statusunun verilməsi, həmin vulkanların tərkibində geoparkların yaradılması ilə bağlı işlərə də start verilib [5].




**Şəkil 3.** 2021-ci ildə Azərbaycan və qonşu dövlətlərin xüsusi qorunan ərazilərin sahələri, ölkənin ümumi ərazisindəki payı (%), Məlumat mənbəyi: Dünya bankı, 2022-ci il [11].

Şəkil 3-də Azərbaycan və qonşu ölkələrin qorunan ərazilərin sahələrinin ölkənin ümumi ərazisindəki payı verilmişdir. Şəkil 3-dən görünür ki, ölkəmiz qorunan ərazilərin sahəsinə görə qonşu dövlətlərin çoxunu geridə qoymuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycan bu sahədə regionda lider ölkələr sırasındadır. Belə ki, ölkəmiz qorunan təbiət ərazilərinin sahəsinə görə yalnız Rusiyadan geridə qalır.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsinin artırılması və bu sahədə fəaliyyətin genişləndirilməsi Milli Prioritetlərdə də öz təcəssümünü tapmışdır. Belə ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2 fevral 2021-ci il tarixli müvafiq sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də qorunan ərazilərin sahəsinin genişləndirilməsi, yaşıllıqların artırılması və yüksək keyfiyyətli ekoloji mühitin təmin olunması qarşıya hədəf qoyulmuşdur [1].




**Şəkil 4.** 2016-2021-ci illərdə Azərbaycan və qonşu dövlətlərin xüsusi qorunan ərazilərin sahələrinin dəyişmə dinamikası, ölkənin ümumi ərazisindəki payı (%),
Məlumat mənbəyi: Dünya bankı, 2022-ci il [11].

Yer kürəsində bioloji müxtəlifliyi beynəlxalq əməkdaşlıq yolu ilə xilas etmək məqsədi ilə 1992-ci ilin iyun ayında Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilmiş “Yer kürəsi” sammitində Birləşmiş Millətlər Təşkilatının "Bioloji müxtəliflik haqqında" Konvensiyası imzalanmışdır. Azərbaycan Respublikası 2000-ci il 14 mart tarixində bu Konvensiyaya qoşulmuş və ondan irəli gələn öhdəliklərin milli səviyyədə yerinə yetirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 24 mart tarixli müvafiq Sərəncamı ilə 2006-2010-cu illəri əhatə edən “Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı” təsdiq edilmiş, nəzərdə tutulmuş tədbirlər uğurla icra olunmuşdur [4].




**Şəkil 5.** Azərbaycan Respublikasında meşə fondu sahələrində meşəbərpa tədbirləri aparılmış ərazilərin göstəricisi, min hektar.
Məlumat mənbəyi: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2022-ci il [2].

Biomüxtəlifliyin qorunmasının təşviq edilməsi sahəsində bir sıra tədbirlər keçirilmişdir. Bu qəbildən olan tədbirlərdən biri də 19 dekabr 2022-ci ildə Kanadanın Monreal şəhərində BMT-nin Ətraf Mühit Proqramının təşkilatçılığı ilə keçirilmiş Biomüxtəliflik üzrə Konfransdır (COP15). 188 ölkənin hökumət

nümayəndələrinin iştirakı ilə keçirilən konfransda biomüxtəlifliyin, ətraf mühitin qorunması, flora və fauna növlərinin bir çoxunun sürətlə yox olmasının qarşısının alınması məsələləri müzakirə olunmuşdur. On iki gün davam edən konfransın sonunda yekun sənəd qəbul edilmişdir. Sənəddə biomüxtəlifliyin qorunması sahəsində işlərin sürətlə həyata keçirilməsi ilə yanaşı dünyadakı qorunan ərazilərin sahəsinin 2030-cu ilə kimi 17%-dən ən azı 30%-dək artırılması qarşıya hədəf qoymuşdur [12]. Bundan əlavə, yüksək biomüxtəliflik əhəmiyyəti və ekoloji bütövlüyü olan ərazilərin itkisinin sıfıra endirilməsi də sənəddə öz əksini tapmışdır. Belə tədbirlərin keçirilməsi inkişafın davamlı olmasına və cəmiyyətin inklüzivliyinə xidmət edir.

Məlumdur ki, planetdə meşə sahələrinin azalması müasir sivilizasiya üçün ciddi problemdir. Beynəlxalq qurumların bilgilərinə görə, hazırda dünyada meşələrin sahələri azalır. Öz növbəsində bu, antropogen iqlim dəyişikliklərinin səbəblərindən biridir. Meşələrin sahəsinin daralması digər ekoloji problemə - biomüxtəlifliyin azalmasına yol açır. Meşələrin itirilməsi torpaq örtüyünün pozulması, qrunt sularının səviyyəsinin azalmasına səbəb olur [7].

Meşəsizləşmə prosesi dünyanın bir çox ölkələrində müşahidə edilir. Bəzi ölkələrdə bu proses çox sürətlə gedir. Misal üçün Afrika, Asiya, Cənubi Amerikanın bəzi ölkələrində meşəsizləşmə prosesi kəskin şəkildə təzahür edir. Həmin ölkələr, bütün dünya və sivilizasiya üçün ciddi problemdir. Meşələrin mühafizəsi və bərpası davamlı inklüziv inkişafın təmin edilməsi üçün vacib amildir [7].

Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında meşələrin bərpası prosesi gedir. Özəlliklə də görülən tədbirlər sayəsində ölkədə meşələrin sahəsi artıb və hazırda ölkənin ümumi ərazisinin təxminən 14 faizə qədərini təşkil edir (Şəkil 6).

Ölkəmizdə meşə sahələrinin artırılması və meşələrin bərpası prosesinə xüsusi diqqət vardır. Bu prosesin həyata keçirilməsinin başlanğıcı ulu öndərin hakimiyyəti dövrünə təsadüf edir. Belə ki, 2003-cü ildə ulu öndərin müvafiq fərmanı ilə “Meşələrin bərpa edilməsinə və artırılmasına dair Milli Proqram” təsdiq edilmişdir. Milli Proqram 2003-2008-ci illəri əhatə etmişdir. Uğurla başa çatdırılmış Milli Proqram çərçivəsində ölkədə yeni meşə əraziləri yaradılmış, mövcud meşə sahələrində meşəbərpa işləri həyata keçirilmişdir.

Azərbaycanda meşələrin sahəsinin artırılmasına xidmət edən növbəti proqram isə 2022-ci ildə qəbul olunub. Belə ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən BMT-nin Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı nümayəndəliyinin texniki dəstəyi ilə Milli Meşə Proqramı hazırlanmışdır. 2022-2030-cu illəri əhatə edəcək proqramda yeni meşə sahələrinin salınması, mövcud meşələrin bərpası, istifadə təlimatları və digər vacib məsələlər öz əksini tapacaq [9].




**Şəkil 6.** Azərbaycan Respublikasının meşə ərazilərinin sahələrinin dəyişmə dinamikası, ölkənin ümumi ərazisindəki payı, faizlə (%). Məlumat mənbəyi: Dünya Bankı 2022-ci il [11].

Meşələrin sahəsinin artırılması prosesində dövlət təşkilatları ilə yanaşı, ictimai təşkilatların, vətəndaş cəmiyyətinin fəaliyyəti də çox böyük rol oynayır. Bu istiqamətdə ölkənin Birinci Vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti xanım Mehriban Əliyevanın fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Heydər Əliyev Fondu tərəfindən son illərdə həyata keçirilmiş ağacəkmə aksiyaları artıq adət halını almışdır. Son illərdə paytaxtda və Azərbaycanın bütün bölgələrində meşə fonduna daxil olmayan torpaqlarda ümumilikdə 20 milyondan çox ağac əkilmişdir. Qeyd edilməlidir ki, bu istiqamətdə fəaliyyət işğaldan azad edilmiş ərazilərdə "böyük qayıdış" və "yaşıl artım" proqramları çərçivəsində uğurla həyata keçirilir. Yaşıllıqların artırılması iqlim dəyişmələrinə təsirlərin azaldılmasının və ümumiyyətlə davamlı inkişafın planlaşdırılması və optimal idarəedilməsinin vacib şərtidir.

Təqdim olunmuş məlumatlar göstərir ki, Azərbaycan Respublikasında qorunan təbii ərazi və meşə sahələrinin artırılması davamlı inkişaf və inklüziv cəmiyyətin formalaşması sahəsində həyata keçirilən dövlət siyasətinin vacib istiqamətidir.

**Ədəbiyyat:**


1. Azərbəycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi ilə bağlı sərəncamı, 2 fevral 2021-ci il. https://president.az/az/articles/view/50474
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. "Azərbaycanın statistik göstəriciləri" statistik məcmuə- 2021
3. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 22 iyul 2022-ci il. https://e-qanun.az/framework/50013
4. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi ilə bağlı sərəncamı. 3 oktyabr 2016-cı il. https://e-qanun.az/framework/33817
5. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının geoloji parkları haqqında ümumi Əsasnamə"nin təsdiq edilməsi haqqında Fərmanı. 15 aprel 2020-ci il. https://e-qanun.az/framework/44898
6. Azərbaycan Respublikasının "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Qanunu. 24 mart 2000-ci il .
7. Ələkbərov U.K. Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları. Ali məktəblər üçün dərslik. – Bakı: Təhsil, – 2017. – 176 s.
8. "Cənubi Qafqazda ilk biosfer rezervat Azərbaycanda yaradılır" adlı məqalə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi internet saytı. 5 iyun 2020-ci il. http://eco.gov.az/az/nazirlik/xeber?newsID=11089
9. "Milli Parklar" adlı məqalə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi internet saytı. 2020-ci il. http://eco.gov.az/az/tebii-servetlerimiz/milli-parklar
10. Hacıyev V.C., Yusifov E.F. Hirkan biosfer rezervatı. Ali məktəblər üçün dərslik. – Bakı: «El-ALliance». – 2004. – 168 s.

11. The World Bank, https://databank.worldbank.org/reports.aspx?source=2&series=NY.GDP.PCAP.PP.CD&country= , 11.10.2022
12. United Nation Environment Programme (UNEP), Biodiversity Conference (COP15). 19 December 2022.
https://www.unep.org/news-and-stories/story/cop15-ends-landmark-biodiversity-agreement
13. UNESCO, COP15 Biodiversity Agreement, December 2022.
https://www.unesco.org/en

## ABSTRACT

# THE ROLE OF PROTECTED AREAS IN OPTIMAL MANAGEMENT OF NATURAL RESOURCES AND SUSTAINABLE DEVELOPMENT

**Gubadov M.N.**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, PhD Candidate*

The protection of natural resources and their sustainable use is one of the most critical global problems of the 21st century and one of the priority issues that the state considers essential to solve. Biological diversity, an integral part of natural resources, is a very important but underappreciated resource. Recently, due to anthropogenic activity on our planet, many species of fauna have been destroyed, or their numbers have decreased sharply. Such a rapid loss of biological diversity can cause a global catastrophe, putting the Earth and the entire living world in danger.

In the current article, the protected areas that serve to protect biological diversity and ecosystems in the Republic of Azerbaijan and their importance in sustainable development are examined.

***Keywords:*** *sustainable development, protected areas, natural resources, biological diversity, forest areas*

## РЕЗЮМЕ

## РОЛЬ ОХРАНЯЕМЫХ ТЕРРИТОРИЙ В ОПТИМАЛЬНОМ УПРАВЛЕНИИ ПРИРОДНЫМИ РЕСУРСАМИ И УСТОЙЧИВОМ РАЗВИТИИ



**Губадов М.Н.**

*Докторант Академии Государственного Управления при Президенте Азербайджанской Республики*



Охрана природных ресурсов и их рациональное использование – одна из важнейших и глобальных проблем XXI века, и один из приоритетных вопросов, решение которых государство считает важным. Биологическое разнообразие, являющееся неотъемлемой частью природных ресурсов, является очень важным, но до сих пор недооцененным богатым ресурсом. В последнее время в результате антропогенной деятельности на нашей планете многие виды фауны уничтожены или их численность резко сократилась. Столь стремительная утрата биологического разнообразия может вызвать глобальную катастрофу, поставившую Землю и весь живой мир в серьезную опасность. В настоящей статье рассматриваются охраняемые территории, которые служат для защиты биологического разнообразия и экосистем в Азербайджанской Республике, и их значение для устойчивого развития.



*Ключевые слова: устойчивое развитие, особо охраняемые природные территории, природные ресурсы, биологическое разнообразие, лесные массивы*

DOI: 10.30546/mab.17.2022.209

UOT 327(091)

# MADDİ MƏDƏNİ İRS ÖNƏMLİ TURİZM RESURSU KİMİ

**Şərifova V.A.**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*Tarix kafedrasının sabiq doktorantı*
*e-mail: vusala.asif@gmail.com*

*Turizm – hər şeydən öncə mədəni-tarixi mənbələrə, abidələrə əsaslanan iqtisadi inkişaf formasıdır. Mədəni irs resursları və turizm bölgələrin və ölkələrin cəlbediciliyini və rəqabət qabiliyyətini gücləndirə biləcək qarşılıqlı faydalı əlaqəyə sahibdirlər. Mədəni-tarixi abidələr, resurslar turizm məhsulu kimi qlobal bazarda özünəməxsusluq yaradan, turizm isə mədəni irsi, mədəni istehsal və yaradıcılığı dəstəkləyən və gücləndirən, gəlir əldə etmək üçün vacib bir vasitədir. Azərbaycanın da zəngin mədəni-tarixi resurslarının turizm sənayesində istifadəsi dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan zəngin mədəni irsi, tarixi, adət-ənənələri və folkloru olan bir ölkə kimi mədəni turizmin maraqlı və özünəməxsus istiqamətlərindən biridir. Geniş turizm potensialına malik Azərbaycanın işğaldan azad olunmuş ərazilərində vacib infrastrukturun qurulması, aparılan bərpa işləri həmin bölgənin yaxın gələcəkdə cəlbedici turizm zonası kimi tanınacağından xəbər verir.*

***Açar sözlər:*** *maddi mədəni irs, mədəni turizm, resurs, turizm məhsulu, Şuşa*

Bütün dünyada mədəni irs resursları, tarixi abidələr turizmin inkişafına təsir göstərən, hər hansı bir ölkənin turistlər üçün cəlbedici olmasını şərtləndirən vacib amillərdən hesab olunur. Çünki istənilən ölkəyə səyahət edən turist hər şeydən əvvəl o ölkənin tarixini, xalqların həyat tərzini, dünyagörüşünü əks etdirən maddi və qeyri-maddi mədəni irs nümunələrinə maraq göstərir. Hər bir dövlət, və ya xalq öz qədimliyini, bəşər sivilizasiyasının formalaşmasındakı rolunu sübuta yetirmək, nümayiş etdirmək üçün mədəni irs resurslarından geniş şəkildə faydalanır. Bu da onu deməyə əsas verir ki, turizm həm də ölkənin mədəni irsinin, tarixinin dünyaya tanıdılmasında böyük rol oynayır. Buna görə mədəni siyasətin ən mühüm məqsədi təkcə regionun müsbət imicini yaratmaq deyil, həm də mədəni irs obyektlərinə düzgün və ehtiyatlı münasibəti formalaşdırmaqdır. Mədəni turizmin əsas məqsədi isə ölkə memarlığı, rəssamlığı, musi-

qisi, teatrı, folkloru, adət-ənənələri, insanların həyat tərzi, bir sözlə, ölkənin mədəniyyəti və tarixi ilə tanışlıqdır.

Milli mədəni irsin turizm sahəsində önəmli resurs kimi istifadəsi Azərbaycanın dövlət siyasətində mühüm yer tutur. Ölkə səviyyəsində həyata keçirilən tədbirlər Azərbaycan turizminin dünya turizm bazarına inteqrasiyasını təmin etməyə, mədəni-tarixi irs resurslarının ardıcıl şəkildə tanıtımına xidmət edir. Xüsusən də Vətən müharibəsindəki qələbədən sonra, işğaldan azad edilən ərazilərdə aparılan yenidənqurma işləri, ermənilər tərəfindən dağıdılmış tarixi mədəni irsin bərpası, bölgələrin turizm imkanlarının yenidən nəzərdən keçirilməsi nikbin proqnozların olmasına əsas verir.

### Mədəniyyət və turizm.
### "Mədəni turizm" anlayışının yaranması

XX əsrin ortalarına qədər "mədəniyyət" və "turizm" anlayışları bir-birindən ayrı, təcrid olunmuş formada nəzərdən keçirilmişdir. Mədəniyyət, mədəni irs nümunələri əsasən, xalqların milli mədəni kimliyinin əsasını təşkil edən irsin bir hissəsi kimi qəbul edilir, turizm isə əhalinin yerli mədəniyyətindən ayrı, istirahətlə bağlı bir fəaliyyət kimi dəyərləndirilirdi. Bu yanaşma XX əsrin sonlarına doğru dəyişməyə başladı. Artıq turistlərin cəlb olunmasında mədəni irsin rolunu açıq-aşkar dərk edən dövlətlərdə mədəni turizm iqtisadi inkişafın əsas mənbələrindən birinə çevrildi. Mədəniyyət və turizm sahələrinin bir-birinə yaxınlaşmasına təsir edən amillər az deyildi. Dünyada qloballaşmanın dərinləşməsi, mədəni müxtəlifliyə artan maraq, digər mədəniyyətlərlə daha asan tanış olmaq imkanı və s. amillər mədəni turizmin inkişafına səbəb oldu. Bununla da mədəniyyət, mədəni sərvətlər turizm resursu kimi daha çox diqqət cəlb etməyə başladı, turizm isə mədəniyyəti təbliğ edən sahə, mədəni irsə dəstək vasitəsi kimi məşhurlaşmağa başladı.

Bəzən "mədəni irs" anlayışını "mədəniyyət" sözünün sinonimi kimi də işlədirlər. Qısaca ifadə etsək, mədəni irs – keçmişdən qalan, indiki və gələcək nəsillərin xeyrinə qorunub saxlanılan bütün maddi və mənəvi sərvətlərin toplusu kimi izah olunur [11, s.176]. Turizm isə mahiyyət etibarilə bir iqtisadi və ticarət fəaliyyəti növüdür. Turizm çox maraqlı bir intellektual sahə olsa da, praktikada onun biznes ilə çox dərindən əlaqəsi vardır. Məhz biznes nümayəndələri (səyahət agentlikləri, otellər, iaşə obyektləri) hər il ölkə daxilində və xaricdə səyahət edən yüz milyonlarla insan axınının olduğu bazara daxil olmaq və orada məhsul və xidmətlər sataraq mənfəət qazanmaq məqsədi güdür. Turizm həm də mahiyyət etibarilə səyahət edən şəxsin əyləncəsinə və xoş vaxt keçirməsinə, onda yeni hisslər və təəssüratlar, xatirələr yaratmasına yönəlmiş bir iqtisadi fəaliyyətdir. Bu hiss və təəssüratların yaradılması üçün istifadə edilən ən vacib resurslardan biri məhz mədəni irs resurslarıdır. Beləliklə,

mədəni dəyərlər, abidələr və turizm arasında əlaqə, mədəni irs nümunələrinin turizm resursu kimi qəbul edilməsi “mədəni turizm” anlayışının yaranmasına gətirib çıxardı. BMT-nin Ümumdünya Turizm Təşkilatının “Turizmdə anlayışlar” sənədində “mədəni turizm” termini bu cür izah olunur: “Mədəni turizm – insanların öz yaşadıqları ərazidən çıxıb digər şəhərlər, yaxud ölkələrin mədəni irs obyektlərini görmək, yeni məlumat və təcrübə toplayaraq öz mədəni ehtiyaclarını təmin etmək, həmçinin insanların öz yaşadıqları yerdən başqa, digər yerlərdəki abidələri, həmin ərazinin incəsənəti və mədəni özünüifadə formalarını (etnoqrafik elementlər və s.) görmək məqsədilə bir yerdən digər yerə hərəkət etmək fəaliyyətidir” [5, s.12]. Hər bir ölkənin turizm potensialının əhəmiyyətli hissəsini onun rekreasiya resursları (istirahət yerləri, irs nümunələri) təşkil edir ki, onlar da mədəni turizm obyekti kimi önəmli rol oynayır. Təcrübələr göstərir ki, YUNESKO-nun Ümumdünya İrs Siyahısına düşən abidələrin olduğu regionlar turistlər üçün daha çox cəlbedici sayılır.

Mədəni turizm – festival, folklor, teatr, sərgi kimi sənət fəaliyyətlərində yer almaq, keçmişdə mövcud olan və bu günə qədər də yaşayan mədəni adət və ənənələri tanımaq, tarixi yerləri və xalqların həyat tərzlərini görmək məqsədi güdən turizm növüdür [7, s.27]. Dünyada qloballaşma proseslərinin sürətlənməsilə insanlar təkcə istirahət və əylənmək məqsədi ilə deyil, eyni zamanda müxtəlif xalqların adət və ənənələrini, maddi-mənəvi irsini yaxından öyrənmək məqsədilə səyahət etməyə başlamışlar [8, s.52].

Ölkə mədəniyyətini yerli və xarici turistlərə tanıtmaq və qorumaq baxımından mədəniyyət turizminin inkişaf etdirilməsi böyük əhəmiyyət daşıyır. Turizmin bu növü bütün dünyada artıq kifayət qədər məşhurlaşmışdır. Mədəni turizm təkcə bu və ya digər xalqın tarixi və mədəni abidələri ilə tanış olmaq məqsədi güdmür, həm də etnik dostluq əlaqələrinin inkişafı üçün stimul yaradır. Bütün bunlar turizm şirkətləri qarşısında ciddi tələblər qoyur. Onlar turizmin təkcə təşkilati tərəfləri ilə məşğul olmur, eyni zamanda ölkələrin maddi-mənəvi sərvətlərinin təbliğatçısı, mədəniyyətlərarası dialoqun genişlənməsində vacib rol oynayırlar. Mütəxəssislər qeyd edirlər ki, mədəni irs nümunələrindən birgə istifadə həm turizm, həm də mədəniyyətin inkişafı üçün də faydalı hesab olunur. Birincisi, mədəni turizm insanların öz ölkəsinin və müxtəlif xalqların və ölkələrin (ərazilərin) tarixinə və mədəniyyətinə marağını dəstəkləyir, təbliğatı gücləndirir. Bu da turizmin inkişafına səbəb olur. Həmçinin mədəniyyət obyektləri cəlbedici turizm resursu olmaqla, qorunma, bərpa və konservasiya, istifadə üçün əlavə üstünlüklər qazanır [12, s.13].

Geniş mənada mədəni turizm mədəni irs nümunələrini, resurslarını əhatə edir və onlardan istifadə edən turizm sahəsi bu irsin inkişafına müsbət təsir etməklə bərabər, dayanıqlılığına mənfi təsir də göstərir. Turistlərin artan tələbatı bir tərəfdən mədəni irsin qorunması məsələsinə diqqəti artırırsa, digər tərəfdən, ziyarətçilərin sayının artması, mədəni irs resurslarından balans gözləmədən

istifadə, yanlış şəkildə istifadə etmək mədəni irs nümunələrinin fiziki bütövlüyünə real təhlükə yarada bilir. Məhz buna görə də "mədəni irsin idarə edilməsi" ilə "mədəni turizmin idarə edilməsi" sahələri paralel olaraq, bir-birini nəzərə alaraq inkişaf etdirilməlidir. Məsələn, mədəni irs sahəsindəki mütəxəssislər tərəfindən bəzi abidələrdə turizmlə bağlı "daşıma qabiliyyəti" müəyyən edilir, bəzən abidələrin turistlər tərəfindən ziyarəti qadağan edilir. Azərbaycanın Şəki şəhərinin tarixi hissəsində yerləşən Xan sarayına eyni vaxtda 20 nəfərdən artıq turistin ziyarəti qadağandır. Kütləvi turizmin təsirindən qorunmaq üçün Fransada Lascaux mağaralarına turistlərin buraxılması isə mədəni irs mütəxəssislərin rəyi əsasında tamamilə qadağan edilmişdir. Çünki turistlər mağaranın içərisində nəfəs alarkən orada olan havanın temperatur və nəmişlik dərəcəsinə çox böyük dərəcədə təsir göstərir, nəticədə Lascaux mağaralarında olan rəngli divar rəsmlərinin keyfiyyəti pozulur, rəng piqmentləri itməyə başlayır. Fransa hökuməti buna görə həmin mağaraların replikatını (bənzərini) bütün məzmunu qorumaqla kənarda yaratmış və turistlərin ziyarətinə açmışdır. Eynilə, İspaniyada 20 min il əvvələ- paleolit dövrünə aid, 1879-cu ildə kəşf edilmiş, divarlarında rəngli heyvan rəsmləri (bizon, at və maral) və işarələr olan, YUNESKO-nun Dünya İrs Siyahısına daxil edilən Altamira mağaralarına ziyarət dayandırılıb. Buna baxmayaraq, Altamira mağaralarının 200 metr yaxınlığında eyni abidənin replikatı yaradılmışdır və turistlər məhz mühəndis və rəssamların əli ilə yaradılmış bu mağaranı ziyarət edirlər. Sadəcə marketinq üçün hər həftə 5 nəfər turistə mağaranı ziyarət etməyə icazə verilir və onlar bilet satışı zamanı təsadüfən, lotereya əsasında seçilirlər. Ümumiyyətlə, authentic (həqiqi) turizm təcrübəsi mədəni turizm sahəsində daha çox təbliğ edilsə də, bu kimi hallar həm mütəxəssislər, həm də turistlər tərəfindən anlayışla qəbul edilir. Belə ki, yüz minlərlə turistin bu mağaralara buraxılması onlarda olan mədəni irs dəyərlərinə xələl gətirə bilir [5, s.15].

Turizm və mədəni-tarixi resursların birləşməsinin son dərəcə güclü bir "iqtisadi mühərrik" olduğunu deyə bilərik. Avropadakı turizm fəaliyyətinin 50%-dən çoxunda mədəni-tarixi resurslar iştirak edir və mədəni turizm turizm sektorunda ən gəlirli sahələrdən biri olub, yüksək inkişaf potensialına malikdir [13, s.13]. Bununla belə maddi mədəni irs resursları birbaşa olaraq mədəni turizm məhsulu hesab edilmir. Mədəni irs resurslarından istifadə etməklə mədəni turizm məhsulunun yaradılması planlaşdırma, marketinq, investisiyanın cəlb edilməsi ilə ortaya çıxan mürəkkəb bir prosesdir. Mədəni irs resursunu turistin ziyarət etməsi üçün yol infrastrukturu və daşınma xidməti, iaşə və qonaqlama xidməti, ərazini təhlükəsiz və rahat şəkildə kəşf etməsi üçün lazım olan xidmətlər, turistin məmnuniyyəti üçün təhlükəsiz və rahat hərəkət etməsi, bütün ehtiyaclarına cavab verən tədbirlərin cəmi görüldükdə mədəni turizm məhsulu formalaşdırmaq mümkün olur. Deməli, maddi mədəni irs nümunəsinin turizm fəaliyyətinə daxil edilməsi üçün 3 əsas şərt önəmlidir: cəlbedicilik, uyğunluq

və əlçatanlıq. Belə olan halda konkret bir regionun, ərazinin "yerli möhür"ü kimi çıxış edən mədəni irs nümunəsi vacib turizm məhsuluna, resursuna çevrilir [16].

Bütün dünyada mədəni-tarixi resurslar, onların dəyəri bir çox insanlar üçün heç nə ilə müqayisə edilə bilməz. 2019-cu il aprelin 15-də Parisdəki Notr-Dam kilsəsində baş verən yanğın bir mədəni-tarixi abidənin yalnız yerli sakinləri deyil, həmçinin ziyarətçiləri, turistləri narahat etdiyini göstərdi. Mədəni İrs üzrə Eurobarometer tədqiqatları göstərir ki, Avropa İttifaqı əhalisinin 73%-i mədəni-tarixi abidələr, sənət əsərləri, miras sahələrinə yaxın, və ya ənənəvi tədbirlər və ya festivalların keçirildiyi ərazilərin yaxınlığında yaşayır. Avropa İttifaqı əhalisinin yarıdan çoxu özünü bir şəkildə irslə əlaqəli hesab edir. Avropa vətəndaşlarının 31%-nin mədəni irslə bağlı əsas fəaliyyət növü mədəni-tarixi abidələri, muzeyləri, festivalları, konsertləri və digər irs sahələrini və tədbirləri ziyarət etməkdir. Bu ayrı-ayrı ölkələr üzrə – Hollandiyada 59%, İsveçdə 56%, Danimarkada 49% təşkil edir [10, s.4].

Avropa Komissiyası mədəni turizmi Avropa Birliyi əhalisinin "müxtəliflik içində birlik" olaraq, dayaq vasitəsi kimi təbliğ edir. Başqalarının mədəniyyətini görmək və anlamaq üçün səyahət etmək turistlərə və ev sahiblərinə mədəni əlaqələrin inkişafı ilə yanaşı mədəni fərqi qiymətləndirməyə də imkan verir. Avstraliya və Kanadada mədəniyyət və turizm yerli xalqlar üçün iqtisadi imkanların inkişafı ilə əlaqələndirilmişdir. Afrika, Latın Amerikası və Asiyada mədəni turizm, ümumiyyətlə, yerli gəlirləri artırmaqla yanaşı, irsin qorunmasına dəstək vasitəsi kimi qəbul edilir [9, s.27].

Mədəni irs olmadan mədəni turizmin inkişafı mümkün deyil. Belə ki, o, ölkənin tarixi-mədəni potensialından istifadəni nəzərdə tutur. Mədəni turizmin inkişafının ən mühüm şərtlərindən biri mədəni irs obyektlərinin müəyyən dərəcədə zənginləşdirilməsidir. Digər bir şərt düzgün və kreativ şəkildə təşkil etməklə, bu irsə diqqətin cəlb edilməsi, eyni zamanda mədəni irs obyektlərinə ehtiyatlı münasibətin formalaşdırılmasıdır.

### Azərbaycanın mədəni-tarixi resurslarının turizm potensialı

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra turizm ölkə iqtisadiyyatının mühüm bir sahəsi olmaqla, son illərin statistik göstəricilərinə görə daim inkişaf etməkdədir. Müxtəlif turizm məhsulları sayəsində Azərbaycan beynəlxalq turizm bazarında öz yerini tapmışdır. Bu, ölkəyə gələn turist sayının ildən-ilə artmasına kömək edir. Məsələn, 2019-cu ildə Azərbaycana 3 milyon 170,4 min nəfər turist gəlib ki, bu da 2018-ci ilin göstəricisindən 11,3% çoxdur. Gələnlərin 29,4%-i Rusiya Federasiyası, 22,9%-i Gürcüstan, 10%-i Türkiyə, 8,1%-i İran, 3,4%-i Səudiyyə Ərəbistanı, 2,2%-i Birləşmiş Ərəb Əmirliklərinin vətəndaşları olub [6]. Turizm sənayesi regionların inkişafı üçün

həlledici əhəmiyyət kəsb edir və ölkə iqtisadiyyatının qeyri-neft sektoru üzrə prioritet istiqamətlərindən biri hesab olunur.

Dünya turizm bazarında artan kəskin rəqabət fonunda müxtəlif ölkələr mədəni turizm məhsullarının yeknəsəkliyindən uzaqlaşmağa, məzmunca daha fərqli, turizm təcrübəsi nöqteyi-nəzərdən daha az rast gəlinən turizm məhsulları ilə bir-birindən fərqlənməyə can atır. Müxtəlif dövlətlər ziyarətçilər üçün təklif edilən turizm məhsullarını yaş kateqoriyası və maraq dairələrinə görə daha rəngarəng edə bilmək üçün səy göstərir və mövcud mədəni irs resurslarını bu istiqamətdə səfərbər edirlər. Bu mənada Azərbaycanda turizm sənayesi üçün milli mədəni irs nümunələrinin potensialının təhlili nikbin proqnozlar verməyə əsas verir. Ölkənin mədəni turizm potensialına tarixi və memarlıq abidələri, Bakıda incəsənət qalereyaları, milli musiqi növü – muğam, yaxşı inkişaf etmiş dünya caz musiqisi, milli və xarici rəqslər, ləziz dada malik zəngin mətbəx, bütün fərqli dini və dünyəvi görüşlərə tolerant yanaşma nümunə kimi göstərilə bilər [2, s.5].

Maddi mədəni irs nümunələrinin tərkibi və özünəməxsusluğu, səciyyəvi xüsusiyyətləri və mədəni özünüifadə müxtəlifliyinə aid ünsürlərə nəzər yetirdikdə, Azərbaycanın digər qonşu ölkə və regionlara nisbətən daha rəngarəng, çoxçalarlı mədəni turizm resurslarına malik olduğu görünür. Bu məqam çox əhəmiyyətlidir, çünki turizm bazarında mədəni turizm məqsədi ilə səyahət edən turistlərin həcmi ölkələr üzrə 35–80% arasında dəyişir. BMT-nin Ümumdünya Turizm Təşkilatının hesablamalarına əsasən, mədəni turizm beynəlxalq turizmin 40%-dən çoxunu təşkil edir [14, s.74].

Azərbaycan ərazisində müxtəlif tarixi dövrlərdə mövcud olmuş dövlət və imperiyaların, müxtəlif dini qruplar və konfessiyaların, tarixi proseslərlə əlaqədar ölkə ərazisində mövcud olmuş, müvəqqəti yaşamış, köç etmiş xalqların tarix və mədəniyyətinə aid maddi və qeyri-maddi irs nümunələrinin qorunması, inkişafı və dövlət mühafizəsinə götürülməsi mədəni turizmin inkişafına müsbət mənada təsir göstərir. Müxtəlif dini təyinatlı sufi xanəgah, zaviyə və türbələr, pirlər, ziyarətgahlar, müqəddəs şəxsiyyətlərlə bağlı məzar yerləri, orta əsrlər həyatının iqtisadi-təsərrüfat sahəsi (məsələn, karvansaraylar), hərbi və şəhərsalma ənənələri ilə bağlı məkanlar (bulaq, körpü, qala və imarətlər), xalq dini inanclarına, folklora, şifahi və yazılı xalq ədəbiyyatına aid nümunələr, yerli ənənələrlə bağlı təbiət abidələri (çoxəsrlik xan çinarı və digər ağaclar), multikultural festivallar (məsələn, Kürmükoba festivalı) elmi-tədqiqat obyektləri olmaqla yanaşı, artıq mədəni turizm resursları kimi turizm sənayesinin diqqətini cəlb edir. Təsadüfi deyil ki, turizm bölgəsi kimi inkişaf edən Şəki, Qəbələ, Qax və digər şimal-qərb rayonlarının əsas memarlıq abidələri, qeyri-maddi irs nümunələri (folklor, sənətkarlıq və diyarşünaslıq) ilə yanaşı, Qafqaz Albaniyasına aid irs nümunələri də (Bideyiz və Zəyzid kilsələri, Təpəbaşı nekropolu və s.) hələ tam turizm məhsulu kimi hazır olmasalar belə, turistlər tərəfindən ziyarət edilir.

Mədəni turizm sahəsində Azərbaycanda mövcud vəziyyətin təhlili göstərir ki, dini təyinatlı abidələr artıq turizm bölgəsinə çevrilmiş məkanlarda və ya ona yaxın yerlərdə yerləşdiyi zaman, onlardan mədəni turizm resursu kimi istifadə etmək daha asan olur. Məsələn, sufiliyin bir qolu olan xəlvətilik cərəyanının ən böyük nümayəndəsi olmuş Seyid Yəhya Bakuvi türbəsi Şirvanşahlar kompleksində yerləşir. Nəticədə Azərbaycanın ən çox ziyarət edilən tarix və mədəniyyət abidələrindən biri olan İçərişəhər və Şirvanşahlar sarayını ziyarət edən turistlər həm də bu türbəni kəşf edə bilirlər. Eynilə öz eksteryeri ilə Azərbaycanın ən gözəl tikililərindən biri olan İmamzadə dini kompleksi və məşhur Azərbaycan şairi Nizami Gəncəvinin məqbərəsi Gəncə şəhərində yerləşir. Bu yaxın coğrafi yerləşmə şəhərə gələn turistlərin bu yerləri asanlıqla ziyarət etməsinə imkan verir [5, s.90]. Yəni, dini abidələr də turizm resursu kimi daha əlçatan olur, turistlərin diqqətini cəlb edir, bununla da belə abidələrin təbliği və tanınması üçün geniş imkanlar yaranır. Turizmin təşkilində dini abidələrin mədəni-tarixi resurslar kimi xüsusiyyətləri dedikdə, onların dini ziyarətgah kimi istifadə olunması, yerli turist marşrutlarında və ritual turlarda istifadəsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsinə əsasən, tarixi-mədəni obyektlərin bərpası və onların turizm inkişaf planlarının hazırlanması və turizm obyekti kimi istifadəsi həyata keçirilməkdədir. Buna müvafiq olaraq, tarixi marşrutlar mədəni turizmin bir hissəsi olmaqla, turizmə təsiri və potensialı baxımından hərtərəfli qiymətləndirilməlidir. Bu marşrutların əksəriyyəti müxtəlif əraziləri əhatə edir. Bununla yanaşı, turistlərin zövqünə uyğun əlavə xüsusiyyətlərin nəzərə alındığı tarixi və mədəni xarakterli turizm marşrutları da yaxşı qəbul olunur və bunlar Azərbaycan Respublikası üçün potensial turizm məhsulu kimi prioritetləşdirilə bilər.

Azərbaycanın zəngin mədəni-tarixi resurslarının turizmdə istifadəsi dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu məqsədlə görülən tədbirlər sırasında tarixi abidələrin təmir-bərpası, yerli və beynəlxalq əhəmiyyətli turizm marşrutlarının hazırlanmasını qeyd edə bilərik. Bu tədbirlər Azərbaycan turizminin dünya turizm bazarına inteqrasiyasını təmin etməyə, paytaxt və bölgələrin tarixinin, mədəni irsinin, mətbəx zənginliyinin ardıcıl şəkildə tanıtımına xidmət edir. Uzun illərdir ki, həyata keçirilən “Kulinariya turu”, “Azərbaycanda arxeoloji turizm” “Beş dövrün beş paytaxtı”, “Qədim Qafqaz Albaniyasının tarixi izləri” və s. kimi yerli turizm marşrutları Azərbaycanda turizmin inkişafını sürətləndirmək, ölkənin daxili turizm potensialının təbliği məqsədilə istifadəyə verilmişdir. Beynəlxalq turizm marşrutları yerli turizm marşrutlarından fərqli olaraq iki və daha çox ölkəni əhatə edir və turizm sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığı inkişaf etdirir. Bu marşrutlar sayəsində bölgələrimiz

beynəlxalq səviyyədə təbliğ olunur. Bu sırada "Böyük İpək Yolu", "Şərab, mədəniyyət və turizm mübadiləsi", "Aleksandr Düma Qafqazda", "Azərbaycanda alman məskənləri", "Polyak izləri" və "Yəhudi irsi üzrə Avropa marşrutu" layihələrini qeyd etmək olar [3]. Bütün bu layihələr Azərbaycana gələn turistlərin sayının artırılmasına və çoxçeşidli turizm məhsulunun yaradılmasına xidmət edir.

Azərbaycanın bir çox turizm növləri üzrə potensialı vardır və həmin potensialın reallaşdırılması üçün dövlətin, eləcə də özəl sektorun davamlı dəstəyi vacib faktorlardandır. Zəngin mədəni-tarixi resursları turizm potensialı kimi daha səmərəli istifadə etməklə, ölkədəki turizm fəaliyyətlərini həm yerli vətəndaşlar, həm də xaricilər üçün daha maraqlı və yaddaqalan etmək olar.

### İşğaldan azad olunmuş ərazilərin turizm imkanları və həyata keçirilən dövlət siyasəti

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə demişdir: "Turizm sahəsi həm regionların inkişafı, həm də ölkənin iqtisadi potensialının möhkəmlənməsi üçün, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir". Azərbaycan Respublikasında son illərdə qeyri-neft sektorunun ölkə iqtisadiyyatında payının artırılması istiqamətində həyata keçirilən mərkəzi dövlət siyasəti çərçivəsində diqqət ayrılan ən vacib sahələrdən biri turizm sənayesinin sistemli və fundamental şəkildə inkişaf etdirilməsidir. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə Azərbaycanın mövcud turizm potensialından səmərəli istifadə edilərək bu sahənin qısa müddətdə inkişaf etdirilməsi əsas hədəf kimi qarşıya qoyulmuşdur. Prezidentin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinə əsasən, "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" sənədi hazırlanmış və burada turizm sahəsi Azərbaycanda milli iqtisadiyyatın 18 əsas prioritet istiqamətlərindən biri müəyyən edilmişdir. Sənəddə xüsusi diqqət çəkən "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış üzrə strateji çərçivə" (3.4) bəndidir ki, həmin ərazilərin yenidən turizm bölgəsi kimi inkişaf etdirilməsi prioritet istiqamət kimi vurğulanır: "Qarabağ bölgəsi turizm biznesi üçün cəlbedici, turistlər üçün əlçatan, unikal, keyfiyyətli və rəqabətli turizm xidmətləri təklif edən turizm destinasiyası olacaqdır" [1]. Bu prioritet "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində icra ediləcək. Turizm məhsullarının hazırlanması həmin ərazilərdə turizm infrastrukturunun qurulması ilə paralel aparılacaq. Əlbəttə, turistlərin təhlükəsizliyinin təmin olunması başlıca vəzifədir. Əhalinin geri qayıdışı, yaşayışın və infrastrukturun bərpası ilə paralel olaraq orada turizm məhsulları da yaradılacaq.

90-cı illərin əvvəllərində Dağlıq Qarabağın və ətraf rayonların işğalı Azərbaycanı təkcə ərazi baxımından deyil, həm də iqtisadi, sosial və mədəni itkilərlə üzləşdirdi. Bura turizm sektorundakı maddi və mənəvi itkiləri də daxil etməliyik. İşğal nəticəsində həmin ərazilərdəki tarixi-mədəni abidələrin, zəngin tarixi irsin ermənilər tərəfindən məhv edilməsi, mənimsənilməsi turizm sektoruna, mədəni turizmin inkişafına da mənfi təsirini göstərmişdir. Lakin Vətən müharibəsində Azərbaycanın qələbə qazanması, torpaqların geri qayıtması həmin ərazilərdə canlanmaya səbəb oldu. Hazırda bəzi abidələrin bərpası, müxtəlif mədəni tədbirlərin keçirilməsi, aparılan təmir-bərpa işləri bölgənin tarixi simasını özünə qaytarır. 10 noyabr 2020-ci il tarixli bəyanatla azad edilmiş Azərbaycanın dilbər guşəsi olan Qarabağı artıq mədəni turizmin yeni prioritet istiqaməti kimi qeyd edə bilərik. Prezident İlham Əliyev 2020-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş videokonfransda demişdir: “Qarabağ bölgəsinin çox zəngin turizm potensialı vardır. Ona görə indidən turizm marşrutları işlənib hazırlanmalıdır ki, artıq həyat bu bölgəyə qayıdandan sonra vaxt itirmədən turizm sektoru da inkişaf etsin. İndidən beynəlxalq turizm sərgilərində – pandemiyadan sonra bu sərgilər bərpa ediləcək, Qarabağ bölgəsinin turizm potensialı, turizm marşrutları, tarixi abidələri göstərilməlidir ki, biz bu bölgəni, doğrudan da, dünya üçün çox cəlbedici bölgə kimi təqdim edək. Nəzərə alsaq ki, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək”.

Qarabağ zonası və ətraf rayonlar həm ekoturizm, həm dağ turizmi, həm də mineral və termal suların zənginliyi baxımından Azərbaycanın dilbər guşələrindən sayılır. İşğaldan azad edilmiş ərazilərdə müalicəvi suların olması buranın müalicəvi turizm baxımından böyük imkanlara malik olmasından xəbər verir. Digər tərəfdən dünyanın ən qədim insan məskənlərindən biri – Azıx mağarası və digər tarixi abidələr işğaldan azad edilmiş ərazilərin turizm baxımından cəlbediciliyini artırır. Artıq ölkə xaricində işğaldan azad edilmiş ərazilərin turizm imkanlarının təbliğinə başlanılıb. Belə ki, 2020-ci il dekabr ayının 9–10-da Azərbaycan Turizm Bürosu (ATB) tərəfindən Cənubi Asiya ölkələrinin iştirak etdiyi “Travel Meet Asia 2020” və Özbəkistanın turizm şirkətlərinin qatıldığı “Tour Expo Tourism Fair” adlı virtual tədbirlərdə Qarabağ və onun turizm imkanları təbliğ edilmişdir. Tədbirlər çərçivəsində keçirilmiş görüş və vebinarlarda iştirakçılara Azərbaycanın, xüsusilə işğaldan azad edilmiş ərazilərin turizm imkanları haqda məlumat verilmişdir. Bundan başqa, Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən “Gulf Travel Show” sərgisində işğalçılardan azad edilmiş Qarabağ bölgəsinin turizm potensialı haqda və müvafiq tədbirlərdən sonra bölgənin yeni turizm destinasiyaları sırasına daxil ediləcəyi barədə məlumatlar çatdırılmışdır. Azərbaycan Turizm

Bürosu Londonda keçirilən dünyanın tanınmış turizm sərgilərindən olan Dünya Səyahət Bazarı sərgisində ("WTM London-2020") də iştirak etmişdir. Virtual görüşlər çərçivəsində iştirakçılar Dağlıq Qarabağ və ətraf rayonların turizm potensialı barədə məlumatlandırılmışlar [4].

Mədəniyyətin beşiyi sayılan Şuşa hər zaman turistlər üçün açıq səma altında muzey olmuşdur. Bu şəhərdə Pənahəli xanın sarayı, Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi, Şuşa mağara düşərgəsi, Şuşa qalası kimi tarixi abidələr və muzeylər diqqət çəkəndir. Bütün bunları nəzərə alaraq, 5 yanvar 2021-ci il tarixində ölkə prezidenti İlham Əliyev "Mən Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edirəm. Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər" sözləri ilə bu qədim şəhəri Azərbaycan mədəniyyətinin paytaxtı elan etmişdir. 1989-cu ildə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar Şuşada keçirilən tarixi "Xarı bülbül" musiqi festivalının 29 illik fasilədən sonra nəhayət, 2021-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşada yenidən keçirilməsi Qarabağ bölgəsinin mədəni turizm potensialını nümayiş etdirən əlamətdar hadisə olmaqla yanaşı, Azərbaycanın mədəni-tarixi resurslarına əsaslanan mədəni turizminin gələcək inkişafından xəbər verir. Bu şəhərdə daha çox mədəni tədbirlərin təşkili, festivallar, turizm məhsullarının təqdimatı, beynəlxalq sərgilərin və digər mədəni-kütləvi görüşlərin keçirilməsi nəzərdə tutulursa, Laçın-Kəlbəcər, Qubadlı-Zəngilanda təbiət, qış və sağlamlıq turizmi inkişaf etdiriləcək, Füzuli-Ağdam-Cəbrayılda isə dağıdılmış mədəniyyət müəssisələri və işğalın nəticələrini göstərmək üçün bəzi tikililər turistlərə nümayiş etdirilmək üçün olduğu kimi qorunub-saxlanılacaq. Dünya turizm təcrübəsində bu, çox böyük təsir gücünə malikdir və turizmin iqtisadi tərəflərindən başqa, siyasi-təbliğatı tərəflərini də nümayiş etdirir. Qarabağda turizmin gələcək inkişafının daha bir mühüm siyasi əhəmiyyəti də vardır. Bu gün artıq Şuşa şəhərinin və Xudafərin körpüsünün YUNESKO-nun Ümumdünya İrs Siyahısına salınması üçün işlərə başlanılıb. Şəhər tarixi simasını saxlamaqla ən müasir formada bərpa edilir. Burada müasir turizm infrastrukturu yaradılır. Xüsusən də modern memarlıq nümunəsi olacaq yeni məscidin təməlinin qoyulması Şuşanı tarixilik və müasirliyin birləşdiyi qeyri-adi turizm məkanı kimi cəlbedici edir. Şuşa şəhərinin zəngin mədəni, tarixi irsi var ki, bu istiqamətdə də müvafiq turizm məhsulları, turizm marşrutlarının qurulması planlaşdırılır. Marşrutların Füzuli-Xocavənd-Şuşa-Laçın, Füzuli-Cəbrayıl-Zəngilan, Zənglan-Qubadlı-Kəlbəcər-Laçın, Bərdə-Ağdam istiqamətlərində təşkili nəzərdə tutulur.

**Nəticə**

Zəngin mədəni irs resursları olan Azərbaycanda mədəni turizmin inkişaf strategiyaları bölgələrdə yerli əhalinin məşğulluq problemlərinin həlli istiqamətində önəmli bir iqtisadi alət ola bilər. Eyni zamanda mədəni turizmi həm də beynəlxalq aləmdə ölkənin imicinin formalaşdırılmasına töhfə verən önəmli bir alət kimi qiymətləndirmək olar. Bütün bunlar da mədəni turizm resursu kimi maddi mədəniyyət abidələrinin qorunması, bərpası və təbliği məsələlərini bir daha gündəmə gətirir. Yekun olaraq, qısa şəkildə ifadə etsək, mədəni-tarixi abidələrin turizm resursu kimi bu sahənin inkişafında 3 əsas rolunu qeyd edə bilərik. iqtisadi, sosial və ekoloji. Mədəni-tarixi resursların turizmin inkişafında iqtisadi rolunu milli iqtisadiyyatda valyuta axınının tənzimləməsi, vergi gəlirlərinin artırılması, yeni iş yerlərinin, müəssisələrin yaradılması kimi izah etmək olar. Sosial rolu ondan ibarətdir ki, yerli ənənələrin, adətlərin və mədəniyyətin qorunmasına kömək edir, cəmiyyətin imicinin yaxşılaşdırılmasına yardımçı olur. Həm yerli sakinlər, həm də mədəniyyət, tarix ilə maraqlanan qonaqlar üçün xoş imkanlar yaradır. Bundan başqa turizm xidmətlərini dəstəkləyən mədəni-tarixi resurslara yerli investisiyaları artırır. Mədəni-tarixi resursların turizmin inkişafındakı ekoloji roluna gəlincə, mədəni irs nümunələrinin qorunmasını təşviq edir, turizm bölgəsinin, ərazinin əhəmiyyəti barədə məlumatlılığı artırır. Ən əsası isə yerli sakinləri və qonaqları təbii və antropogen mühitə onların təsirləri barədə düşünməyə təşviq edir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının 2022-2026-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası. https://e-qanun.az/framework/50013
2. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan İqtisadi İslahatlar İcmalı, iyul 2017, 12 s.
3. Azərbaycanın daxili turizm imkanları // "Mədəniyyət" qəzeti. - 2016, - 10 fevral.
4. İşğaldan azad olunmuş ərazilər ölkə turizminə töhfə verməyə qadirdirmi? // "İki sahil" qəzeti. - 2021. - 4 fevral
5. Kərimov E. Mustafayev E. Azərbaycanda mədəni irs və mədəni turizm: resurslar, məhsullar, təcrübələr. - Bakı, - 2022. - 112 s.
6. 2019-cu ildə Azərbaycana gələn turistlərin sayı 11,3% artıb. https://interfax.az/view/790418/az [27.01.2020]
7. Aydın İ. Açıklamalı turizm terimleri sözlüğü. Coşkun Matbaası Yayınları, - 1990. - 215 s.
8. Şahin H. İ. Dalyan ve Köyceğiz çevresinde gelenek, turizm ve folklorizm // Millî Folklor. - 2009. - Sayı 82. - ss. 50-58
9. Dallen J.T. Cultural heritage and tourism: An Introduction. - New-York. - 2011. - 509 p.
10. European Commission Cultural Heritage. Special Eurobarometer 466. "European Commission", - Brussels, - 2017. - 125 p.
11. Howard P. Heritage: management, interpretation, identity. - London: Leicester University Press, - 2003. - 288 p.
12. McKercher B. du Cros H. Cultural tourism: the partnership between tourism and cultural heritage management. The Haworth Hospitality Press, 2006. - 262 p.
1. https://cemeri.org/ru/art/a-patrimonio-cultural-turismo-internacional-ev
13. Richards G. Cultural attractions and European tourism. - Wallingford: 2001. - 259 p.
14. World Tourism Organization (UNWTO) Tourism and Culture Synergies. - Madrid: "UNWTO", - 2018. - 160 p.
15. Герасименко Т.И., Гладкий Т.И. Всемирное и национальное культурное наследие региона как основа развития историко-культурного туризма // Туризм и культурное наследие. - Саратов, - 2006. - Вып. 3. - 404 с.
16. Рейез П. Культурное наследие в международном туризме. // CEMERY-Мексиканский центр международных отношений. https://cemeri.org/ru/art/a-patrimonio-cultural-turismo-internacional-ev [23.05.2022]

## ABSTRACT

## TANGIBLE CULTURAL HERITAGE AS AN IMPORTANT TOURISM RESOURCE

**Sharifova V.A.**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan Department of History, former PhD*

Tourism is, first of all, a form of economic development based on cultural and historical sources and monuments. Cultural heritage resources and tourism have mutually beneficial relationships that can increase the attractiveness and competitiveness of regions and countries. Cultural and historical monuments and resources create uniqueness on the world market as a tourist product, and tourism is an essential means of obtaining income supporting and strengthening cultural heritage, cultural production, and creativity. The use of rich cultural and historical resources in Azerbaijan in the field of tourism occupies an important place in state policy. As a country with a vast cultural heritage and rich history, traditions, and folklore, Azerbaijan is one of the most interesting and unique destinations for cultural tourism. The construction of important infrastructure and restoration work in the liberated territories of Azerbaijan, which have a wide tourist potential, testify that the region will be recognized as an attractive tourist zone in the near future.

***Keywords:*** *tangible cultural heritage, cultural tourism, resource, tourism product, Shusha*

## РЕЗЮМЕ

# МАТЕРИАЛЬНОЕ КУЛЬТУРНОЕ НАСЛЕДИЕ КАК ВАЖНЫЙ ТУРИСТИЧЕСКИЙ РЕСУРС

**Шарифова В.А.**
*Бывший докторант кафедры Истории*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики*

Туризм – это, прежде всего, форма экономического развития, основанная на культурно-исторических источниках и памятниках. Ресурсы культурного наследия и туризм имеют взаимовыгодные отношения, которые могут повысить привлекательность и конкурентоспособность регионов и стран. Культурно-исторические памятники и ресурсы создают уникальность на мировом рынке как туристический продукт, а туризм является важным средством получения дохода, поддержки и укрепления культурного наследия, культурного производства и творчества. Использование богатых культурно-исторических ресурсов Азербайджана в сфере туризма занимает важное место в государственной политике. Как страна с огромным культурным наследием, богатой историей, традициями и фольклором, Азербайджан является одним из интересных и уникальных направлений культурного туризма. Строительство важной инфраструктуры и восстановительные работы на освобожденных территориях Азербайджана, обладающих широким туристическим потенциалом, свидетельствуют о том, что в ближайшем будущем регион будет признан привлекательной туристической зоной.

***Ключевые слова:*** *материальное культурное наследие, культурный туризм, ресурс, туристический продукт, Шуша*

DOI: 10.30546/mab.17.2022.223

УДК 634.75:632.482.22

# СКЛЕРОТИНИОЗ ИЛИ БЕЛАЯ ГНИЛЬ ЗЕМЛЯНИЧНЫХ КУСТОВ В УСЛОВИЯХ ГЯНДЖА – КАЗАХСКОЙ ГЕОГРАФИЧЕСКОЙ ЗОНЫ АЗЕРБАЙДЖАНА

**Гулиев Ф.А.**

*Ленкоранский Региональный Научный Центр*
*Национальной Академии Наук Азербайджана,*
*доктор с.-х. наук, профессор*
*e-mail: prof.fquliyev@mail.ru*

**Гусейнова Л.А.**

*Научно-Исследовательский Институт*
*Защиты растений и Технических культур, докторант*
*e-mail: fitopatoloq.Lale@mail.ru*

*Ягодоводство является одной из важнейших отраслей сельского хозяйства Азербайджана, производящее ценные пищевые и лечебные продукты. Получению высоких урожаев, качественных ягод в значительной мере препятствуют различные вредители и болезни ягодных культур.*

*В статье изложены результаты исследований по изучению распространенности, развития и вредоносности белой гнили (Sclerotinia sclerotiorum (Lib.) de Bary.) в условиях западной части Азербайджана.*

*Большой вред насаждениям земляники в условиях западной части (Гянджа – Казахская географическая зона страны) Азербайджана наносят грибные болезни (микозы), из которых наиболее распространенной и вредоносной является склеротиниоз или белая гниль ягод (Sclerotinia sclerotiorum (Lib.) de Bary.). Поражаются главным образом ягоды, но могут быть подвержены заражению листья. При этом ткани загнивают, а затем покрываются белым ватообразным налетом, состоящим из мицелия гриба. Позднее на нем образуются довольно крупные черные склероции. Часто больные органы земляники размочаливаются, внутри них обнаруживаются белый налет и склероции.*

*Сложившиеся в последние годы благоприятные для развития болезни условия, наличие значительного количества восприимчивых сортов земляники, отсутствие эффективных систем защитных мероприятий, не достаток фунгицидов послужили причиной повсеместного распространения склеротиниоза или белой гнили ягод (Sclerotinia sclerotiorum (Lib.) de Bary.) и возрастаний ее вредоносности.*

***Ключевые слова:*** *земляника, склеротиниоз или белая гниль, возбудитель болезни, распространение, развития, вредоносность, методы борьбы*

## Введение

Земляника (*Fragaria* L.) занимает первое место среди других ягодных культур. Она наиболее скороплодная и высокоурожайная (рис. 1). При соблюдении всех требований технологии и подбора соответствующих сортов можно получить высокий урожай.

Основные составные технологии выращивания земляники (*Fragaria* L.) [1, 2];

- качественный посадочный материал;
- качественная подготовка почвы;
- использование оптимальных схем размещения растений;
- выращивание высокоурожайных сортов;
- эффективная защита от вредителей и болезней.



**Рисунок 1.** Сбор ягод земляники (сорт «Виктория»)

Основными болезнями земляники (*Fragaria* L.), причиняющими значительный ущерб ягодоводству, являются вертициллезное увядание (*Verticillium albo-atrum* Rein. Et Bert. и *Verticillium dahliae* Kleb.), фитофтороз или покраснение осевого цилиндра корня (*Phytophthora fragaria* Hickman.), фузариозное увядание (*Fusarium oxysporum* Schl.), ботритиоз или серая гниль (*Botrytis cinerea* Pers.), склеротиниоз или белая гниль (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary.), рамуляриоз или белая пятнистость (*Ramularia tulasnei* Sacc.), бурая пятнистость (*Marssonina potentillae* (Desm.) Magn. f. sp. *fragariae* (Lib.) Ohl.) и т.д. [3,4,5,6].

В условиях западной части Азербайджана земляничные кусты больше всего поражаются болезнями пятнистости (рамуляриоз или белая гниль, бурая пятнистость, коричневая пятнистость, красная пятнистость) и гниения (ботритиоз или серая гниль, склеротиниоз или белая гниль, черная гниль).

Склеротиниоз или белая гниль – одно из самых опасных заболеваний земляники. В некоторых случаях фитопатоген может уничтожить половину урожая. Чаще всего от гриба страдает земляника, выращиваемая вы открытом грунте. Риск существенно уменьшается при ее культивировании в теплице, на вертикальных грядках, на черной пленке.

На листьях и плодах появляются расплывчатые светлые пятна. Постепенно эти ткани засыхают или гниют (при влажной, дождливой погоде). В особо тяжелых случаях ягоды и листья покрываются толстым слоем белого налета, похожего на вату. Есть такую землянику нельзя.

Патоген сохраняется в почве на растительных остатках и пораженных растениях культуры.

Факторы, способствующие развитию болезни следующие:

➢ Склероитиниоз или белая гниль земляники (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary.) развивается в прохладную погоду, при высокой влажности, в загущенных или заросших сорняками посадках;

➢ Частые дожди и ветер способствуют распространению конидий и интенсивному развитию заболевания.

Заболевание широко распространено и вредоносно во всех географических зонах Азербайджана (особенно, в условиях западной части страны). Потери урожайности ягод земляники могут составить до 50-60%.

Склеротиниоз или белая гниль ягод земляники (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary.) наносит ощутимые убытки производству: снижает товарную ценность ягод, приводит к большим потерям урожая. Пораженные ягоды земляники не пригодны к транспортировке на большие расстояния. Их можно употреблять на месте или перевозить на ближайшие консервные заводы для переработки. Ягоды, пораженные 5 баллом, вообще не пригодны для употребления.

**Цель и задача исследований**

Основной целью исследований являлась изучение распространение и развития болезни, а также построение эффективного и максимально экологически безопасного комплекса мер борьбы с склеротиниозом или белой гнилью (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary.).

В задачи исследований входило:

Выявить распространение, вредоносность и особенности развития болезни в конкретных условиях западной части Азербайджана;

Дать оценку устойчивости к болезни районированных и испытываемых сортов земляники;

Выделить возбудителя болезни и изучить его морфологические, культуральные, физиологические, биохимические и патогенные свойства;

Разработать меры защиты от склеротиниоза (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary.) на основе применения фунгицидов и дать оценку их биологической эффективности.

**Объекты и методы исследований**

Исследования проводились на крупнейших промышленно значимых плантациях земляники западно-географического региона (на территории Гёйгёльского района) Азербайджана в 2021-2022 годах. Основной целью исследования было изучение распространения болезни, интенсивности развития и вредоносности в западной части республики, а также разработка научно обоснованных методов борьбы. Склеротиниоз или белая гниль (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary.) сильно развивается при длительном возделывании земляники (*Fragaria* L.) на одном и том же участке. Развитие болезни зависит также от предшественников. Они не только могут поражаться сами, но влияют на соотношение микрофлоры почвы, которая может подавлять возбудителей гнили земляники.

С целью определения заражения земляники белой гнилью (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary.) учет проводили в фенофазах цветение – плодоношение. На обследуемом участке площадью до 5 га по двум диагоналям осматривали 10 кустов, отстоящих приблизительно на одинаковом расстоянии один от другого. Оценку степени поражения растений проводили по следующим показателям:

0 балл – растение здоровое;

1 балл – поражено до 10% растения;

2 балла – поражено 11-25% растения;

3 балла – поражено 26-50% растения;

4 балла – поражено более 51% растения.

При учете пораженности ягод земляники белой гнилью (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary.) и другими болезнями на обследуемых кустах подсчитывали количество и процент здоровых и пораженных ягод.

Распространенность (Р, %) определяли после подсчета больных и здоровых растений в пробе по формуле [7, 8, 9, 10]:

$$P = 100n/N,$$

где n - число больных растений в пробе;

N - общее число обследованных растений.

Развитие болезни (R, %) определяли по следующей формуле [7,8,9,10]:

$$R=(100 \quad (ab)) / Nk$$

где a - число больных растений;

b - соответствующий балл их поражения;

N - общее число учтенных растений (больных и здоровых);

k - высший балл в шкале учета.

Биологическую эффективность (БЭ, %), выраженную в процентах, рассчитывали по формуле [7,8,9,10]:

$$БЭ=(M_к–M_о)/M_к·100,$$

где $M_к$ – показатель развития болезни в контроле (защитные мероприятия не проводились);

$M_о$ – показатель развития болезни в опыте (с защитными мероприятиями).

**Результаты и их обсуждение**

Погодные условия 2022 года способствовали развитию некоторых патогенных грибов на плантациях земляники. Из-за сильных осадков, которые выпали в июне и июле, плантации земляники были поражены белой гнилью *(Sclerotinia sclerotiorum* (Lib.) de Bary.). Несмотря на то, что

проводились химические обработки земляничных насаждений, эти заболевания привели к значительным потерям урожая.

Гриб *Sclerotinia sclerotiorum* (Lib.) de Bary. вызывает гниение созревающих ягод. На них образуется обильная белая ватообразная грибница, в сырую погоду с капельками воды на поверхности (рис. 2,3). На грибнице быстро формируются желвакообразные тельца-склероции.

*Sclerotinia sclerotiorum* (Lib.) de Bary. многоядный гриб. Он поражает овощные, плодовые, технические культуры, сорняки, с которых легко переходит на землянику.

Склеротиниоз или белая гниль (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary.) легче поражает поврежденные ягоды; чаще развивается на ягодах, соприкасающихся с землей, загрязненных. Благоприятствует развитию болезни сырая прохладная погода, загущение кустов, обильные поливы.



**Рисунок 2–3.** Склеротиниоз или белая гниль земляники (начало и после)

Эффективный комплекс обработок против склеротиниоза или белой гнили (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary.) может быть разработан при учете биологического цикла патогена, климатических условий региона и степени устойчивости сортов земляники. Он должен включать своевременное проведение агротехнических мероприятий, использование минимума химических средств защиты. Подбор препаратов необходимо вести с учетом их экологической безопасности как для плодовой продукции, так и для окружающей среды.

Выбор методов борьбы и сроков их проведения должен строиться на основе знания этиологических особенностей заболеваний и биологии возбудителей, а также знания местных экологических условий [11,12].

Получение высоких урожаев земляники (*Fragaria* L.) невозможно без защиты растений от болезней. Чтобы избежать больших потерь урожая, необходимо проводить профилактические химические обработки это предотвращает появление многих болезней.

Химический метод защиты земляничных плантаций от болезней на данном этапе развития ягодоводства является приоритетным направлением с позиции гарантированного сохранения урожая. Именно этим обусловлен постоянный поиск фунгицидов и замена традиционных средств на современные препараты, обладающие повышенной биологической, хозяйственной эффективностью и низкой токсикологической нагрузкой на объекты окружающей среды [13,14].

**Таблица**

Биологическая эффективность фунгицидов против склеротиниоза или белой гнили земляники (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary.) (2021-2022 гг.)

| Фунгициды, применяемые против склеротиниоза или белой гнили | Норма расхода, кг/га; л/га | 2021 г. | | 2022 г. | |
|---|---|---|---|---|---|
| | | R, % | БЭ, % | R, % | БЭ, % |
| Алирин – Б, ТАБ (*Bacillus subtilis* штамм В-10 ВИЗР; титр не менее 109 КОЕ/г) | 10 таб/10 л воды | 15,5 | 77,0 | 16,7 | 77,0 |
| Фитоспорин – М, Ж (*Bacillus subtilis* штамм 26 Д; титр не менее 1 млрд живых клеток и спор/мл) | 40 мл/10 л воды | 18,9 | 72,0 | 18,0 | 75,0 |
| Топаз, КЭ (100 г/л пенконазол ) | 0,3-0,4 | 19,6 | 71,0 | 19,1 | 73,3 |
| Байлетон, СП (250 г/кг триадимефон) | 0,24 | 19,5 | 71,0 | 18,8 | 74,0 |
| Контроль (без химической обработки) | – | 66,9 | – | 71,5 | – |

Анализ результатов двулетних исследований показал, что биологический фунгицид Алирин – Б, примененный в плантациях земляники, способствовал снижению развития склеротиниоза или белой гнили (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary.) на ягодах с биологической эффективностью в пределах 77,0%.

**Выводы**

Товарные и маточные посадки нужно закладывать раздельно. Необходимо использовать здоровую высококачественную рассаду устойчивых сортов (к белой гнили, пятнистостям). Чем интенсивнее производство земляники (в открытом грунте с поливом дождеванием и напуском, с капельным орошением; в защищенном грунте – по гидропонным технологиям), тем выше должна быть устойчивость сортов и обязательно регулярное проведение фитосанитарного мониторинга.

Следует соблюдать севооборот и пространственную изоляцию от культур, имеющих общие заболевания. Высокий уровень агротехники обеспечивает благоприятные условия для роста и развития растений. Также эффективным является регулирование закладки цветоносов, формирование надземной и подземной массы растений препаратами со специальными регуляционными свойствами, многие из которых обладают иммуномодуляционными, антистрессовыми свойствами. При подкормке не применяют хлористые формы калийных удобрений, к которым чувствительна земляника; следует избегать одностороннего внесения азотных удобрений.

Не допускать загущения посадок. Ранней весной или осенью следует очищать участки от сильно пораженных и старых сухих листьев; удалять гнилые ягоды в период сбора урожая. В начале созревания ягод для снижения поражения белой гнилью (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary.) желательно мульчировать почву в рядах торфом, чистой, незараженной соломой и т.п., избегая контакта с ягод с почвой. Ранней весной, в самом начале вегетации, проводят искореняющее опрыскивание от комплекса болезней (склеротиниоз, ботритиоз, рамуляриоз, бурая пятнистость и т.д.) 3-4%-ной бордоской смесью. Против пятнистостей (рамуляриоз, бурая пятнистость и т.д.) на посадках 3-го года и старше после сбора урожая проводят практически полное удаление листьев, оставляя самые молодые, затем растения обильно поливают и подкармливают комплексными удобрениями, стимулируя активный рост новых листьев. При выращивании земляники по технологиям капельного полива обрезка листьев рекомендуется с первого года сбора урожая, а также профилактическое

применение биофунгицидов в комплексе с микро – и макроудобрениями в легкодоступной форме и с пролонгированным действием.

Опрыскивании фунгицидами в период вегетации проводят, как правило, в период бутонизации земляники, сразу после сбора урожая и через 12-15 дней; в маточниках и питомниках – без ограничений.

От белой гнили (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary.) проводят опрыскивания растений биопрепаратами: фитоспорин – М, алирин – Б, а из химических фунгицидов: топазом, байлетоном и т.д.

**Литература:**


1. Кривко Н.П., Агафонов Е.В., Чулков В.В. Плодоводство. – М.: Лань, – 2014. – 68 с.
2. Баранов В.Д., Устименко Г.В. Мир культурных растений. – М.: Мысль, – 1994. – 71 с.
3. Гулиев Ф.А., Гусейнова Л.А. Изучение и диагностика ботритиоза или серой гнили земляники в условиях западной части Азербайджана / Материалы IX Международной научно-практической конференции «Наука и Образование в современном мире: Вызовы XXI века», Казахстан, – 2021. – 21-25 с.
4. Гулиев Ф.А., Гусейнова Л.А. Распространение, динамика развития и вредоносность бактериального корневого рака земляничных кустов в условиях западной части Азербайджана / Труды Азербайджанского Национального Комитета «Человек и Биосфера» (МаВ UNESCO. – 2021. – с.205-216.
5. Горленко М.В. Бактериальные болезни растений. – М.: Высшая школа, – 1966. – 37 с.
6. Харрион Д. Болезни сада / пер с англ. А.Карасева, – СПб.: Амфора ТИД Амфора. – 2011. – 17 с.
7. Тарр С. Основы патологии растений. / Пер. с англ. – М.: Мир, – 1975. – 121 с.
8. Кирай З., Клемент З., Вереш Й., Шоймоши Ф. Методы фитопатологии. – М.: Колос, 1974.
9. Доспехов Б.А. Методика полевого опыта. – М.: Агропромиздат, –1985. – 122 с.
10. Чумаков А.Е., Минкевич И.И., Власов Ю.И., Гаврилова Е.А. Основные методы фитопатологических исследований. – М.: Колос, –1974. – 190 с.
11. Миренков Ю.А. и др. Интегрированная защита растений. – Минск: ИВЦ Минфина, – 2008. – 81 с.
12. Чулкина В.А. Агротехнический метод защиты растений. –Новосибирск: ЮКЭА, – 2000. – 41 с.
13. Белошапкина О.О., Шкаликов В.А., Букреев Д.Д. и др. Защита растений от болезней. – М.: Колос, – 2010. – 128 с.
14. Федоренко В.Ф., Мишуров Н.П., Коноваленко Л.Ю. Современные технологии производства пестицидов и агрохимикатов биологического происхождения. – М.: ФГБНУ «Росинформагротех», – 2018. – 63 с.

## XÜLASƏ

# AZƏRBAYCANIN GƏNCƏ – QAZAX COĞRAFİ BÖLGƏSİ ŞƏRAİTİNDƏ ÇİYƏLƏK KOLLARININ SKLEROTİNİOZU VƏ YA AĞ ÇÜRÜMƏSİ XƏSTƏLİYİ

**Quliyev F.A.**
*AMEA-nın Lənkəran Regional Elmi Mərkəzi,*
*k/t elmləri doktoru, professor*

**Hüseynova L.A.**
*Bitki Mühafizə və Texniki Bitkilər*
*Elmi-Tədqiqat İnstitutu, doktorant*

Giləmeyvəçilik Azərbaycanın kənd təsərrüfatının qiymətli qida və müalicəvi məhsullar istehsal edən ən əsas sahələrindən biridir. Giləmeyvə bitkilərinin xəstəlik və zərərvericiləri bu bitkilərdən yüksək və keyfiyyətli məhsulun alınmasına əhəmiyyətli dərəcədə əngəl törədir.

Məqalədə Azərbaycanın qərb bölgəsi şəraitində çiyələk bitkisinin ağ çürüməsi xəstəliyinin (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary.) yayılması, inkişafı və zərərinin öyrənilməsinin nəticələri verilmişdir.

Azərbaycanın qərb hissəsi şəraitində (ölkənin Gəncə – Qazax coğrafi bölgəsi) çiyələk əkinlərinə mikozlar, yəni göbələk mənşəli xəstəliklər böyük ziyan vurur ki, bunlardan da ən geniş yayılanı və zərərlisi sklerotinioz və ya ağ çürüməsi xəstəliyidir (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary.). Xəstəliklə əsas etibarı ilə giləmeyvələr sirayətlənir, lakin yarpaqların yoluxması da istisna edilmir. Xəstəlik zamanı toxumalar çürüyür, sonra göbələyin mitselindən ibarət olan pambığabənzər ağ rəngli örtüklə örtülür. Bir müddət sonra örtüyün üzərində kifayət qədər iri qara rəngli sklerosiyalar formalaşır. Əksərən, çiyələk bitkisinin xəstə orqanları süngərləşir, onların daxilində ağ rəngli örtük və sklerosiyalar aşkar edilir.

Son illərdə xəstəliyin inkişafı üçün əlverişli şərait, xeyli sayda həssas çiyələk sortlarının olması, effektiv qoruyucu tədbirlər sistemlərinin olmaması, müvafiq fungisidlərin çatışmaması sklerotinioz və ya ağ çürümə xəstəliyinin geniş yayılmasına və zərərinin artmasına səbəb olmuşdur.

***Açar sözlər:*** *çiyələk, sklerotinioz və ya ağ çürümə, xəstəlik törədici, yayılma, inkişaf, zərər, mübarizə üsulları*

## ABSTRACT

# SCLEROTINIOSIS OR WHITE ROTT OF STRAWBERRY BUSHES IN GANJA - KAZAKH GEOGRAPHICAL ZONE OF AZERBAIJAN

**Guliyev F.A.**

*Lankaran Regional Scientific Center*
*Azerbaijan National Academy of Sciences*
*Dr. in Agricultural Sciences, Professor*

**Huseynova L.A.**

*Scientific Research Institute of*
*Plant Protection and Industrial Crops*
*Doctoral Student*

Berry growing is one of the most important sectors of Azerbaijan's agriculture, producing valuable food and medicinal products. Obtaining high yields and high-quality berries is prevented mainly by various pests and diseases of berry crops.

The article presents the results of studies on the prevalence, development, and harmfulness of white rot (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary) in the western part of Azerbaijan.

Significant harm to strawberry plantations in the conditions of the western part (Ganja- Kazakh geographical zone of the country) of Azerbaijan is caused by fungal diseases (mycoses), of which the most common and harmful is sclerotinia, or white rot of berries (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary). The berries are mainly affected, but the leaves may be affected. In this case, the tissues rot and then become covered with a white cotton-like coating consisting of the mycelium of the fungus. Later, rather large black sclerotia are formed on it. Often, diseased strawberry organs are soaked, and white plaque and sclerotia are found inside them.

The favorable conditions for the development of the disease in recent years, the presence of a significant number of susceptible cultivars of strawberries, the lack of effective systems of protective measures, and the lack of fungicides have caused the widespread occurrence of sclerotinia, or white rot of berries (*Sclerotinia sclerotiorum* (Lib.) de Bary.), and an increase in its harmfulness.

***Keywords:*** *strawberries, sclerotinia or white rot, pathogen, distribution, development, harmfulness, control methods*

DOI: 10.30546/mab.17.2022.235

UOT 581.522.4

# İNTRODUKSİYA OLUNMUŞ VƏ SELEKSİYA ÜSULU İLƏ ALINMIŞ BƏZİ PERSPEKTİVLİ QIZILGÜL SORTLARI

**Qafarova O.O.**

*Mərkəzi Nəbatat Bağının "Dekorativ bitkilərin introduksiyası və seleksiyası" laboratoriyasının müdiri, b.ü.f.d., dosent*

*e-mail: ofeliya.qafarova@gmail.com*

**İsgəndərov A.T.**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Botanika İnstitutunun "Biomorfologiya və fitointroduksiya" şöbəsinin aparıcı elmi işçisi, b.ü.f.d., dosent*

*Mərkəzi Nəbatat Bağında introduksiya olunmuş və seleksiya üsulu ilə yetişdirilmiş çay-hibrid və floribunda bağ qruplarına mənsub olan qızılgül sortları arasında kompleks bioloji və təsərrüfat əhəmiyyətli göstəriciləri ilə seçilən 120 qızılgül sortu müəyyən edilmişdir. Məqalədə onlardan yaşıllaşdırmada və bəzək bağçılığında istifadəsi, həmçinin açıq və örtülü şəraitdə becərilməsi tövsiyə edilən perspektivli 38 qızılgül sortunun botaniki, biomorfoloji və dekorativ xüsusiyyətləri verilir.*

***Açar sözlər:*** *introduksiya, seleksiya, kolleksiya, qızılgül, çay-hibrid, floribunda.*

## Giriş

Mərkəzi Nəbatat Bağında uzun illərdir Rosa L. cinsinin müxtəlif bağ qruplarında təmsil olunan qızılgül sortlarının kolleksiyasını toplayaraq elmi əsaslarla öyrənilməsi – introduksiyası, seleksiyası və genofondunun yaradılması istiqamətində tədqiqat işləri aparılır.

Qeyd etmək lazımdır ki, əvvəllərdə olduğu kimi son illərdə də xarici ölkələrdən respublikaya yüz minlərlə bəzək bitkiləri, o cümlədən qızılgül çeşidləri gətirilir. Onların əksəriyyəti yeni iqlim şəraitinə uyğunlaşa bilmədiyindən quruyurlar və ya zəif inkişaf edərək xəstəliklərə yoluxur və dekorativliyini itirirlər.

Rosa L. cinsinin öyrənilməsi sahəsində çox illik təcrübə və müşahidələrimiz göstərir ki, xarici ölkələrin kultivarları öncə yerli şəraitə iqlimləşdirilməlidir. Bu mərhələni keçdikdən sonra bitkilər yeni şəraitə daha asan adaptasiya olurlar. Quru subtropik iqlimə malik olan Abşeron üçün bu daha çox xarakterikdir.

Kolleksiyada introduksiya olunmuş elə qiymətli sortlar vardır ki, onlara qulluq göstərilməsinə baxmayaraq zəif inkişaf edərək xəstəliklərə yoluxurlar, yay istilərinə və quraqlığa davam gətirə bilmirlər, nəticə etibarılə yeni iqlim şəraitinə uyğunlaşa bilməyərək quruyurlar. Bunları nəzərə alaraq introduksiya ilə yanaşı son illərdə Azərbaycanda dekorativ bitkilər üzrə ilk dəfə olaraq 2006-ci ildən başlayaraq seleksiya üsulu ilə istilərə və quraqlığa davamlı, bol və fasiləsiz çiçəkləyən müxtəlif çeşidli və rəngarəng çalarlı, eyni zamanda xəstəlik və ziyanvericilərə qarşı davamlı olan yerli qızılgül sortları yetişdirilməsinə başlanmışdır.

**Material və metodlar**

Qızılgüllərin introduksiyasında "cins kompleksi" metodundan, sortların dekorativliyinin qiymətləndirilməsində Abşeronun torpaq iqlim şəraitin nəzərə alınmaqla qəbul olunmuş metodlardan və Dövlət Sortsınaq Komitəsi tərəfindən hazırlanmış təlimatdan istifadə olunmuşdur [5,8,9,10].

Qızılgül sortlarının əkin materialı və qələmləri müxtəlif illərdə Moskva şəhəri Baş Botanika bağı, Nikita Botanika bağı, Belarusiya Botanika bağı, Rostov Botanika bağı, Özbəkistan Respublikasının Əndican vilayətinin gülçülük sovxozundan, Batumi Botanika bağı, Azərbaycanın Gəncə, Quba, Qusar, Qəbələ bölgəsindən, həmçinin həvəskar gülçülərdən əldə edilmişdir [1,3,7].

Mərkəzi Nəbatat Bağının kolleksiyasında hazırda qızılgülün 594 növ və sortları toplanmışdır. Hər il kolleksiyaya yeni sortlar əlavə olunur. Bunlar ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, Hollandiya, Rusiya və s. ölkələrin kultivarları olmaqla müxtəlif illərdə tərəfimizdən introduksiya olunmuşdur [2,4,11].

Qızılgül sortlarının introduksiyasında əsasən göz calağı, yaşıl və yarıodunlaşmış qələmlərlə çoxaltma üsullarından istifadə olunur. Göz calağı ilə çoxaltmada calaqaltı kimi Rosa canina, Rosa nisami və Rosa indika itburnu növlərindən istifadə edilir. Yaşıl qələmlə çoxaltma örtülü şəraitdə, xüsusi qurğularla çiləmə-suvarma üsulu ilə həyata keçirilir. Yarıodunlaşmış qələmlərlə çoxaltma payızın son aylarında kollar budanarkən tətbiq olunur. Bu üsullarla xüsusilə göz calağı ilə artırılmış əkin materialları yaxşı inkişaf etmiş kök sisteminə malik olmaqla quraqlığa, yayın qızmar istilərinə, xəstəlik və ziyanvericilərə qarşı davamlı olması, eyni zamanda uzun, hamar, oduncaqdan asan

aralanan qabığı olan kök boğazına malik olması ilə də digər itburnu növlərindən fərqlənirlər. Buda calaq işində əsas amillərdən sayılır [4,6].

Son illərdə calaqaltı olaraq xüsusilə seleksiya nəticəsində alınmış hibrid-toxmacarların çoxaldılmasında Rosa İndika növündən çox istifadə olunur və yaxşı nəticə əldə edilir.

Seleksiya tədqiqatlarında Abşeronun spesifik iqlim şəraiti nəzərə alınmaqla dünya ölkələri seleskiyaçıları tərəfindən qəbul olunmuş hibridləşdirmə və seçmə üsulundan istifadə olunmuşdur. Eyni zamanda qismən də digər seleskiya üsullarından – mutasiya, sərbəst tozlanmadan alınmış hibridlər, klon seleksiyası və s. istifadə olunmuşdur [11].

**Nəticələr və müzakirələr**

Mərkəzi Nəbatat Bağında introduksiya olunmuş və seleksiya üsulu ilə yetişdirilmiş çah-hibrid və floribunda bağ qruplarına mənsub olan qızılgül sortları arasında kompleks bioloji və təsərrüfat əhəmiyyətli göstəriciləri – gülünün, kolunun yüksək dekorativ keyfiyyətləri, uzun müddət fasiləsiz çiçəkləməsi, quraqlığa və xəstəliklərə davamlılığı ilə digərlərindən fərqlənən 120 qızılgül sortu müəyyən edilmişdir. Onlardan Abşeronun və Azərbaycanın digər sənaye mərkəzlərinin yaşıllaşdırılmasında, bəzək bağçılığında, həmçinin kəsim gülü kimi istixanalarda becərilməsi tövsiyə olunur.

Aşağıda yaşıllaşdırmada və bəzək bağçılığında istifadəsi, həmçinin açıq və örtülü şəraitdə becərilməsi tövsiyə edilən introduksiya olunmuş və seleksiya üsulu ilə yetişdirilmiş çay-hibrid və floribunda bağ qruplarına mənsub olan perspektivli 38 qızılgül sortunun botaniki, biomorfoloji və dekorativ xüsusiyyətləri təsvir olunur [12].



**Abşeron Simfoniyası F.** *"Gold Symphonie Patio x Pink Favorite HT."*. (A.T.İsgəndərov, O.O.Qafarova). Gülləri zərif çəhrayı rəngində, kasavarıdır, iridir (10 sm dm.), çoxləçəklidir (45–47 ləçək), az ətirlidir, tək-tək və çiçək qrupunda 3–12 sayda olur. Yarpaqları tünd-yaşıl, qalındərili, parlaqdır, enlidir. Kolları düzünə böyüyəndir (75–80 sm). Çiçəkləməsi boldur. Yaşıllaşdırmada və bəzək bağçılığında dekorativ bitki kimi, həmçinin örtülü şəraitdə kəsim gülü kimi əkilib becərilməsi tövsiyə olunur.



**Abşeron şıltaqlığı F.** *"Masquearade F. x Liverpool S."* (A.T.İsgəndərov, O.O.Qafarova). Gülləri əvvəl qızılı-sarı sonra çəhrayı və sonradan tünd-qırmızı rənglərə dönürlər, ortadır (7–8 sm dm.), yarımçoxləçəklidir (10–18 ləçək), çiçək qrupunda müxtəlif rənglərdə 10–25 sayda olur. Yarpaqları tünd-yaşıl, qalındərili, parlaqdır, enli - ellipsvari, uzunsovdur. Kolları hündür böyüyəndir (160–200 sm), şaxələnir. Çiçəkləməsi boldur, fasiləsizdir. Meyvə bağlayır. Yaşıllaşdırmada tək-tək və qrup şəklində əkilməsi tövsiyə olunur.



**Amber Queen F.** (Harkness, 1983). Gülləri kəhrəba rəngində, gözəl formada, iridir (7–8 sm), kasavarıdır, çoxləçəklidir (25–30 ləç.), çox ətirlidir, çiçək qrupunda 3-7 ədəd bəzən də çox olur, ilk açılan çiçəyi daha iri, ləçəklərinin sayı da çox olur. Yarpaqları çox iridir, əvvəlcə tunc rəngdə sonradan tünd-yaşıl rəngi alır, qalındərilidir, parlaqdır. Kolları 75–100 sm hündürlükdə, şaxələnəndir. Xəstəliklərə davamlıdır. Çiçəkləməsi boldur, erkəndir, fasiləsiz olaraq payızın son aylarına qədər davam edir. Yaşıllaşdırmada və bəzək bağçılığında geniş istifadə oluna bilər. Mərkəzi Nəbatat bağında 2014-ci ildə introduksiya olunub.



**Amora HT. (Kordes).** Gülləri tünd qırmızı-məxməri, ləçəklərinin əks tərəfindən sarı qarışıqlıdır, kasavarıdır (7–8 sm), çoxləçəklidir (34 ləç.), az ətirlidir, tək-təkdir. Yarpaqları yaşıldır, qalındərilidir, parlaqdır, yarpaqcıqları oval formadadır. Kolları orta ölçüdə (40–50 sm), düzünəböyüyəndir, yığcamdır, budaqları yaşıldır, tikansızdır, bəzən seyrək tikanları olur. Xəstəliklərə davamlıdır. Çiçəkləməsi boldur, aramsızdır. Yaşıllaşdırmada qrup şəklində, landşaft memarlığında və bordür kimi

geniş istifadə oluna bilər. Mərkəzi Nəbatat Bağında 2009-cu ildə introduksiya olunub.



**Artur Bell F.** (S.McGredy, 1965). Gülləri sarıdır, kasavarıdır, iridir (8–9 sm), yarımçoxləçəklidir (15–19 ləç), zəif ətirlidir, çiçək qrupunda 3–5 sayda olur. Yarpaqları tünd-yaşıldır, girdədir, az qırışıqlı, bir qədər coddur, parlaqdır, qalındərilidir. Kolları 90–100 sm hündürlükdə, düzünə böyüyəndir, budaqları yoğun və tıkanlıdır. Xəstəliklərə davamlıdır. Çiçəkləməsi erkəndir, payızın son aylarına qədər davam edir. Yaşıllaşdırmada tək-tək və qrup şəklində əkilməsi tövsiyə olunur. Mərkəzi Nəbatat Bağında 2012-ci ildə introduksiya olunub.



**Akademik Cəlal Əliyev HT.** “Freiheitsglocke HT. x Gold Crown HT.” (A.T.İsgəndərov, 2021). Gülləri mərcan rəngində, kasavarıdır, iridir (12–13 sm dm.), sıx çoxləçəklidir (75-80 ləçək), əsasən tək-təkdir, ətirlidir. Yarpaqları tünd-yaşıl, qalındərilidir, az parıltılı, iridir, ovaldır. Kolları 90–100 sm hündürlükdə, düzünə böyüyəndir, yığcamdır. Çiçəkləməsi boldur, fasiləsizdir. Park və xiyabanların yaşıllaşdırılmasında, həmçinin kəsim gülü kimi istixanada əkilib-becərilməsi tövsiyə olunur.



**Akademik Həsən Əliyev HT.** “Konfetti HT. x Pink Favorite HT.” (A.T.İsgəndərov, 2021). Gülləri moruq rəngində, kasavarıdır, iridir (9–10 sm dm.), sıx çoxləçəklidir (75–80 ləçək), əsasən tək-təkdir, az ətirlidir. Yarpaqları tünd-yaşıldır, parlaqdır, çox dekorativdir. Kolları 120–130 sm hündürlükdə, düzünə böyüyəndir, yığcamdır, bəzən

şaxələnir, tikanları seyrəkdir. Çiçəkləməsi boldur, fasilələrlədir. Yaşıllaşdırmada və bəzək bağçılığında istifadə edilməsi, həmçinin kəsim gülü kimi istixanada əkilib-becərilməsi tövsiyə olunur.



**Akademik Tofiq Nağıyev HT.** "Sarı Gelin HT. x Chrysler İmperial HT." (A.T.İsgəndərov). Gülləri tünd-qırmızı rəngdə qara məxməri çalarlıdır, qədəhvarıdır, iridir (10–12 sm dm.), çoxləçəklidir (34–36 ləçək), əsasən tək-təkdir, ətirlidir. Yarpaqları tünd-yaşıl rəngində, qalındərili və parlaqdır. Kolları 90–100 sm hündürlükdə, düzünə böyüyəndir, yığcamdır. Çiçəkləməsi boldur, fasilələrlədir. Yaşıllaşdırmada tək-tək və qrup şəklində, istixanada kəsim gülü kimi əkilib-becərilməsi tövsiyə olunur.



**Aysel HT.** "Lady Rose HT. x John Kennedy HT." (A.T.İsgəndərov, O.O.Qafarova). Gülləri krem rəngində olub yan ləçəklərinin kənarından koral rəngi ilə haşıyələnir, kasavarıdır, iridir (13 sm dm.), sıx çoxləçəklidir (80–85 ləçək), az ətirlidir, əsasən tək-təkdir. Yarpaqları tünd-yaşıldır, enli-lanset formasında itiucdur, parlaqdır, qalındərilidir. Kolları ortaboylu (70–80 sm), düzünə böyüyəndir, yığcamdır. Çiçəkləməsi boldur, fasiləsizdir. Yaşıllaşdırmada tək-tək, qrup şəklində əkilib-becərilməsi, istixanada kəsim gülü kimi istifadə olunması tövsiyə edilir.



**Frisco F.** (Kordes,1986). Gülləri yumurta sarısı rəngində, qədəhvarıdır, iridir (7–9 sm), çoxləçəklidir (30–45 ləçək), az ətirlidir, ləçəkləri büzmələnmiş formadadır, ləng açılır, tək-təkdir. Yarpaqları açıq-yaşıl rəngdə, boldur, orta ölçüdə, yarımparlaqdır. Kolları 50–60 sm hündürlükdə, yığcamdır. Unlu

şeh xəstəliyinə həssasdır. Yüksək aqrotexniki qulluq tələb edir. Çiçəkləməsi boldur, fasiləsizdir. Yaşıllaşdırmada qrup şəklində əkildikdə daha effektlidir. Mərkəzi Nəbatat Bağında 2009-cu ildə introduksiya olunub.



**Bianka HT.** (Kuhn, 1987) Qönçəsi ovaldır, iridir. Gülləri ağ rəngdə, qədəhvarıdır, iridir (9–10 sm dm.), sıxçoxləçəklidir (70–75 ləçək), tək-tək və qrup şəklindədir, çox ətirlidir. Yarpaqları tünd-yaşıl rəngdədir, parlaqdır, qalındərilidir, yarpaqcıqları ovaldır (5–3 sm), 5–7 ədəd olur. Budaqları nazik, yaşıl və xırda tikancıqlıdır. Kolları 70–80 sm hündürlükdə, düzünəböyüyəndir. Unlu şeh və qara ləkə xəstəliklərinə bir qədər həssasdır. Çiçəkləməsi boldur, fasiləsizdir. Yaşıllaşdırılmada və bəzək bağçılığında tək-tək və qrup şəklində əkilməsi, istixanada kəsim gülü kimi istifadə olunması tövsiyə edilir.



**Fantasia F.** (W.Kordes Söhne, 1977) Gülləri ikirənglidir, açıq-qırmızı rəngdə, ləçəklərinin arxasından çəhrayımtıl-sarı rəngdədir, az ətirlidir, çiçək qrupunda 3–5 ədəd olur, bəzən tək-təkdir, kəsavarıdır, iridir (8–9 sm dm.), çoxləçəklidir (40–45 ləçək), tək-tək və qrup şəklindədir. Yarpaqları tünd-yaşıl rəngdədir, parlaqdır, qalındərilidir, sağlamdır. Budaqda tikanları müxtəlif ölçülərdədir, çoxdur. Kolları 60 sm hündürlükdə, yığcamdır, kollaşandır. Xəstəliyə davamlıdır. Çiçəkləməsi boldur, fasiləsizdir. Yaşıllaşdırılmada və bəzək bağçılığında qrup əkinində, bordürdə və kəsim gülü kimi istixanada becərilməsi təklif olunur.



**General Kərim Kərimov HT.** “Ambassador HT. x Crepe de Chine HT.” (A.T.İsgəndərov). Gülləri əsasən çəhrayımtıl-mərcan rəngindədir, tam açıldıqda gülünün mərkəzində ləçəkləri sarımtıl-mərcan rəngini alırlar, kasavarıdır, iridir (10 sm dm.), çoxləçəklidir (58 ləçək), tək-təkdir, bəzən üçə qədər olurlar, az ətirlidir. Yarpaqları tünd-yaşıldır, qalındərili, parlaqdır, iridir, lansetvari formasındadırlar. Kolları 120–130 sm hündürlükdə, düzünə böyüyəndir. Çiçəkləməsi boldur, fasiləsizdir. Yaşıllaşdırmada tək-tək və qrup şəklində, istixanada kəsim gülü kimi əkilib-becərilməsi tövsiyə olunur.



**Hannah Gordon F.** (Kordes, 1983). Gülləri iki rənglidir, ləçəkləri ağ rəngdə olub kanarlarından tünd-qırmızıdır, kasavarıdır, iridir (9–10 sm), çoxləçəklidir (30 ləçək), az ətirlidir, çiçək qrupunda altıya qədər olur. Yarpaqları yaşıldır, qalındərilidir, çox parlaqdır, qızmar yay istilərində yarpaqların ucu yanıb-quruyur. Kolları 100 sm hündürlükdədir, şaxələnəndir. Xəstəliklərə davamlıdır. Çiçəkləməsi boldur və davamlıdır. Yaşıllaşdırmada qrup, bordür və ştamb forma kimi istifadəsi tövsiyə olunur. Mərkəzi Nəbatat Bağında 2011-ci ildə introduksiya olunub.



**İpək Yolu Ch.** “Virgo HT. x Michele Meilland HT.” (A.T.İsgəndərov, O.O.Qafarova). Gülləri krem rəngində olub açıq-çəhrayı çalarlıdır, kasavarıdır, iridir (10 sm dm.), çoxləçəklidir (48 ləçək), tək-təkdir, bəzən az saylı çiçək qrupundadır, ətirlidir. Yarpaqları enli-lanset formasında tünd-yaşıldır, qalındərili, parlaqdır. Kolları 100–120 sm hündürlükdə, düzünə böyüyəndir, bu-

daqlarda tikanları seyrəkdir. Çiçəkləməsi boldur. Yaşıllaşdırmada tək-tək və qrup şəklində, istixanada kəsim gülü kimi əkilib-becərilməsi tövsiyə olunur.



**Kerio HT.** (Lex+, Netherlands). Gülləri parlaq sarı rəngdə, qədəhvarıdır, iridir (10–12 sm), çoxləçəklidir (45 ləç), az ətirlidir, tək-təkdir. Yarpaqları tünd-yaşıldır, parlaqdır, qalındərilidir. Kolları 110-120 sm hündürlükdə, düzünəböyüyəndir, budaqları az tikanlıdır. Göbələk xəstəliklərinə davamlıdır. Çiçəkləməsi boldur, davamlıdır. Yaşıllaşdırmada tək-tək, qrup şəklində və kəsim gülü kimi əkilməsi məsləhət görülür. Mərkəzi Nəbatat Bağında 2015-ci ildə introduksiya olunub.



**Konfetti F.** (Tantao, 1991). Qönçəsi ortadır, ovaldır. Gülləri ikirənglidir, əsasən sarı ləçəklərinin kənarı qırmızıdır, iridir (10–12 sm dm.), çoxləçəklidir (35 ləçək), ətirlidir, çox saylı çiçək qrupunda toplanmış 5–10 sayda və bəzən tək-tək olur. Yarpaqları tünd-yaşıldır, qalındərili, tutqundur. Kolları 70–90 sm hündürlükdə, şaxlı-budaqlıdır. Çiçək oxu 40-70 sm. Çiçəkləməsi boldur. Orijinal ikirəngli gülü ilə digər sortlardan seçilir. Yaşıllaşdırılmasında və bəzək bağçılığında dekorativ bitki kimi, qruplaşmada, həmçinin örtülü şəraitdə kəsim məqsədi ilə və ştamb forma üçün becərilməsi məsləhət görülür.



**Köhnə Bakı F.** “Cyclamen F. x Gold Symphonie HT.” (A.T.İsgəndərov, O.O.Qafarova). Gülləri mərcan-çəhrayı rəngindədir, kasavari-şarşəkillidir (qədim gülləri xatırladır), ortadır (7 sm dm.), çoxləçəklidir (42 ləçək), tək-tək və çiçək qrupunda üçə qədər olur, az ətirlidir. Yarpaqları tünd-yaşıldır, az parıltılı,

nazik dərilidir, xırda ölçülü, oval formasındadırlar. Kolları alçaq boyludur (40–50 sm), şaxələnəndir, budaqları torpağa sərilirlər, tikanlıdır. Çiçəkləməsi boldur, fasiləsizdir. Yaşıllaşdırmada tək-tək və qrup şəklində, torpaqörtüyü kolu kimi istifadəsi tövsiyə olunur.



**Leonidas HT.** (Meilland, 1995). Gülləri ikirənglidir – yarım kölgədə ləçəkləri üstdən dolğun alqırmızı, əks tərəfindən qızılı-sarımtıldır, işiqlıqda isə alqırmızı rəng qəhvəyi-kərpic rənginə keçir, çox orijinaldır, kasavarıdır, iridir (8–10 sm), çoxləçəklidir (25 ləç), zəif ətirlidir, tək-təkdir. Yarpaqları tünd-yaşıldır, iridir, parlaqdır. Kolları 100 sm hündürlükdə, düzünə böyüyəndir, budaqları möhkəmdir. Xəstəliklərə davamlıdır. Çiçəkləməsi boldur, payızın son aylarına qədər təkrar olunur. Yaşıllaşdırmada dekorativ kol kimi, istixanalarda kəsim gülü kimi becərilməsi tövsiyə olunur. Mərkəzi Nəbatat Bağında 2012-ci ildə introduksiya olunub.



**Leonardo da Vinci F.** (Meillend, 1993) Açılmamış qönçəsi dolğun moruq, açildıqda cəhrayımtıl-moruq rənginə qədər dəyişir. Gülləri dolğun, cəhrayı-moruğu rəngdə, sıxləçəklidir (75–70 ləçək), iridir (7–10 sm dm.), qədəhvarıdır, az ətirlidir, Yarpaqları tünd-yaşıldır, qalındərilidir, parlaqdır. Kolları sıxdır, şaxələnəndir, düzünə böyüyəndir 60–120 sm Çiçəkləməsi erkəndir, may ayının əvvəllərindən başlayıb qısa fasilələr verməklə payızın son aylarına qədər davam edir. Xəstəliklərə davamlıdır. Yaşıllaşdırılmada və bəzək bağçılığında dekorativ bitki kimi, həmçinin örtülü şəraitdə kəsiş gülü kimi əkilib becərilməsi tövsiyə olunur.

**Lilli Marlene F.** (Kordes, 1959). Qönçəsi ovaldır. Gülləri tünd qırmızı, məxməridir, ləçəkləri arxadan qaramtıllıq əlamətinə malikdir, dayanaqlıdır, kasaşəkillidir, 8–9 sm diametrində iridir, çoxləçəklidir (25–30 ləç.), zəif ətirlidir, 5–9 ədəd çiçək qrupunda birləşmişdir. Yarpaqları orta böyüklükdə, tünd-yaşıldır, dərilidir, cavan yarpaqları qırmızıltıl-tunc rənglidir. Kolları ortairilikdədir (70–80 sm), enli, sıx və qollududaqlıdır. Budaqları nazik lakin möhkəmdir. Çiçəkləməsi boldur, Xəstəlik və ziyanvericilərə qarşı davamlıdır. Qruplaşmada və tək-tək əkilmək üçün yararlıdır.



**Liverpool F.** (Mc Gredy, 1974) Qönçəsi uzadılmış formadadır. Gülləri zərif-cəhrayı-losos rəngində, gözəl qədəh formasındadır, iridir (7–9 sm dm.), yarımçoxləçəklidir (12–19 ləçək), zəif ətirlidir, az sayda çiçək qrupundadır. Yarpaqları açıq-yaşıl rəngdədir, parlaqdır, qalındərilidir. Kolları 150 sm hündürlükdə, düzünəböyüyəndir, sıxdır, yaxşı yarpaqlanandır. Xəstəlik və ziyanvericilərə qarşı çox davamlıdır. Çiçəkləməsi boldur, fasiləsizdir. Meyvə bağlayır. Yaşıllaşdırılmada və bəzək bağçılığında tək-tək və qrup əkini üçün çox yararlıdır.



**Lomonosov HT.** (Meilland, 2010). Qönçəsi ovaldır, iridir. Gülləri saf ağ rəngdədir, iridir (13–14 sm dm), kasavırıdır, sıxçoxləçəklidir (90–100 ləçək), çox ətirlidir, çox yaxşı kəsim sortudur. Yarpaqları çoxdur, tünd-yaşıldır, parlaqdır, sağlamdır. Kolları 90–100 sm hündürlükdə, 70–80 sm enindədir. Xəstəliklərə əsasən də unlu şeh və qara ləkəyə çox davamlıdır. Çiçək-



ləməsi boldur, fasiləsizdir. Yaşıllaşdırmada və kəsim gülü kimi istixanalarda əkilib becərilməsi tövsiyə olunur.



**Mambo HT.** (Tantau, 1971). Qönçəsi yumurtayabənzərdir, itiucdur. Gülləri zərif çəhrayı, mərkəzindən sarımtıldır, dayanıqlıdır, qədəhəbənzərdir, iridir (8-9 sm), çoxləçəklidir (24-30 ləç.), zəif ətirlidir, qısa saplaqda 3-5 ədəd çiçək qrupunda, çox vaxt tək-tək olur. Yarpaqları boldur, tünd-yaşıldır, qalındərilidir, möhkəmdir. Gülü bol olur. Şaxtaya davamlıdır, quraqlığı yaxşı keçirir. Xəstəliyə davamlıdır. Birtərkibli qruplaşmada, bardürdə əkilməsi tövsiyə olunur.



**Mechta F.** (З.К.Клименко, 2005). Gülləri dolğun çəhrayı, əks tərəfindən qızılı-sarıdır, kasavarıdır, iridir (13 sm), çoxləçəklidir (46 ləç), ətirlidir, tək-təkdir və çiçək qrupunda yeddiyə qədər olur. Yarpaqları tünd-yaşıldır, parlaqdır. Kolları 50 sm hündürlükdə, yığcamdır. Xəstəliklərə davamlıdır. Çiçəkləməsi erkəndır, boldur və davamlıdır (may ayının əvvəllərindən başlayıb dekabra qədər). Qruplaşmada, ştamb və kəsim üçün istixanada becərilməsi tövsiyə olunur. Mərkəzi Nəbatat Bağında 2011-ci ildə introduksiya olunub.



**Nigrette HT.** (Krause, 1934). Qönçəsi ovaldır, ortadır. Gülləri qara-qırmızı rəngdə olub şabalıd rənginə qədər dəyişir, ortadır (7 sm dm), kasavırıdır, çoxləçəklidir (30–35 ləçək), çox ətirlidir. Yarpaqları tünd-yaşıldır, parlaqdır, sağlamdır. Budaqları nazikdir, tikanları çoxdur, xırdadır. Kolları güclüböyüyəndir 80–90 sm hündürlükdədir. Göbələk xəstəliklərə həssasdır. Çiçəkləməsi çox boldur. Yaşıllaşdırmada tək-tək və qrup halında əkilməsi tövsiyə olunur



**Nordia F.** (Poulsen, 1967). Qönçəsi girdədir. Gülləri qırmızı rəngdə olub kasa formasındadır, orta ölçüdədir (6–8 sm), çoxləçəklidir (35–40 ləç.), zəif ətirlidir, çiçək qrupunda 15-25 ədəddir. Yarpaqları tünd-yaşıl, parıltılı, qalındərilidir. Kolları 80–90 sm hündürlükdə sıx kollaşandır, budaqları möhkəm və çoxtikanlıdır. Çiçəkləməsi bol və fasiləsizdir, mayın ortalarından başlayaraq payızın axırlarına kimi davam edir. Xəstəliyə və ziyanvericilərə qarşı davamlıdır. Dekorativ formalaşdırmada yaşıl haşiyə kimi eləcədə birtərkibli və çox tərkibli əkində istifadə oluna bilər.



**Qara gilə HT.** "Folklore HT. x Nigrette HT." (A.T.İsgəndərov, O.O.Qafarova, 2012). Gülləri tünd-qırmızı məxməri rəngdə, mərkəzində qara çalarlıdır, kasavarıdır, iridir (10 sm dm.), çoxləçəklidir (48–52 ləçək), ətirlidir, əsasən tək-tək bəzən 2–3 sayda olur. Yarpaqları tünd-yaşıldır, nazik dərilidir, tutqundur, oval formada, iridir. Kolları 100–120 sm hündürlükdə, şaxələnəndir, budaqları nazikdir, tikanları tək-tək, seyrəkdir. Çiçəkləməsi ortadır, fasilələrlədir. Yaşıllaşdırmada və bəzək bağçılığında dekorativ bitki kimi, əkilib-becərilməsi tövsiyə olunur.



**Peace HT.** (F. Meilland, 1945). Qönçəsi iridir. Gülləri sarı rəngdən qızılı-sarı rəngə qədər dəyişir, ləçəklərinin kənarından çəhrayımtıldır, gözəl formadadır, çox iridir (15 sm dm) çoxləçəklidir (40–45 ləçək), az ətirlidir, kasavarıdır. Yarpaqları iridir, tünd-yaşıldır, parlaqdır, qalındərilidir. Budaqları qalındır, möhkəmdir, tikanları iridir. Kolları çox güclü böyüyəndir (100–120 sm), düzünədir. Xəstəliklərə çox davamlıdır. Çiçəkləməsi çox boldur, fasiləsizdir.

Quraqlığa, şaxtaya davamlıdır. Yaşıllaşdırmada və bəzək bağçılığında, kəsim gülü kimi istixanalarda becərilməsi və ştamb üçün yararlıdır.



**Princesse de Monaco HT.** (Meilland, 1982). Gülləri mərkəzindən ağ-krem rəngində olub ləçəklərin kanarından isə çəhrayı haşiyəlidir, qədəhvarıdır, iridir (12–13 sm), sıxçoxləçəklidir (70–80 ləç), ətirlidir, tək-təkdir. Yarpaqları tünd-yaşıldır, parlaqdır, iridir, qalındərilidir, sıxdır. Kolları 90–110 sm hündürlükdə, düzünəböyüyəndir, şaxələnəndir. Quraqlığa, qızmar istilərə, həmçinin xəstəliklərə çox davamlı sortdur. Çiçəkləməsi boldur, fasiləsizdir. Kəsim gülü kimi istixanalarda, dekorativ kol kimi yaşıllaşdırmada geniş istifadə edilməlidir. Mərkəzi Nəbatat Bağında 2012-ci ildə introduksiya olunub.



**Pestraya Fantaziya HT.** (K.İ.Zıkov, Z.K.Klimenko, 1977). Gülləri ala-bəzəkdir, qırmızı-moruğu rəngində, qızılı-sarı cizgilərə malikdir və ləçəklərinin arxasından qızılı-sarı rəngdədir, çox iridir (10–12 sm dm.), çoxləçəklidir, ətirlidir, tək-tək və iri çiçək qrupunda toplanıb 6–8 sayda. Kolları hündürdür 100–120 sm, hündürlükdə, 70–80 sm enindədir. Çiçəkləməsi çox boldur, uzun müddətlidir, təkrarlanır. Unlu şeh xəstəliyinə çox davamlıdır. Qrup halında, tək-tək əkilməsi, kəsim üçün istixanada becərilməsi təklif olunur.

**Professor Lütfi Zadə HT.** "Swan Lake LCl. x Enric Palau HT." (A.T.İsgəndərov, 2021). Gülləri gümüşü-çəhrayı rəngli bənövşəyi çalarlıdır, kasa-varıdır, iridir (10 sm dm.), çoxləçəklidir (42 ləçək), ətirlidir, tək-təkdir və az saylı (3–5) çiçək qrupunda olur. Yarpaqları iridir, tünd-yaşıldır, az parlaqdır, qalındərilidir. Kolları orta hündürlükdə 65–80 sm, yığcamdır, düzünə böyüyəndir, seyrək tikanlıdır. Çiçəkləməsi boldur, fasiləsizdir. Yaşıllaşdırmada tək-tək və qrup şəklində, istixanada kəsim gülü kimi əkilib-becərilməsi tövsiyə olunur.



**Red İntuition HT.** (Delbard, 1999). Gülləri qırmızı rəngdə olub tünd-qırmızı zolaqlara və xallara malikdir, qədəhvarıdır, yüksək mərkəzlidir, iridir (11–12 sm), çoxləçəklidir (40–45 ləç), az ətirlidir, təktəkdir. Yarpaqları tünd-yaşıldır, yarımparlaqdır, qalındərilidir. Kolları 100–120 sm hündürlükdə, düzünəböyüyəndir. Xəstəliklərə, quraqlığa, qızmar istilərə davamlı sortdur. Çiçəkləməsi boldur, may ayının axırlarından başlayıb payızın sonuna kimi davam edir. Yaşıllaşdırmada tək-tək və qrup şəklində əkilməsi, kəsim gülü kimi istixanalarda becərilməsi tövsiyə olunur.



**Rosalinde F. (Krause, 1944).** Qönçəsi iridir itiucdur. Gülləri saf çəhrayı rəngdə, kəsavarıdır, iridir (8–9 sm dm.), çoxləçəklidir (42–48 ləçək), ətirlidir, çiçək qrupunda 3–19-a qədər olur. Yarpaqları orta ölçüdə, tünd-yaşıl rəngdə, qalındərilidir, az parıltılıdır, sağlamdır. Kolları hündürdür 80–90 sm, düzünə böyüyür, kollaşır. Xəstəliklərə davamlıdır. Çiçəkləməsi boldur. Quraqlığa və istilərə davamlıdır. Yaşıllaşdırmada qrup halında əkilir, kəsim üçün yararlıdır.





**Tropical Sunset HT**. (McGredy, 1995). Gülləri qarışıq rənglidir – sarı, narıncı-qırmızı, açıq-sarı zolaqlıdır, kasavarıdır, iridir (11–12 sm), çoxləçəklidir (38–40 ləç), ətirlidir, əsasən tək-təkdir. Yarpaqları açıq-yaşıldır, parlaqdır, qalındərilidir. Kolları 90–100 sm düzünəböyüyəndir, tikanları iridir. Xəstəliklərə, quraqlığa, qızmar istilərə davamlı sortdur. Çiçəkləməsi boldur, davamlıdır. Yaşıllaşdırmada tək-tək və qrup şəklində əkilməsi, həmçinin kəsim gülü kimi istixanalarda becərilməsi tövsiyə olunur. Mərkəzi Nəbatat Bağında 2013-cü ildə introduksiya olunub.



**Sneewittchen F.** (R. Kordes, 1958). Qönçəsi uzundur, itiucdur. Gülləri tamamilə ağdır, iridir (7–8 sm), çoxləçəklidir (25–30 ləç.), ətirlidir, çiçək qrupunda 3–8 cüt olur. Yarpaqları açıq-yaşıldır, parlaqdır. Kolları güclü-böyüyür (65–80 sm), sıxdır, zəif şaxələnəndir. Çiçəkləməsi olduqca boldur, qışadavamlıdır. Payızın axır aylarına kimi fasiləsiz çiçəkləyir. Xəstəliklərə qarşı çox davamlıdır. Yaşıllaşdırmada qrup halında geniş istifadə oluna bilər. Yaşıl və yarımodunlaşmış qələmlə asan artırılır.



**Şərqin Səhəri F.** "Masquerade F. x Liverpool F." (A.T.İsgəndərov, O.O.Qafarova, 2012). Gülləri krem rəngində olub, ləçəkləri açıldıqca zərif çəhrayı rəngini alırlar, kasavarıdır, iridir (8–10 sm dm.), çoxləçəklidir (40 ləçək), çiçək qrupunda 15–28 sayda. Yarpaqları yaşıldır, parlaqdır, oval şəklində, iridir, itiucdur. Kolları orta hündürlükdə (80–90 sm), yığcamdır, tikanlıdır. Çiçəkləməsi çox boldur. Yaşıllaşdırmada, landşaft memarlığında tək-tək və qrup şəklində əkilib-becərilməsi tövsiyə olunur.

**Ulduzlu Xəzər F.** “Masquerade F. x Liverpool F.” (A.T.İsgəndərov, O.O.Qafarova, 2012). Gülləri bənövşəyi-çəhrayı rəngində, orta ölçüdədir (7–9 sm dm.), kasavarıdır, yarımçoxləçəklidir (14–18 ləçək), çiçək qrupunda 3–12 sayda, bəzən tək-tək olurlar, az ətirlidir. Yarpaqları açıq yaşıldır, qalındərili, parlaqdır. Kolları orta hündürlükdə (50–60 sm), şaxələnəndir və torpağa səriləndir, budaqlarda tikanları seyrəkdir. Çiçəkləməsi boldur. Yaşıllaşdırmada qrup şəklində, landşaft memarlığında, bordür kimi əkilib-becərilməsi tövsiyə olunur.



**Ədəbiyyat:**


1. İsgəndərov, A.T. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağında dekorativ qızılgüllərin kolleksiyası genofondu (1970-2016) / A.T.İsgəndərov, O.O.Qafarova, A.M.Hüseynova [və b.] AMEA Mərkəzi Nəbatat Bağının Elmi Əsərləri, XIV, Bakı: – 2016. – s. 62-71
2. İsgəndərov, A.T. Mərkəzi Nəbatat Bağında qızılgüllərin introduksiyasının yekunu (1970-2017) və seleksiya tədqiqatları / A.T.İsgəndərov, O.O.Qafarova // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Biologiya və Tibb elmləri – 2018. 73 cild, № 1,– s. 48-56
3. İsgəndərov, A.T. Mərkəzi Nəbatat Bağinda Dekorativ Qizilgüllərin İntroduksiyasina Dair 10 İllik Tədqiqat İşlərinin Nəticələri (2009-2018) / A.T.İsgəndərov, O.O.Qafarova, A.M.Hüseynova [və b.] AMEA Mərkəzi Nəbatat Bağının Elmi Əsərləri, XVI cild, 2018, s. 82-89
4. İsgəndərov, A.T. Abşeron şəraitində perspektivli qızılgüllərin becərilmə təcrübələri /A.T.İsgəndərov, O.O.Qafarova, A.M.Hüseynova [və b.]. AMEA Mərkəzi Nəbatat Bağının əsərləri, 2019, XVII cild, s.79-85
5. Былов, В.Н. Основы сравнительной сортооценки декоративных растений // Интродукция и селекция цветочно-декоративных растений. Москва: Наука, – 1978. – с. 7-32.
6. Искендеров А.Т. Изучение и подбор подвоев для разных групп роз из видов шиповников, интродуцированных на Апшероне// Известия АН Азерб.ССР, сер.биол.наук, 1986, №2, стр. 31-38.
7. Кафарова, О.О., Клименко, З.К. Об интродукции и селекции роз флорибунда в условиях Апшерона // Сборник научных трудов ГНБС, Ялта, 2014. – Т.136, – С. 157-163.
8. Клименко, В.Н. Методика первичного сортоизучения садовых роз / В.Н.Клименко. –Ялта: –1971. – 20 с.
9. Методика государственного сортоизучения сельскохозяйственных культур. (Вып.6: декоративные культуры). – М. Колос, 1968. 224с.
10. Русанов, Ф.Н. Метод родовых комплексов в интродукции растений и его дальнейшее развитие // – Москва: Бюлл. ГБС АН СССР, – 1956. № 7, с. 31-36.
11. Сааков, С.Г. О направлении работ в селекции роз // Опыт выращивания роз. – Москва: Колос, – 1965. – с.78-86.
12. Modern Roses 12. Shreveport: The American Roses Society. – 2007. – 576 p.

## ABSTRACT

## EVALUATION OF THE PROSPECTS OF HYBRID TEA AND FLORIBUNDA ROSE VARIETIES OF GARDEN GROUPS BASED ON THE ANALYSIS OF THE RESULTS OF INTRODUCTION AND SELECTION IN THE CENTRAL BOTANICAL GARDEN

**Gafarova O.O.**

*Head of the Laboratory "Introduction and Selection of Ornamental Plants" of the Central Botanical Garden, Specialty "Botany", Ph.D., Associate Professor*

**Isgandarov A.T.**

*Associate Professor of the Department "Biomorphology and Phytointroduction" of the Institute of Botany of the Ministry of Science and Education of the Republic of Azerbaijan, Specialty "Botany", Ph.D.*

Of the varieties of roses introduced in the Central Botanical Garden and grown by the selection method, 120 varieties with complex biological and economic indicators belonging to the tea-hybrid and floribunda garden groups have been identified. The article presents the botanical, biomorphological, and decorative properties of 38 promising varieties of roses recommended for use in landscaping and ornamental horticulture and for growing in open and closed conditions.

***Keywords:*** *introduction, selection, collection, roses, hybrid tea, floribunda*

## РЕЗЮМЕ

## ИНТРОДУЦИРОВАННЫЕ И ПОЛУЧЕННЫЕ ПУТЕМ СЕЛЕКЦИИ НЕКОТОРЫЕ ПЕРСПЕКТИВНЫЕ СОРТА РОЗ

**Кафарова О.О.**

*Заведующая лабораторией «Интродукция и селекция декоративных растений» Центрального Ботанического сада, к.б.н., доцент*

**Искендеров А.Т.**

*Ведущий научный сотрудник отдела «Биоморфология и фитоинтродукция» Института Ботаники Министерства Науки и Образования АР, к.б.н., доцент*

Из интродуцированных в Центральном ботаническом саду сортов роз и выращенных селекционным методом выделены 120 сортов с комплексными биологическими и хозяйственными показателями относящихся к чайно-гибридной и флорибунда садовым группам. В статье приведены ботанические, биоморфологические и декоративные свойства 38 перспективных сортов роз, рекомендованных для использования в озеленении и декоративном садоводстве, а также для выращивания в открытых и закрытых условиях.

***Ключевые слова:*** *интродукция, селекция, коллекция, розы, чайно-гибридные, флорибунда*

*Elmi jurnalın Rəqəmsal Obyekt İdentifikatorları (DOI)*
*"Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi" İB-yi*
*tərəfindən təmin edilir.*

İNSAN VƏ BİOSFER
*(MaB, UNESCO)*
**Azərbaycan milli komitəsinin əsərləri**
Bakı, «Təhsil», 2022.

Çapa imzalanmışdır 24.11.2023. Kağız formatı 70x100 1/16.
Fiziki çap vərəqi 16,0. Sifariş 185. Tiraj 500.
**“Təhsil Nəşriyyat-Poliqrafiya” MMC**-nin
mətbəəsində hazır diapozitivlərdən çap edilmişdir.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 149
Tel.: (+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
E-mail: tahsil_az@yahoo.com